# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal
Xüsusi buraxılış

# IAP BAKU 2024





**Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Talıb Cəfərov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

***Elmi-praktiki jurnalın 3-cü nömrəsi***

***İyul - Sentyabr (2024-cü il, Xüsusi buraxılış)***

“Media haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 14.11.2024
60x84 1/8 formatda 270 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2024

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Astanada Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Pakistanın Baş naziri arasında üçtərəfli görüş keçirilib
**7** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astana şəhərində Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub
**9** Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü keçirilib
**13** Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edib
**16** "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub
**18** Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsi imzalanıb
**27** Prezident İlham Əliyevin Pakistana dövlət səfəri çərçivəsində mühüm görüşlər keçirilib və rəsmi sənədlər imzalanıb
**33** Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak edib
**36** Prezident İlham Əliyev Oksfordda Almaniyanın Kansleri Olaf Şolts ilə görüşüb
**38** Prezident İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub
**40** Dövlətimizin başçısı Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini təltif edib
**44** Rusiya Prezidenti Vladimir Putin Azərbaycanda dövlət səfərində olub
**48** Daşkənddə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib
**56** Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər
**57** Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub
**58** Prezident İlham Əliyev Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib
**65** Dövlət başçısı yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edib
**73** Prezident İlham Əliyevin yanında iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib


## AZƏRBAYCAN PROKURORLUĞU – 106


**76** Baş prokuror Şəki rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimində iştirak edib
**78** Nərimanov rayon prokurorluğunun yeni inzibati binasının açılışı olub
**80** Prokurorluq əməkdaşları ağacəkmə kampaniyası keçirib
**81** Baş Prokurorluqda şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və vətən müharibəsində iştirak edən prokurorluq işçiləri ilə görüş keçirilib
**83** Beynəlxalq konfransda 1 oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü qeyd olunub
**85** Prokurorluq orqanlarında könüllü qanvermə aksiyası keçirilib
**86** Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət edib
**87** Baş Prokurorluqda ekoloji hüquqpozmalarla mübarizəyə həsr olunan interaktiv yarış keçirilib
**89** Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş mərasim keçirilib 2024.09.26
**91** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları şəhid ailələrini ziyarət ediblər
**92** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**93** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirilib
**94** Şəki rayon prokurorluğunda "Açıq qapı günü" təşkil edilib


## IAP BAKU – 2024


**97** Azərbaycan Respublikası Prezidentinin müraciəti
**98** Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi Roel Dona və İcraçı direktoru Yanne Holst Hübner ölkəmizə işgüzar səfər edib
**99** Baş prokuror Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti ilə görüşüb
**101** Bakı şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası keçirilib
**103** Baş prokuror Monqolustanın Baş prokuroru cənab Jarqalsaikxan Banzraqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**105** Baş prokuror Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib
**106** Baş prokuror Özbəkistan Respublikasının Baş prokurorunun müavini Şerzod Tuxtaboyevi qəbul edib
**107** Baş prokuror Kamran Əliyev Oman Sultanlığının Baş prokuroru Nasr Khamis Al Sawaiinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**108** Baş prokuror Bruney-Darüssalamın Baş Prokuroru xanım Nor Hashimah Binti Haji Mohammed Taibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**109** Baş prokuror Kamran Əliyev Efiopiya Federativ Demokratik Respublikasının Ədliyyə Nazirliyinin Dövlət naziri Tesfaye Wakjiranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**110** Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimi keçirilib
**112** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kral Prokurorluq Xidmətinin rəhbəri Stifen Parkinson ölkəmizdə işgüzar səfərdə olub
**113** Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**114** Baş prokuror Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl-Mucibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**116** Baş prokuror Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini Jianming Tongun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**117** Baş prokuror Kamran Əliyev Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskienenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**118** Baş prokuror Kamran Əliyev Yəmən Respublikasının Baş prokuroru Qaher İbrahimin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**119** Baş prokuror Rumıniyanın Yüksək Kassasiya və Ədalət Məhkəməsinin Baş prokuroru Aleks Florantanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**120** Xorvatiya Respublikasının Baş prokuroru İvan Turudiçin Bakıda olub
**121** Baş prokuror Albaniya Respublikasının Baş prokuroru Olsian Çelanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**122** Baş prokuror Qətər Dövlətinin Baş prokurorunun müavini Məhəmməd Əl-Binəlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**123** Baş prokuror Kamran Əliyev İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri ilə görüşüb
**124** Baş prokuror Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**125** Baş prokuror Kamran Əliyev Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbəri Daşdavaa Zandraanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**126** Baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikasının Baş prokurorun müavini Paulo Buqarinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**127** Baş prokuror Kamran Əliyev Nepal Federativ Demokratik Respublikasının Baş prokuroru Ramesh Badalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**128** Kamran Əliyev Qazaxıstan Respublikasının Baş prokurorunun birinci müavini Timur Taşınbayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**129** Kamran Əliyev Sinqapur Respublikasının Baş Prokuroru Lüsyen Vongla görüşüb
**130** Baş prokuror Kamran Əliyev Çili Respublikasının Baş prokuroru Angel Maurisio Valensia Vasquezin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb
**131** Paytaxtımızda keçirilən beynəlxalq konfrans uğurla başa çatıb
**133** Baş Prokurorluqda Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib
**135** İndoneziya Baş prokurorunun müavininin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub
**136** Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə tanış olub
**137** Baş Prokurorluqda Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainin rəhbərlik etdiyi nümayəndə heyəti görüş keçirilib
**138** Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakıda keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağının iştirakçıları Qəbələ şəhərinə səfər edib

# MÜNDƏRİCAT

## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**139** Baş prokurorun müavini Heydər Məmmədovun müsahibəsi
**146** Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Argentina Respublikası Baş prokurorunun müsahibəsi
**147** Mavriki Respublikası Prokurorluq xidmətinin rəhbəri, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvünün müsahibəsi
**148** Efiopiya Federativ Demokratik Respublikası Ədliyyə Nazirliyinin Dövlət nazirinin müsahibəsi
**149** Braziliya Federativ Respublikası Baş prokurorunun müavininin müsahibəsi
**150** Estoniya Respublikası Baş prokurorunun müsahibəsi
**151** Şərqi Timor Respublikası Baş prokurorunun müsahibəsi
**152** İrlandiya Respublikası Dövlət ittihamının müdafiəsi üzrə idarə rəhbərinin müsahibəsi
**153** Çili Respublikası Milli Prokurorlar Assosiasiyasının Akademik işlər və beynəlxalq əlaqələr departament direktorunun müsahibəsi
**154** ABŞ Milli Baş Prokurorlar Assosiasiyasının sədri, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvünün müsahibəsi


## PROKURORLUQDA


**156** Baş prokuror İraqın Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə görüşüb
**157** Baş prokuror Kamran Əliyev Avstriyaya işgüzar səfər edib
**159** Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2024-cü ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" Geniş Kollegiya iclası keçirilib
**163** Baş prokuror Kamran Əliyev Bişkek şəhərində baş tutmuş Şanxay Əməkdaşlıq Təşkilatının baş prokurorlarının konfransında iştirak edib
**166** Baş prokuror Kamran Əliyevin iştirakı ilə Türk Dövlətlərin Baş Prokurorlar Şurasının üçüncü iclası keçirilib
**167** Baş prokuror Türkiyənin Konstitusiya Məhkəməsinin sədri ilə görüşüb
**169** Naxçıvan şəhərində "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans keçirilib
**172** Şəkidə "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması" mövzusunda elmi-praktiki konfrans keçirilib
**174** Baş prokuror Rusiya Federasiyasında keçirilmiş Şərq İqtisadi Forumunda çıxış edib
**177** Baş prokuror Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşüb
**178** Baş Prokurorluğun rəhbər heyəti Zəfər Parkında olub
**179** Baş prokurorun yerlərdə qəbulları
**186** Azərbaycan Respublikasının Baş Prokurorluğu, Mədəniyyət Nazirliyi və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin birgə təşkilatçılığı ilə tədbir keçirilib
**187** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Fövqəladə Hallar Nazirliyinin Akademiyası arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb
**188** Naxçıvan Dövlət Universiteti ECOLEAD layihəsinə qoşulub
**189** Baş Prokurorluqda uşaq hüquqlarına dair təlim keçirilib
**190** ECOLEAD layihəsi uğurla icra olunur
**191** Prokurorluq və polis işçiləri üçün birgə seminar məşğələlər keçirilib
**193** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib
**195** Hərbi Prokurorluq Daxili Qoşunlarla birlikdə Lənkəran şəhərində tədbir keçirib
**196** Hərbi Prokurorluqla Hərbi İnstitutun birgə keçirdiyi tədbirdə ekoloji qanun pozuntularından danışılıb
**197** Xankəndidə Hərbi Prokurorluğun əməkdaşları Ulu Öndərin xatirəsini anıblar
**198** "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluq hərbçilərlə birlikdə Yevlaxda tədbir keçirib
**199** Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib
**201** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Şəkidə birgə tədbir keçirib
**202** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Zaqatalada birgə tədbir keçiriblər
**203** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Zəngilanda birgə tədbir keçirib
**204** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti ətraf mühitin mühafizəsi ilə bağlı birgə tədbir keçiriblər
**205** Hərbi Prokurorluq və Daxili Qoşunlar Ağstafa rayonunda birgə tədbir keçiriblər
**206** Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin birgə maarifləndirmə tədbiri keçirilib
**207** Hərbi Prokurorluq Dövlət Sərhəd Xidməti ilə birlikdə Qazax rayonunda tədbir keçirib
**208** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən yerli icra hakimiyyəti orqanlarında hərbi vətənpərvərliyə həsr olunmuş tədbirlər
**210** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun tabe prokurorluqlarında insan hüquqlarının müdafiəsi mövzusunda seminarlar keçirilib
**212** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında 2024-cü ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat iclası keçirilib
**215** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən məişət zorakılığının qarşısının alınması mövzusunda tədbir keçirilib
**217** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları tərəfindən Etik Davranış Kodeksinin tələbləri öyrənilib
**218** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizə mövzusunda tədbir keçirilib
**220** Bakı şəhər prokurorluğunun 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib
**223** Şəkidə "Yaşıl dünya üçün hüquqi yeniliklər" adlı seminar keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**224** Tacikistan prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfər edib
**225** Baş prokurorun birinci müavini Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyasını qəbul edib
**226** Beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir
**227** Baş prokurorun birinci müavini ATƏT-in Müşahidə Missiyası ilə görüşüb
**228** Baş Prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olub
**230** Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib
**230** Baş Prokurorluğun əməkdaşları Moskva şəhərində təlimdə iştirak edib
**231** BMT-nin GlobE şəbəkəsinin növbəti illik tədbirinə ev sahibliyi Azərbaycana həvalə olundu


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**232** Mətbuat xidmətinin məlumatları
**238** *Xanım Əşrəfova* – Prokurorluq orqanları dövlətçilik maraqlarında
**241** *Cahid Qurbanlı* – Prokurorluğun fəaliyyət sahələrində nailiyyətlər
**244** *Firad Əliyev* – Yaşa, Azərbaycan Prokurorluğu


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**245** *Faiq Səfərov* – Araz çayının çirkləndirilməsinin qarşısının alınmasında beynəlxalq hüququn rolu
**248** *Mayıl Bayramov, Mətanət Əsgərova* – Cinayət tətbiqi üzrə qiyabi icraatın tətbiqi məsələləri


## PROKURORLUĞUN VETERANLARI


**253** Baş Prokurorluğun təqaüdə çıxmış əməkdaşlarına Baş prokuror tərəfindən verilmiş Fəxri fərman və hədiyyə təqdim edilib
**254** Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun əməkdaşları ilə görüş keçirilib
**255** Baş Prokurorluğun təqaüdə çıxmış əməkdaşlarına Baş prokuror tərəfindən verilmiş "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri fərmanlar və hədiyyələr təqdim edilib
**257** Yaş həddi ilə bağlı qulluq keçməsinə xitam verilmiş prokurorluq əməkdaşı döş nişanı ilə təltif olunub
**258** Prokurorluğun veteranlarının gənc hüquqşünaslarla görüşü keçirilib


## HÜQUQİ AKTLAR


**259** Qanunvericiliyə dəyişikliklər

# Astanada Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Pakistanın Baş naziri arasında üçtərəfli görüş keçirilib



İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş olub.

Söhbət zamanı Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli formatda Zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanaraq, onun tarixi əhəmiyyəti qeyd olundu və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edildi.



Azərbaycan, Türkiyə və Pakistanın tarixi-dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olduğu xüsusi vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyi qeyd olundu və bunun gələcəkdə də davam etdirilməsinin vacibliyi bildirildi.

Azərbaycan, Pakistan və Türkiyə arasında parlamentlərin sədrləri, xarici işlər nazirləri səviyyəsində üçtərəfli formatların artıq mövcud olduğu və bu əsnada əvvəllər bir sıra görüşlərin keçirildiyi diqqətə çatdırıldı.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin etməsi bir daha vurğulandı. Regiondan kənar ölkələrin Cənubi Qafqazda militarizasiya siyasəti aparmasından narahatlıq ifadə edildi.

44 günlük Vətən müharibəsində qardaş Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulandı. Bunun Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyi qeyd olundu.



inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqtisadi-ticari əlaqələrin hazırda artan dinamikası müsbət hal kimi qeyd edildi, amma bunun ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılmasının vacibliyi vurğulandı.

Orta Dəhlizdə Pakistanın da iştirakı qeyd edildi və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirildi.

Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulandı və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edildi. Təklif məmnunluqla qəbul olundu. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulandı.

Dövlətimizin başçısı Türkiyə Prezidentini və Pakistanın Baş nazirini COP29-da iştiraka bir daha dəvət etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərif dəvəti məmnunluqla qəbul etdilər.

Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astana şəhərində Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub







İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.

Görüşdə çıxış edən **Rusiya Prezidenti Vladimir Putin dedi:**

– Hörmətli İlham Heydər oğlu, Sizi bir daha görməyimə şadam.

Qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, mənə elə gəlir ki, hətta hər gün, hər ay görüşsək, danışmaq üçün mövzularımız var. Diqqətinizi ona cəlb etmək istəyirəm ki, əsas məsələ – məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Dövriyyə dörd milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir.

İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum Şimal-Cənub magistralıdır. Ümidvaram ki, bu barədə də bir neçə kəlmə danışacağıq. Digər istiqamətlərdə, o cümlədən enerji və sənaye sahələrində əməkdaşlıq imkanları var. Sizinlə 2022-ci ildə imzaladığımız müqavilə əsasında fəaliyyət göstəririk. Bu, bütün sahələrdə əlaqələrin inkişafı üçün yaxşı zəmindir.




Mən humanitar sahəni də qeyd edəcəyəm. Məncə, Azərbaycanda Rusiya Mədəniyyəti Günləri yenicə başa çatıb. Mən Sizin rus dilinin dəstəklənməsinə şəxsi xüsusi diqqətinizi həmişə qeyd edirəm. Azərbaycanda rus dilində 300-dən çox məktəb fəaliyyət göstərir, gənclərə və uşaqlara rus dili öyrədilir. Bu, gələcəkdə də əlaqələrimizin qorunub saxlanılması və inkişafı üçün yaxşı zəmin və perspektivlər yaradır.

Sizi görməyimə çox şadam.

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Sağ olun Vladimir Vladimiroviç. Sizinlə yenidən görüşməyimə çox şadam.

Qeyd etdiyiniz kimi, məsələlər çoxdur. Amma prinsipcə, onları müzakirə etmək üçün biz demək olar ki, ayda bir dəfə görüşürük. Sonuncu dəfə aprelin ikinci yarısında Moskvaya səfər etdim. Ondan bir aydan bir qədər sonra yenidən görüşürük. Siz də qeyd etdiyiniz kimi, bu onu göstərir ki, böyük uğurla həll edilən çoxlu məsələlər var. Əlbəttə, həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Sevindirici haldır ki, həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, Sizinlə bir neçə il əvvəl danışdıqlarımız artıq uğurla həyata keçirilir.

Humanitar əməkdaşlıq həmişə qarşılıqlı fəaliyyətimizin demək olar ki, əsasını təşkil edib. Sizə minnətdaram ki, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə, ədəbiyyatına olan münasibəti həmişə qeyd edirsiniz və yüksək qiymətləndirirsiniz. Azərbaycanda böyük uğurla keçirilən Rusiya Mədəniyyəti Günləri də bunu bir daha təsdiqləyir. Bizdə bir milyona yaxın şagird rus dilində təhsil alır, 150 min nəfər rus məktəblərində oxuyur, 800 min nəfər isə rus dilini ikinci dil kimi öyrənir. Yəni, bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın gələcək nəsilləri də aktiv qarşılıqlı fəaliyyətdə olacaqlar və rus dilində Sizinlə mənim danışdığımız kimi danışacaqlar.

Keçən dəfə Moskvada “Şimal-Cənub” layihəsini müzakirə etdik. O vaxtdan bəri müsbət irəliləyişlər baş verdi. Bu barədə danışacağıq. Biz Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik, fiziki cəhətdən mövcud olsa da, o, tərəfdaşlarımızın və qonşularımızın bu layihədən maksimum istifadə ilə bağlı niyyətlərinə uyğun gəlmir.

Həmçinin Siz qeyd etdiyiniz kimi, energetika sahəsində yeni ideyalar var, bizim müvafiq strukturlarımız daimi təmasdadır. Bu gün bu barədə də danışacağıq. Həmçinin başqa istiqamətlər üzrə də.

Qeyd etdiyiniz kimi, 2022-ci ildə biz uğurla həyata keçirilən Müttəfiqlik Bəyannaməsini imzaladıq və Bəyannamənin bütün bəndləri real həyatda öz əksini tapır. Artıq iki ildən artıqdır ki, müttəfiqlər kimi birgə işləyirik və yaxşı nəticələrə nail oluruq. Bu gün bu barədə daha ətraflı danışacağıq.

Sizinlə görüşmək imkanına görə bir daha təşəkkür edirəm.

***

Görüşdə Rusiya Prezidenti Vladimir Putin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına və sülh gündəliyinin irəli aparılmasına daim dəstək verməyə hazır olduğunu dedi. Bu əsnada müzakirələr aparıldı. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi haqqında məlumat verdi.

Söhbət zamanı nəqliyyat, gəmiqayırma, əczaçılıq, avtomobil sənayesi sahələrində əməkdaşlıq, Rusiyanın avtomobil istehsal edən müxtəlif şirkətləri tərəfindən Azərbaycanda istehsalın təşkili məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Rusiyadan Azərbaycana gələn turistlərin sayında artım və Azərbaycanda Rus Dram Teatrının fəaliyyət göstərdiyi qeyd edildi.

# Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü keçirilib





İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü keçirilib.

Görüşdə çıxış edən **Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:**

– Hörmətli İlham Heydər oğlu.

Sizi Astanada səmimi-qəlbdən salamlayıram. Sizi görməyimə şadam. Bakıya, Şuşaya səfərimi daim xatırlayıram. Həqiqətən bu, dönüş yaradan, mühüm, mübaliğəsiz demək olar ki, həm də öz əhəmiyyətinə görə tarixi səfər idi. Danışıqlar əsnasında qarşılıqlı fəaliyyətimizin, hətta deyərdim ki, bir sıra strateji sahələrdə əməkdaşlığın və qarşılıqlı fəaliyyətin gələcək inkişafına böyük impuls verdik. Mübaliğəsiz deyə bilərik ki, əməkdaşlığımız, qarşılıqlı fəaliyyətimiz strateji əhəmiyyət daşıyır.

Sizi qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında görməkdən məmnunam. Bəlkə də bir müddət sonra Azərbaycan ŞƏT-in tamhüquqlu üzvü olacaq. Hər halda, Qazaxıstan buna etiraz etmir, əksinə, Sizin tərəfinizdən müvafiq istək varsa, onu dəstəkləyir.

Qazaxıstanda Sizi Azərbaycanın şəksiz Lideri, görkəmli dövlət xadimlərindən biri kimi tanıyırlar. Açıq deyirəm ki, biz Qazaxıstanda Sizin ölkənizdə baş verən bütün dəyişiklikləri böyük maraqla izləyirik, bu dəyişikliklərə ürəkdən sevinirik. Əlbəttə, sözsüz ki, burada Sizin böyük şəxsi rolunuz var və onu yüksək qiymətləndiririk.







Qazaxıstan ərazisində Ermənistanla danışıqlar üçün platforma təqdim etmək təklifimizə dərhal razılıq verdiyinizə görə Sizə minnətdaram. İlk danışıqlar Almatıda baş tutdu. Onlar kifayət qədər uğurlu, hər halda faydalı oldu.

Azərbaycana səfərimin nəticələrinə qayıdaraq deməliyəm ki, hazırda biz əldə olunmuş razılaşmaların

həyata keçirilməsi üzərində işləyirik. Əslində, biz burada – ŞƏT çərçivəsində görüşsək də, bu, əməkdaşlığımızla bağlı bütün məsələlər üzrə tamformatlı danışıqlardır. Ona görə də indi sözü Sizə vermək istərdim.

***

Sonra çıxış edən **Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli Kasım-Jomart Kemeleviç.



İlk növbədə, ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Biz bunu Qazaxıstanın Azərbaycana qardaşlıq münasibətinin növbəti göstəricisi kimi qiymətləndiririk. Bu tədbirdə iştirak etməkdən şərəf duyuruq. Həmçinin vaxt ayırdığınıza görə təşəkkür edirəm, bu günlərdə görüşlərlə bağlı nə qədər məşğul olduğunuzu bilirəm. Nisbətən yaxın vaxtlarda görüşməyimizə baxmayaraq, gündəmə bir az nəzər salmağa, razılaşmalarımızı necə həyata keçirdiyimizi görməyə ehtiyac var.

Sizin Azərbaycana dövlət səfəriniz, əslində, həm forma, həm məzmun, həm də emosional əhvali-ruhiyyə baxımından tarixi idi. İşğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünüzə görə bir daha bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Qazax xalqının dahi oğlu Kurmanqazının adını daşıyan mərkəz səmərəli fəaliyyət göstərir və Sizinlə birlikdə qeyd etdiyimiz kimi, bu, Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir. Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür.

Müzakirə etdiyimiz və razılaşdırdığımız bütün istiqamətlər üzrə müsbət dinamika əldə olunur. Nəqliyyat infrastrukturu ilə bağlı məsələlər fəal şəkildə həyata keçirilir. Biz mahiyyət etibarilə Trans-Xəzər nəqliyyat marşrutu üzrə vahid komanda şəklində fəaliyyət göstəririk. Əlbəttə, bugünkü və sabahkı tədbirlər çərçivəsində bu mövzu daha geniş müzakirə ediləcək. Həmçinin bu, bir neçə gün sonra keçiriləcək və Sizi yenidən Qarabağda görməyimizə şad olacağımız Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə əsas mövzu olacaq.

Eyni zamanda, Azərbaycan ilə Ermənistan arasında prosesə verdiyiniz dəstəyə görə təşəkkürümü bildirmək istərdim.

***

Dövlətimizin başçısı Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində birgə addımların və səylərin davam etdirildiyini vurğuladı, görüşün yaxın günlərdə Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə toplantısında davam edəcəyini bildirdi.

Türk Dövlətləri Təşkilatının da ölkələrimizin gündəliyində prioritet istiqamət olduğu vurğulandı.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevin rəhbərliyi ilə Qazaxıstanın inkişafının, beynəlxalq səviyyədə nüfuzunun artmasının, ölkədə həyata keçirilən siyasi-iqtisadi islahatların dost və qardaş Azərbaycanı da sevindirdiyini bildirdi, bu münasibətlə təbriklərini çatdırdı.

Qazaxıstan Prezidenti qeyd etdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına tam üzvlüyünü dəstəkləməyə hazırdır.

Kasım-Jomart Tokayev COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

COP29-un dünya səviyyəsində ən mötəbər tədbirlərdən biri olduğunu deyən Qazaxıstan Prezidenti Azərbaycanın bu tədbiri uğurla təşkil edəcəyinə əminliyini bildirdi.

Görüşdə ölkələrimizin bu məsələ ilə bağlı müxtəlif təşəbbüslərlə çıxış etmələrinə toxunuldu.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Orta Dəhlizin inkişafı istiqamətində nailiyyətlər qeyd olundu, Birgə İnvestisiya Fondu ilə

əlaqədar imzalanacaq anlaşma memorandumunun əhəmiyyəti bildirildi və bu xüsusda artıq konkret layihələrin icrasına dair aidiyyəti qurumlara tapşırıqlar verildiyi diqqətə çatdırıldı.

Humanitar sahədə əməkdaşlığa toxunuldu, Qazaxıstan Mədəniyyət Günlərinin Azərbaycanda uğurla keçirildiyi, Azərbaycan Mədəniyyət Günlərinin isə bu ilin sentyabrında Qazaxıstanda keçiriləcəyi vurğulandı.

***





İyulun 3-də Astanada imzalanmış "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk-Kazına" Milli Rifah Fondu" Səhmdar Cəmiyyəti arasında Səhmdarlar Müqaviləsi"nin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə mübadiləsi mərasimi olub.

# Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak edib



İyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Şanxay Əməkdaşlıq Təşkilatının sədri, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "ŞƏT plyus" formatında görüşdə iştirak edən dövlət və hökumət başçılarını salamladı və çıxış etdi.

Qazaxıstan Prezidenti Azərbaycanın ŞƏT-ə üzv ölkələrlə yüksək səviyyəli əlaqələrinə toxundu, bu ilin noyabrında Bakıda keçiriləcək COP29-un əhəmiyyətini vurğulayaraq dedi:

– Biz bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransında iqlim gündəliyi ilə bağlı həmrəyliyimizi nümayiş etdirə biləcəyik. Fürsətdən istifadə edərək, möhtərəm Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə bu qlobal tədbirin keçirilməsində uğurlar arzulayıram.

***

Sonra görüşdə BMT-nin Baş katibi Antonio Quterreş, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən Məhəmməd Moxber, Çin Xalq Respublikasının Sədri Si Cinpin, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Hindistan Respublikasının xarici işlər naziri Subrahmanyam Cayşankar, Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsux çıxış etdilər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:

– İndi isə sözü fəxri qonaq qismində görüşə dəvət olunmuş dövlət başçılarına vermək istərdim.

Söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir.

***




Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**



– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət və hökumət başçıları.

Əvvəlcə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısına dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim.

Bu, mənim son iki ildə Qazaxıstana dördüncü səfərimdir. Həmin müddətdə Qazaxıstan Prezidenti Azərbaycana üç dəfə səfər edib və bu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir.

Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.

Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb.

Biz tərəfdaşlarımızla Orta Dəhlizin rəqəmsallaşması üzərində işləyirik.

Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir.

Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət

göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.

Hörmətli həmkarlar, 2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi.

Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə Hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq.

Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a ev sahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.

Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm.

Sağ olun.

***

Prezident Kasım-Jomart Tokayev dedi:

– Hörmətli İlham Heydər oğlu Əliyev, məzmunlu çıxışınıza görə Sizə təşəkkür edirəm. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin möhkəmləndirilməsi səylərinə böyük əhəmiyyət veririk.

***

Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Birləşmiş Ərəb Əmirliklərinin Ras əl-Xeymə Əmirliyinin hakimi Saud bin Saqr Al Qasimi çıxış etdilər.

***

Qeyd edək ki, "ŞƏT plyus" formatında keçirilən görüşə 16 ölkənin dövlət və hökumət başçıları qatılıb. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə görüşdə iştirak edib. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib. Azərbaycanın belə mötəbər təşkilatın Sammitinə ikinci dəfə dəvət olunması ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

# “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub



Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib.

Görüşdə çıxış edən **Çin Xalq Respublikasının Sədri Si Cinpin dedi:**

– İnanıram ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da ölkə quruculuğunun müxtəlif istiqamətlərində yeni nailiyyətlər əldə edəcək. Çin-Azərbaycan əlaqələri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır.

Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz Birgə Bəyannamə qəbul edəcəyik. Bu sənədlə ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik.



***

**Azərbaycan Prezidenti İlham Əliyev** görüşdə çıxış edərək dedi:

– Hörmətli cənab Sədr.

Yenidən görüşməyimizə çox şadam. Siz qeyd etdiyiniz kimi, ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək Bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik.

Şadam ki, Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır və ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafına mühüm impuls verir. Beynəlxalq strukturlarda qarşılıqlı dəstəyi, ikitərəfli səviyyədə qəbul edilən müxtəlif sənədlərdə ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsinin ifadə olunmasını xüsusi vurğulamaq istərdim.

Eyni zamanda, ölkələrimizin nazirləri, idarələri, dövlət strukturları, ictimai təşkilatları səviyyəsində fəal diplomatiyanı, Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istərdim. Bütün bunlar əlaqələrimizi möhkəmləndirir.

Ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması bizi sevindirir, o, 3 milyard dollara çatıb və artım potensialına malikdir. Azərbaycan artıq Çinin 6 şəhərində ticarət evi açıb, bununla da Çin bazarında öz məhsullarını təşviq etməyə çalışır. Həmçinin biz Çin Xalq Respublikasından Azərbaycana ixracın artmasından məmnunuq.

COVID-19 epidemiyası zamanı göstərilən köməyə görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim. Mənim Sizə yazılı müraciətimə dərhal müsbət reaksiya verildi və Azərbaycana minlərlə insanın həyatını xilas edən milyon dozadan çox vaksin çatdırıldı. Azərbaycan bu sınaqdan, ilk növbədə, Sizin dostluq münasibətiniz və çətin vaxtda bizə köməyiniz sayəsində ən az itkilərlə çıxan ölkələr sırasında oldu.

Qeyd etmək istərdim ki, investisiya əməkdaşlığının perspektivləri artıq əyani şəkildə görünür. Son hadisələr arasında elektromobillərin və elektrobusların tanınmış istehsalçısı – Çinin "BYD" şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsini qeyd etmək istərdim. Əməkdaşlığın, elektrobusların və digər elektromobillərin birgə istehsalının ilk addımı olaraq müvafiq sənədlər imzalanıb. Əlbəttə, ölkələrimiz arasında yükdaşımaların artmasını xüsusi məmnunluqla qeyd edirəm.

***

Si Cinpin İlham Əliyevi Prezident seçilməsi münasibətilə təbrik etdi. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyini vurğuladı. Tayvanda keçirilmiş seçkilərin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən pislənildiyi, Çinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə etdiyi qeyd olundu.

Si Cinpin Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. Ekstremizmə və separatizmə qarşı mübarizədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyü xüsusi qeyd olundu.

Prezident İlham Əliyev Azərbaycanın multilateralizmə – çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verdiyini vurğulayaraq qeyd etdi ki, Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinin tərəfdarıdır. İkili standartlardan əziyyət çəkmiş ölkəmiz də daxili işlərimizə qarışmaq cəhdlərini qəbul etmir.

Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun artırılmasının Çin tərəfindən dəstəkləndiyi vurğulandı, gələn il Çinin sədrliyi çərçivəsində bu məsələyə xüsusi diqqət yetiriləcəyi bildirildi.

Si Cinpin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına, eyni zamanda, bu əsnada Çinə dövlət səfərinə dəvət etdi.

Prezident İlham Əliyev dəvəti məmnunluqla qəbul etdi.

Azərbaycan Prezidenti də Çin Xalq Respublikasının Sədrini uyğun vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi.

Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən və buna qoşulan ilk dövlətlərdən biri olduğu vurğulandı, ölkəmizin nəqliyyat-logistika imkanları, bu sahəyə hazırda Azərbaycanın investisiyalar qoyduğu və daim onu təkmilləşdirməsi sayəsində qazandığı uğurları qeyd edildi. Bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük imkanlarının 5 milyon tona, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması vurğulandı.

Orta Dəhliz çərçivəsində Azərbaycan ilə Çin arasında əməkdaşlığa toxunularaq, bu dəhlizin rəqəmsallaşdırılmasının onun Mərkəzi Asiya ölkələrindən Qərb istiqamətinə, eyni zamanda, Qərb istiqamətindən də Çinə və Mərkəzi Asiyaya yüklərin həcminin artmasına müsbət təsir göstərməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çinin "BYD" şirkəti arasında imzalanan və ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsini nəzərdə tutan Çərçivə Sazişinin önəmi bildirildi.

Görüşdə ölkələrimizin şəhərləri arasında qardaşlıq əlaqələrinə toxunularaq, Azərbaycanın 6 şəhərinin Çinin müxtəlif şəhərləri və regionları ilə əlaqələrinin olduğu vurğulandı.

Azərbaycan ilə Çin arasında humanitar, mədəni əlaqələr qeyd edildi, Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən layihələrin əhəmiyyəti diqqətə çatdırıldı.

Turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlar arasında təmasların artırılması məqsədilə Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizaların aradan qaldırılması qeyd edilərək, bunun da ölkələrimiz və insanlar arasında təmaslara ciddi təkan verəcəyinə ümidvarlıq ifadə olundu. Si Cinpin dedi ki, Çin tərəfi də Azərbaycan vətəndaşlarına münasibətdə vizasız gediş-gəlişin tətbiq olunması məsələsini nəzərdən keçirəcək ki, ölkələrimiz və insanlar arasında təmaslar daha da çoxalsın.

Çin Xalq Respublikasının Sədri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını dedi. COP29 çərçivəsində nümayəndə heyətlərimizin yaxından əməkdaşlıq etməsinin önəmi qeyd olundu.

Si Cinpin Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyinə toxunaraq, COP29-un sədri kimi Azərbaycanın və Çinin Qlobal Cənubun bir hissəsi olduqlarını dedi.

Prezident İlham Əliyev ölkəmizin ŞƏT ilə əməkdaşlığını dəstəklədiyi kimi, BRICS-lə də əməkdaşlığının inkişafına yaxından dəstək verdiyinə görə Çinə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Sammiti 2026-cı ildə Azərbaycanda keçiriləcək. Bununla bağlı Azərbaycan ilə Çin arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

***

Qeyd edək ki, görüş çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olundu.

Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub.

# Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsi imzalanıb




İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**




– Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana, Qarabağa “Xoş gəlmisiniz!”.

Türk Dövlətləri Təşkilatının ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsümü dəstəklədiyiniz və dəvətimizi qəbul edərək Şuşa şəhərinə gəldiyiniz üçün təşəkkür edirəm.

Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının



sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır.

Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir.

Sərəncamımla 2021-ci ildə Şuşa şəhəri "Azərbaycanın mədəniyyət paytaxtı" elan olundu. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda "Şuşa İli" elan edilmişdir. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı", ICESCO tərəfindən isə 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır.

Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq.

Hörmətli həmkarlar, bu gün Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdış" Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

"Böyük Qayıdış" Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər.

Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm.

Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür.

Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir.

Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, Fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir.

Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bildiyiniz kimi, bu il Azərbaycan COP29 konfransına ev sahibliyi edəcək. Fürsətdən istifadə edərək sizin hər birinizi bir daha COP29-a dəvət edirəm. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək.

Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda, Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.

***

Sonra digər dövlət və hökumət başçıları çıxış etdilər.

Türk Dövlətləri Təşkilatının hazırkı sədri, **Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev** Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində atılan addımları xüsusi vurğulayaraq dedi: "Ümumiyyətlə, istənilən münaqişə və qarşıdurmanı həll etməyin bir yolu var. Bu, konstruktiv dialoqdur. Bu mənada, sədrliyimiz çərçivəsində biz vasitəçiliyə xüsusi diqqət yetiririk. Mən Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində müsbət tendensiyanı vurğulamaq istərdim. Biz barışığa yönəlmiş addımları alqışlamalıyıq. Biz Bakı və İrəvan arasında sülh danışıqları üçün platformamızı təklif etməyə hər zaman hazırıq".




Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti bildirdi: "Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun bütün potensialı istifadə olunmalıdır. Bu gün bu istiqamətdə konteyner daşımalarının həcmi kəskin şəkildə artıb. Biz nəqliyyat daşımalarının vaxtını azaltmaq üçün multimodal rəqəmsal platforma, rəqəmsal ticarət dəhlizi yaratmışıq. Bu istiqamətdə Azərbaycanla sıx əməkdaşlıq edirik".

Prezident Kasım-Jomart Tokayev COP29-da fəal iştirak edəcəklərini diqqətə çatdıraraq vurğuladı: "Biz iqlim məsələləri ilə bağlı Türk dünyası ilə əməkdaşlığı gücləndirməyə hazırıq. Bununla əlaqədar biz bu il Azərbaycanda keçiriləcək COP29 iqlim konfransının işində fəal iştirak etməyi planlaşdırırıq".

***

Sonra **Qırğız Respublikasının Prezidenti Sadır Japarov** çıxış edərək dedi: "Hörmətli cənab Prezident. Hörmətli dövlət başçıları. Hörmətli Baş katib. Hörmətli tədbir iştirakçıları və qonaqlar. Türkdilli dövlətlərin qeyri-rəsmi Zirvə görüşündə sizi görməkdən məmnunam. Görüşümüz Azərbaycanın Qarabağ bölgəsinin rəmzi və incisi olan, türk xalqlarının birliyinin və həmrəyliyinin yeni rəmzi olan tarixi Şuşa şəhərində keçirilir. İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevə ənənəvi qonaqpərvərliyə və yüksək səviyyəli hazırlığa görə dərin minnətdarlığımı ifadə etmək istəyirəm".




Azərbaycanın noyabrda COP29-a uğurla sədrlik edəcəyinə əminliyini ifadə edən Qırğızıstan Prezidenti bildirdi: "Sevindirici haldır ki, bu ilin noyabr ayında qardaş Azərbaycan ən vacib qlobal forumlardan birinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcək. Əminəm ki, Azərbaycanın COP29-a sədrliyi qarşıdan gələn konfransın gündəliyində duran məsələlərin, o cümlədən iqlim maliyyələşməsini əhəmiyyətli dərəcədə irəliyə apara biləcək".

Qırğızıstan Prezidenti Azərbaycanla və təşkilata üzv olan digər ölkələrlə bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlı olduqlarını vurğulayaraq qeyd etdi: "Azərbaycanın bərpaolunan enerji mənbələrini, o cümlədən COP29-a sədrliyi çərçivəsində fəal inkişaf etdirdiyini və təşviq etdiyini nəzərə alaraq, biz Azərbaycan tərəfinə və ümumilikdə üzv dövlətlərə bərpaolunan enerji mənbələri ilə bağlı birgə layihələri həyata keçirmək üçün çağırış edirik".

***

Tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan təşəkkürlərə səmimi-qəlbdən qoşulduğunu bildirən **Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev** dedi: "Sizinlə Türk dünyasının mədəniyyət paytaxtlarından biri olan Şuşa şəhərində görüşməyimizin dərin mənası var. Gözəl Qarabağın incisi sayılan bu müqəddəs şəhər Azərbaycan xalqının cəsarətini, bənzərsiz mətanətini, əsl igidliyini və birliyini açıq şəkildə göstərən tarixi Zəfərin parlaq rəmzidir. XX əsrin böyük siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur. Beləliklə, bu unikal şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Hazırda tarixi ədalətin bərpa olunduğu bir zamanda və Azərbaycanın azad etdiyi Qarabağda hörmətli İlham Əliyevin rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərinin, memarlıq və mədəni abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlərin əyani şahidi oluruq. Sizin kimi dəyərli qardaşımızın belə möhtəşəm işləri yaxın dostlarınız olaraq bizləri sonsuz dərəcə sevindirir və qürurlandırır. Birgə səylərimiz və xüsusi marağımızla bu bənzərsiz şəhərin nümunəsində bütün Qarabağın gələcəkdə əbədi dostluğumuzun həqiqi rəmzinə çevriləcəyinə inanıram".




Beş il əvvəl məhz Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv olduqlarını xatırladan Özbəkistan Prezidenti bildirdi ki, ötən qısa dövrdə üzv ölkələrlə 30-dan çox önəmli sahədə qarşılıqlı faydalı və çoxşaxəli əməkdaşlıq qurulub. Bu Zirvə görüşünün qlobal risk və təhdidlərin artdığı, qarşılıqlı inam böhranının daha da dərinləşdiyi bir vaxtda reallaşdığını söyləyən Şavkat Mirziyoyev qeyd etdi: "Belə bir qarışıq vəziyyətdə əbədi qardaşlıq ruhundan güc alan əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməyi, birgə yanaşmalarla inkişaf etdirməyi zaman tələb edir. Bu baxımdan, bugünkü görüşün nəqliyyat, qarşılıqlı əlaqələr və iqlim fəaliyyəti vasitəsilə davamlı bir gələcək inşa etmək mövzusunda keçirilməsi böyük önəm daşıyır".

Özbəkistan Prezidenti bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) da toxundu, bu tədbirin bütün ölkələrimiz

üçün böyük tarixi hadisə olduğunu vurğuladı. "İqlim dəyişikliyi məsələsində dünya liderlərinin uğurlu bir görüş keçirmələrini səmimi-qəlbdən diləyirik. Biz bu nüfuzlu tədbirə fəal şəkildə qatılmağa və bu məsələdə Azərbaycana mümkün olan hər cür yardımı göstərməyə hazırıq", – deyə Şavkat Mirziyoyev əlavə edib.

***

**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz** Zirvə görüşünün iştirakçılarına müraciətlə dedi: "Sizləri cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın adından ehtiramla salamlayıram. Türk dünyasının mədəniyyət paytaxtlarından biri – Qarabağın incisi azad Şuşada olmaqdan böyük məmnunluq duyuram. Can Azərbaycana və hörmətli cənab Prezident İlham Əliyevə ev sahibliyinə görə təşəkkürümü bildirirəm".




Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə sayəsində doğma torpaqlarını işğaldan azad etməsindən sonra bölgədə sülhün, əmin-amanlığın və əməkdaşlığın inkişafı üçün fürsət yarandığını vurğulayan Cevdet Yılmaz qeyd etdi: "Üç il əvvəl – 2021-ci il iyunun 15-də bu qədim şəhərdə Türkiyə ilə Azərbaycan arasındakı bənzərsiz əlaqələri taclandıran Şuşa Bəyannaməsi imzalandı. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfəri də rəsmi olaraq elan edildi. Azad edilmiş bütün bölgələrdə olduğu kimi, Şuşadakı inkişaf və tərəqqini qürurla müşahidə edirik. Bir daha "Qarabağ Azərbaycandır!" və həmişə də Azərbaycanın olaraq qalacaqdır.

Biz lap əvvəldən bu Zəfəri təkcə işğalın sonu deyil, Cənubi Qafqazda sülh, sabitlik və rifah yolunda tarixi bir fürsət pəncərəsinin açılması olaraq gördük. Bu çərçivədə müzakirə prosesi böyük səy və həssaslıqla aparılan Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsinin ən qısa müddətdə imzalanması ilə Cənubi Qafqazda genişmiqyaslı regional həllin qarşımızdakı ən böyük əngəli ortadan qaldıracağına inanıram. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması təkcə bölgə ölkələri üçün deyil, regional nəqliyyat xətlərinin açılacağı səbəbindən qlobal təhlükəsizlik və kommunikasiyalar baxımından da böyük önəm daşıyır. Bu xətlərin açılması regional əməkdaşlığı gücləndirərək Orta Asiya, Qara dəniz və Xəzər dənizi hövzələri də daxil olmaqla, bütün Türk dünyası üçün böyük imkanlar yaradacaq, yeni fürsətlər doğuracaq.

Beynəlxalq təşkilatların onilliklər ərzində Azərbaycana qarşı ədalətsizliyə göz yummasına baxmayaraq, Azərbaycan xalqı cənab Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə öz qəhrəmanlığı sayəsində haqqını bərpa etdi. Birinci Qarabağ müharibəsi nəticəsində öz yurdlarından didərgin salınan bir milyon azərbaycanlı qardaşımız üçün səsini çıxarmayan dövlətlərin bu gün haqsız və əsassız ittihamlarla qardaş Azərbaycanı hədəfə alması əsla qəbul edilə bilməz. Türk dünyası olaraq bu əsassız ittihamlara qarşı Azərbaycana güclü dəstək verməyimiz qardaşlığımızın olduğu kimi, ədalətin də zərurətidir.

Türk dünyasının hörmətli liderləri, qlobal səviyyədə yaşanan proseslər enerji təhlükəsizliyinin və enerji sahəsində əməkdaşlığın önəmini bir daha ortaya qoyub. Resurslarla zəngin və əlverişli coğrafi mövqedə yerləşən türk dövlətlərinin rolu bu baxımdan mühüm önəm daşımaqdadır. Şərq ilə Qərbi bir-biri ilə birləşdirən genişmiqyaslı enerji infrastrukturu layihələrini birlikdə uğurla həyata keçiririk. Azərbaycan ilə bu sahədə həyata keçirdiyimiz layihələr həqiqətən nümunədir. Başda türkmən təbii qazı olmaqla, Xəzərin digər tərəfindəki resursların Türkiyəyə və Avropaya daşınması həm bizlərin milli rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Türk Dövlətləri Təşkilatının nəzdində enerji mexanizminin qurulmasından məmnunluq duyuruq. Bu çərçivədə ortaq layihələrin inkişaf etdirilməsini dəstəkləməkdəyik".

Çıxışında Azərbaycanın bu ilin noyabrında COP29-a ev sahibliyi etməsinin əhəmiyyətini xüsusi vurğulayan Türkiyənin vitse-prezidenti bildirdi: "Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi etməsindən böyük məmnunluq duyuruq. Xüsusilə iqlim maliyyələşməsi mövzusunda mühüm qərarların qəbul ediləcəyi bu konfransa hazırlıq prosesində bir çox mövzularda sıx əməkdaşlığımızı və dəstəyimizi davam etdirəcəyik. Azərbaycanın COP29-a ev sahibliyi regional əməkdaşlıq baxımından da böyük önəm daşıyır. Bu baxımdan, Azərbaycanın konfransda Türk Dövlətləri Təşkilatının bir təşəbbüsünə yer verilməsi və ya ortaq bir tədbirin keçirilməsi ilə bağlı təklifini məmnunluqla qarşılayırıq".

Şuşadakı Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də təmsil olunmasının önəmini qeyd edən Cevdet Yılmaz dedi: "Bu gün Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti hörmətli Ersin Tatarı

aramızda görməkdən böyük məmnunluq duyuruq. Cənab Prezident İlham Əliyevə göstərdiyi həssaslığa görə təşəkkürümüzü ifadə edirik. Cənab Tatarın qarşıdakı Bişkek Zirvə görüşünə də qatılmasını arzu edirik və bu məsələdə Sizlərin dəstəyini gözləyirik".

Türkiyənin vitse-prezidenti tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı: "Bu gün imzalanacaq Qarabağ Bəyannaməsinin də xeyirli olmasını arzu edirəm. Sizi ehtiramla salamlayır, ev sahibi Can Azərbaycana, çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkürlərimi bildirirəm. Təşkilatın üzvləri olan dost və qardaş ölkələrin xalqlarına sevgilərimi çatdırıram".

***

Zirvə görüşündə çıxış edən **Macarıstanın Baş naziri Viktor Orban** Şuşada keçirilən bu mötəbər tədbirə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi: "İlk növbədə, icazə verin, Prezident Əliyevə Şuşada, bu şəhərdə bizi qəbul etdiyinə və sizi burada görmək imkanı yaratdığına görə minnətdarlığımı bildirim. Hazırda regionda minlərlə insana sülh şəraitində yaşamaq imkanı verdiyinə görə Prezident Əliyevə dərin ehtiramımızı bildiririk. Arzu edirik ki, bu fürsət ən qısa zamanda Avropada da əldə edilsin.




Hazırda müharibələr nəticəsində dünyanın müxtəlif bloklara bölünməsi risklərinin olduğunu vurğulayan Viktor Orban bildirdi: "Kədərli tarixi təcrübələrimizə əsaslanaraq, sülhə hörmət naminə qlobal əməkdaşlığı bərpa etmək üçün ünsiyyət və qarşılıqlı fəaliyyət dövrünə üstünlük verərdik. Bu mübarizədə sizə güvənirik. Biz Türk Dövlətləri Təşkilatına Qərb ilə Şərq arasında əməkdaşlıq üçün çox vacib bir təşkilat kimi baxırıq".

Baş nazir Viktor Orban çıxışında Macarıstanın Avropa İttifaqına sədrliyinin prioritetlərindən danışdı, yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə bir daha təşəkkürünü bildirdi.

*******

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar** Şuşadakı tarixi Zirvə görüşünə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi: "Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşa Zirvə görüşündə çıxış etməkdən duyduğum böyük xoşbəxtliyi və məmnunluğu sizinlə bölüşmək istəyirəm. Türk dünyasının mənəvi paytaxtı Şuşada, azad olunmuş bu gözəl torpaqlarda Azərbaycan Prezidenti İlham Əliyevin ev sahibliyi ilə bu Zirvə görüşündə aranızda olmaqdan duyduğum böyük məmnuniyyəti təkrar bildirmək istəyirəm. Əvvəlcə, bu günə qədər Şimali Kipr Türk Cümhuriyyətinə verdiyi böyük dəstəyə və bizi Şuşa Zirvəsinə dəvət etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə çox təşəkkür edirəm".




Şuşanın tarixi əhəmiyyətini vurğulayan Ersin Tatar bildirdi: "Azərbaycan xalqının ənənələrinin bir rəmzi olan, zəngin və görkəmli tarixə sahib Şuşa dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş, bir çox məşhur sənətkar, musiqiçi, memar, rəssam və yazıçının yetişdiyi qədim şəhərdir. Uzun illər erməni işğalı altında qalan Şuşa 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən həmin il noyabrın 8-də azad edilib. Qarabağda 30 il davam edən işğal Can Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən sonra başa çatmışdır. Bu tarixi Zəfərdən böyük qürur və sevinc duyuruq. Qarabağ, o cümlədən Şuşa 44 günlük Vətən müharibəsində və sonra yaşanan hadisələr baxımından Türk dünyasında birlik və bərabərliyin rəmzinə çevrilib".

"Ən böyük gücümüz Türk dünyasının birlik, bərabərlik və həmrəyliyidir", – söyləyən Ersin Tatar vurğuladı: "Bir araya gələndə, həmrəy olanda nələr edə biləcəyimizi göstərmişik. Bu baxımdan, Şimali Kipr Türk Cümhuriyyətinin Türk dünyasının ayrılmaz hissəsi olaraq bu gün qədim Şuşada təmsil olunması son dərəcə önəmli və tarixi hadisədir".

***

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev** Azərbaycanın təşkilatın inkişafına verdiyi töhfəni vurğuladı və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıraraq dedi: "Mən, ilk növbədə, Naxçıvan Sazişinin 15 illiyi ilə əlaqədar İlham Heydər oğlu Əliyevə dərin minnətdarlığımı bildirmək istərdim. Təsadüf elə gətirib ki, Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib və bu görüşü burada keçirməyimiz rəmzi məna kəsb edir".




Təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətinə toxunan Baş katib qeyd etdi: "Orta Dəhliz qlobal ticarətdə həyati əhəmiyyət kəsb edən arteriya rolunu oynayır. İki ölkə arasında ən təhlükəsiz və ən qısa marşrut vəd edən bu dəhliz, sadəcə, yüklərin daşınması üçün yol deyil. Bu, iqtisadi artım, innovasiyalar və əməkdaşlıq üçün xilas kəməridir. Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri arasında mühüm bağlantı olacaq".

Azərbaycanın COP29-a ev sahibliyi etməsinin önəmini vurğulayan Kubanıçbek Ömüralıyev dedi: "Mən qabaqcıl təşəbbüs olan və ən aktual məsələlərdən birinin müzakirəsi üçün bütün dünyadan minlərlə insanı bir araya gətirəcək COP29-a ev sahibliyi edəcəyi münasibətilə qardaş Azərbaycanı təbrik etmək istərdim".

Şuşa Zirvə görüşündə Türk Dövlətləri Təşkilatının fəaliyyətinin inkişafı üçün mühüm qərarın qəbul olunduğunu qeyd edən Baş katib vurğuladı: "Türk Dövlətləri Təşkilatının 10-cu Sammitində dövlət başçıları heyətin və büdcəmizin artırılması təklifini dəstəklədilər. Sizin bu gün qeyd olunan məsələlərlə bağlı qəbul etdiyiniz qərar, sözsüz ki, təşkilatımızı daha da gücləndirəcək. Bu mənada biz Azərbaycan Prezidenti Zati-aliləri cənab Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın verdiyi töhfəni - büdcəmizə 2 milyon ABŞ dollarının ayrılmasını yüksək qiymətləndiririk".

Zirvə görüşü çərçivəsində Qarabağ Bəyannaməsinin imzalanmasının önəminə toxunan Kubanıçbek Ömüralıyev bildirdi: "Hesab edirəm ki, Zati-aliləriniz tərəfindən bu gün imzalanacaq Qarabağ Bəyannaməsi qardaşlıq əlaqələrinin daha da dərinləşməsi istiqamətində növbəti mühüm addım olacaq".

***

**Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım** çıxış edərək dedi: "Bu gün Şuşada – tarixi şəhərdə, mədəniyyət paytaxtında Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsinin ayrı bir tarixi önəmi var. Şuşanın işğaldan azad edilməsindən sonra – 2021-ci ilin iyununda cənab Prezidentimizlə birlikdə burada idik və Şuşa Bəyannaməsinin imzalanmasında iştirak etdik. Həmin gündən indiyədək Şuşadakı dəyişiklikləri böyük heyranlıq və diqqətlə izləyirəm. O vaxt gördüyüm yerlə-yeksan olunmuş bir şəhər yenidən dirçəlir. Bunun üçün çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkür edirəm".




Qardaş ölkələrimizin birlikdə mühüm layihələr həyata keçirməsindən danışan Binəli Yıldırım bildirdi: "Bu məsələdə bir daha möhtərəm cənab Prezidentə təşəkkür edirəm, 2004-cü ildə birlikdə fikir olaraq planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin reallaşdırılmasında hörmətli Prezidentimiz böyük bir liderlik etdi. Gürcüstanın layihə ilə bağlı tərəddüdlərinin aradan qaldırılmasında hörmətli Prezidentimizin mühüm töhfələri oldu. Bakı-Tbilisi-Qarsın reallaşması bu gün Orta Dəhlizin çatışmayan halqasının tamamlanması deməkdir və bu dəhlizdən artıq daha səmərəli istifadə olunmasına imkan yaradıb. 2030-cu ilə qədər bu marşrutla yükdaşımalarının həcmini 11 milyon tona çatdırmağımız mümkündür. Bunun üçün bəzi addımlar atılmalıdır".

Binəli Yıldırım Zirvə görüşünün çox mühüm mövzuya həsr olunduğunu vurğulayaraq dedi: "Şuşa Zirvə görüşündə göstərdiyiniz mehriban qarşılanma və ev sahibliyi üçün Zati-alinizə, heyətinizə bir daha təşəkkür edirəm. Bu tədbirdə Orta Dəhlizin əsas mövzu olaraq seçilməsi təşkilatımızın gələcəyinə və ortaq hədəflərimizə – "Türk dünyasına baxış-2040" sənədində qarşıya qoyulan məqsədə çatmaqla bağlı strateji planımız

baxımından çox uyğun işdir. Bunu burada sizlərlə bölüşmək və bu dəhlizin daha da inkişafını təmin etmək üçün həyata keçiriləcək işləri ifadə etməkdən böyük məmnunluq duydum. Bu fürsəti mənə verdiyiniz üçün bir daha təşəkkür edir, hamınıza ehtiramımı bildirirəm".

***

Sonra Şuşa Zirvə görüşündə "Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar" imzalandı.

***

Zirvə görüşünə yekun vuran **Prezident İlham Əliyev dedi:**




– Əziz dostlar.

Bu gün biz Türk dünyasının birliyini bir daha təsdiqlədik. Birgə həyata keçirdiyimiz layihələrin icrasına yeni təkan verdik.

Noyabrda Bakıda keçiriləcək COP29 ilə əlaqədar iqlim dəyişikliyinin mənfi fəsadları ilə mübarizədə birgə fəaliyyət göstərməyin vacibliyini vurğuladıq.

Tarixən dünya sivilizasiyasına böyük töhfələr vermiş türk sivilizasiyasının tədqiq və təşviq edilməsi, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq təsisatlarla əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini bir daha qeyd etdik.

Əminəm ki, bugünkü müzakirələr, qəbul etdiyimiz qərarlar Türk Dövlətləri Təşkilatının gücləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək, hazırda Türk Dövlətləri Təşkilatına sədrlik edən Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Əminəm ki, qarşıdan gələn Bişkek Zirvə görüşündə səmərəli və nəticəyönümlü müzakirələrimizi davam etdirəcəyik.

İndi isə sizi Qarabağ Bəyannaməsini imzalamağa dəvət edirəm.

***

Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi oldu.

Sonda birgə foto çəkdirildi.






Şuşa

# Prezident İlham Əliyevin Pakistana dövlət səfəri çərçivəsində mühüm görüşlər keçirilib və rəsmi sənədlər imzalanıb







Pakistan İslam Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 11-də İslamabadda rəsmi qarşılanma mərasimi keçirilib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Əvvəlcə rəsmi foto çəkdirildi.





Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Pakistan nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Baş nazir Məhəmməd Şahbaz Şərifə təqdim olundu.

***



İyulun 11-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü keçirilib.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif görüşdə çıxış edərək dedi:

– Mənim çox əziz qardaşım Prezident Əliyev və nümayəndə heyətinizin hörmətli üzvləri. İcazə verin, Sizi və nümayəndə heyətinizi Pakistan hökuməti və xalqı adından bir daha səmimi-qəlbdən salamlayım. Astanadakı görüşümüzdən sonra Sizinlə bir daha görüşməkdən böyük şərəf və iftixar hissi duyuruq.

Telefon söhbəti zamanı ölkəmizə səfərə dəvətimi qəbul etdiyinizə görə Sizə olduqca minnətdaram. Siz dəvəti qəbul edərək, tez bir zamanda səfərin tarixini müəyyənləşdirdiniz. Sizi əmin etmək istəyirəm ki, Pakistan xalqı Sizi televiziyada və sosial mediada gördüyü üçün bu gün çox məmnundur. Onlar bilirlər ki,

mənim əziz qardaşım Prezident Əliyev Pakistanı və Pakistan xalqını güclü dəstəkləyən şəxsdir. Azərbaycan xalqı Pakistan xalqını sevir. Qarşılıqlı olaraq Pakistan xalqı da Azərbaycan xalqına çox minnətdardır və onu sevir. Bu, sanki bir qəlbdə döyünən iki ürəkdir. Bu dostluq, qardaşlıq yeni deyil. O, onillikləri əhatə edir. Pakistan həmişə hər məsələdə Azərbaycanın yanında olub və Azərbaycan da hər zaman bütün hallarda Pakistanın yanında olub. İstər söhbət BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində təsbit edilmiş hüquqları ilə bağlı Kəşmir əhalisinə dəstəkdən və əlbəttə ki, istərsə də bir çoxlarının dəstəklədiyi referendum keçirmək hüququndan getsin. Pakistan Qarabağ məsələsində həmişə Azərbaycanın mövqeyini dəstəkləmişdir və heç vaxt dəstəyini dayandırmamışdır. Hesab edirəm ki, bu, bizim dostluq və qardaşlıq münasibətlərimizin gücüdür. Bu gün Sizin səfəriniz vəziyyəti dəyişdirəcək, münasibətlərimizi transformasiya edəcək.





Bizdə imzalanmalı müvafiq anlaşma memorandumları və sazişlər var. Elə indicə Siz mənə İslamabadın gözəlləşdirilməsi ilə bağlı tövsiyənizi verdiniz. Bu, Sizin Pakistana olan maraq və sadiqliyinizi nümayiş etdirir. Təşəkkür edirəm. Biz əlimizdən gələni edəcəyik. Sizin mütəxəssisləriniz əllərindən gələni edəcəklər. Lakin hesab etmirəm ki, biz şəhərimizi Sizin müdrik rəhbərliyinizlə olduğu kimi Bakı qədər gözəl edə bilərik.

Zati-aliləri, düşünürəm ki, mümkün və mənfəətli olan sahələrdə əməkdaşlıq və birgə investisiyalar istiqamətində irəliləməyin vaxtı çatıb. Mənim komandam hazırdır. Neft naziri doktor Musadik Malik haradadır? Mən təfərrüatı ilə hazırlaşmaq, həmkarlarına ən mənfəətli və hər iki ölkəyə, xalqa dividendlər gətirən təkliflər irəli sürməsi üçün onunla iki görüş keçirdim. Bu kontekstdə mən bir qədər əvvəl Azərbaycandan bu sahələrə müəyyən investisiyalar yatırılmasını təklif etdim. Bir şərtlə ki, Siz və komandanız onları ilkin olaraq 2 milyard dollardan başlayaraq təsdiqləyəsiniz və sonra biz həqiqətən də irəli gedə bilək.

Bundan əlavə, əlbəttə ki, Pakistanın xeyrinə böyük lütfünüzə - düyü ixracına görə mən necə təşəkkür etməyə bilərəm. Heç bir gömrük rüsumu yoxdur, düyü ixracı rüsumdan tamamilə azad olunub. Azərbaycandan başqa heç bir ölkə bunu etməyib. Məhz buna görə biz bu unikal əlaqələrdən bu qədər məmnunuq.

Zati-aliləri, mən daha bir neçə məqamı qeyd edərdim, lakin indi sözü Sizə verirəm.

***

**Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:**

– Əziz qardaşım Baş nazir. İlk növbədə, dəvətə görə təşəkkür edirəm. Yenidən qardaş ölkə Pakistanda olmağa və Sizinlə fəal dialoqumuzu davam etdirməyə çox şadam. Biz beynəlxalq tədbirlər çərçivəsində, həmçinin ötən ilin iyununda Sizin Azərbaycana rəsmi səfəriniz zamanı dəfələrlə görüşmüşük. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, biz bir aydan az vaxt bundan əvvəl bir-birimizi Qurban bayramı münasibətilə təbrik edərkən bu səfərlə bağlı razılığa gəldik. Komandalarımız görüşə hazırlıq üçün gərgin və fəal şəkildə

çalışdılar. O, yaxşı təşkil olunub. Biz əməkdaşlığımızın bir çox sahələrini əhatə edən 15 sənəd imzalayacağıq. Lakin Siz tamamilə haqlısınız, tərəfdaşlığımızın təməlini bizim qardaşlığımız, Pakistan və Azərbaycan xalqlarının bir-birinə münasibətdə qardaşlıq hissləri təşkil edir. Biz həmişə çətin zamanlarda bir-birimizin yanında olmuşuq. Biz əlbəttə, xatırlayırıq ki, 2020-ci ildə Vətən müharibəsi zamanı Pakistan öz bəyanatları ilə Azərbaycana açıq şəkildə siyasi dəstək verən ölkələrdən biri idi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyini birmənalı şəkildə ifadə edirdi. Bizim Cəmmu və Kəşmirlə bağlı mövqeyimiz yaxşı məlumdur. Biz İslam Əməkdaşlıq Təşkilatının Təmas Qrupunun üzvləriyik. Biz Cəmmu və Kəşmir əhalisinin hüquqlarını qətiyyətlə dəstəkləyirik və əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini dəstəkləyirik. Beləliklə, haqq Sizin tərəfinizdədir, ədalət, beynəlxalq hüquq Sizin tərəfinizdədir. Azərbaycan öz mövqeyini birmənalı şəkildə ifadə edən və öz mövqeyini müdafiə edən ölkələrdən biridir. Biz ikitərəfli formatın geniş gündəliyini hazırladıq. Sahələrdən biri investisiya imkanlarıdır. Bu gün bir qədər əvvəl görüşümüz zamanı müzakirə etdiyimiz kimi, biz Pakistanda investisiya layihələri ilə bağlı praktiki təklif görmək istəyirik. Komandalarımız əlbəttə ki, bu gün bununla məşğul olacaqlar.

****



İyulun 11-də İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Mohammad İşaq Dar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında Saziş"i Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında preferensial ticarət Sazişi"ni Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.








“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Pakistanın kommunikasiyalar və özəlləşdirmə naziri Abdul Alim Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

“Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu”nu Pakistanın hüquq və ədliyyə naziri Azam Nazir Tarar və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

“Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Pakistanın energetika naziri Musadik Masud Malik və Azərbaycanın energetika naziri Pərviz Şahbazov mübadilə etdilər.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli İrs və Mədəniyyət İdarəsi arasında 2024-2029-cu illər üzrə mədəni mübadilə Proqramı”nı Pakistanın milli irs və mədəniyyət naziri Ataullah Tarar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

“Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texno-









logiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın informasiya texnologiyaları və telekommunikasiya naziri xanım Şaza Fatima Xavaca və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Pakistan İslam Respublikasının "Pakistan Televiziya Korporasiyası" MMC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu "Pakistan Televiziya Korporasiyası" MMC-nin sədri xanım Şahera Şahid və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"i Pakistanın Elm və Texnologiya Nazirliyinin katibi Ali Tahir və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Pakistanın Əyalətlərarası Əlaqələndirmə Nazirliyinin katibi Nadim İrşad Kayani və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Pakistanın Aviasiya Nazirliyinin katibi Saif Ancum və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Bakı şəhəri (Azərbaycan Respublikası) ilə İslamabad şəhəri (Pakistan İslam Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Anlaşma Memorandumu"nu İslamabad Paytaxt Korporasiyasının rəhbəri Muhammad Ali Randhava və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Pakistan İslam Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsi arasında Anlaşma Memorandumu"nu Pakistanın Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsinin baş icraçı direktoru Sokrat Aman Rana və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında Anlaşma Memorandumu"nu Pakistanın Ədəbiyyat Akademiyasının sədri xanım Naciba Arif və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

# Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirak edib







İyulun 18-də Oksfordda “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının açılış plenar sessiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Plenar sessiya başa çatandan sonra iştirakçılar birgə foto çəkdiriblər.




***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda “Avropa Siyasi Birliyi”nin 4-cü Zirvə toplantısı çərçivəsində “Enerji və bağlantı” mövzusunda dəyirmi masada iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur. Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir.

Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi - Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumıniya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir - Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Sessiyadan əvvəl cənab Baş nazirlə müzakirə etdik ki, dünən Sloveniya-Azərbaycan qaz əməkdaşlığı istiqamətində mühüm hadisə baş verdi. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik. İndi Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq.

Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bu, sadəcə, qazımıza olan tələbatın bir nümunəsidir. Digər bir məqam isə qazıntı yanacağı və onun müəyyən demonizasiyası ilə bağlıdır. Mən bu məsələ ilə bağlı şərhlərimi daha sonra bildirərəm.

Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və







qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - Cənub Qaz Dəhlizi 2020-ci il dekabrın 31-də istismara verilib. Sözsüz ki, müqavilələr bundan əvvəl imzalanmışdı və biz avropalı tərəfdaşlarımızı dərhal təchiz etməyə başladıq. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi – Cənub Qaz Dəhlizi istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq.

# Prezident İlham Əliyev Oksfordda Almaniyanın Kansleri Olaf Şolts ilə görüşüb








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.

Söhbət zamanı Prezident İlham Əliyevin bu ilin aprelində Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı məmnunluqla xatırlandı, bu çərçivədə Olaf Şolts ilə keçirilmiş görüş və müzakirə olunan məsələlər bir daha vurğulandı.

Almaniya Kansleri Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Prezidentinin Kansler Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş birgə görüşünün vacibliyi bildirildi.

Bunun ardınca Almaniya tərəfinin dəstəyi və ev sahibliyi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşünün keçirildiyi qeyd olundu.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesinin tərkib hissəsi kimi sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunmuş uğurları xüsusi qeyd etdi, delimitasiya prosesi ilə əlaqədar sənədlərin razılaşdırıldığını və prosesin bu xətt üzrə davam edəcəyini bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh gündəliyini, sülh müqaviləsinin tezliklə imzalanmasını və sülh prosesini dəstəkləyir. Amma bunun üçün, ilk növbədə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin dəstəyi ilə keçirilmiş görüşündə də bu məsələlərin müzakirə olunduğu vurğulandı.

Görüşdə COP29-la əlaqədar hazırlıq prosesi müzakirə olundu. Azərbaycan ilə Almaniyanın bu sahədəki əməkdaşlığı təqdir edildi və yüksək qiymətləndirildi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan COP29-la əlaqədar dünya ölkələri, xüsusilə Qlobal Cənub və Qlobal Şimal arasında konsensusun qurulması, həmrəyliyin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirildi.

Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Prezident İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.





Parka keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

# Dövlətimizin başçısı Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini təltif edib





Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib.

Görüşdə çıxış edən **dövlətimizin başçısı İlham Əliyev dedi:**

– İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq – 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir.



Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı – Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.

***

**Olimpiya çempionu, cüdoçu Hidayət Heydərov** çıxış edərək dedi:

– Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los-Anceles Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.














Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim Bayrağımız qalxdı və Himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.

**Prezident İlham Əliyev:** Sağ ol.

***

Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı dedi ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzuladı.

***






Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.



# Rusiya Prezidenti Vladimir Putin Azərbaycanda dövlət səfərində olub

Azərbaycan Respublikasında dövlət səfərində olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 19-da rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Rusiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Rusiya Prezidentinə raport verdi.









Rusiya Federasiyasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər birgə foto çəkdirdilər.

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü olub.







Görüşdə çıxış edən **Prezident İlham Əliyev dedi:**

– Hörmətli Vladimir Vladimiroviç. Hörmətli nümayəndə heyətlərinin üzvləri. Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram.

Dünən və bu gün artıq ikitərəfli gündəliyi nəzərdən keçirdik. Qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etdik və indi işimizi geniş tərkibdə davam etdiririk.

İlk növbədə, Sizi bir daha salamlamaq istərdim. Siz birinci dəfə deyil ki, Azərbaycana gəlirsiniz, amma ilk dəfədir dövlət səfəri edirsiniz və bu səfər ikitərəfli münasibətlərimiz üçün müstəsna əhəmiyyətə malikdir.

Bu gün Sizinlə artıq fikir mübadiləsi apardıq, dost, qonşu və müttəfiq olan ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə etdik. Bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Bu, çox mətləblərdən xəbər verir. Yəni, qarşılıqlı fəaliyyətin müzakirəsi üçün mövzular çoxdur və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir.

Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq.

Bir daha xoş gəlmisiniz.

**Prezident Vladimir Putin** çıxış edərək dedi:

– Dəvətə görə çox sağ olun İlham Heydər oğlu. Siz də artıq qeyd etdiyiniz kimi, bizim hər iki tərəfdən geniş nümayəndə heyətimiz var. Rusiya Federasiyası Hökuməti demək olar ki, tam heyətdə buradadır.

Artıq Sizinlə qeyd etdik və xatırladıq ki, bu yaxınlarda, on gün əvvəl hökumətlərarası komissiyanın iclasında münasibətlərimizin inkişaf etdiyi bildirildi – təkcə bildirilmədi, həm də qeyd edildi ki, biz 2022-ci ilin müvafiq Bəyannaməsində təsbit olunmuş və Sizin cari ilin aprelində səfəriniz zamanı əldə olunmuş razılaşmaları tam həcmdə yerinə yetiririk.





Belə geniş tərkibdə iş bizə ən yaxın perspektivdə gələcəyə yönəlmiş addımları müəyyən etməyə imkan verir. Hərçənd, əvvəlki görüşümüz "məhdud tərkibdə" adlansa da tamamilə prioritet xarakterli bir sıra məsələlər tam nəzərdən keçirildi.

Biz hələ müvafiq sənədləri imzalamalıyıq, həmkarlar isə dünən axşam, bizim də Sizinlə etdiyimiz kimi, qeyri-rəsmi şəraitdə, bu gün isə artıq gün ərzində öz aralarında ünsiyyət qurmaq və ən yaxın perspektiv üçün addımları müəyyənləşdirmək imkanı əldə etdilər.

Beləliklə, Sizə təşəkkürümü bildirirəm. Yəqin ki, hökumətlərarası komissiyanın rəhbərlərinə söz vermək olar.

**Prezident İlham Əliyev:** Sağ olun.

***

Avqustun 19-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə mübadiləsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarının Birgə Bəyanatını qəbul etdilər.

"Azərbaycan Respublikasının ixracın və investisiyaların təşviqi Agentliyi - AZPROMO ilə "Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kirill Dmitriyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqlim dəyişmələri və aşağı karbonlu inkişaf üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Federal Əmək və Məşğulluq Xidməti (Rusiya Federasiyası) arasında əməyin təftişi məsələləri üzrə qarşılıqlı anlaşma və əməkdaşlıq Memorandumu"nu Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Rusiya Federasiyasının Əmək və Məşğulluq Federal Xidmətinin rəhbəri Mixail İvankov mübadilə etdilər.








"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında qida məhsullarının təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyası İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət Federal Xidmətinin rəhbəri Anna Popova mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətinin rəhbəri Sergey Dankvert mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko mübadilə etdilər.

# Daşkənddə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib



Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.

Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev Meydanının və Ulu Öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Həmin il Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Ulu Öndərin barelyefinin açılışında iştirak ediblər.











Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib.

İclasda əvvəlcə Özbəkistan Prezidenti çıxış etdi.

## Prezident Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli İlham Heydər oğlu.

Bugünkü iclasımızın iştirakçıları.

Hörmətli İlham Heydər oğlu, Sizi və Azərbaycan nümayəndə heyətinin üzvlərini, qardaşlarımızı Özbəkistanda salamlayıram. Sizi bir daha salamlamağa şadam. Özbəkistana xoş gəlmisiniz.

Vurğulayım ki, Sizin indiki dövlət səfəriniz həqiqətən də tarixidir. Birincisi, bu gün məhdud tərkibdə görüşdə danışdığımız kimi, müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Ən əsası, bir neçə il ərzində Sizinlə birgə Özbəkistan-Azərbaycan münasibətlərini ən yüksək dövlətlərarası qarşılıqlı fəaliyyət səviyyəsinə qaldıra bildik. Bu, bizim real uğurumuzdur. Zənnimcə, bu gün xalqlar, insanlar eşidəcəklər ki, biz müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Bu, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Başlıcası, biz ölkələrimizi yaxınlaşdırdıq, artıq dediyim kimi, xalqlarımız həqiqətən də bir-birinə qardaşcasına münasibət göstərirlər. Bizim hər görüşümüz xalqlarımızı yaxınlaşdırır və məmnuniyyətlə demək istəyirəm ki, bu gün Sizin sözün həqiqi mənasında Özbəkistana tarixi səfəriniz həyata keçirilir.



İkincisi, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclasını keçiririk. Dövlət başçılarının sədrliyi ilə bu Şuranı çoxplanlı əməkdaşlığımızın inkişafının konkret məzmunla zənginləşdirilməsini daha səmərəli mexanizm hesab edirəm. Çünki bizim hər görüşümüzdə konkret tapşırıqlar veririk və indi də bu, istisna olmadı. Biz məhdud tərkibdə görüşdə geniş müzakirə apardıq.



Bu gün bu barədə geniş tərkibdə də danışacağıq və növbəti görüşümüzə qədər birgə qərarlar qəbul edəcəyik. Qeyd edim ki, müasir dünyada böyük nəticələr o zaman əldə olunur ki, siyasi iradə və qarşılıqlı dəstək olsun. Bizdə iki prezidentin siyasi iradəsi də, hər iki tərəfdən dəstək də var. Fikrimcə, komandalarımız artıq bunu görür və dərindən hiss edirlər.

Hörmətli İlham Heydər oğlu, əvvəlcə Sizi Azərbaycanda islahatların uğurla keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Yaxın qonşular və qardaşlar olaraq, biz uğurlarınıza sevinirik. Ölkənizin necə dinamik inkişaf etdiyini görür və buna ürəkdən sevinirik. Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını həyata keçirə bildiniz, Azərbaycanda davamlı inkişaf yeni sahələrin və infrastrukturların hesabına təmin edilir. Bütün bunlar əhalinin rifah halının durmadan yüksəlməsinə gətirib çıxarır. Ölkənin beynəlxalq nüfuzu artır. Bu il Azərbaycan dünyanın ən böyük tədbirlərindən birinə – Qlobal İqlim Sammitinə ev sahibliyi edəcək. Belə bir sammit bizim geniş regionumuzda ilk dəfədir ki, keçirilir. Bu, heç vaxt olmayıb. Bu, Sizin xarici siyasət kursunun səmərəliliyinin etiraf olunmasını bir daha təsdiq edir. Sizə böyük uğurlar arzulayıram. Biz bu barədə danışdıq, həmişə Sizinlə birlikdə olacağıq, həmçinin biz də bu sammitə ciddi hazırlıq görürük.

Hörmətli İlham Heydər oğlu, nümayəndə heyətlərinin qarşısında ölkənizin ərazi bütövlüyünün bərpa olunmasında və Azərbaycanın əzəli torpaqlarının qaytarılmasında Sizin tarixi rolunuzu bir daha qeyd etmək istəyirəm. Siz öz atanızın və xalqınızın ən böyük arzusunu yerinə yetirdiniz. Bu gün Qarabağ gözlərimizin qarşısında dirçəlir, çiçəklənən diyara çevrilir. Mən özüm həm Füzulidə, həm də Şuşada bunları öz gözlərimlə gördüm və sevindim.

İrimiqyaslı sosial-infrastruktur və sənaye layihələri həyata keçirilir. Biz məhdud tərkibdə görüşdə ərazilərimizin inkişafı üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını ətraflı müzakirə etdik, ayrıca proqramın - yol xəritəsinin qəbul edilməsi, regionların üçüncü Forumunun keçirilməsi, həmçinin turistik komplekslərin paytaxtda yaradılması üzrə razılığa gəldik. Biz artıq bu barədə danışmışıq.

Hörmətli nümayəndə heyətlərinin üzvləri, son bir neçə il ərzində Özbəkistan-Azərbaycan əməkdaşlığı xeyli genişlənib. Parlamentlər, hökumətlər, nazirliklər və idarələr arasında sıx təmaslar var. Mütəmadi olaraq, Hökumətlərarası Komissiyanın iclasları, Biznes Şurası, forumlar, sərgilər və mədəniyyət tədbirləri keçirilir. Biznes dairələri arasında tərəfdaşlıq genişlənir.

Hörmətli İlham Heydər oğlunun bizim görüşümüzə Azərbaycanın biznes liderlərini dəvət etməsinə ürəkdən şadam, onlar sanballı iş adamlarıdır. Zənnimcə, tezliklə nəticələri görə biləcəyik. Ciddi nəticə əldə ediləcək. Əminəm ki, bu dialoq çox məhsuldar olacaq.

Ümumilikdə, ikitərəfli münasibətlərin hazırkı səviyyəsinə qiymət verərkən vurğulamaq istəyirəm ki, birgə səylərlə çox böyük işlər görülüb. Amma görüləsi daha çox iş var, çünki biz prezidentlər artıq bir-birimizi və iş adamlarını, şirkətləri, nazirlikləri və idarələri rəsmi hissədə olarkən dediyimiz kimi, əzbərdən bilirik. Bu da onu göstərir ki, tez-tez görüşdüyümüzə görə real nəticələr əldə olunur.

Növbəti ildə diplomatik münasibətlərin 30 illiyini qeyd edəcəyik. Biz bu yubileyə ciddi nəticələrlə gəlməliyik. Bununla bağlı əsas vəzifələr üzərində dayanacağam. Birincisi, intensiv siyasi təmaslar və bütün il ərzində gündəlikdəki məsələlər üzrə ahəngdar fəaliyyətin mübadiləsi üçün cədvəl hazırlamağı təklif edirəm. Bundan başqa, xarici işlər nazirliklərimiz qarşıdakı əlamətdar hadisə ilə əlaqədar tədbirlər proqramı hazırlayırlar. İkincisi, İlham Heydər oğlu, əgər Siz dəstəkləyirsinizsə, biz razılaşdıq ki, – mən artıq bunu məhdud tərkibdə görüşdə də dedim, – növbəti ili “Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili” elan edək və məhdud tərkibdəki görüşdə üzərində dayandığımız 20 prioritet istiqaməti əhatə edən kompleks proqram qəbul edək. Qarşıda əmtəə dövriyyəsinin həcmini dəfələrlə artırmaq və sənaye kooperasiyasını yeni fazaya keçirmək, o cümlədən üçüncü ölkələrdə layihələri reallaşdırmaq vəzifələri durur. Biz bu barədə də çox ciddi danışdıq. Görüşümüz üçün 2 milyard dollardan artıq məbləğdə perspektivli layihələr portfeli hazırlanıb. Onların reallaşdırılmasını bu gün biznes nümayəndələri ilə ətraflı müzakirə edəcəyik.

Bundan başqa, Birgə İnvestisiya Fondu da səmərəli fəaliyyətə başladı. Siz də dediyiniz kimi, layihələr olarsa, biz hər iki tərəfdən Fondu genişləndirəcəyik. Çünki bu, biznes və real layihələrin həyata keçirilməsi üçün çox yaxşı dəstəkdir. Hesab edirəm ki, layihələrin dəstəklənməsinin bu aləti saat kimi işləməlidir. Çünki onlar işləyirlər, amma bu gün biz iş adamlarını da eşidəcəyik, onları bu məsələdə də dəstəkləyəcəyik. Üçüncüsü, nəqliyyat-kommunikasiya, energetika və digər infrastruktur layihələri vasitəsilə ölkələrimizin qarşılıqlı əlaqələrini gücləndirmək vacibdir. Artıq çoxtərəfli formatda fəal iş aparırıq. Bu əməkdaşlığı tam şəkildə dəstəkləyirəm. Aviareyslərin sayının artırılmasını, yerüstü, hava daşımalarının maksimum dərəcədə yüngülləşdirilməsini, rəqəmsal həllərin tətbiqini də vacib hesab edirəm. Biz artıq bu barədə məhdud tərkibdəki görüşdə danışmışıq.

Dördüncüsü, mədəniyyət və incəsənət, təhsil, səhiyyə, gənclər və informasiya siyasəti, idman sahələrində fəal mübadiləni davam etdirmək lazımdır. Bu sahələrə cavabdeh olan nazirlərimiz müntəzəm görüşlər keçirməlidirlər.

Bu gün incəsənət ustalarının, o cümlədən əfsanəvi mədəniyyət xadimləri Fərrux Zakirov və Polad Bülbüloğlunun iştirakı ilə birgə konsert olacaq. Bu yaxınlarda hörmətli İlham Heydər oğlu ilə onlara ölkələrimizin Xalq artistləri adı vermişik.

Bundan başqa, Özbəkistan və Azərbaycan universitetlərinin rektorlarının müntəzəm görüşləri mexanizmini yaratmağı təklif edirik.

Hörmətli İlham Heydər oğlu, Bakıdakı görüşlərimizin birində, həm də məhdud tərkibdə görüşdə demişdim ki, biz ikitərəfli münasibətlərimizin inkişafının mühüm informasiya-analitik kontekstindən, əməkdaşlığımızın yeni imkanlarının dərin təhlili və üzə çıxarılması potensialı ilə bağlı birgə layihələrdən danışmışıq. Bugünkü iclasımızda iqtisadi təhlil mərkəzlərindən birinin rəhbəri iştirak edir. Əgər Siz razılıq verərsinizsə, o, öz komandası ilə bayramlardan sonra, növbəti həftədə yəqin ki, – bizim Müstəqillik Günündən sonra birbaşa Azərbaycana yollanacaq. Etiraz etmirsinizsə, bayramlardan sonra birhəftəlik deyil, ongünlük gələcək, iyirmi sahə istisna olmaqla, bizim gələcəkdə inkişaf etdirəcəyimiz sahələrin yaxşı iqtisadi təhlilini aparacaq, həm də biz bununla başqa resursları və ehtiyatları üzə çıxara bilərik. O, öz komandası ilə birlikdə yaxın vaxtlarda azərbaycanlı tərəfdaşlarla bu tədqiqata hazırlıq məqsədilə Bakıda olacaq. Ümidvaram ki, bu, gələcək üçün yaxşı kömək olacaq.

Beləliklə, hörmətli İlham Heydər oğlu, bunlar mənim demək istədiklərimin hamısıdır. Biz məhdud tərkibdə görüşdə çox ətraflı danışdıq. Məmnuniyyətlə sözü Sizə verirəm.

***

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Əziz qardaşım, hörmətli Şavkat Miromonoviç, sağ olun. İlk növbədə, dəvətə görə bir daha minnətdarlığımı bildirmək istərdim. Qardaş Özbəkistana yenidən böyük məmnuniyyətlə səfər edirəm. Yeni görüşümüzə şadam.

Siz də qeyd etdiyiniz kimi, məhdud tərkibdə görüşdə münasibətlərimizin geniş gündəliyini artıq nəzərdən keçirdik, əməkdaşlığın yeni istiqamətlərini müəyyən etdik. Əlbəttə, bu gün geniş tərkibdə - Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı münasibətlərimizin mühüm məsələlərini müzakirə edəcəyik.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması



ilə bağlı sözlərinizə görə xüsusi təşəkkürümü bildirmək istəyirəm, həmçinin azad edilmiş ərazilərə bir neçə dəfə səfər etdiyiniz üçün Sizə xüsusi minnətdarlığımı ifadə edirəm. Əlbəttə, azad olunmuş ərazilərin bərpasında köməyə görə Füzuli şəhərinin sakinləri və Azərbaycanın bütün əhalisi adından xüsusi təşəkkürümü bildirirəm. Bu, xarici dövlətin infrastrukturun bərpası üzrə Azərbaycana ilk hədiyyəsi idi. Mirzə Uluqbəyin adını daşıyan məktəb düz bir il əvvəl açılıb. Elə bu gün, avqustun 23-də biz Sizinlə Füzulidə və Şuşada olduq. Orada artıq 500 şagird təhsil alır. Sakinlərin qayıdacağını nəzərə alsaq, onların sayı artacaq.

Ölkələrimiz arasında möhkəm münasibətlər artıq bütün sınaqlardan çıxıb və bu gün ən yüksək səviyyəyə çatıb. Siz də qeyd etdiyiniz kimi, bu müttəfiqlik münasibətləridir və bundan yüksəyi yoxdur. Biz buna nisbətən qısa zaman ərzində nail olduq, məhz hər iki tərəfdən siyasi iradə nümayiş etdirdik, həmçinin ölkələrimizi və xalqlarımızı maksimum yaxınlaşdırdıq. Əminəm ki, həm Özbəkistanda, həm də Azərbaycanda ictimaiyyət bizim qazandığımız nailiyyətləri diqqətlə izləyir və bizimlə birlikdə sevinir.

Heydər Əlirza oğlu Əliyevin xatirəsinə göstərilən ehtirama görə təşəkkürümü bildirmək istərdim. İki il əvvəl Daşkəndə səfərim zamanı biz Sizinlə birlikdə onun adını daşıyan parkın və barelyefinin açılışını etdik. Dünən bu məkanı ziyarət edərkən qəlbimdə bir daha Sizə təşəkkür etdim.

Əlbəttə, Özbəkistanın inkişafı ilə bağlı heyranlıq sözlərimi ifadə etmək istəyirəm. Mən həm Xivəyə, həm Səmərqəndə səfər etdim. Uzun illər əvvəl Səmərqənddə olmuşam. Bu yaxınlarda etdiyim səfər bir daha ölkənin inkişafı sahəsində Sizin həyata keçirdiyiniz müdrik siyasətdən xəbər verir. Bu, şəhərin görkəminin necə dəyişməsində, paytaxtın və Özbəkistanın regionlarının simasının gözəlləşməsində özünü göstərir. Beynəlxalq icmanın mühüm üzvünə çevrilən Özbəkistan bu gün təkcə öz regionunda deyil, həm də dünya məkanında geniş nüfuz qazanıb. Əlbəttə, bütün bunların arxasında iqtisadi inkişaf durur. Siz ölkədə iqtisadi münasibətləri tamamilə yenidən qurmağı və bu sahəni, eyni zamanda, bütün digər sahələri modernləşdirməyi bacardınız.

Qardaş Özbəkistanın idmançılarının tarixi qələbəsi ilə bağlı xüsusi təbriklərimi çatdırıram. Biz onların qələbəsinə özümüzünkü kimi sevinirdik. Səkkiz qızıl medal, müsəlman ölkələri arasında birinci yer və bütün ölkələr üzrə 13-cü yer – bu tarixi nailiyyət Sizin idmanın inkişafına göstərdiyiniz böyük diqqətin təzahürüdür.

Bugünkü iclas çərçivəsində biz, əlbəttə, nümayəndə heyətlərimizin üzvlərini də dinləyəcəyik. Siz də qeyd etdiyiniz kimi, iqlim konfransının keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təbii ki, Sizi səbirsizliklə gözləyirik və həmçinin ikitərəfli formatda işləyirik. Çünki konfransın keçirilməsi mühüm hadisədir. Amma növbəti ildə də böyük iş aparılacaq, biz mahiyyət etibarilə bu prosesə sədrlik edəcəyik. Əlbəttə, bizim regionumuzda da, Mərkəzi Asiya regionunda da iqlimlə bağlı çoxlu məsələlər var və ikitərəfli formatda fəal əməkdaşlıq etməyə hazırıq. Prinsipcə, bu əməkdaşlıq artıq başlayıb.

Beləliklə, dəvətə, diqqətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edərək, Sizi növbəti ildə yenidən Azərbaycana dövlət səfərinə dəvət edirəm. Amma biz hələ noyabrda COP konfransında görüşəcəyik, lakin növbəti ildə Sizi dövlət səfəri ilə gözləyirik. Sağ olun.



Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə”ni imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev “Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı”nı qəbul etdilər.



“Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı”nı Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Özbəkistan Respublikasının Turizm Komitəsinin sədri Umid Şadiyev imzaladılar.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi”ni Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Özbəkistan Res-








publikasının mədəniyyət naziri Ozodbek Nazarbekov imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının məktəbəqədər və ümumi təhsil naziri xanım Xilola Umarova imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar naziri Konqratbay Şaripov imzaladılar.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin






Ədliyyə Akademiyası ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin yanında Hüquqşünasların İxtisasının Artırılması Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi yanında H.Sulaymanova adına Respublika Məhkəmə Ekspertizası Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev və Özbəkistan Respublikasının Milli Qvardiyasının komandanı Rustam Curayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistan Respublikasının məşğulluq və yoxsulluğun azaldılması naziri Bexzod Musayev imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024-2025-ci illər üçün Praktiki Fəaliyyət Planı"nı ("Yol xəritəsi") Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratov imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov imzaladılar.

Səfər çərçivəsində, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Uzbekneftegaz" SC arasında Əsas Şərtlər Sazişi" imzalanıb.

# Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər





Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs veriblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Sonra birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs verdilər.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 579 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 8 namizəd mübarizə aparmışdır.



# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub




Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verildi. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edildi.











Qeyd olundu ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

# Prezident İlham Əliyev Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib.

Dövlətimizin başçısına ali təhsil ocağında yaradılan şəraitlə bağlı məlumat verildi.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək-ixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb.

Dövlətimizin başçısının birbaşa diqqət və qayğısı nəticəsində qısa müddət ərzində Universitetdə müasir tədris infrastrukturu yaradılıb. Ali təhsil ocağının bütün ərazisində genişmiqyaslı abadlıq işləri həyata keçirilib. Əsas tədris binasının qarşısındakı park sökülüb, onun yerində 2,3 hektar ərazidə müasir tələblərə uyğun yeni park salınıb.

Prezident İlham Əliyev Qarabağ Universitetində yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, bütün tədris binaları əsaslı təmir olunub. Əsas tədris binasının fasadı yenilənib, kommunikasiya xətləri quraşdırılıb, tədris və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz edilib.

Qarabağ Universiteti hazırda 3 tədris binasında yerləşir. Əsas tədris binasında Pedaqoji, Mühəndislik, Humanitar və sosial elmlər, İqtisadiyyat və Turizm fakültələri, 2-ci tədris binasında İncəsənət fakültəsi, 3-cü tədris binasında isə Beynəlxalq dil mərkəzi fəaliyyət göstərir.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 (Fizika, Kimya, Mexatronika, Robototexnika, Kompüter və qrafiki dizayn, Kompüter və proqramlaşdırma) laboratoriya yaradılıb.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanasının xidmətlərindən eyni vaxtda 200 tələbə istifadə edə bilər. Kitabxananın fondunda Azərbaycan, ingilis və rus dillərində 6 mindən çox dərslik və digər ədəbiyyat mövcuddur. Burada tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər.

Qeyd edildi ki, bu tədris ilində ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə - Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq.

Hazırda universitetin 160 əməkdaşı var. Onlardan 60 nəfəri akademik heyətin üzvü, 100 nəfəri isə

inzibati və texniki heyətin üzvüdür.

Kadr heyətinin seçimi zamanı Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilib. Müvafiq vəzifələrin tutulması üzrə vakansiya elanları Elm və Təhsil Nazirliyinin rəsmi saytında və universitetin sosial şəbəkə hesablarında geniş ictimaiyyətin diqqətinə çatdırılıb.








Hazırda peşəkar və təcrübəli yerli və xarici professor-müəllim heyətinin akademik fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu prosesdə xaricdə yaşayan azərbaycanlı alimlər və müvafiq dövlət proqramları ilə nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil alan gənclər diqqət mərkəzində saxlanılır.

Bildirildi ki, 2024/2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer nəzərdə tutulub. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən 1104 tələbə qəbul olub və qəbul planı 98,5 faiz yerinə yetirilib.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Ən yüksək nəticə 683,8 balla Hüquqşünaslıq ixtisası üzrə qeydə alınıb. Olimpiada qalibi olan bir abituriyent universitetin Elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilib. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə orta qəbul balı 467,6 təşkil edib.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində Hüquqşünaslıq, Xarici dil müəllimliyi (ingilis dili), Maliyyə və Mühasibat ixtisasları üzrə SABAH qrupları təşkil olunub. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsil alacaq.

Dövlətimizin başçısı Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı







– Sabahınız xeyir olsun. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək.

Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.

Bildiyiniz kimi, 44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə

deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz.

Bildiyiniz kimi, bu gün dünyada bir çox yerlərdə müharibələr, hərbi münaqişələr, toqquşmalar gedir, onların sayı azalmır, artır və indi hər şey göz qabağındadır. Müqayisə etmək üçün də kifayət qədər imkanlarımız var, məlumatlarımız var. 44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, – müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir.

Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Ancaq əminəm ki, hər bir qərəzsiz təhlilçi, hərbi ekspert və obyektiv insan bizim bütün bu 44 günlük qəhrəmanlıq salnaməsini təhlil edərək eyni nəticəyə gəlməlidir.

O ki qaldı, antiterror əməliyyatının keçirilməsinə, burada da cəmi bir neçə saat davam edən əməliyyat Azərbaycan Ordusunun tam zəfəri ilə başa çatmışdır. Ermənistan ordusunun 15 mindən çox hərbi kontingenti tamamilə iflic vəziyyətinə düşmüşdür və bir neçə saatdan sonra kapitulyasiya şərtlərini artıq biz onlarla müzakirə etməyə başlamışdıq. İndi deyilir ki, 23 saat davam etdi, bəli ümumi proses 23 saat davam etdi. Ancaq bu prosesin hərbi hissəsi bir neçə saat davam etmişdir. Bütün bunlar bir daha dövlətimizin gücünü, xalqımızın iradəsini, gənc nəslin tərbiyəsini, bacarığını göstərir. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz.

İşğal dövründə keçmiş köçkünlərlə mənim çoxsaylı görüşlərim olmuşdur. Bildiyiniz kimi, onların yaşayış şəraitini yaxşılaşdırmaq üçün dövlət bir çox önəmli layihələr icra etmişdir. Biz demək olar ki, hər il 15-20 min keçmiş köçkünü yeni qəsəbələrə, evlərə, mənzillərə köçürürdük və beləliklə, onların yaşayış səviyyəsi yaxşılaşırdı. Təqribən 300 mindən çox keçmiş köçkün artıq o yataqxanalardan, o yararsız yerlərdən, uşaq bağçalarından köçürülmüşdü. Ancaq, eyni zamanda, onlarla hər dəfə görüşəndə deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, gün gələcək və azad edilmiş torpaqlarda sizin üçün daha gözəl şərait yaradılacaq. Mən buna inanırdım, onlar da inanırdılar, bütün xalqımız buna inanırdı, bu fikirlə yaşayırdı. Amma, eyni zamanda, illər keçdikcə mən görürdüm ki, onların ümidləri yavaş-yavaş azalır. Bu da təbiidir, çünki işğal təxminən 30 il davam etdi.

Minlərlə, on minlərlə keçmiş köçkün bu Qələbə gününü görə bilmədi, həyatdan getdi. Təbii olaraq dünyada gedən prosesləri təhlil edərək mövcud ədalətsizliyi, beynəlxalq hüququn işləməməsini, böyük dövlətlərin Ermənistanın arxasında dayanmasını, bütün bunları – geosiyasi vəziyyəti təhlil edərək ola bilər kimsə belə fikrə gələ bilərdi ki, bu işğalla biz əbədi yaşamalıyıq. Biz bütün bu tezisləri, bütün bu paradiqmaları darmadağın etdik. Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz – nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, – nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz. Biz bütün dünyaya və bu gün işğaldan əziyyət çəkən, hətta müstəmləkəçilikdən əziyyət çəkən xalqlara göstərdik ki, inamla yaşamaq lazımdır. İnam heç vaxt qırılmamalıdır. Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz. Amma dünyada ədalət var. Prezident kimi müəyyən dövrlərdə mənim də ağlıma belə fikirlər gəlirdi ki, yəqin dünyada ədalət yoxdur. Amma bilirdim ki, bu ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Sən haqlısan, bütün dünya da sənin haqlı olduğunu etiraf edir, bilir, ancaq nəticə yoxdur. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır. Əlbəttə ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün bizim nümunəmiz bir ümid işığıdır. Bu, önəmlidir. Amma bizim xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək - bax, bu, əsas hədəflərimizdir. Bunu təmin etmək üçün əlbəttə ki, dövlət siyasəti olmalıdır və var. Cəmiyyətdə birlik olmalıdır, bu da var. 44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər. Onlar, ilk növbədə, milli ruhda tərbiyə almalıdırlar, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiq olmalıdırlar. Heç kimin təsiri altına düşməməlidirlər, müxtəlif vədlərə aldanmamalıdırlar. Bizim bu 30 illik işğal dövrümüz onu göstərdi. Demək olar ki, bütün böyük güclər, onların hamısı bu işğalı əbədi etmək istəyirdi. Heç biri istəmirdi ki, xalqımız bu işğaldan yaxasını qurtarsın. Yəni, daim bizi təzyiq altında saxlamaq, daim bu işğaldan bir təsir amili kimi

istifadə etmək, öz maraqlarını təmin etmək və nəticə etibarilə bizi bu vəziyyətlə barışdırmaq istəyirdilər. İşğal dövründə müxtəlif paytaxtlardan gələn qonaqlar dəfələrlə deyirdilər ki, bu məsələnin, bu münaqişənin hərbi həlli yoxdur. Bəlkə sizin də yadınızdadır ki, belə bir tezis var idi – bunun hərbi həlli yoxdur, sülh yolu ilə həll olunmalıdır. Eyni zamanda, o vaxt "Birinci Qarabağ" deyilmirdi, amma Qarabağ müharibəsinin nəticələri də nəzərə alınmalıdır. Yəni, bizi nə ilə barışdırmaq istəyirdilər?! Məğlubiyyətlə. İstəyirdilər ki, xalqımız bu məğlubiyyətlə razılaşsın.

Digər tezis ondan ibarət idi ki, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Deməli, qeyri-hökumət təşkilatlarının xətti ilə müxtəlif seminarlar keçirilirdi. Bizdən olan xarici dairələrə satılmışlar da gedib o treninqlərdə ermənilərlə cici-bacılıq edirdilər, sövdələşirdilər, birləşirdilər, birgə məclislər təşkil edirdilər. Qaniçən, Xocalı soyqırımını törədən, Qarabağ bölgəsində bütün şəhər və kəndlərimizi viran qoyan düşmənlə hansı təmaslardan söhbət gedə bilərdi? Amma bu işğalı əbədi etmək istəyənlərin də məqsədi o idi ki, gələcək nəsil, gənc nəsil artıq müharibə istəməyəcək, biz Ermənistanla barışaq, işğal da yerində qalsın. Bax, bütün bu planları biz Azərbaycan xalqı darmadağın etdik, alt-üst etdik. Ona görə bu günə qədər bizə qarşı əsassız ittihamlar, təzyiqlər edilir. Mən hər səhər mətbuatla, o cümlədən Azərbaycan haqqında dünyanın müxtəlif yerlərində gedən yazılarla tanış oluram. Bu gün səhər tezdən baxıram, bizə qarşı nə qədər əsassız ittihamlar işlədilir. Özü də müxtəlif Qərb ölkələrinin siyasətçiləri və yüksək vəzifə tutanlar, bəzi ölkələrin rəsmi nümayəndələri belə bir qəbuledilməz ifadələr işlədirlər ki, Azərbaycan Qarabağı zəbt edib. Yəni, bu, ikiüzlülüyün, riyakarlığın zirvəsidir. Ölkə öz torpağını necə zəbt edə bilər?! Bizim müharibəmiz azadlıq müharibəsi idi. Yəni, bunu deyənlər, bizə qarşı ittihamlar irəli sürənlər də bunu yaxşı bilirlər. Sadəcə olaraq, ikili standartlar, ikiüzlülük, riyakarlıq, islamofobiya və xalqımıza olan düşmənçilik – biz bunu heç vaxt unutmamalıyıq və gənc nəsil bunu bilməlidir. Çünki təbii olaraq siz o illəri yaşamamısınız və tarixi kitablardan oxuyursunuz. Ona görə həm orta məktəblərdə, həm də ali məktəblərdə müəllimlərin üzərinə çox böyük vəzifə düşür. Mən bu gün bizim müəllimlərimizi, onların işini xüsusilə qeyd etmək istəyirəm. Çünki bizim gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların çox böyük rolu olmuşdur, bu gün də var. İki tərbiyə mənbəyi var - ailə və müəllim. Xoşbəxtlikdən Azərbaycanda ailə dəyərləri üstün tutulur və həmişə belə olmalıdır. Bizim ənənələrimiz bunu diktə edir və eyni zamanda, bəzi Qərb ölkələrində ailə dəyərlərinin tamamilə eybəcər formasına düşməsi hər birimizdə haqlı olaraq ikrah hissi doğurur. Ona görə ailə dəyərləri, ailə tərbiyəsi birinci növbədə qorunmalıdır. Yenə də deyirəm, müəllimlər uşaqların, gənclərin biliklərini artırmaq, eyni zamanda, onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işləyirlər. İkinci Qarabağ müharibəsi bunu göstərdi. Heç vaxt Qarabağı görməyən gənclər Qarabağ uğrunda ölümə gedirdilər, ölümə getməyə hazır idilər, şəhid oldular, yaralandılar. Ancaq yenə də bu Zəfəri təmin etmək üçün dayanmadılar. Hərbi hospitallara yerləşdirilmiş hərbçilərimizin bir çoxu həkimlərə müraciət edərək deyirdi ki, tezliklə məni sağaldın, ayağa qaldırın, yenə də gedim döyüşüm, belələrinin sayı çox idi. Yüngül yaralanmış hərbçilər müalicədən sonra yenə də könüllü olaraq döyüş bölgələrinə gedirdilər.

Bu gün, eyni zamanda, Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park yaradıldı. Master-plan hazırlandı, yəni gələcək illərdə, yəqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış

yeri olubdur, onun adı onu göstərir – Xanın kəndi. Sadəcə olaraq, yenə də Azərbaycana, xalqımıza qarşı düşmənçilik siyasəti nəticəsində uzun illər ərzində bizim nəzarətimiz burada ya zəif idi, ya da ümumiyyətlə, yox idi. Çünki XIX əsrin əvvəlində bağlanmış üç müqavilə – "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələri faktiki olaraq sonrakı işğalı da şərtləndirdi. Məhz bu müqavilələrdən sonra heç vaxt Qarabağ torpağında yaşamayan ermənilər kütləvi surətdə İrandan və Şərqi Anadoludan buraya köçürülmüşdür və bu, həqiqətdir, bu, dəqiq tarixdir. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur.

XX əsrin əvvəlində isə xalqımıza qarşı növbəti düşmənçilik addımları atılmışdır. 1923-cü ildə heç bir əsas olmadan Azərbaycanda, Qarabağda "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradılmışdı, sovet Azərbaycanı Respublikasının tərkibində. Bu vilayətin tabeçiliyi Sovet İttifaqının mərkəzinə bağlanmışdı. Beləliklə, bu bölgəni Azərbaycandan ayırmaq üçün növbəti addım atıldı. Ondan üç il əvvəl Zəngəzuru bizdən aldılar, yəni Qərbi Zəngəzuru, tamamilə əsassız. Bunu 1920-ci ilin noyabr ayında, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən bir neçə ay keçəndən sonra etdilər. 1923-cü ildə isə bizim canımıza növbəti saat bombasını saldılar və ondan sonra burada kütləvi erməniləşmə siyasəti aparılırdı. Müxtəlif yerlərdən, o cümlədən Ermənistandan sovet hökuməti erməniləri buraya şüurlu olaraq doldururdu ki, burada ermənilərin sayı, yəni ovaxtkı muxtar vilayət çərçivəsində daha çox olsun. Eyni zamanda, burada mövcud olan separatizm meyillərinə də düzgün reaksiya verilmirdi. Ancaq Ulu Öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndən sonra burada bütün separatçıların yuvaları dağıdıldı və sabitlik yaradıldı. Keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə azərbaycanlıların sayı 9 faizdən, təqribən 30 faizə qədər artdı. Dəmir yolu çəkildi ki, azərbaycanlılar müxtəlif bölgələrdən buraya daha tez gələ bilsinlər. Xankəndidə dəmir yolu vağzalı tikildi, böyük infrastruktur layihələri yaradıldı - Sərsəng, Suqovuşan su anbarları. Hansılar ki, ermənilər işğal dövründə bizi sudan da məhrum etmişdilər. Bir neçə müəssisə yaradıldı və bu müəssisələrdə çalışan azərbaycanlılar müxtəlif bölgələrdən, o cümlədən Qarabağ bölgəsindən gəldilər. Bütün bunlar davam edirdi. Ancaq 1987-ci ildə Heydər Əliyev istefaya göndəriləndən sonra yenə də separatçılar baş qaldırdılar və bu dəfə bu, xalqımıza çox baha başa gəldi. Bəlkə gənclər onu da bilmirlər, Heydər Əliyevin istefasından iki həftə sonra bir sovet erməni alimi Fransanın "Humanite" qəzetində məqalə dərc etmişdi ki, "Dağlıq Qarabağ Muxtar Vilayəti" Azərbaycandan çıxarılıb Ermənistana birləşməlidir. Cəmi iki həftədən sonra, - artıq Heydər Əliyev iqtidarda yox idi, - dərhal burada - Xankəndidə və Ermənistanda hərəkət başlamışdı, müxtəlif təşkilatlar yaradılmışdı. Mərkəzi hökumət, yəni Sovet İttifaqı rəhbərliyi buna laqeyd yanaşırdı. Hətta o, separatçıları, erməni millətçilərini, necə deyərlər, stimullaşdırırdı, onları daha da fəal olmağa təhrik edirdi. Qarşıya vəzifə qoyuldu ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi zəiflik, qorxaqlıq, bəzi hallarda xəyanət göstərmişdir. Həm 1980-ci illərin sonlarında, həm 1990-cı illərin əvvəllərində, həm kommunist, həm də Xalq Cəbhəsi hakimiyyətinin satqınlığı, qorxaqlığı, xəyanəti nəticəsində biz torpaqları itirdik.

Xankəndidən azərbaycanlılar qovuldu, ondan sonra – müstəqillik elan olunandan dörd ay sonra 1992-ci ilin fevralında Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa, Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcər. Beləliklə, xəritəyə baxsanız görərsiniz ki, bütün böyük bir bölgə nəzarətdən çıxdı və faktiki olaraq Ermənistanla Qarabağ bölgəsi arasında coğrafi əlaqə yaradıldı. Bax, bu idi bizim tariximiz.

Yenə də bu gün Ulu Öndərin xatirəsinə hörmət ifadə edərək bir daha deyirik və görürük ki, əgər 1993-cü ildə xalqın tələbi ilə o, Azərbaycana gəlməsəydi, Azərbaycan, ümumiyyətlə, dünya xəritəsindən silinə bilərdi. Sabitlik yaradıldı, inkişafa qədəm qoyuldu və quruculuq işlərinə başlandı. Quruculuq və inkişaf işlərinin məntiqi nəticəsi 8 Noyabr – Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr – Dövlət Suverenliyi Günü idi.

Mən bir daha sizi ürəkdən salamlayıram. Mən Azərbaycan tarixi haqqında çox danışa bilərəm. Çünki mən bu tarixi yaşamışam, son 30 ilin tarixini və bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman – əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun! Sizi təbrik edirəm.

***










Qarabağ Universitetinin rektoru Şahin Bayramov, tələbələrdən Fənarə Məmmədzadə, Rauf Penceyev, Zenfira Nəsirova çıxış etdilər.

***





Sonra Prezident İlham Əliyev universitetin həyətindəki parkda yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, burada 1,1 hektar sahədə yaşıllaşdırma işləri həyata keçirilib, müəllim və tələbələrin istirahəti üçün hər cür şərait yaradılıb.

Sonda Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə xatirə şəkli çəkdirildi.



# Dövlət başçısı yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edib




Sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.
Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.
Sonra dövlətimizin başçısı nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli deputatlar, xanımlar və cənablar.

Yeddinci çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik etmək istəyirəm, Milli Məclisə uğurlar arzulayıram.

Əminəm ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcəkdir.

Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin



biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır.

işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz.

Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir. Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik. Bununla bərabər, demək istərdim ki, arxayınlaşmaq üçün heç bir əsas yoxdur. Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək.

Ona görə bu gün bu fürsətdən istifadə edərək ölkə qarşısında duran bəzi vəzifələr haqqında öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istərdim.

Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa,

Bəli, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Hər kəs yaxşı bilir Minsk qrupu nə üçün yaradılmışdır – Qarabağ münaqişəsinin həlli üçün. Qarabağ münaqişəsi həll olunub, tam və birdəfəlik. Ermənistanın rəsmi dairələri də öz bəyanatları ilə sanki bunu etiraf edirlər. Amma bununla paralel olaraq, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq ancaq bir məqsədi güdə bilər ki, yenidən bizə qarşı ərazi iddiaları baş qaldırsın. Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə,



yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni, biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur.

Ona görə bir daha deyirəm: vəzifə nömrə bir - hərbi gücümüzün artırılması və biz bunu edirik. İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq.

Bununla paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçibdir. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz daha böyük olacaqdır, həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə. Burada bir neçə məqsəd güdülür. İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq. Təbii ki, bu asılılığı tam aradan qaldırmaq mümkün olmayacaq. Bunu da biz bilməliyik. Amma maksimum dərəcədə özümüzü yerli istehsalla təmin etməliyik. Bu sahədə, xüsusilə müasir dövrdə tətbiq olunan texnoloji yeniliklər bizim ümumi intellektual potensialımızı gücləndirəcək. Çünki bu sahədə çalışan kadrlar, öz işlərini tamamilə yeni, texnoloji və metodoloji əsaslar üzərində qururlar və quracaqlar. Minlərlə yeni iş yeri yaradılacaq. Artıq bütün bunlar bizim təkcə planlarımız deyil, həyata keçirilən layihələrdir. Təbii olaraq, bu layihələr haqqında geniş danışmağa ehtiyac yoxdur. Sadəcə olaraq bildirməliyəm ki, bu da bizim növbəti illər üçün əsas vəzifələrimizdən biri olacaqdır.

Digər amil ondan ibarətdir ki, bu gün dünya silah bazarında aparıcı rol oynayan ölkələrin başı öz işlərinə qarışıb. Onlar daha çox öz daxili tələbatını ödəmək üçün çalışırlar. Ona görə dünya silah bazarında təbii olaraq qıtlıq yaranıbdır. Biz bunu da nəzərə almalıyıq. Eyni zamanda, bu sahə bizə imkan verəcək ki, hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirək. Onsuz da bu gün Azərbaycan onlarla ölkəyə hərbi sənaye kompleksinin məhsullarını ixrac edir və ildən-ilə bu coğrafiya genişlənir. Bu, bizim bir çox ölkələrlə apardığımız danışıqların, o cümlədən iqtisadi və sərmayə qoyuluşu sahəsində aparılan danışıqların tərkib hissəsidir - biz yaxın gələcəkdə dünya silah bazarında önəmli oyunçuya çevrilək və bu imkanlar var.

Siz onu da yaxşı bilirsiniz ki, artıq bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açıq elan etmişik və şadam ki, mənim çağırışıma özəl sektor da müsbət reaksiya vermişdir. Artıq bir neçə yerli Azərbaycan şirkəti, özəl şirkət hərbi sənaye kompleksinin inkişafında iştirak edir, təbii olaraq, müvafiq dövlət qurumlarından lisenziyalar almaq şərti ilə. Beləliklə, bu, bizə imkan verəcək ki, bir neçə ildən sonra bu sahədə istehsal olunan məhsul milyardla dollarla ölçülsün.

Növbəti önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır. Mən bu haqda artıq bir neçə dəfə öz fikirlərimi ictimaiyyətə çatdırmışam. Hazırda həm Ermənistanla şərti sərhədimizdə mühəndis işləri aparılır, eyni zamanda, digər qonşularla sərhədimiz müasir infrastrukturla təchiz edilməlidir.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədimizin uzunluğu 500 kilometrdən çoxdur. Özü də bu şərti sərhədin relyefi, coğrafiyası çox ağır, həm də ki, iqlim nöqteyi-nəzərdən çox çətin yerlərdə yerləşir və orada xidmət aparmaq o qədər də asan deyil. Bizim bəzi xidmət yerlərimizin hündürlüyü 3 min metrdən çoxdur. Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir. Biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribat gözləmək olar və Ermənistan tərəfi həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir. Ermənistana Qərb ölkələrindən silah, sursat göndərilir. Bəzi hallarda açıq - necə ki, Fransa-Ermənistan hərbi əməkdaşlığı açıq-aşkar aparılır - bəzi hallarda isə məxfi formada. Ancaq biz indi hər şeyi bilməliyik və bilirik, kimlər nəyi Ermənistana nə vaxt ötürür, hansı hərbi yük təyyarələri Ermənistan hava limanlarına enir və o yük təyyarələrində hansı hərbi məhsullar Ermənistana daşınır. Yəni, Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın, Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Ermənistanın digər qonşuları üçün təhdid mənbələri yaratsın və beləliklə, öz maraqlarını təmin etsin. Yəni, bu metodologiya kifayət qədər bəsitdir. Ancaq onu da bilməlidirlər ki, biz buna imkan verməyəcəyik. Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin. Sərhədlərin mühafizəsi isə həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir və edilməlidir. Ancaq biz hamımız bilməliyik ki, bu, çox böyük, genişmiqyaslı bir işdir.

Digər qonşularımızla da sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir və əminəm ki, Azərbaycan vətəndaşları da bu məsələyə anlayışla yanaşırlar. Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni, vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün bu, yeganə düzgün addımdır. Daxili təhlükəsizlik ilə bağlı bütün lazımi tədbirlər görülür. Təhdidlər də var - real və potensial. O təhdidlərin aradan qaldırılması üçün müvafiq qurumlar fəal işləyirlər. İctimaiyyət də lazım olan həcmdə bu məsələ ilə tanış olur, məlumatlar verilir. Ancaq bu sahə çox həssas olduğu üçün hesab edirəm Azərbaycan vətəndaşları başa düşürlər ki, bu barədə çox şey danışmaq yersiz və zərərli olar. Amma mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır.

Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq. Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu, bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki, edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında. Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir – bizim dostumuz kimdir, düşmənimiz kimdir. Əsas meyar ölkələrin bizim suverenliyimizin bərpasına olan münasibətidir, daha başqa uzağa getmək lazım deyil. Bizi kim dəstəkləyib, suverenliyimizin bərpa edilməsində kim təbrik edib? Bu, bizim dostlarımızdır. Buna qarşı kim çıxıb və kim çıxır? Bunlar bizə dost ola bilməzlər. İşğal dövründə bu, o qədər də aydın deyildi. Yəni, bizim üçün aydın olsa da, geniş ictimaiyyət üçün aydın deyildi. Çünki vaxtilə xarici təbliğat Azərbaycanda o qədər kök salmışdı, özü də bir mənbədən yox, bir neçə mənbədən. Bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr çalışırdılar ki, Azərbaycanda ictimai fikirdə söz sahibi olsunlar. İstəyirdilər ki, onların əlaltıları vasitəsilə bizim media məkanında istənilən təxribatı ortaya ataraq, vəziyyəti öz xeyrinə dəyişdirsinlər. Yəni, belə cəhdlər çox olub, amma güclü iradə və xalqımızın birliyi buna imkan verməyib. Bu gün də bu davam edir. Ona görə yenə də deyirəm, çox sadə meyarlar var. Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər? Ona görə hər şeyin, necə deyərlər, açıq-aydın görünməsi bu gün daha aydındır. Çünki yenə də deyirəm, işğal döv-



ründə bizə qarşı bu qədər açıq, təxribat xarakterli addımlar olmamışdı. Çünki o işğal bizə qarşı olan qüvvələri tam qane edirdi - Azərbaycan dövləti daim təzyiq altında olsun, daim hansısa vasitəçilərə möhtac olsun, daim xalqımız mənəvi əzab çəksin, qaçqınlıq əzabı. Torpaqlarını itirmiş xalqın duyğularını başa düşmək üçün böyük ağıla malik olmaq lazım deyil. Yəni, biz bu bəladan canımızı qurtardıq və bizə qarşı olan anti-Azərbaycan qüvvələrin maskaları dərhal yırtıldı və bu gün də biz bunu görürük. Mən hesab edirəm ki, ad çəkməyə ehtiyac yoxdur, hər kəs hər şeyi görür. Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq.

Bir məsələyə də toxunmaq istərdim. Mən üç gün bundan əvvəl Xankəndidə Qarabağ Universitetinin açılışında bunu demişəm, bir də demək istəyirəm. Məsələnin vacibliyi bunu diktə edir ki, gənc nəslin milli ruhda böyüməsi sadəcə olaraq sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq üçün bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?! Bu parlaq Qələbəni cəmi 44 gün ərzində, şəhidlər verərək, – Allah bütün şəhidlərimizə rəhmət eləsin, – kim qazana bilib?! Bir neçə saat böyük xarici təzyiq altında davam edən antiterror əməliyyatı, - mən heç başqa amilləri demirəm, – separatçılığın kökü kəsildi Azərbaycanda – kim edə bilərdi?! Yəni, öz ölkəmizlə, xalqımızla fəxr etmək üçün ən çox haqlı olan xalq Azərbaycan xalqıdır.

Yenə də deyirəm, ona görə biz – bütün cəmiyyət daim diqqətli olmalıyıq. Mən Xankəndidə də bunu dedim: Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə dəyərlər, iqlim – bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir. Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq. O cümlədən bizim deputatlar da, təbii olaraq öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar.

Qarabağın və Şərqi Zəngəzurun bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir.

Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və səkkiz mindən çox keçmiş köçkün artıq Qarabağa və Şərqi Zəngəzura yerləşib və hər ay, hər il onların sayı artacaqdır.

İnfrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, – yəni, o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, – 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Bizim mədəni, tarixi irsimizin qorunması üçün praktiki işlər görülür, tarixi abidələr bərpa edilir. Ermənilər tərəfindən dağılmış yeddi məscid yenidən qurulmuşdur. Səkkiz məscidin inşası davam edir. Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları, - yəni bu coğrafiyada belə genişmiqyaslı işləri aparmaq, bir daha deyirəm, doğrudan da xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda, texniki imkanlara malikdir. Kadr hazırlığı da yerindədir. Çünki bu işləri görmək – üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir. Yəni, ölkəmizin potensialı budur. Biz buna hazırıq. Biz torpaqları azad edən kimi dərhal buna başlamışıq. Hətta onu da deyim ki, hələ 44 günlük İkinci Qarabağ müharibəsi bitməmişdi, biz Ağdərə rayonunda artıq yol infrastrukturunu inşa etməyə başlamışdıq. Əlbəttə ki, gələcək illərdə işlər daha sürətlə gedəcək. Yaxın vaxtlarda gələn ilin büdcəsi məclisdə müzakirə ediləcək. Əminəm ki, deputatlar hökumətin Qarabağ və Şərqi Zəngəzur üçün nəzərdə tutulan planlarını təsdiq edəcəklər və biz bunu təmin edəcəyik. Təbii ki, bütün bu işləri görmək üçün iqtisadi imkanımız olmalıdır. Çünki mən onu da bildirməliyəm ki, bütün bu işləri biz öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən Özbəkistan və Qazaxıstan qardaş dövlətlər olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Biz bütün bu işləri öz hesabımıza edirik. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub. Bunu görüb və heç bir praktiki iş görməmək bir daha onu göstərir ki, bizə olan münasibət nəzərə alınmalıdır. Bu, bir daha bizə göstərməlidir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq, biz öz potensialımıza güvənməliyik.

Bu ilin iqtisadi sahədə göstəriciləri, hesab edirəm ki, müsbətdir. Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, – biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir. Yəni, bu, sadəcə olaraq kiçik bir arayışdır.

Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır.

Yəni, bu sosialyönümlü siyasət bir daha bizim ümumi siyasətimizi, niyyətimizi göstərir. Əlbəttə ki, gələcəkdə bu istiqamətdə siyasəti aparmaq üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir. Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan “İstisu” su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır. Çünki vaxtilə – sovet dövründə fəaliyyət göstərən həm zavod, həm də sanatoriya ermənilər tərəfindən dağıdılmışdır.

Ermənistanla münasibətlərin normallaşması məsələsinə də toxunmaq istərdim. Yenə də bildirmək istəyirəm ki, İkinci Qarabağ müharibəsində məhz Azərbaycanın təşəbbüsü ilə sülh danışıqları başlamışdır. O vaxt nə Ermənistan, nə başqa ölkələr, ümumiyyətlə, gələcək nədən ibarət olacaq, bu haqda heç öz fikirlərini formalaşdırmamışdılar. Bizim təşəbbüsümüz idi. Bir müddət sonra görəndə ki, bu, cavabsız qalır, biz artıq əsas baza prinsiplərini ortaya qoyduq, onları ictimailəşdirdik və artıq proses başlamışdır. Ancaq nəyi görürük? Görürük ki, Ermənistan bu məsələni süni şəkildə uzadır. Çünki bu günə qədər - bizim birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olmuşdur və hər dəfə müəyyən müddəalar razılaşdırılırdı, yəni, bu işdə tərəqqi var idi. Bunu biz necə var, elə də deməliyik. Amma bununla yanaşı, aylar keçdikcə, təbii olaraq biz gözləyirdik ki, Ermənistan öz şərhlərini bizə daha operativ və çevik verəcək. Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. İyunun 24-də bizim şərhlərimiz onlara göndərildi və avqustun sonunda, ya da ki, sentyabrın əvvəlində onlar bizə cavab göndərmişdilər. Bu cavab nədən ibarət idi? Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni, bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün



düzü, gözlənilən deyildi. Mətndən çıxarılmış, yəni, onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq. Ona görə bu qədər qeyri-səmimi münasibət bizi təbii olaraq düşündürür. Bayaq dediyim amillərlə yanaşı, əgər biz bütün bu amilləri necə deyərlər, bir çərçivəyə salsaq, görərik ki, həm sürətli silahlanma, revanşizm meyilləri, həm də Ermənistanın himayədarlarının bizə qarşı yenidən Qarabağ mövzusunu ortaya atması, sülh müqaviləsinin gedişatında qeyri-adekvat və qeyri-səmimi münasibət, vaxt uzatma taktikası və digər məqamlar deməyə əsas verir ki, Ermənistan, əslində, sülh istəmir, vaxt uzatmaq, bu vaxtdan istifadə edərək, xarici himayədarların dəstəyi ilə hərbi potensial qurmaq istəyir. Artıq bəzi Avropa ölkələrinin və təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Bizim sərhədimizdə qanunsuz olaraq dırnaqarası "Avropa sülh", ya bilmirəm "müşahidəçi" missiyası yaradılıb, halbuki bu, əldə edilmiş razılaşmanın pozulmasıdır. Mən həm Avropa İttifaqına, həm Ermənistana onu da xatırlatmaq istəyirəm ki, 2022-ci ilin Praqa görüşündə razılıq əldə edilmişdir ki, – bəli, biz də razılıq vermişdik, – Ermənistan tərəfində şərti sərhəd istiqamətində kiçik sayda müşahidəçi missiya yerləşsin, cəmi iki, ya üç aya. Yəni, bizimlə bu razılaşdırıldı. Amma ondan sonra bizsiz bunu uzatdılar, onların sayını artırdılar, oraya Kanadadan nümayəndələr daxil edildi və faktiki olaraq bu missiya NATO missiyasıdır. Ondan sonra bizə qarşı "Binokl diplomatiyası", deməli, siyasəti aparılırdı. Gecə-gündüz xarici nümayəndələr gəlirdi, binoklla bizə baxırdı. Nə göstərmək istəyirdilər bizə?! Bu, nə demonstrasiyadır, nə ucuz şoudur?! Bütün bu amillər bizi ciddi düşündürməlidir və təbii ki, düşündürür. Ona görə Ermənistanla normallaşma əgər onlara lazım deyilsə, deməli, bu olmayacaq. Biz hər halda öz mövqeyimizdən bir addım geri atmayacağıq. Kim nə istəyir desin, vasitəçilər də bizə lazım deyil. Düzdür, indi bəzi vasitəçilik təkliflərinə biz etiraz etmirik, sadəcə olaraq, siyasi nəzakət naminə. Ancaq, əslində, bizə vasitəçi lazım deyil. Biz Ermənistanla dövlət sərhədinin delimitasiyasını vasitəçilərsiz etdik. Sadəcə olaraq, onlara bildirdik ki, Qazax rayonunun dörd kəndi bizə qeyd-şərtsiz qaytarılmalıdır və bunu son dəfə mən bu ilin fevral ayında demişəm. Hesab edirəm ki, bu sözlər çox tutarlı oldu və ondan sonra heç bir vasitəçisiz, heç bir qeyd-şərtsiz Qazaxın dörd kəndi, – hansı ki, işğal altında idi, – bizə qaytarıldı. Beləliklə, biz nəinki delimitasiyanı, hətta demarkasiyanı da başlamışıq. Ona görə danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın. Ümumiyyətlə, heç kimə bel bağlamasın. Onlar əgər bu coğrafiyada yaşamaq istəyirlərsə və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, öz qonşularına qarşı siyasətlərində ciddi düzəlişlər etməlidirlər. Bu birincisi. İkincisi, nə onlar, nə onların arxasında duranlar 30 illik işğalı heç vaxt unutmamalıdırlar. Amma bunu unutmaq istəyirlər və unutdurmaq istəyirlər. Sanki bu işğal olmayıb. İkinci Qarabağ müharibəsinin nəticələrini unutmamalıdırlar, Ermənistan ordusu darmadağın edilmişdir. Ermənistan kapitulyasiya aktını imzalamışdır. Ondan sonra mən əmr verdim və Azərbaycan Ordusunun şanlı Zəfər yürüşü dayandırıldı. Bugünkü reallıq bir daha göstərir ki, bu nə qədər düzgün addım idi, ondan sonrakı hadisələr də göz qabağındadır və nəticə etibarilə 20 Sentyabr – suverenliyimizin tam bərpa edilməsi günü unudulmamalıdır və bu tarixi həqiqət danışıqlar masasında da daim olmalıdır.

İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasına heç kim sülh müqaviləsi təklif etməmişdir. Faşist Almaniyası bir neçə yerə bölünmüşdü, kapitulyasiyaya uğrayan faşist dövlət cəzalandırıldı. Burada isə kapitulyasiyaya uğrayan faşist dövlət nəinki cəzalandırılmadı, hətta onlara bütün preferensiyalar verilir. Onlara Amerikadan indi 250 milyon dollar pul




verilir. O puldan onlar öz daxili məqsədlərinə istifadə edəcəklər, qənaət olunan pula isə silah alacaqlar, bizi öldürməyə. Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq? O pulu onlara verən. O cümlədən dırnaqarası “Avropa Sülh Fondu”. Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona Sülh Fondu deyirlər, Ermənistan ondan istifadə edir, Fransadan pulsuz silah alır. O vəsait də ödənilmir, başqa yerlərdən. Ona görə bu, ciddi məsələdir və bu barədə çox da danışmaq istəməzdim. Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır.

Bilirsiniz, işğal dövründə bizim təbii olaraq xarici siyasətimizin böyük hissəsi bu istiqamətə yönəlirdi. İndi isə – tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik və bu münasibətlə bir neçə kəlmə demək istərdim: müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə, tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir. Çünki bəzi Qərb ölkələri hesab edirlər ki, beynəlxalq ictimaiyyət ancaq onlardır və onların əli altında olan demək istəmirəm yəni, asılı dövlətlər. Yox, beynəlxalq ictimaiyyət bütün dünya ölkələridir və bu dünya ölkələri bizə yekdilliklə səs verib. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq. Dostlarımızın bütün qitələrdə sayı artır. Biz indi – İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Təbii olaraq, ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir və edəcək.

Təbii ki, ölkə qarşısında bir çox digər vəzifələr var. Bir daha məclis üzvlərini yeddinci çağırış parlamentin fəaliyyətə başlaması münasibətilə təbrik etmək istəyirəm. Hər birinizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

# Prezident İlham Əliyevin yanında iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib



Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı



– Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son

aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.

Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, – nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, – gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.

Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, – Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, – yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.

Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr – bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.

***

Sonra gələcək iqtisadi inkişafla bağlı müzakirələr olub.


106 İL
AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU
1 OKTYABR
PROKURORLUQ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR!

# Baş prokuror Şəki rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimində iştirak edib







Avqustun 27-də Şəki rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib.

Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin digər dövlət və hüquq-mühafizə orqanlarının əməkdaşları qatılıb.

Əvvəlcə mərasim iştirakçıları yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.

Digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşlarının, habelə Beynəlxalq Prokurorlar Assosiasiyasının baş katibi Roel Donanın da qatıldığı tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev qeyd edib ki, milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub.

Bildirilib ki, Şəki rayon prokurorluğunun inzibati binasının istifadəyə verilməsi çox əlamətdar bir dövrə – prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə təsadüf edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğıdan bəhs edən Baş prokuror dövlətə və dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətində qanunçuluğu rəhbər tutduğunu qeyd edib.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Daha sonra iştirakçılar Şəki rayon prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olub.

Baş prokurora binanın işıqlandırılmasının bir hissəsini təmin etmək məqsədilə günəş panellərinin quraşdırıldığı, istifadəyə verilmiş yeni avtomobillərin isə elektrik mühərrikli olması barədə məlumat verilib.

Baş prokuror prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş yeni xidməti avtomobillərə baxış keçirib.

Sonda xatirə fotoşəkli çəkilib.



# Nərimanov rayon prokurorluğunun yeni inzibati binasının açılışı olub





Sentyabrın 20-də Bakı şəhər Nərimanov rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.

Açılış mərasiminə Baş prokurorluğun rəhbərliyi, prokurorluq əməkdaşları, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı, həmçinin digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları və media nümayəndələri qatılıb.

Əvvəlcə tədbir iştirakçıları yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.

Tədbiri giriş sözü ilə açan Baş prokuror qeyd edib ki, milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub.

Nərimanov rayon prokurorluğunun inzibati binasının istifadəyə verilməsi çox əlamətdar bir günə-Dövlət Suverenliyi Gününə təsadüf etdiyini qeyd edən Baş prokuror 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin edildiyini, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz və suverenliyimizin xalqımızın milli sərvəti olduğunu diqqətə çatdırıb.

Prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümü ərəfəsində daha bir yeni inzibati binanın istifadəyə verilməsini Prezident cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğısının göstəricisi olduğunu vurğulayan Baş prokuror dövlətə və dövlətçiliyə sadiq olan prokuror-

luq orqanlarının fəaliyyətində qanunçuluğu rəhbər tutduğunu qeyd edib.

Bundan başqa Baş prokuror prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə





çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Tədbir zamanı çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev inşa edilmiş yeni inzibati binanın paytaxtın arxitektur quruluşuna yeni töhfə verdiyini bildirərək məmnunluğunu ifadə edib, yeni inzibati binada prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraitinin fəaliyyətə müsbət təsir edəcəyindən əminliyini bildirib.

Daha sonra iştirakçılar Nərimanov rayon prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olub, prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş yeni inzibati binaya baxış keçirib.

Sonda xatirə fotoşəkli çəkilib.



# Prokurorluq əməkdaşları ağacəkmə kampaniyası keçirib

Milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümü, Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar sentyabrın 21-də Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, həmçinin prokurorluğun veteranları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi, o cümlədən nazir











Muxtar Babayevin iştirakı ilə növbəti ağacəkmə kampaniyası keçirib.

Tədbir çərçivəsində ümumilikdə 2 hektar ərazidə 1000-dən çox ağac əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.



# Baş Prokurorluqda şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və vətən müharibəsində iştirak edən prokurorluq işçiləri ilə görüş keçirilib





Sentyabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 1 Oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Prokurorluğunun veteranları, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, I və II Qarabağ müharibəsində şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilib.

İlk öncə Azərbaycan Respublikasının qurucusu və memarı ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən Baş prokuror Ümummilli Liderimiz Heydər Əliyevin müdrik və zamanı önləyən siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən Vətən müharibəsinin fatehi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən ermənilərin 30 ildən artıq işğal altında saxladığı torpaqların əbədi azadlığına qovuşmasını, həmçinin keçirilmiş qısamüddətli lokal antiterror tədbirləri ilə separatçı qüvvələrin yerləşdiyi ərazilərimizdə vətəndaşlarımızın təhlükəsizliyi və suverenleyimizin tam bərpa edilməsi hadisəsinin Ölkəmizin son 200 illik tarixinə qızıl hərəflərlə yazıldığını bildirib, həmçinin Möhtərəm cənab Prezident İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Qarabağda və digər ərazilərdə aparılan bərpa və quruculuq işlərinin göz qabağında ol-




ması xüsusi vurğulanmaqla, ölkənin ali rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə veteranlarının xüsusi diqqətdə saxlanılmasının bütün cəmiyyətimiz üçün nümunə olduğunu qeyd edib.

İştirakçılar şəhid ailələrinə və veteranlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirərək dövlət tərəfindən onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərdən danışıb, həmçinin göstərilən dəstək və qayğıdan məmnunluqlarını ifadə ediblər.




Tədbirə yekun vuran Baş prokuror prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli ilə bağlı bundan sonra da daim işlər görüləcəyini qeyd edib, prokurorluq orqanlarının onlara, həmçinin prokurorluğun veteranlarına hər zaman dəstək olacağını vurğulayıb.





# Beynəlxalq konfransda 1 oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü qeyd olunub




Dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağı 29 sentyabr – 2 oktyabr tarixlərində Bakı şəhərində keçirilib.

Bakı Konqres Mərkəzində baş tutan tədbirin 3-cü günündə 95 ölkədən 500-ə yaxın şəxs iştirak edib.

Tədbir çərçivəsində müxtəlif ölkələrin prokurorluq və ədliyyə qurumları arasında ikitərəfli və çoxtərəfli görüşlər baş tutub. Bundan əlavə, müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları və şəbəkə iclasları keçirilib.

"Cinayət mühakiməsi sistemində qurbanlar və şahidlər", "Cinayət mühakiməsi sistemində qurbanların hüquqlarını təmin etmək üçün maraqlı tərəflər arasında əməkdaşlıq", "Cinayət mühakiməsi sistemində şəffaflıq və ictimaiyyətin etimadı" adlı plenar sessiyaları, "Məişət və gender əsaslı zorakılığın təqibi" və "İqtisadi Cinayət və Aktivlərin Bərpası" seminarlarında səmərəli fikir mübadilələri baş tutub, müzakirələr aparılıb.

Tədbir çərçivəsində həmçinin, 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümünə həsr olunmuş xüsusi sessiya keçirilib.

Çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, bu gün Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı və milli prokurorluq orqanlarının yaranmasının 106-cı ili qeyd olunur. 1 oktyabr 1918-ci il tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq orqanları bir əsrdən artıq tarixi ərzində çətin və mürəkkəb, eyni zamanda, şərəfli bir inkişaf yolu keçərək, bugünkü şəkildə formalaşmış, fəaliyyət göstərdiyi bütün dövrlərdə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq edib.

Qeyd edilib ki, Azərbaycan prokurorluğunun qanunçuluğun etibarlı təminatçısı kimi cinayətkarlığa qarşı barışmaz mübarizəsinin və qanunun aliliyinin bərqərar olunmasında sarsılmaz mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquq islahatları, görkəmli dövlət xadiminin quruma olan xüsusi qayğısı və dəstəyi nəticəsində mümkün olub.

Kamran Əliyev vurğulayıb ki, Bir çox dövlət təsisatı kimi prokurorluq orqanlarının da təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Heydər Əliyev irsinə layiqli varislik nümunəsini göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çağdaş dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları ilə mümkün olub.





Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü" münasibətilə mükafatlandırılmış prokurorluq əməkdaşlarını, eləcə də Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvlərini təltif edib.

Diqqətə çatdırılıb ki, həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, bu günlərdə Bakı şəhərində Azərbaycan Prokurorluğunun inkişaf tarixində ən əlamətdar hadisələrdən biri kimi qeyd olunacaq dünya prokurorlarının yeganə təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilir.

Kamran Əliyev vurğulayıb ki, bu tədbir həm də hüquq sahəsində müsbət nəticələrin əldə edilməsi, üzv ölkələrin prokurorluq orqanları arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi üçün ən mühüm platformadır.

Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru Juan Bautista Mahiques çıxış edərək Azərbaycan Prokurorluq orqanlarında aparılan uğurlu islahatlarla yaxından tanış olduğunu, qurumun fəaliyyətinin BPA tərəfindən yüksək qiymətləndirildiyini bildirib və Azərbaycan Prokurorluğunun cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında və digər məsuliyyətli vəzifələrinin həyata keçirilməsindəki fəaliyyətində uğurlar arzulayıb.

Sonda Baş prokuror Kamran Əliyev "1 oktyabr

# Prokurorluq orqanlarında könüllü qanvermə aksiyası keçirilib






Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü ərəfəsində ənənəvi olaraq qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək vermək məqsədilə sentyabrın 18-də Baş Prokurorluğun mərkəzi aparatı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə






Baş İdarəsi, Hərbi prokurorluq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, eləcə də rayon, şəhər prokurorluqları və ərazi hərbi prokurorluqlarının əməkdaşlarının iştirakı ilə könüllü qanvermə aksiyası keçirilib.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının birgə təşkilatçılığı ilə reallaşdırılan aksiyada ümumilikdə 190 nəfər prokurorluq əməkdaşı iştirak edib.

# Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət edib













Milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümü münasibətilə ilə əlaqədar həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, sentyabrın 19-da prokurorluq əməkdaşları paytaxtda yerləşən uşaq və körpələr evlərini ziyarət edib.

Ziyarət çərçivəsində, prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemləri, onların təlim-tədris proqramı ilə maraqlanıb, uşaqlara hədiyyə və dərs ləvazimatları təqdim edib.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

# Baş Prokurorluqda ekoloji hüquqpozmalarla mübarizəyə həsr olunan interaktiv yarış keçirilib

Prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünün qeyd edilməsi ilə əlaqədar 2024-cü ilin oktyabr ayının 9-da Baş Prokurorluğun Kadrlar idarəsinin, Elm-Tədris Mərkəzinin və Mətbuat xidmətinin təşkilatçılığı ilə tələbə və kursantlar arasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində interaktiv yarış keçirilib.



İnteraktiv yarışa Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Naxçıvan Dövlət Universitetinin, ADA Universitetinin, Milli Aviasiya Akademiyasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Daxili İşlər



Nazirliyinin Polis Akademiyasının, Dövlət Gömrük Komitəsi Akademiyasının, Fövqəladə Hallar Nazirliyi Akademiyasının, Heydər Əliyev adına Hərbi İnstitutunun 200-dən artıq tələbə və kursantları, eləcə də professor-müəllim heyətinin nümayəndələri qoşulublar.

Mövzusuna uyğun normativ hüquqi aktlar əsasında keçirilən üç mərhələli yarışda 10 komanda iştirak edib. Göstərdikləri nəticələrə görə qaliblər sırasında Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının komandası 1-ci yeri, ADA Universitetinin komandası 2-ci yeri, Bakı Dövlət Universitetinin və Dövlət İdarəçilik Akademiyasının komandaları 3-cü yeri tutublar.

Yarışın kapitanlar konkursunun qalibləri isə Polis Akademiyasının və Dövlət Təhlükəsizliyi Xidməti Akademiyasının kursantları olublar.











Müasir texnologiyalardan geniş istifadə etməklə, maraqlı və rəqabət şəraitində keçirilmiş bu tədbir çərçivəsində iştirakçılar və azarkeşlər istedadlı gənclərin milli vətənpərvərlik mövzusunda bədii ifalarını dinləmiş, onlar üçün Baş Prokurorluq tərəfindən hazırlanmış “Ətraf mühitin mühafizəsinin hüquqi əsasları” adlı vəsaitin və COP29-a həsr olunmuş bukletin təqdimatı keçirilmiş, sonda isə iştirakçılar sertifikatlarla təltif edilmişlər.



# Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş mərasim keçirilib



Sentyabrın 26-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və prokurorluğun veteranlarının iştirakı ilə milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.



Mərasim iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə gül dəstələri düzərək nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Tədbir iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anıb, bütün qazilərə şəfa diləyiblər.

Azərbaycan Respublikası baş prokurorunun müavini – Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev prokurorluğun veteranlarını, bütün prokurorluq əməkdaşlarını, o cümlədən mərasim iştirakçılarını prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb.

Xanlar Vəliyev bildirib ki, Azərbaycan prokurorluq orqanları 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz Ulu Öndər Heydər Əliyevin 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının ifadəsi və onun roluna rəsmi münasibətin təzahürü olub.

Hərbi prokuror Xanlar Vəliyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən müstəsna işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, Vətən müharibəsində qazanılan möhtəşəm tarixi Qələbədən, dünyada analoqu olmayan uğurlu antiterror əməliyyatlarından, xalqımızın maddi və sosial rifah halının davamlı yaxşılaşdırılmasından bəhs edib. Bildirilib ki, əldə olunan uğurlar müdrik rəhbər, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dühası, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti, xalqımızın əzmkarlığı və mübarizliyi, sarsılmaz xalq-





Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verir.

Prokurorluğa, o cümlədən Hərbi Prokurorluğa dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev bunun işin səmərəliliyini şərtləndirdiyini qeyd edib.

Sonda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Hərbi prokuror tərəfindən təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.

Hərbi prokuror Xanlar Vəliyev tədbirə yekun vuraraq, Hərbi Prokurorluq orqanları əməkdaşlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülən böyük işlərdə və həyata keçirilən məhkəmə-hüquq islahatlarında yaxından iştirak edəcəklərini, qanunçuluğun, dövlətçiliyin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, cinayətkarlığa eləcə də dövlətimizin qüdrətlənməsinə və milli maraqlara xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutaraq, üzərilərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklərini bildirib.





iqtidar birliyi sayəsində mümkün olub.

Xanlar Vəliyev vurğulayıb ki, ölkəmizin hərtərəfli inkişafına və qazanılan ardıcıl uğurlara xalqına və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi, insanpərvərliyi, xeyirxah əməlləri və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları şəhid ailələrini ziyarət ediblər












Sentyabr ayının 30-da prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları 1-ci və 2-ci Qarabağ müharibələrində iştirak etmiş ümumilikdə 30 şəhid ailəsini ziyarət ediblər.

Ziyarət zamanı prokurorluq əməkdaşları şəhid ailələrinin qayğıları və problemləri ilə maraqlanıb, şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad böyütdükləri üçün şəhid valideynlərinə minnətdarlıqlarını bildiriblər.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda “Açıq Qapı” günü keçirilib







Sentyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının tələbələri üçün “Açıq qapı” günü keçirilib.

Görüş çərçivəsində prokurorluğun əməkdaşları: Pərviz Zülfüqarov, Faiq Səfərov, Qumral Yusifova və Elvin Hüseynov tələbələrə prokurorluğun fəaliyyət istiqamətləri üzrə məlumat verərək, onları maraqlandıran çoxsaylı sualları cavablandırıblar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları şöbəsinin böyük məsləhətçisi Fərdi Vəliyev “Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS)” barədə tələbələrə ətraflı məlumat verib.

Sonra isə şərti hadisə yerinə baxış zamanı hadisə yerinin müayinə üsulları, hadisə yerində olan dəlillərin rəsmiləşdirilməsi, üzərində aşkar olunan əl-barmaq və digər izlərinin fiksasiya edilməsi, götürülməsi və rəsmiləşdirilməsi qaydası, həmçinin canlı şəxsin və meyitin əl-barmaq izlərinin götürülməsi əyani olaraq tələbələrə izah olunub.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirilib









Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları 1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü və Azərbaycan Prokurorluğunun yaranmasının 106-cı ildönümü münasibətilə oktyabrın 1-də Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoyublar.

Tədbir Prokurorluğun akt zalında davam etdirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Kamran Əliyevin təbrik məktubu oxunub.

Naxçıvan Muxtar Respublikasının Prokurorunun müavini ədliyyə müşaviri Amil Rəhimov çıxış edərək prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini prokurorluğun yaranmasının 106-cı il dönümü münasibətilə təbrik edib. Qeyd edilmişdir ki, prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir. Bundan sonra da prokurorluq orqanlarının əməkdaşları göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, bundan sonra da öz vəzifələrinə məsuliyyətlə yanaşaraq, ictimai asayişin təmin olunmasında və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında muxtar respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə yaxından iştirak edəcəkdir.

Tədbirdə Prokurorluğun əməkdaşı baş ədliyyə müşaviri Faiq Səfərov Azərbaycan Prokurorluğun yaranma tarixi, keçdiyi şərəfli tarixi yol və prokurorluğa göstərilən dövlət qayğısı barədə məlumat verdi.

Sonda əminliklə ifadə olunub ki, yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi: "Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılıb.

# Şəki rayon prokurorluğunda “Açıq qapı günü” təşkil edilib






Milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümü, habelə ictimaiyyətin prokurorluq orqanlarının fəaliyyətinə marağı nəzərə alınaraq, sentyabrın 14-də növbəti “Açıq qapı günü” təşkil edilib.

Şəki rayon prokurorluğunun yeni istifadəyə verilmiş inzibati binasında keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə media və qeyri-hökumət təşkilatlarının nümayəndələrini tanış etmək olub.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.

İştirakçılara bildirilib ki, müasir texnika və rəqəmsal-informasiya sistemləri ilə təchiz olunmuş inzibati binada prokurorluğun bütün fəaliyyət istiqamətlərini bir vahid elektron platformada birləşdirən “Elektron Prokurorluq” İnformasiya-Kommunikasiya Sisteminin quraşdırılması təmin edilib, modern avadanlıqlar, kommunikasiya sistemləri, IP-telefoniya qurğuları və digər texniki chazlarla təchiz olunub.

Tədbir zamanı Şəki rayon prokuroru Mehman Xankişiyev, Baş Prokurorluğun əməkdaşı Kənan Zeynalov, rayon prokurorluğunun böyük



müstəntiqi Abbas Qarayev, prokuror köməkçisi Amil Yaqubov və qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı danışıb.

İştirakçılar inzibati bina, eləcə də kriminalistik texnika ilə əyani olaraq tanış olub, onlara “Elektron prokurorluq” informasiya sistemi əyani olaraq nümayiş olunub.

İştirakçılara ağır, çətin və şərəfli peşə olan prokurorluq əməkdaşının gündəlik həyat tərzindən bəhs edən “Valideynimin peşəsi” adlı qısa metrajlı film nümayiş olunub.

Sonda xatirə fotoşəkli çəkdirilib.






IAP BAKU 2024
The 58th IAP Executive Committee Meeting
28th September 2024 / Baku, Azerbaijan
IAP
Prosecutor General's Office

## Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransının və Ümumi Yığıncağının iştirakçılarına

# Azərbaycan Respublikası Prezidentinin müraciəti

**Hörmətli tədbir iştirakçıları,**

Sizi Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakı şəhərində keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağında səmimi-qəlbdən salamlayıram.

Yüzə yaxın ölkənin, eləcə də BMT-nin ixtisaslaşmış qurumlarının da daxil olduğu beynəlxalq təşkilatların təmsilçilərini, habelə prokurorlar, hakimlər, hüquqşünaslar, ekspertlər və digər nüfuzlu şəxsləri bir araya gətirən belə bir mötəbər tədbirə ev sahibliyi etmək bizim üçün əlamətdar hadisə, eyni zamanda, ölkəmizə olan ehtiramın təzahürüdür.

Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. Məlum olduğu kimi, ötən ilin sonunda Azərbaycan Respublikası dünya dövlətlərinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmək şərəfinə layiq görülmüşdür.

Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlər, həmçinin aidiyyəti beynəlxalq təşkilatlarla birgə dünyanın ekoloji sisteminin yaxşılaşmasına töhfələr verməyə çalışacaqdır. Təsadüfi deyildir ki, COP29 çərçivəsində beynəlxalq tərəfdaşlarla birlikdə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda tədbirin keçirilməsi planlaşdırılır.

Azərbaycan uzun müddət qonşu Ermənistan Respublikası tərəfindən işğal və hərbi təcavüzə məruz qalmışdır. Bu işğal dövründə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, çoxsaylı hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədilmişdir. Nəhayət 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi.

İşğal dövründə 4 minə yaxın azərbaycanlı itkin düşmüşdür. Onlar Ermənistan tərəfindən işgəncələrə məruz qalaraq qətlə yetirilmiş və kütləvi məzarlıqlarda basdırılmışdır. Ermənistan hazırda itkin düşmüş bu şəxslərin sonrakı aqibəti, habelə onların basdırıldığı kütləvi məzarlıqların yeri barədə məlumatları bizə təqdim etməkdən imtina edir.

Həmçinin işğal dövründə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələri, eləcə də dini ibadət yerləri, bütövlükdə 9 şəhər və yüzlərlə kənd və qəsəbə tamamilə məhv edilmişdir. Bu cinayət əməllərinə görə Ermənistan işğalçı və təcavüzkar ölkə olaraq, dövlət səviyyəsində məsuliyyət daşıyır. Bütün bu cinayətləri törətmiş Ermənistan tərəfi Azərbaycan xalqından üzr istəmək əvəzinə, ölkəmizə qarşı əsassız ittihamlar irəli sürür. Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan bölgədə davamlı sülh və sabitliyə nail olmaq üçün səylərini davam etdirir.

**Hörmətli qonaqlar,**

Biz Beynəlxalq Prokurorlar Assosiasiyası ilə uzunmüddətli əlaqələrimizi yüksək qiymətləndirir və bu tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərin gücləndirilməsini vacib hesab edirik.

Azərbaycanda prokurorluq orqanlarında mütərəqqi islahatlar həyata keçirilmiş, ölkədə qanunun aliliyi, fundamental hüquq və azadlıqlar tam təmin olunmuşdur. Ölkəmizin hüquq-mühafizə orqanları beynəlxalq səviyyədə transmilli cinayətkarlıq, terrorizm, separatizm, qaçaqmalçılıq, çirkli pulların yuyulması, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qanunsuz miqrasiya və s. qarşı mübarizəyə öz mühüm töhfəsini verir və bu istiqamətdə beynəlxalq əməkdaşlığı dəstəkləyir.

Transsərhəd cinayətkarlığının yeni forma və təzahürlərinin, o cümlədən kibercinayətkarlığın yeni növlərinin meydana gəlməsi, sosial media platformaları, süni intellektin yaratdığı imkanlardan cinayətkarlıq, terrorizm məqsədilə istifadə edilməsi prokurorluq orqanlarının qarşısında yeni və mürəkkəb çağırışlar qoyur. Eyni zamanda, dünyada etnik-dini zəmində artmaqda olan nifrət və irqçilik meylləri hamımızı narahat edir.

Əminəm ki, "Qanunun aliliyinin təmin edilməsində prokurorun rolu" mövzusuna həsr olunmuş dördgünlük konfrans ortaq məqsədlərə töhfə verəcək və daha böyük əməkdaşlığa yol açacaqdır.

Mən sizləri bir daha Azərbaycanda salamlayır, ən xoş arzularımı yetirir, konfransın işinə isə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 sentyabr 2024-cü il

# Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi Roel Dona və İcraçı direktoru Yanne Holst Hübner ölkəmizə işgüzar səfər edib





Avqustun 26-da qonaqları səmimi salamlayan Baş prokuror Kamran Əliyev ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar barədə məlumatlandırıb.

Baş Prokuror Roel Donanı BPA-nın Baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra 2024-cü ilin sentyabr ayında ölkəmizin ev sahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Baş prokuror həmçinin bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 barədə məlumat verərək, BPA-nın Bakıda keçiriləcək 29-cu illik konfransı zamanı dünya prokurorları arasında hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə mövzularının təşviq və müzakirə olunmasının vacibliyini vurğulayıb.

Təşkilatın Baş katibi səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür edib.

# Baş prokuror Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti ilə görüşüb








Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını həyata keçirməklə yanaşı çoxsaylı qlobal və regional təşəbbüslərdə fəal iştirak edir, habelə tərəfdaş qurumlarla beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə kompleks işlər görülür.

Bu tədbirlərin davamı kimi, dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29 sentyabr – 2 oktyabr tarixlərində paytaxtda keçiriləcək 29-cu İllik Konfransı

və Ümumi Yığıncağında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru cənab Juan Bautista Mahiquesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı ölkəmizin ev sahibliyi ilə keçiriləcək beynəlxalq tədbirə hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Baş prokuror iki ölkə arasında ticarət və iqtisadi əməkdaşlığın möhkəmləndiyini diqqətə çatdıraraq, ötən il martın 23-də Afina şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Argentina Respublikasının Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu arasında imzalanmış Memoranduma uyğun olaraq təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Görüş zamanı, həmçinin bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 barədə məlumat verilərək, BPA-nın Bakıda keçiriləcək 29-cu illik konfransı zamanı dünya prokurorları arasında hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə mövzularının təşviq və müzakirə olunmasının vacibliyi vurğulanıb.

Təşkilatın Prezidenti səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür edib.

Daha sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.









# Bakı şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası keçirilib









Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, prokurorluq orqanlarının xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlığı davam etdirilir.

Bunun nəticəsidir ki, 177 ölkə üzrə 350 mindən artıq üzvü olan dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı – Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) hər ilin sentyabr ayında baş tutan İllik Konfransı və Ümumi Yığıncağı 29 sentyabr - 2 oktyabr tarixlərində paytaxt Bakı şəhərində keçirilmişdir.

Sentyabrın 28-də isə Assosiasiyanın rəhbər qurumu olan İcraiyyə Komitəsinin 58-ci iclası Heydər Əliyev Mərkəzində keçirilib.

İclasda açılış nitqi ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev çıxış edib.

Baş prokuroru Kamran Əliyev ölkə başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyini bildirməklə dünya ölkələrinin

növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) hər ilin sentyabr ayında İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçirilməsinin mühüm tarixi nailiyyət olduğunu vurğulayaraq, ölkəmizin Assosiasiyanın işinə gələcəkdə də önəmli töhfələr verəcəyini qeyd edib.

İclasda BPA-nın gələcək strategiyası və fəaliyyəti, beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi və digər mühüm məsələlər müzakirə edilib.

İclasda bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbul edilməsi, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, Assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb.

İclasda, həmçinin, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Assosiasiyanın İllik Konfransı və Ümumi Yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Yekunda Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 30-cu İllik Konfransı və Ümumi Yığıncağının Sinqapurda (Sinqapur şəhəri), 31-ci İllik Konfransı və Ümumi Yığıncağının isə Səudiyyə Ərəbistanı Krallığında (Ər-Riyad şəhəri) keçirilməsi barədə ilkin qərar qəbul olunub.









# Baş prokuror Monqolustanın Baş prokuroru cənab Jarqalsaikxan Banzraqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb








Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) paytaxtımızda keçirilən 29-cu İllik Konfransında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Monqolustanın Baş prokuroru cənab Jarqalsaikxan Banzraqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror iki ölkə arasında mövcud olan qarşılıqlı etimad və dostluq münasibətlərinin xalqlarımız arasında dərin tarixi köklərə söykənən siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün platforma təşkil etdiyini vurğulayaraq ölkəmizdə həyata keçirilən cinayətkarlığa qarşı mübarizə tədbirləri barədə ətraflı məlumat verib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi – UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Monqolustanın prokurorluq orqanları ilə möhkəm əlaqələrin qurulduğuna nəzər salan Kamran Əliyev təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Monqolustanın Baş prokuroru səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları eləcə də, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib, həmçinin 1 Oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Kamran Əliyevi təbrik edib.







# Baş prokuror Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Keniya ilə əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirən Baş prokuror Kamran Əliyev iki ölkə arasında güclü siyasi əlaqələrin mövcudluğunu qeyd edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, Keniyanın iqlimlə bağlı səylərdə dünya təcrübəsinə böyük töhfə verdiyini diqqətə çatdırıb.



Keniya nümayəndə heyətinin cari ilin fevralında ölkəmizə ilk səfəri və prokurorluq orqanları arasında möhkəm əlaqələrin qurulduğuna nəzər salan Kamran Əliyev təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən Renson Mulele İnqonqa prokurorluq orqanlarında həyata keçirilən islahatları, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Daha sonra ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.

Görüşdə Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev də iştirak edib.





# Baş prokuror Özbəkistan Respublikasının Baş prokurorunun müavini Şerzod Tuxtaboyevi qəbul edib









Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Özbəkistan Respublikasının Baş prokurorunun müavini Şerzod Tuxtaboyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Çıxış edən Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını, xalqlarımızın rifahına xidmət göstərdiyini xüsusi olaraq vurğulayıb.

Vurğulanıb ki, işğaldan azad edilmiş Füzuli şəhərində qardaş Özbəkistan dövləti tərəfindən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin tikilib istifadəyə verilməsi, Qarabağın yenidən qurulmasında yaxından iştirakı xalqlarımız arasında olan qardaşlıq münasibətlərinin əyani sübutudur.

Ölkələrimizin beynəlxalq arenada da, fəal şəkildə qarşılıqlı fəaliyyət göstərdiyi və nüfuzlu təşkilatlar, o cümlədən BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), MDB və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində sıx əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Baş prokuror müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un və Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətindən danışan Baş prokuror, hər iki beynəlxalq tədbirin ölkələrarası münasibətlərin hərtərəfli inkşafı üçün əlverişli platforma olduğunu qeyd edib.

Daha sonra Baş prokuror Kamran Əliyev Özbəkistan Respublikasının Baş prokuroru cənab Niqmatulla Yuldoşevi 15 noyabr tarixində Baş Prokurorluq və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi tərəfindən Bakıda təşkil olunacaq “İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi” mövzusundakı Yüksək Səviyyəli plenar sessiyaya dəvət edib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Özbəkistan Respublikasının Baş prokurorunun müavini, iki ölkənin prokurorluq orqanları arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdıraraq, əlaqələrin gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıb və 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib.

Görüşdə Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov da iştirak edib.

# Baş prokuror Kamran Əliyev Oman Sultanlığının Baş prokuroru Nasr Khamis Al Sawaiinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb










Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Oman Sultanlığının Baş prokuroru Nasr Khamis Al Sawaiinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan və Oman Sultanlığı arasında istər ikitərəfli, istərsə də çoxtərəfli formatda, xüsusilə Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində müsbət əməkdaşlıq davam edir, bununla yanaşı, iqtisadi, enerji, təhsil, turizm və digər sahələrdə əlaqələr daha da güclənməkdədir.

Azərbaycan və Oman arasında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayan Kamran Əliyev, Oman Sultanlığının Prokurorluq orqanları ilə münasibətlərin Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) və digər peşəkar platformalarda uğurla inkşaf etdiyini diqqətə çatdırıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, COP29-un iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə əhəmiyyətli bir mərhələ olacağını qeyd edib.

Kamran Əliyev Omanlı hımkarını noyabrın 15-də Azərbaycan Respublikası Baş Prokurorluğu ilə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) Bakıda keçiriləcək yüksək səviyyəli plenar iclasına dəvət edib.

Oman Sultanlığının Baş prokuroru səmimi qəbula görə minnətdarlığını ifadə edərək Azərbaycanın qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirdiyini və ölkəmizdə yaxın gələcəkdə keçiriləcək qlobal əhəmiyyətli beynəlxalq tədbirlərdə Oman tərəfinin də yüksək səviyyədə iştirak edəcəyinə əminliyini ifadə edib.

Görüşdə hüquqi sahədə, həmçinin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmaqla hər iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumun hazırlanması barədə razılıq əldə olunmuşdur.

# Baş prokuror Bruney-Darüssalamın Baş Prokuroru xanım Nor Hashimah Binti Haji Mohammed Taibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Bruney-Darüssalamın Baş Prokuroru xanım Nor Hashimah Binti Haji Mohammed Taibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Azərbaycan-Bruney arasında mehriban dostluq və əməkdaşlıq əlaqələrindən danışan Baş prokuror Kamran Əliyev, ölkə başçılarının birgə səyləri və siyasi iradələri sayəsində ölkələrimiz arasında münasibətlərin həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama Hərəkatı çərçivəsində xalqlarımızın mənafelərinə uyğun inkişaf etdiyini vurğulayıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi – UNODC ilə birgə noyabrın 15-də olunacaq "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Bruney-Darüssalamın Baş Prokuroru səmimi qəbula görə minnətdarlığını bildirərək ikitərəfli münasibətlərin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.





# Baş prokuror Kamran Əliyev Efiopiya Federativ Demokratik Respublikasının Ədliyyə Nazirliyinin Dövlət naziri Tesfaye Wakjiranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb




Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Efiopiya Federativ Demokratik Respublikasının Ədliyyə Nazirliyinin Dövlət naziri Tesfaye Wakjiranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

İlk öncə cənab Tesfaye Wakjiranı ötən ilin dekbar ayında vəzifəyə təyin olunması münasibətilə təbrik edən Baş prokuror Kamran Əliyev Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Efiopiya ilə əməkdaşlığın yüksək səviyyəyə çatdığını və münasibətlərin gündən günə möhkəmləndiyini qeyd edib.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.





BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, belə beynəlxalq tədbirlərin dünya ölkələri arasında birliyin möhkəmlənməsinə böyük töhfə verdiyini diqqətə çatdırıb.

Kamran Əliyev efiopiyalı həmkarını noyabrın 15-də Azərbaycan Respublikası Baş Prokurorluğu ilə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) Bakıda keçiriləcək yüksək səviyyəli plenar iclasına dəvət edib.

Baş prokuror Kamran Əliyev iki ölkənin prokurorluq və ədliyyə orqanları arasında əlaqələrin gücləndirilməsinin əhəmiyyətindən, ölkələrimizin "ASAN xidmət" konsepsiya çərçivəsində gördüyü işlərin mövcud qarşılıqlı münasibətlərin inkişafına müsbət təsirindən danışıb.

Nümayəndə heyətinin rəhbəri səmimi qəbula görə minnətdarlığını ifadə edərək iki ölkə arasında münasibətlərin hərtərəfli inkişafı üçün əlverişli səmimi mühitin olduğunu qeyd edib.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimi keçirilib







Sentyabrın 29-da Bakı Konqres Mərkəzində keçirilən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının açılış mərasimi keçirilib.

Mərasimdə Təşkilatın 29-cu İllik Konfransı və Ümumi Yığıncağında müxtəlif ölkələrin Baş prokurorları və digər yüksəkvəzifəli şəxsləri də daxil olmaqla, 95 ölkədən 465-dən artıq şəxs iştirak edib.

İlk öncə Baş prokuror Kamran Əliyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin mərasim iştirakçılarına müraciətini və 29-cu İllik Konfrans və Ümumi Yığıncağın açılışı ilə bağlı təbriklərini çatdırıb.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iclasda çıxış edərək böyük coğrafiyanı əhatə edən Beynəlxalq Prokurorlar Assosiasiyasına üzv dövlətlərin hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Baş prokuror dostluq təməlləri əsasında keçiriləcək Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının regional təhlükəsizliyə, cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizəyə xidmət edəcəyini,



mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Azərbaycan prokurorluğunun keçdiyi inkişaf yolu barədə tədbir iştirakılarına məlumat verən Kamran Əliyev bildirib ki, ölkə prokurorluğunun müstəqil dövlətçiliyimizin bərpasından sonrakı fəaliyyətinin ən mühüm xüsusiyyəti onun müstəqil dövlət təsisatı kimi formalaşması, öz funksiyalarını tamamilə yeni - siyasi plüralizm və bazar iqtisadiyyatı, insan və vətəndaş azadlığı prinsipləri əsasında qurulan hüquqi dövlətin, demokratik cəmiyyətin tələbləri ilə uzlaşdırması olub.



Qeyd edilib ki, Azərbaycan prokurorluğunun hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə prinsipləri ilə fəaliyyət göstərməklə beynəlxalq standartlara uyğun dövlət təsisatı kimi formalaşması Ulu Öndər Heydər Əliyev və onun siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olub.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, tədbirin Azərbaycanda keçirilməsi böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Həmçinin, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi -UNODC ilə birgə noyabrın 15-də "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclas təşkil olunacağını qeyd edib.

Daha sonra çıxış edən Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru Juan Bautista Mahiques 29-cu İllik Konfransın və Ümumi Yığıncağın fəaliyyətə başlaması münasibətilə iştirakçıları təbrik edib, uğurlar arzulayıb.

Juan Bautista Mahiques qonaqpərvərliyə, Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə baş prokuror Kamran Əliyevə təşəkkür edib və Beynəlxalq Prokurorlar Assosiasiyasının gələcək strategiyası, hədəfləri barədə məlumat verib.

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kral Prokurorluq Xidmətinin rəhbəri Stifen Parkinson ölkəmizdə işgüzar səfərdə olub







Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kral Prokurorluq Xidmətinin rəhbəri cənab Stifen Parkinsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Birləşmiş Krallığın Azərbaycanın strateji tərəfdaşı olduğunu qeyd edən Kamran Əliyev ölkələrarası tarixi ticarət və mədəni əlaqələrin mövcudluğuna nəzər salıb.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi – UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Kral Prokurorluq Xidmətinin rəhbəri səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

# Baş prokuror Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Kamran Əliyev ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən mehriban dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu vurğulamaqla bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyini qeyd edib.

Baş prokuror Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Tbilisidə keçirilən 27-ci İllik Konfransı və Ümumi Yığıncağında iştirakı zamanı keçirilmiş görüşlərin iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına müsbət təsir etdiyini vurğulayaraq bildirib ki, BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakıda keçirilməsi mövcud münasibətləri daha da gücləndirəcəkdir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror COP29-un dünyanın qorunmasına, qlobal problemlərin müzakirəsi və həlli yollarının araşdırılmasına böyük töhfə verəcəyini bildirib.

Gürcüstanın Baş prokuroru Giorgi Qabitaşvili səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları və iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Daha sonra Kamran Əliyev Gürcüstanın Baş prokurorunu cari il noyabrın 15-də BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi ilə birlikdə (UNODC) Bakıda keçiriləcək yüksək səviyyəli plenar iclasına dəvət edib.



# Baş prokuror Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl-Mucibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl-Mucibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı Kamran Əliyev xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyədə olduğunu məmnuniyyətlə vurğulayaraq, bu sahədə dövlət başçıları cənab İlham Əliyev və Kral












Salman bin Əbdül-Əziz Əl Səudun misilsiz xidmətlərini qeyd edib.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Qeyd edilib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışan Kamran Əliyev COP29-un dövlətlərarası yeni əməkdaşlıq formatlarının yaradılmasında mühüm rol oynayacağını qeyd edib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağında Səudiyyə Ərəbistanı Krallığının iştirakından məmnunluğunu ifadə edən Kamran Əliyev bunun əlaqələrimizin inkişafına böyük töhfə verəcəyini qeyd edib.

Daha sonra Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Baş prokurorunu 15 noyabr tarixində Baş Prokurorluq və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi tərəfindən Bakıda təşkil olunacaq "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusundakı Yüksək Səviyyəli plenar sessiyaya dəvət edib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Şeyx Səud bin Abdullah Əl-Mucib rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Sonda ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.

# Baş prokuror Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini Jianming Tongun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini Jianming Tongun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışaraq dövlət başçılarının uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayıb.



Azərbaycan Respublikasının Prokurorluğu ilə Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğu arasında əməkdaşlıq haqqında sazişlərə diqqət çəkən Kamran Əliyev Çinin prokurorluq orqanları ilə möhkəm əlaqələrin qurulduğuna nəzər salıb, təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Baş prokuror həmçinin cari il iyul ayının 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul edildiyini və bu sənədin ölkələrimiz arasında münasibətlərdə yeni bir başlanğıc nöqtəsi olmasını qeyd edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Habelə, Azərbaycan Respublikasının daim vahid Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəklədiyi vurğulayaraq təşəkkürünü bildirib.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquqlarının qorunması, qarşılıqlı peşəkar səfərlər və təcrübə mübadiləsini nəzərdə tutan əməkdaşlığın zərurəti qeyd olunub.



# Baş prokuror Kamran Əliyev Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskienenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskienenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş Prokuror Kamran Əliyev hüquqi sahədə ikitərəfli əməkdaşlığın gücləndirilməsinin vacibliyindən, Beynəlxalq Prokurorlar Assosiasiyası, Avrocast və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışıb. İki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdirilməsinin vacibliyi vurğulanıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un və Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətindən danışan Baş prokuror, hər iki beynəlxalq tədbirin ölkələrarası münasibətlərin hərtərəfli inkişafı üçün əlverişli platforma olduğunu qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən xanım Nida Qrunskiene, prokurorluq orqanlarında həyata keçirilən islahatları, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.



# Baş prokuror Kamran Əliyev Yəmən Respublikasının Baş prokuroru Qaher İbrahimin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb







Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Yəmən Respublikasının Baş prokuroru Qaher İbrahimin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ölkələrimiz arasında qədim əlaqələrin mövcudluğu və bu əlaqələrin müasir dövrdə ikitərəfli və beynəlxalq təşkilatlar müstəvisində inkişaf etdiyini bildirən Baş prokuror Kamran Əliyev, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığımızın təqdirəlayiq olduğunu vurğulayıb.

Azərbaycan və Yəmən arasında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayan Kamran Əliyev, Yəmən Respublikasının Prokurorluq orqanları ilə münasibətlərin Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) və digər peşəkar platformalarda uğurla inkşaf etdiyini diqqətə çatdırıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, COP29-un iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə əhəmiyyətli bir mərhələ olacağını qeyd edib.

Yəmən Respublikasının Baş prokuroru səmimi qəbula görə minnətdarlığını bildirərək, eyni dinə mənsub iki dövlət arasında əlaqələrin bütün sahələr üzrə inkişaf edəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror Rumıniyanın Yüksək Kassasiya və Ədalət Məhkəməsinin Baş prokuroru Aleks Florantanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb








Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Rumıniyanın Yüksək Kassasiya və Ədalət Məhkəməsinin Baş prokuroru Aleks Florantanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev çıxış edərək bildirib ki, Rumıniya Azərbaycanın Avropa məkanında fəal əməkdaşlıq etdiyi ölkələrdəndir. Ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də məhz Rumıniya olub. Ötən müddətdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bunun da nəticəsində ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hazırda Azərbaycan və Rumıniya enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə, mədəniyyət və digər sahələrdə uğurla əməkdaşlıq edirlər.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin (EPİS) hazırlanması və tətbiqindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağında Rumıniyanın iştirakından məmnunluğunu ifadə edən Kamran Əliyev təşkilatın dünya prokurorlarının əməkdaşlığının gücləndirilməsi üçün mühüm beynəlxalq platforma olduğunu qeyd edib.

Aleks Florantan səmimi qəbula görə minnətdarlığını bildirərək 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, həmçinin Azərbaycanın prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirərək iki ölkə arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Daha sonra ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.

Görüşdə, həmçinin, Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vasile Soare də iştirak edib.

# Xorvatiya Respublikasının Baş prokuroru İvan Turudiçin Bakıda olub






Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Xorvatiya Respublikasının Baş prokuroru İvan Turudiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq və güclü əməkdaşlıq münasibətlərinin siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün platforma təşkil etdiyini vurğulayaraq ölkəmizdə həyata keçirilən cinayətkarlığa qarşı mübarizə tədbirləri barədə ətraflı məlumat verib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Xorvatiyanın prokurorluq orqanları ilə möhkəm əlaqələrin qurulduğuna nəzər salan Kamran Əliyev təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Xorvatiya Respublikasının Baş prokuroru səmimi qəbula görə minnətdarlığını ifadə edərək 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, dostluq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyindən əminliyini ifadə edib, iki ölkənin prokurorluq orqanlarında mövcud əlaqələri yüksək qiymətləndirib.

Tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Daha sonra ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.

# Baş prokuror Albaniya Respublikasının Baş prokuroru Olsian Çelanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb






Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Albaniya Respublikasının Baş prokuroru Olsian Çelanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olan Albaniya Respublikası ilə ölkəmiz arasında daima dostluq münasibətlərinin olduğunu bildirən Baş prokuror Kamran Əliyev, iki ölkə arasında bir çox sahələr üzrə güclü əlaqələrin olduğunu, bu münasibətlərin bu ilin mart ayında ölkəmizdə rəsmi səfərdə olmuş Albaniya Respublikasının Prezidenti Bayram Beqay və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev arasında keçirilmiş görüş zamanı daha da möhkəmləndiyini vurğulayıb.

Kamran Əliyev prokurorluq orqanlarında həyata keçirilən islahatlar, Elektron Prokuror İnformasiya Sisteminin (EPİS) hazırlanması və tətbiqi barədə qonaqlara ətraflı məlumat verərək Azərbaycan Prokurorluq orqanlarının beynəlxalq və regional təşkilatlar, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığından danışıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Bakıda keçirilməsinin tarixi önəmi barədə məlumat verən Kamran Əliyev belə beynəlxalq tədbirlərin ölkələrarası münasibətlərin inkişafına böyük töhfə verəcəyinə inandığını qeyd edib.

Albaniya Respublikasının Baş prokuroru səmimi qəbula və dəvətə görə təşəkkür edərək ölkəmizdə səfərdə olmasından məmnunluğunu ifadə edib, həmçinin, 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edərək, ölkələrimizin prokurorluq orqanları ölkə arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Daha sonra iki ölkənin prokurorluq orqanları arasında transmilli cinayətlərə qarşı mübarizədə, o cümlədən aktivlərin bərpa edilməsi məsələlərində birgə səylərin səmərəliliyini artırmaq, habelə insan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək məqsədilə mövcud əməkdaşlığı gücləndirmək niyyətilə Memorandum imzalanıb.

# Baş prokuror Qətər Dövlətinin Baş prokurorunun müavini Məhəmməd Əl-Binəlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Qətər Dövlətinin Baş prokurorunun müavini Məhəmməd Əl-Binəlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Kamran Əliyev çıxış edərək bildirib ki, din və mədəniyyət baxımından yaxın olan Azərbaycan-Qətər əlaqələri yüksək səviyyədə inkişaf edir. İki ölkənin münasibətləri dostluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Siyasi dialoqun yüksək səviyyədə olması iki ölkənin liderlərinin siyasi iradəsi və müdrik uzaqgörənliyindən, əməkdaşlığa verdikləri böyük önəmdən irəli gəlir.

Qətər Dövlətinin Prokurorluğu ilə qarşılıqlı əməkdaşlıqdan danışan Kamran Əliyev bu əməkdaşlığın Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (İAACA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA) və s. qurumlar çərçivəsində uğurla davam etdiyini diqqətə çatdırıb.

Bildirilib ki, iki ölkənin prokurorluqları arasında 2022-ci ilin iyunun 29-da hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə imzalanmış Memorandum qurumlarımızın birgə fəaliyyətinə böyük töhfə verib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror bu tədbirin dünya liderlərinin qlobal problemlərə qarşı mübarizədə birgə səylərini daha da gücləndirəcəyini qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən Məhəmməd Əl-Binəli Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad əl-Culfali əl-Nuaiminin salamını çatdıraraq 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib və Baş prokuror Kamran Əliyevi öz ölkəsinə rəsmi səfərə dəvət edib.

Daha sonra Kamran Əliyev Qətərli həmkarının cari il noyabrın 15-də BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi ilə birlikdə (UNODC) Bakıda keçiriləcək yüksək səviyyəli plenar iclasına dəvətə dair məktubu nümayəndə heyətinə təqdim edib.

Görüşdə hüquqi sahədə, həmçinin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb.

# Baş prokuror Kamran Əliyev İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri ilə görüşüb





Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev İƏT-in nümayəndələri Mishaal Al-Ahmadi və Yacoub Aloueimine ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev bildirib ki, müstəqil ölkə kimi özünü dünyada təsdiq edən, bölgədə və dünyada etibarlı tərəfdaş olaraq qəbul edilən Azərbaycan keçmiş sovet respublikaları arasında İslam Konfransı Təşkilatına üzvlük barədə müraciət edən ilk ölkə olub və 1991-ci ilin dekabrında təşkilata üzv seçilib.

Ölkəmiz İslam həmrəyliyinin möhkəmləndirilməsi, müsəlman ölkələri arasında elm, mədəniyyət, sosial, iqtisadi və digər sahələrdəki əməkdaşlığın dəstəklənməsi missiyası daşıyan İslam Əməkdaşlıq Təşkilatının işinə hər zaman dəstək verib.

Kamran Əliyev qeyd edib ki, dövlətimiz İƏT çərçivəsində İslam dünyasının problemlərinə dair aparılan müzakirələrdə, qərar və qətnamələrin qəbul edilməsində birmənalı və dəyişməz mövqe nümayiş etdirir, təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

İslam Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri olan ölkəmiz təşkilatın müxtəlif qurumları - İCESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə də sıx əməkdaşlıq edir.

Baş prokuror Kamran Əliyev, 2022-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq mühafizə orqanları rəhbərlərinin Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində keçirilən yüksək səviyyəli görüşündə iştirakını xatırladaraq, həmin görüşün əhəmiyyəti barədə məlumat verib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror,  COP29-un iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə əhəmiyyətli bir mərhələ olacağını qeyd edib.

İƏT-in nümayəndəsi Mishaal Al-Ahmadi səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Useymininin salamını və 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə təbrikini çatdırıb.

Bildirib ki, müsəlman ölkələrinin birliyinə, islam həmrəyliyinə mühüm töhfələr verən Azərbaycan və İƏT arasında əlaqələr gələcəkdə də uğurla inkişaf edəcəkdir.

# Baş prokuror Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb






Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Bəhreyn Krallığı ilə əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirən Baş prokuror Kamran Əliyev iki ölkə arasında güclü siyasi və ticarət əlaqələrinin mövcudluğunu qeyd edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Azərbaycan Respublikası ilə Bəhreyn Krallığının prokurorluq orqanları arasında möhkəm əlaqələrin qurulduğuna nəzər salan Kamran Əliyev təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Bəhreyn Krallığının Baş prokuroru səmimi qəbula görə minnətdarlığını ifadə edərək 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, prokurorluq orqanlarında həyata keçirilən islahatları, iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

Tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar. Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquqlarının qorunması, qarşılıqlı peşəkar səfərlər və təcrübə mübadiləsini nəzərdə tutan əməkdaşlığın zərurəti qeyd olunub.

Daha sonra ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.

# Baş prokuror Kamran Əliyev Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbəri Daşdavaa Zandraanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbəri Daşdavaa Zandraanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş Prokuror Kamran Əliyev, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Monqolustan Prezidenti cənab Xaltmaaqiyn Battulqa arasında mövcud olan qarşılıqlı etimad və dostluq münasibətlərinin xalqlarımız arasında dərin tarixi köklərə söykənən siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün platforma təşkil etdiyini vurğulayaraq ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı qətiyyətli mübarizə tədbirləri barədə məlumat verib.

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirən Kamran Əliyev, korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Monqolustan da daxil olmaqla bir çox dövlətlə anlaşma memorandumlarının imzalandığını diqqətə çatdırıb.

Bildirilib ki, ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), həmin təşkilatın Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirləri müsbət dəyərləndirilib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev bildirib ki, iqlim dəyişikliyi milli sərhədlərə məhəl qoymayan qlobal problem olduğu üçün bu tədbirin keçirilməsi bütün ölkələr üçün vacibdir.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən iki cənab Daşdavaa Zandraa 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, həmçinin qurumlar arasında cinayətkarlıqla və korrupsiya ilə mübarizə sahəsində əməkdaşlığın genişlənməsinin zəruri olduğunu vurğulayıb.

# Baş prokuror Kamran Əliyev Braziliya Federativ Respublikası Baş prokurorunun müavini Paulo Buqarinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb






Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Braziliya Federativ Respublikasının Baş prokurorun müavini Paulo Buqarinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev bildirib ki, 1991-ci ildə Braziliya Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb, 1993-ci ildə isə ölkələrimiz arasında diplomatik əlaqələr qurulub. O vaxtdan etibarən iki ölkə arasında siyasi, iqtisadi-ticarət və mədəni əlaqələr müsbət məcrada inkişaf edir. İki ölkənin dövlət başçıları arasında münasibətlərin yaxşı olması qarşılıqlı əlaqələrin bütün sahələrinə özünün müsbət təsirini göstərir.

Kamran Əliyev qeyd edib ki, Cənubi Amerikada ən böyük dövlət olan Braziliya Federativ Respublikası ilə Cənubi Qafqazın ən böyük dövləti Azərbaycan arasında müxtəlif sahələr üzrə münasibətlərin inkişafı hər iki ölkənin prokurorluq orqanları arasında əlaqələrə müsbət təsir göstərir.

Bildirilib ki, Braziliya Federativ Respublikasının prokurorluq orqanının Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağında iştirakı əməkdaşlığımızın dərinləşməsinə töhfə verəcəkdir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, COP29-un iqlim dəyişikliyinə qarşı mübarizədə əhəmiyyətli bir mərhələ olacağını qeyd edib.

Braziliya Federativ Respublikasının Baş prokurorun müavini Paulo Buqarin səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın genişlənəcəyinə eminliyi ifadə edib.

Görüşdə, həmçinin, Braziliya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Montenegro Lopes da Kruz da iştirak edib.

# Baş prokuror Kamran Əliyev Nepal Federativ Demokratik Respublikasının Baş prokuroru Ramesh Badalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Oktyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Nepal Federativ Demokratik Respublikasının Baş prokuroru Ramesh Badalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev gələn il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək Azərbaycan və Nepal arasında ikitərəfli müstəvidə son illərdə irəliləyişlərin baş verdiyini bildirib, bir çox sahələr üzrə artıq münasibətlərin dərinləşdiyini qeyd edib.

Qoşulmama Hərəkatı təşkilatı çərçivəsində Nepal ilə əməkdaşlığın inkişaf etdiyini vurğulayan Kamran Əliyev, hər iki ölkənin sülhpərvərlik və bitərəflik ideyalarına sadiq olduğunu bildirib.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsinin əhəmiyyətindən bəhs edib.

Ölkəmizin yekdilliklə bəşəriyyəti narahat edən ən vacib məsələlərdən biri olan qlobal iqlim siyasətində yeni dönüş nöqtəsini hədəfləyən COP29-a ev sahibliyi edəcəyini vurğulayan Kamran Əliyev, bu tədbirin iqlim dəyişikliyi ilə mübarizə sahəsində mövcud beynəlxalq təcrübənin inkişafına təkan verəcəyini bildirib.

Ramesh Badal səmimi qəbula görə minnətdarlığını bildirərək 1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin hərtərəfli inkşafı üçün əlverişli səmimi mühitin olduğunu qeyd edib.

# Baş prokuror Kamran Əliyev Qazaxıstan Respublikası Baş prokurorunun birinci müavini Timur Taşınbayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Oktyabrın 2-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Qazaxıstan Respublikasının Baş prokurorunun birinci müavini Timur Taşınbayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan və qazax xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqlar iki ölkə arasında əlaqələrin əsasını təşkil edir. Ölkələrimizin ənənəvi dostluq və qardaşlıq əlaqələri əsrlərə söykənir.

Qeyd edilib ki, dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir.

Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilməsi ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevrildiyi bildirilib.

Baş prokuror bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq və hüquq mühafizə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, hüquqi sahədə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.

Timur Taşınbayev səmimi qəbula görə minnətdarlığını ifadə edərək iki ölkənin prokurorluq orqanları arasında mövcud əlaqələri yüksək qiymətləndirib.

# Kamran Əliyev Sinqapur Respublikasının Baş prokuroru Lüsyen Vongla görüşüb





Oktyabrın 2-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Sinqapur Respublikasının Baş prokuroru Lüsyen Vongun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan Kamran Əliyev, Azərbaycanla Sinqapur arasında isti münasibətlərin mövcud olduğunu söyləyib. O, bir sıra sahələrdə uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu qeyd edib. Əldə olunan müsbət nəticələrin əlaqələri daha da inkişaf etdirmək üçün səyləri birləşdirməyə stimul verdiyini vurğulayıb.

Bildirilib ki, beynəlxalq siyasi və iqtisadi əlaqələrin yaradılması və inkişafı coğrafi baxımdan uzaq xalqların yaxınlaşmasına və nəticədə möhkəm sülh və əmin-amanlığın bərqərar olmasına kömək edir.

"Formula 1" üzrə Azərbaycan Qran-prisindən sonra Sinqapur Qran-prisinin və Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Bakıdan sonra 30-cu yubiley tədbirinin Sinqapurda keçirilməsinin əhəmiyyətindən danışan Kamran Əliyev bunun hər iki ölkəyə beynəlxalq etimadın təcəssümü olduğunu bildirib.

Ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışan Kamran Əliyev müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən danışıb, ölkələrarası təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror Kamran Əliyev, COP29 zamanı Azərbaycan Respublikası Baş Prokurorluğunun Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi - UNODC ilə birgə noyabrın 15-də “Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi” adlı yüksək səviyyəli plenar iclas təşkil etdiyini bildirərək qonaqlara dəvət məktubunu təqdim edib.



Cənab Lüsyen Vong səmimi qəbula görə minnətdarlığını ifadə edərək Azərbaycanla əməkdaşlığa ölkəsinin böyük önəm verdiyini, gələcəkdə münasibətlərin daha da dərinləşməsi üçün çalışacaqlarını bildirib.

# Baş prokuror Kamran Əliyev Çili Respublikasının Baş prokuroru Angel Maurisio Valensia Vasquezin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Oktyabrın 2-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Çili Respublikasının Baş prokuroru Angel Maurisio Valensia Vasquezin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Kamran Əliyev bildirib ki, bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd edilib. 30 il ərzində ölkələrimiz arasında siyasi, iqtisadi-ticarət və mədəni əlaqələr müsbət məcrada inkişaf edib.

Tərəflər arasında beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində münasibətlərin gücləndiyini qeyd edən Kamran Əliyev, siyasi sferada qarşılıqlı münasibətlərin müsbət dinamikasının iki ölkənin prokurorluq orqanlarının əməkdaşlığı üçün əlverişli zəmin olduğunu vurğulayıb.

Bildirilib ki, Çili Respublikasının prokurorluq orqanının Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağında iştirakı əlaqələrimizin gələcək perspektivi baxımından son dərəcə nikbin ovqat formalaşdırdı.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Baş prokuror, COP29 bütün ölkələr üçün iqlim neytrallığı üzrə öhdəliklərin qəbul edilməsinə, iqlim fəlakətlərinə hazırlığın təmin edilməsi üzrə səylərin artırılmasına, həmçinin milli iqlim planları istiqamətində çoxsəviyyəli fəaliyyətlərin və dəyişikliklərin gücləndirilməsinə ilham verəcəyini bildirib.

Çili Respublikasının Baş prokuroru səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

# Paytaxtımızda keçirilən beynəlxalq konfrans uğurla başa çatıb






Bakı Konqres Mərkəzində keçirilən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının 4-cü (son) günündə 95 ölkədən 500-ə yaxın şəxs iştirak edib.

Tədbir çərçivəsində müxtəlif ölkələrin prokurorluq və ədliyyə qurumları arasında ikitərəfli və çoxtərəfli görüşlər baş tutub. Bundan əlavə, müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları və şəbəkə iclasları keçirilib.

Oktyabrın 2-də – konfransın son günündə keçirilən “Rəqəmsal əsrdə qanunun aliliyinin təmin edilməsində prokurorun rolu – çağırış və cavablar”, “Rəqəmsal sübutlar və süni intellektdən istifadə çərçivəsində şəffaflığın, hesabatlılığın və məlumatların qorunmasının təmin edilməsi”, “Kibercinayətkarlığın təqibində beynəlxalq əməkdaşlığın əhəmiyyəti” adlı plenar sessiyaları və “Ekoloji cinayət”, “Kibercinayətkarlıq” və “Terrorla mübarizə” seminarlarında səmərəli fikir mübadilələri baş tutub, müzakirələr aparılıb.

Tədbirin əsas hissəsindən sonra bağlanış mərasimi baş tutub.

Çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının uğurla başa çatdığını bildirərək, cinayətkarlığın bütün növlərinə qarşı birgə mübarizədə iştirakçı dövlətlərin həmfikir olduğunu, bunun üzv ölkələrin prokurorluq və ədliyyə qurumları arasında münasibətlərin inkişafına öz müsbət təsirini göstərəcəyini qeyd edib.



Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin Baş prokuroru Juan Bautista Mahiques çıxış edərək 29-cu İllik Konfransı və Ümumi Yığıncağın uğurla başa çatması münasibətilə Baş prokuror Kamran Əliyevi və digər iştirakçıları təbrik edib, göstərilən qonaqpərvərlik və





isti münasibətə görə Azərbaycan dövlətinə təşəkkür edib.

Həmçinin, çıxış edən Assosiasiyasının Baş katibi Roel Dona tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prokurorluğuna və digər əməyi keçən hər kəsə təşəkkür edib, dünyanın ən gözəl paytaxt şəhərlərdən biri olan Bakının indiyədək təyin olunmuş Konfranslar tarixində öndə yer tutduğunu qeyd edib.

Daha sonra Baş prokuror Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının 30-cu İllik (yubiley) Konfransı və Ümumi Yığıncağının Sinqapurda (Sinqapur şəhərində) keçiriləcəyini diqqətə çatdıraraq, Sinqapur Respublikasının Baş prokuroru cənab Lüsyen Vongu bu münasibətlə təbrik edib və uğurlar arzulayıb.







Lüsyen Vong çıxış edərək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının uğurla başa çatması münasibətilə Kamran Əliyev başda olmaqla bütün üzv ölkələri təbrik edib və bildirib ki, artıq BPA-nın 30-cu İllik (yubiley) Konfransı və Ümumi Yığıncağının Siqapurda keçirilməsi üçün hazırlıq işlərinə başlanılıb.

Lüsyen Vong 30-cu İllik (Yubiley) Konfrans və Ümumi Yığıncaqda Azərbaycanın geniş təcrübəsindən istifadə olunacağını vurğulayıb.

Sonda, Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının rəmzi bayrağını Sinqapur Respublikasının Baş prokuroru cənab Lüsyen Vonga təqdim edib.

Bununla da, ölkəmizdə keçirilən beynəlxalq tədbir uğurla başa çatıb.

# Baş Prokurorluqda Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib



Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru cənab Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru cənab Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyətini Baş Prokurorluqda qəbul edib.

Baş prokuror Azərbaycan və Türkiyənin liderləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın uzaqgörən siyasəti nəticəsində dövlətlərarası əlaqələrin bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etdiyi bildirilib. Bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “bir millət, iki dövlət” prinsipinə əsaslandığını və gələcəkdə davam edəcəyinə əminlik ifadə edilib.



Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Muhsin Şentürk ölkələrimizin bütün sahələrdə əlaqələrinin sıx olmasını qeyd etməklə, Bakıda keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının



yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Həmçinin, Muhsin Şentürk səfər zamanı Şuşa və Xankəndi şəhərlərini və orada yerləşən bir sıra tarixi-mədəni abidələrini ziyarət etməsinə şərait yaradılmasına görə təşəkkürünü ifadə edərək, erməni vandalizminin ağır nəticələrini təəssüf hissi ilə müşahidə etdiyini, görülmüş bərpa-quruculuq işləri ilə yaxından tanış olduğunu bildirib.





Bundan başqa Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Qarabağ Universitetinin Xankəndi şəhərində təsis edilməsini tarixi hadisə olmasını vurğulamaqla həmin təhsil müəsssisəsinin aparıcı ali məktəblərdən birinə çevriləcəyinə əminlik ifadə edilib.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi və Çağrı Mərkəzi ilə tanış olub.



# İndoneziya Baş prokurorunun müavininin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub











Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29 sentyabr - 2 oktyabr tarixlərində Bakıda keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlərin keçirilməsi çərçivəsində ölkəmizdə səfərdə olan İndoneziya Respublikasının Baş prokurorunun müavini Asep Nana Mulyananın təşəbbüsü ilə xarici qonağın rəhbərlik etdiyi nümayəndə heyəti 2 oktyabr 2024-cü il tarixdə Azərbaycan Res-publikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yerində tanış olub.

Nümayəndə heyətinə Baş İdarənin funksiya və fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib, o cümlədən qonaqlar ixtisaslaşdırılmış prokurorluq orqanının kriminalistik imkanları, “161 - Qaynar xətt” əlaqə mərkəzi, informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi və digər xidməti sahələri ilə tanış ediliblər.

Baş İdarədə yaradılmış müasir və əlverişli iş şəraitindən məmnunluğunu ifadə edən Asep Nana Mulyana ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində formalaşmış təcrübəni və əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirib.

# Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə tanış olub







Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Bakıda keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağı çərçivəsində ölkəmizdə səfərdə olan Monqolustan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbəri Dashdavaa Zandraanın təşəbbüsü ilə xarici qonağın rəhbərlik etdiyi nümayəndə heyəti 3 oktyabr 2024-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yerində tanış olub.

Xarici qonaqları salamlayan Baş prokurorun müavini - Baş İdarə rəisi Nazim Rəcəbov onlara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış islahatlar, əldə edilmiş nailiyyətlər və müsbət təcrübələr, habelə ixtisaslaşdırılmış prokurorluq orqanının funksiya və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Daha sonra nümayəndə heyəti Baş İdarənin kriminalistik imkanları, “161 - Qaynar xətt” əlaqə mərkəzi, informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi və digər xidmət sahələri ilə tanış edilib.

D.Zandraa ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsindəki təşəbbüs və nailiyyətlərindən, eləcə də Baş İdarədə yaradılmış iş şəraitindən məmnunluğunu ifadə edib, həmçinin, görüş zamanı gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainin rəhbərlik etdiyi nümayəndə heyəti görüş keçirilib



Oktyabr ayının 4-də Baş prokuror Kamran Əliyev Bəhreyn Krallığının Baş prokuroru Ali Bin Fadhel Al-Buainainini Baş Prokurorluqda qəbul edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi hüquq sistemində də aparılan islahatlar, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı ilə yaradılmış “Elektron prokurorluq” informasiya sisteminin tətbiqi barədə ətraflı məlumat verib.



Səmimi qəbula görə öz təşəkkürünü bildirən Ali Bin Fadhel Al-Buainaini Bakıda keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağının yüksək səviyyədə keçirilməsi münasibətilə təbrik edərək qarşıda duran mühüm tədbirlərin Baş Prokurorluq tərəfindən müvəffəqiyyətlə keçiriləcəyinə əminlik ifadə edib.

Daha sonra qonaq Baş Prokurorluğun Tarix muzeyi və Çağrı Mərkəzi ilə tanış olub.





# Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakıda keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağının iştirakçıları Qəbələ şəhərinə səfər edib















Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) Bakıda keçirilən 29-cu İllik Konfransı və Ümumi Yığıncağında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin ölkəmizdə səfərdə olan 100-ə yaxın prokuror oktyabrın 5-də ölkəmizin tarixi yerlərindən olan Qəbələ şəhərinə səfər etmişdir.

Səfər zamanı qonaqlar qədim alban memarlığının nümunəsi olan Müqəddəs Yelisey adına Cotari Kilsəsi ilə tanış olub, Qəbələ Arxeoloji Mərkəzini ziyarət edərək orada olan eksponatlar barədə onlara ətraflı məlumat verilib.

# Dünyanın 177 ölkəsindən 350 mindən artıq prokuroru birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının İllik Konfransı Azərbaycanda keçirilib

*Azərbaycan Respublikası Baş prokurorunun müavini*

*II dərəcəli dövlət ədliyyə müşaviri* ***Heydər Məmmədovun*** *müsahibəsi*




***Hörmətli Heydər müəllim, ölkəmizin prokurorluq orqanlarının cinayətkarlığa qarşı effektiv mübarizə aparması və bu fəaliyyətin müsbət nəticələri ictimaiyyətə bəllidir. Təqsirli şəxslərin isti izlərlə cinayət başında yaxalanması, uzun illər bağlı qalmış cinayətlərin peşəkarlıqla açılması, məhkəmə mərhələsində prokurorlar tərəfindən dövlət ittihamının keyfiyyətli müdafiəsi kimi çoxsaylı müsbət nümunələr göstərmək olar ki, bu məlumatları hər birimiz media səhifələrində də izləyirik. Habelə, prokurorluğun beynəlxalq əməkdaşlıq sahəsindəki fəal mövqeyi də diqqət cəlb edən məqamlar sırasındadır. Bir hüquq mühafizə orqanı kimi Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti cinayətkarlıqla mübarizəyə hansı töhfələr verməkdədir?***

Maraqlı sualınız üçün təşəkkür edirəm. Əvvəla onu qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarının beynəlxalq sferada gördüyü işləri və əldə etdiyi nailiyyətləri qurumun cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətinin məntiqi davamı hesab etmək olar.

Xüsusilə 2020-ci ildən etibarən prokurorluqda aparılan kompleks islahat tədbirlərinin davamı kimi beynəlxalq əməkdaşlıq sahəsi də daha müasir və intensiv müstəviyə keçid etmişdir. Fikrimcə beynəlxalq əməkdaşlığın cinayətkarlıqla mübarizədə əhəmiyyətini üç başlıca istiqamət üzərindən əsaslandırmaq mümkündür.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ: ÜÇ İSTİQAMƏT – VAHİD MƏQSƏD

**Birinci və ən əsas istiqamət** – ölkəmizin beynəlxalq hüququn ayrılmaz subyekti olmasıdır. Başqa sözlə, cinayətkarlığa qarşı mübarizə sahəsində normalar da daxil olmaqla Azərbaycan Respublikasının milli hüquq sistemi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə uyğun formada qurulub. Bu baxımdan, Azərbaycan Respublikasının Prokurorluğu nəinki beynəlxalq hüququn inkişaf tendensiyası daim izləyir, habelə mötəbər səviyyədə keçirilən müxtəlif beynəlxalq tədbirlərdə qatılmaqla bu ali hüququn formalaşması təşəbbüslərində də aktiv iştirak edir.

**İkinci istiqamət** – müasir dövrdə cinayətkarlığın getdikcə daha çox transmilli xarakter almasıdır. Məhz bu faktor digər dövlətlərlə daha sıx əməkdaşlıq əlaqələrinin qurulmasını labüd edir. Təmsil etdiyim qurumun qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərində müstəsna səlahiyyətlərə malik olması nəzərə alınaraq, bu xətt üzrə də digər dövlətlərin hüquq mühafizə orqanları ilə intensiv işgüzar əlaqələri mövcuddur.

**Sonuncu istiqamət** – xarici tərəfdaşlarla müsbət təcrübə mübadiləsinin aparılmasıdır ki, bu da özündə cinayətkarlıqla mübarizə sahəsində əldə edilmiş nailiyyətlərin, innovativ yeniliklərin, bilik və bacarıqlardan qarşılıqlı olaraq faydalanma imkanını ehtiva edir. Bu baxış bucağından yanaşdıqda da, ölkəmizin prokurorluq orqanları ilə tərəfdaşları arasında müsbət təcrübənin öyrənilməsinə xidmət edən çoxsaylı əməkdaşlıq sazişlərinin bağlanmasının, qarşılıqlı təlim səfərlərinin reallaşdırılmasının şahidi olmaq mümkündür. Bir sözlə, beynəlxalq əməkdaşlığın sadaladığım hər üç istiqaməti cinayətkarlıqla mübarizəyə müxtəlif sahələrdə töhfələr verməklə bu fəaliyyəti bir növ tamamlamış olur.

***Məlumdur ki, Azərbaycan Respublikası Prokurorluğunun sıx əməkdaşlıq etdiyi beynəlxalq təsisatlardan biri də Beynəlxalq Prokurorlar Assosiasiyasıdır (BPA). Təsadüfi deyildir ki, cari ilin sentyabr ayının sonunda noyabr ayının əvvəlində BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağı Bakı şəhərində keçirilmişdir. Ölkəmizin mötəbər tədbirinə ev sahibliyi etdiyi bu təşkilatın inkişaf tarixi, missiyası və əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

Əlbəttə, bu çox doğru müşahidədir – Beynəlxalq Prokurorlar Assosiasiyası ilə Azərbaycan Respublikası Prokurorluğunun dayanıqlı əməkdaşlıq əlaqələri mövcuddur ki, bu da hər iki tərəfə dəyərli töhfələr verməkdədir. Peşəkar səviyyədə gərgin iş və böyük zəhmət hesabına qurulan bu münasibətlər uzun illər ərzində formalaşaraq bugünkü yüksək hala gəlib çatmışdır. Təşkilatın qeyd etdiyiniz İllik Konfransının Bakıda keçirilməsi məhz bu sağlam əməkdaşlığın məntiqi nəticəsidir.

Əvvəla onu deyim ki, fəaliyyəti beynəlxalq əməkdaşlığın daha əvvəl vurğuladığım hər üç istiqamətini əhatə edən BPA-nın başlıca məqsədi dünya prokurorları arasında əməkdaşlığı və təcrübə mübadiləsinin möhkəmlənməsinə xidmət etməkdir. Əsas prinsipləri ədalətlilik, qanunun aliliyi, qərəzsizlik və peşəkarlıq olan bu nəhəng təşkilatın fəaliyyət istiqamətləri arasında transmilli cinayətkarlığa qarşı mübarizə, prokurorların ixtisaslarının artırılması və cinayət prosesində ədalətliliyin təmin edilməsinə dəstək kimi vacib məsələlər yer alır.

## PROKURORLARIN ƏMƏKDAŞLIĞI SAHƏSİNDƏ QLOBAL PLATFORMA

Hesab edirəm ki, BPA-nı qısaca dünya prokurorlarının qlobal miqyasda ilk və yeganə geniş platforması kimi də təqdim etmək mümkündür. Mənzil qərargahı Niderlandın Haaqa şəhərində yerləşən, 177 ölkə üzrə 350 mindən artıq üzvü olan bu təşkilat hüququn aliliyinin qorunması işində prokurorların dəstəklənməsi və gücləndirilməsinə xidmət edən mütərəqqi bir beynəlxalq təşəbbüsdür.



1996-cı il, BPA-nın 1-ci ilk Konfransı, Budapeşt, Macarıstan

Təşkilat 6 iyun 1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Vyanadakı ofisində 11 ölkənin prokurorluq orqanları təsis edilmiş və həmin dövrdən etibarən dinamik inkişaf yolu keçmişdir. Belə ki, 1996-cı ildə Macarıstanın paytaxtı Budapeşt şəhərində ilk dəfə BPA-nın İllik Konfransı keçirilmiş, yaradılmasından qısa zaman keçməsinə baxmayaraq həmin tədbirə artıq cəmi 49 ölkənin prokurorluq orqanlarını təmsil edən 134 nümayəndə qatılmışdı. Qeyd edim ki, Assosiasiyanın ilk Prezidenti və qurumun idarəetmə orqanı olan İcraiyyə Komitəsinin üzvləri də məhz sözügedən Konfransında seçilmişdi.



BPA-nın 2-ci İllik Konfransı, Ottava, Kanada, 1997

Bu nüfuzlu təsisatın formalaşması prosesi bundan sonra da davam etmiş, 1997 və 1999-cu illərdə keçirilmiş növbəti illik konfranslar çərçivəsində BPA-nın əsas fəaliyyət istiqamətləri və prokurorların xidməti

fəaliyyətinə dair vahid beynəlxalq Standartlar qəbul edilib. Vacib əhəmiyyətinə və aktuallığına görə bu Standartlara hətta BMT-nin müvafiq qətnaməsində də istinad edilməklə onların tətbiqi Üzv Dövlətlərə tövsiyə edilib.

Təşkilatın tarixində digər diqqətəlayiq məqam isə 21 may 2001-ci ildə ona BMT-də xüsusi məşvərətçi statusun verilməsinə dair qərarın yekdilliklə qəbul edilməsi olub.

***Heydər müəllim, BPA-nın üzvlərinin say çoxluğuna nəzər yetirdikdə, asanlıqla bu təşkilatın fəaliyyət coğrafiyasının nə qədər geniş olması barədə ilkin təəssürat formalaşdırmaq mümkündür. Belə bir funksional müxtəlifliyə malik bir beynəlxalq qurumun idarəetmə və təşkilati strukturu barədə məlumat verərdiniz.***

Qeyd etdiyiniz kimi BPA idarəetmə arxitekturası baxımından çox mürəkkəb struktura malikdir. Bununla belə Assosiasiyanın işinin qlobal miqyasda səmərəli təşkilini məhz qurumun inzibati sisteminin nizamlı şəkildə quruluşu və idarəetmə orqanlarının funksiyaları arasındakı ahəngdarlığı təmin edir. Təşkilatın strukturunda ən yüksək səlahiyyət orqanı hər il üzvlərin iştirakı ilə keçirilən Ümumi Yığıncaqdır. Qurumun Əsasnaməsinə dəyişikliklərin edilməsi, İcraiyyə Komitəsinə nümayəndələrin seçilməsi və digər mühüm məsələlər üzrə qərarların qəbul edilməsi yalnız bu tərkibdə mümkündür.

BPA-nın strateji rəhbərlik orqanı olan İcraiyyə Komitəsi isə Ümumi Yığıncağın qəbul etdiyi qərarlara uyğun olaraq Assosiasiyanın siyasətini və ümumi istiqamətini müəyyən edir. Komitə üç il müddətinə seçilən Prezident, doqquzadək Vitse-prezident və ondan iyirmi birə qədər üzvdən ibarətdir. Komitənin üzvləri dünyanın müxtəlif bölgələrini təmsil edir. İcraiyyə Komitəsi altı il müddətinə BPA-nın Baş katibi, İcraçı direktoru və Baş konsulu kimi əsas vəzifəli şəxslərini təyin edir.

Baş katibin rəhbərliyi və İcraçı direktorun idarəçiliyi ilə ümumi fəaliyyətinin səmərəliliyini təmin edən orqan olan Assosiasiyanın Katibliyi maliyyə, kommunikasiya, üzvlük məsələləri və digər bu kimi funksiyaları yerinə yetirir.

Assosiasiyanın Senatı isə məşvərətçi orqanı olmaqla İcraiyyə Komitəsinin keçmiş təcrübəli üzvlərdən ibarətdir. Senat üzvləri BPA-nın məqsədləri və strategiyasının davamlılığını təmin etmək üçün zəruri məsləhət və dəstəyi təmin edirlər.




**2024-cü il Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclası, Makao, Çin Xalq Respublikası**

## İDARƏÇİLİKDƏ AZƏRBAYCAN TƏMSİLÇİLİYİ

Yeri gəlmişkən onu da xüsusi vurğulamaq istərdim ki, Assosiasiyanın strateji qərar qəbuletmə səlahiyyətlərinə malik ali idarəçilik orqanlarında ölkəmizin nümayəndələri daim yüksək səviyyədə təmsil edilib.

Bunun bariz nümunə kimi Baş prokuror Kamran Əliyevin ilk dəfə 2010-cu ildən etibarən ardıcıl olaraq üç dəfə İcraiyyə Komitəsinin üzvü, 2018-ci ildə Assosiasiyanın Vitse-prezidenti vəzifəsinə seçildiyini göstərmək olar. Sevindirici haldır ki, Azərbaycanın Assosiasiyanın fəaliyyətinə verdiyi zəngin töhfələrin növbəti nəticəsi kimi Azərbaycan Respublikasının Baş prokuroru İcraiyyə Komitəsinin cari ilin aprel ayında Çin Xalq Respublikasının Honq Konq Xüsusi İnzibati Bölgəsində keçirilmiş 57-ci iclasında növbəti müddətə həmin vəzifəyə seçilmiş və hal-hazırda vəzifələrinin icrasını davam etdirir.

***Növbəti sualım isə BPA-nın tədbir və digər platformaları ilə bağlıdır. Təşkilat öz üzvlərini hansı formada bir araya toplayır? Ümumiyyətlə üzvlərlə iş və əlaqələndirmə necə qurulur?***

Qurumun üzvlərlə birgə fəaliyyəti və əlaqələndirmə işi müxtəlif tədbir və platformalar vasitəsi ilə həyata keçirilir. Bu baxımdan cari ildə ölkəmizdə keçirilmiş BPA-nın İllik Konfransı Assosiasiyanın iştirakçı sayı etibarı ilə ən böyük tədbiri və əlaqələndirmə platforması hesab olunub. Hər illik tədbirin cinayətkarlığa qarşı mübarizənin müxtəlif aspektləri üzrə ayrıca mövzusu müəyyən edilir. Bu konfranslar rəhbər heyətlər daxil olmaqla dünya üzrə yüzlərlə prokuror və tanınmış hüquqşünasları bir araya gətirərək cinayətkarlığa qarşı mübarizə sahəsində peşəkar məsələləri müzakirə etmək, yeni norma və təcrübələri öyrənmək üçün geniş imkanlar yaradır.

İllik Konfranslar zamanı həmçinin daha əvvəl adını çəkdiyim Ümumi Yığıncaqlar da keçirilməklə Assosiasiyanın idarəetmə orqanlarına seçkilərin keçirilməsi və təşkilati qərarların qəbul edilməsi təmin edilir. 1996-cı ildən bu vaxtadək BPA-nın iyirmi səkkiz illik konfransı keçirilib. Onlardan 2020 və 2021-ci illərdə keçirilməli olan iki tədbir isə COVİD-19 pandemiyası səbəbindən hər hansı bir ölkənin ev sahibliyi olmadan videoformatda keçirilib.

## BEYNƏLXALQ ETİMADIN NÖVBƏTİ TƏZAHÜRÜ

Eləcə də, dövri olaraq BPA-nın İcraiyyə Komitəsinin İclasları da keçirilir ki, bunlardan ikisi Azərbaycanın Assosiasiyasının fəaliyyətində müsbət təmsilçiliyini nəzərə alaraq 2002-ci və 2018-ci illərdə Bakı şəhərində keçirilib. Onu da qeyd etmək yerinə düşər ki, cari ildə Bakıda 29-cu İllik Konfrans çərçivəsində Ümumi Yığıncaqla yanaşı İcraiyyə Komitəsinin də iclası üçüncü dəfə ölkəmizdə keçirilmiş və bu təşkilatın hər üç yüksək səviyyəli tədbirinə eyni anda ev sahibliyi etməyimiz Azərbaycana beynəlxalq səviyyədə göstərilən böyük etimadın növbəti təcəssümüdür.

Onu da əlavə edim ki, Bakı Konfransından sonra 30-cu belə tədbirə ev sahibliyi hüququ 2025-ci il üçün Sinqapura ötürüləcəkdir.

Bundan başqa, təşkilat tərəfindən dünya prokurorlarının bilik və bacarıqlarının artırılması məqsədi ilə regional konfranslar, müxtəlif mövzulara həsr edilmiş təlim və seminarlar da təşkil edilməkdədir.

Habelə, əyani təmaslara xüsusi diqqət yetirən BPA nümayəndələri mütəmadi olaraq Azərbaycan da daxil olmaqla müxtəlif ölkələrə səfərlər edərək təşkilatın üzvləri ilə görüşlər keçirir, yeni üzvlərlə bilavasitə tanış olmaqla onları qurumun fəaliyyəti ilə bağlı məlumatlandırır və maraq doğuran məsələlər üzrə suallarını cavablandırırlar.

Həmçinin, BPA-nın üzvlərini müxtəlif peşəkar aspektlərdə dəstəkləmək üçün səkkiz ixtisaslaşmış şəbəkəsi də mövcuddur. Bu platformalar ayrı-ayrı ölkələrdə çalışan prokurorlar arasında məlumat, müsbət təcrübə mübadiləsi və əməkdaşlığı təşviq edir, onlara öz işlərində həm ənənəvi, həm də yeni problemlərin öhdəsindən gəlməkdə köməklik edir:

- Prokurorların Elektron Cinayətkarlığa qarşı Qlobal Mübarizə Şəbəkəsi (GPEN)
- Beynəlxalq Ədalət Mühakiməsi Forumu (FICJ)
- İnsan Alverinə qarşı Mübarizə Platforması (TIPP)
- Terrorizmə qarşı Mübarizə üzrə Prokurorlar Şəbəkəsi (CTPN)
- Korrupsiyaya qarşı Mübarizə üzrə Prokurorlar Şəbəkəsi (NACP)
- Cinsi Zorakılıq Cinayətlərinin araşdırılması üzrə Prokurorlar Şəbəkəsi (PSV)
- Hərbi Prokurorlar Şəbəkəsi (NMP)
- Prokurorların İstehlakçı Hüquqlarının Müdafiəsi Şəbəkəsi (PCPN)



**2017-ci il, GPEN-nin iclası, Bakı şəhəri**

Bu şəbəkələrin hər biri ixtisaslaşdığı sahə üzrə müzakirələr, təlim materialları, iş təcrübələri və hüquqi resurslardan faydalanmaq üçün etibarlı mühit təmin edir. Şəbəkə prokurorların kibercinayətkarlığın sürətlə dəyişən çətinliklərinə qarşı gəlməyə və beynəlxalq əməkdaşlığın gücləndirməsinə kömək edir. İllik Konfranslarda həmçinin bu şəbəkələrə üzv olan nümayəndələrin də ayrıca sessiyaları təşkil edilir. Misal üçün göstərə bilərəm ki, 10-11 oktyabr 2017-ci il tarixlərdə Bakı şəhərində Azərbaycan Respublikası Prokurorluğu və BPA-nın GPEN Şəbəkəsi tərəfindən Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans" Assosiasiya tərəfindən Şəbəkənin uğurlu layihələrindən biri kimi qiymətləndirilmişdir.



**2022-ci il NACP-nin növbəti sessiyası, Tbilisi, Gürcüstan**

Eləcə də, ölkəmizin növbəti nailiyyəti kimi 2015-ci ildən başlayaraq Baş prokuror Kamran Əliyevin sədrliyi ilə BPA-ya üzv olan dövlətlərin hüquq mühafizə orqanlarının nümayəndələri üçün mütəmadi olaraq NACP-ın korrupsiyaya qarşı mübarizə ilə bağlı sessiyaları keçirilməkdədir. Sessiyalar zamanı korrupsiyaya qarşı mübarizə sahəsində prokurorlar qarşılaşdığı çətinliklər, yeni alətlərin milli qanunvericiliyə implementasiya istiqamətində ortaya çıxan suallar, korrupsiya cinayətləri nəticəsində dəymiş ziyanın bərpasında prokurorun rolu, qarşılıqlı hüquqi yardımın effektivliyi və digər bu kimi məsələlərin ətrafında fikir mübadiləsi aparılır. Bununla bağlı həmçinin qeyd etmək istərdim ki, BPA-nın rəsmi internet səhifəsinin NACP-nin fəaliyyətinə dair bölməsinin idarəçiliyi Azərbaycan tərəfindən həyata keçirilir.

***Siz Azərbaycanla BPA arasında peşəkar əməkdaşlıq əlaqələrinin dərin kökləri olmasından bəhs etdiniz. Bu barədə daha geniş məlumat verə bilərsinizmi? Ümumiyyətlə təşkilatla Azərbaycan Respublikasının Prokurorluğu arasında mövcud əlaqələrin tərəflərə başqa nə kimi faydaları olub?***

Bu sualınıza bir qədər geniş cavablandırmaq istərdim. Çünki əməkdaşlıq əlaqələrimizin inkişaf tarixinə baxdıqda bu yolun qarşılıqlı töhfələrə dair nümunələrlə zəngin olduğunu bir daha anlamış olarıq.

Öncəliklə ondan başlamaq olar ki, Azərbaycanın Assosiasiya ilə əməkdaşlığı 1997-ci ildə Kanadanın paytaxtı Ottava şəhərində keçirilən 2-ci İllik Konfransında iştirakla başlanıb.


1998-ci il, BPA-nın 3-cü Ümumi Yığıncağı, Dublin, İrlandiya

1998-ci ilin may ayında Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən İcraiyyə Komitəsinin yaz iclası zamanı ölkəmizin Baş Prokurorluğu və Azərbaycan Respublikası Prokurorluğunun sisteminə daxil olan Respublika Hərbi Prokurorluğunun Assosiasiyaya təşkilati üzv kimi qəbul edilməsi məsələsinə baxılıb. Həmin ilin sentyabr ayında İrlandiya Respublikasının Dublin şəhərində keçirilmiş 3-cü Ümumi Yığıncaqda isə artıq təşkilata üzv qəbul edildik.

## SARSILMAZ ƏMƏKDAŞLIĞIN BÜNÖVRƏSİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

2002-ci ilin may ayında Bakı şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin növbəti iclası BPA-nın fəaliyyəti dövründə baş tutmuş ən uğurlu tədbirlərdən biri kimi xatırlanır. Həmin tədbirə xüsusi status verən məqam isə mayın 17-də Komitənin nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyev tərəfindən qəbul edilməsi idi.

Görüş Ulu Öndərin bu sözləri ilə yaddaşlarda qalır: *"Beynəlxalq Prokurorlar Assosiasiyası qeyri-dövlət təşkilatı kimi böyük işlər görür. Siz müxtəlif ölkələrin prokurorluq xidmətlərini, prokurorluq orqanlarının nümayəndələrini birləşdirərək, həm təcrübə toplayır, həm də təcrübə mübadiləsi aparır və bir-birinizə kömək edirsiniz".*

Görüşün sonunda nümayəndə heyəti tərəfindən XVIII əsrə aid olan, üzərində Azərbaycan ərazilərinin də göstərildiyi dünya xəritəsi Ümummilli Lider Heydər Əliyevə təqdim edilib.

Bundan başqa, BPA-nın daha əvvəl qeyd etdiyim Korrupsiyaya qarşı Mübarizə üzrə Prokurorlar Şəbəkəsi (NACP) 2015-ci ildə məhz Azərbaycan Respublikası Prokurorluğu ilə İngiltərə və Uelsin Kral Prokurorluğu Xidmətinin təşəbbüsü ilə korrupsiyaya qarşı mübarizədə prokurorların mühüm rolu nəzərə alınmaqla yaradılıb. Həmçinin Şəbəkənin fəaliyyətinin təmin edilməsi də Azərbaycan və Birləşmiş Krallığın prokurorluq orqanlarına həvalə edilib. Hazırda bu platformanın əhatə etdiyi sahələri genişləndirmək məqsədilə adının İqtisadi Cinayətkarlıq və Əmlakın Bərpası Şəbəkəsi olaraq dəyişdirilməsi nəzərdə tutulur.

Ümumiyyətlə qeyd edim ki, bu gün üçün Azərbaycan Respublikasının Prokurorluğu üzrə BPA-nın 300-dən çox üzvü var və bu say daim artmaqdadır. Çünki milli prokurorluq orqanları əməkdaşlarının beynəlxalq təcrübəni daha dərindən öyrənməsi, xarici ölkədəki həmkarları ilə işgüzar əlaqələr qurması baxımından BPA-nın çox geniş peşəkar imkanları vardır. BPA-nın mütəmadi təşkil etdiyi təlim və seminarlarda iştirak etməklə, hüququn müxtəlif istiqamətlərinə həsr edilmiş materialları, dünya üzrə təcrübəli prokurorların müxtəlif mövzularla bağlı çıxış və məqalələri ilə tanış olmaq xüsusilə gənc əməkdaşların bilik və bacarıqlarının artırılmasında müsbət rol oynayır.

Eləcə də, tərəfdaş ölkələrdə fəaliyyət göstərən prokurorluq orqanları da bu platforma vasitəsi ilə Azərbaycan Prokurorluğunun iş təcrübəsinə böyük maraq göstərirlər.

***Son olaraq, BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının bu il Bakıda keçirilməsi zərurətindən, ev sahibliyi edən tərəf olaraq görülən təşkilatı işlərindən danışmaq istərdik. Həmçinin, bu beynəlxalq tədbirin formatı və müzakirə mövzularının nədən ibarət olduğunu da eşitmək faydalı olardı.***

Məlumdur ki, Azərbaycan Respublikası 2020-ci ildə aparılmış 44 günlük Vətən müharibəsindən sonra

yeni inkişaf yoluna qədəm qoydu. Dövlətimizin Başçısı cənab İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun yüksək şücaəti ilə əldə edilmiş böyük Zəfərin çoxsaylı müsbət nəticələrindən biri də ölkəmizin sülh və quruculuq istiqamətində beynəlxalq təşəbbüslərinin irəli sürüldüyü etibarlı məkan kimi mövcud olan statusunu daha da gücləndirdi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəcib təşəbbüslərindən qaynaqlanan ahəngdar fəaliyyət nəticəsində bu nailiyyətlər humanitar-mədəni sferanı da tam əhatə etmişdir. Aparılan müdrik siyasətin verdiyi töhfələrdən biri kimi Azərbaycan bir çox siyasi və iqtisadi xarakterli beynəlxalq tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizə sahəsində də qlobal səyləri birləşdirməyə müvəffəq olmuşdur.

Məhz bu siyasi xəttə uyğun olaraq Baş prokuror Kamran Əliyev tərəfindən 2021 ilin 4-5 may tarixlərində Niderlandın Haaqa şəhərində keçirilmiş BPA-nin İcraiyyə Komitəsinin 51-ci iclasında 2024-cü ilin sentyabr ayında BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakı şəhərində keçirilməsinə dair ilkin təklif irəli sürülmüşdür. Təkliflə bağlı iclasda geniş təqdimatla çıxış edən Baş prokuror ölkəmizdə, o cümlədən paytaxt Bakıda həyata keçirilən dayanıqlı sosial-iqtisadi tədbirlər nəticəsində infrastrukturun ən yüksək standartlar səviyyəsinə çatdırılması, nəticədə Azərbaycanın son illər bir çox mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyəli ev sahibliyi etməsi və bu sahədə əldə etdiyi zəngin təcrübə barədə məlumat vermişdi. Müzakirə edilən məsələ ilə əlaqədar iclasda çıxış edən BPA-nın rəhbər şəxsləri Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulamaqla, bu tədbirin ölkəmizdə keçirilməsi barədə ilkin qərar yekdilliklə qəbul etmişdi.

İllik Konfransa hazırlıq işləri yüksək intensivliklə həyata keçirilmişdir. Bununla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən yaradılmaqla bu dövlət qurumunun rəhbər vəzifəli şəxslərindən ibarət Yerli Təşkilat Komitəsi BPA nümayəndələri ilə koordinasiyalı şəkildə kommunikasiya, tədbirin protokolu, iştirakçıların qeydiyyatı və digər təşkilati işləri yerinə yetirmişlər. Bu işdə ölkəmizin digər dövlət qurumları da Prokurorluğa lazımi dəstəyi göstərmişlər.

Məlumat üçün qeyd edim ki, BPA-nın İcraiyyə Komitəsinin 58-ci iclası sentyabrın 27-dən 28-dək Bakı şəhərində Heydər Əliyev Mərkəzində, 29-cu İllik Konfransı və Ümumi Yığıncağı isə sentyabrın 29-dan oktyabrın 2-dək Bakı Konqres Mərkəzində keçirilmişdir. Onu da əlavə edim ki, Konfransda müxtəlif ölkələrin Baş prokurorları və digər yüksək vəzifəli şəxsləri də daxil olmaqla 100 yaxın ölkədən, 10-dan artıq beynəlxalq təşkilatlardan 500 yaxın xarici vətəndaş iştirak etmişdir.

## QLOBAL SƏYLƏRİN AHƏNGDARLIQ TƏŞKİL ETDİYİ MƏKAN

Tədbir zamanı müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları, işçi qrup və şəbəkə iclasları, habelə ikitərəfli və çoxtərəfli görüşləri təşkil olunmuşdur. Həmçinin, müxtəlif ölkələri təmsil edən prokurorlar və hüquqşünaslar arasında peşəkar əlaqələrin qurulması üçün bir sıra sosial tədbirlər də həyata keçirilmişdir. Əsas mövzusu "Hüququn aliliyinin qorunmasında prokurorun rolu" olan Konfransda cinayət təqibində rəqəmsal sübutlar və süni intellektin cinayət prosesində istifadəsi, cinayət mühakimə sistemində şəffaflığın artırılması və ictimai etimadın gücləndirilməsi, gender əsaslı zorakılıq cinayətlərinin istintaqı, iqtisadi cinayətkarlıq və əmlakın bərpası və digər bu kimi alt-mövzular müzakirə edilmişdir.

Tədbir çərçivəsində keçirilmiş Ümumi Yığıncaqda və İcraiyyə Komitəsinin İclasında isə BPA-nın startegiyası və gələcək fəaliyyəti ilə bağlı bir sıra mühüm əhəmiyyətli qərarlar qəbul olunmuşdur.

Xüsusi toxunmaq istərdim ki, 1 oktyabrda Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünün qeyd olunduğu üçün beynəlxalq tədbirdə bu qurumun keçdiyi tarixi inkişaf yolu və zəngin təcrübəsi də iştirakçıların diqqətinə çatdırılmışdır.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirin əsas müzakirə mövzularından biri olmuş ekoloji cinayətkarlıqla mübarizə məsələləri ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Xüsusi vurğulamaq istərdim ki, dünyanın diqqətini iqlim dəyişikliyi ilə mübarizə və ekoloji ədalətin təmin edilməsinə yönəldiyi hazırki dövrdə Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə Tərəflərin Konfransı (COP 29) ilə eyni ildə və eyni şəhərdə BPA-nın İllik Konfransının da keçirilməsi Azərbaycanın qlobal hüquqi və ekoloji məsələlərdə mühüm rolunu bir daha təsdiq edir. Hesab edirəm ki, hər iki tədbirin əsas hədəfi ədalətli və dayanıqlı gələcək naminə milli səylərin beynəlxalq müstəvidə birləşdirilməsindən ibarətdir. Fürsətdən istifadə edərək qeyd etmək istərdim ki, COP29 tədbirlər çərçivəsində Baş Prokurorluq tərəfindən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda da tədbirin keçirilməsi nəzərdə tutulub. İnanıram ki, ölkəmizin prokurorluq orqanlarının keçirdiyi tədbir beynəlxalq hüquq ictimaiyyətinin bu sahədə olan biliklərinə öz töhfəsini verəcəkdir.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Argentina Respublikası Baş prokurorunun müsahibəsi



***Cənab Juan Bautista Mahiques, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

İlkin təəssüratım əladır. Azərbaycan Respublikasının Baş prokuroru başda olmaqla bütün təşkilati heyətin qonaqpərvərliyi və peşəkarlığı yüksək səviyyədə idi. Konfrans da çox maraqlı idi, mövzular gözəl seçilmişdi.

***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Beynəlxalq əməkdaşlıq olmadan transmilli cinayətkarlıqla mübarizə mümkünsüzdür. Belə konfranslar müvafiq mövzular üzrə müzakirələr aparmaq üçün gözəl imkan təmin edir.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***





Bir neçə il öncə mən ətraf mühit cinayətləri ilə məşğul olan ixtisaslaşmış prokurorluq orqanı təsis etdim. Biz cinayətkarları ədalət mühakiməsinə cəlb etmək istəyirik, çünki dəymiş zərər göz qabağındadır.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Prokurorlar üçün təlimlər çox önəmlidir. Fransız həmkarlarımız deyirlər ki, təlim keçməyən prokuror işləyə bilməz. Eyni zamanda yaxşı təlim keçmiş, lakin peşəsinə ürəklə yanaşmayan prokuror da səmərəli çalışa bilməz. Odur ki, hər iki məsələ önəmlidir və hər ikisinin arasında balansı tapmaq lazımdır.

***Ölkələrimizin hüquq-mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Ötən il biz Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə əməkdaşlıq haqqında çərçivə sazişi imzaladıq. Fikrimiz növbəti ilin aprel ayında daha dar çərçivəli, məsələn korrupsiya, kibercinayətkarlıq, ekoloji cinayətlər kimi spesifik sahələri əhatə edən saziş imzalamaqdır.

***Cənab Juan Bautista Mahiques, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

## Mavriki Respublikası Prokurorluq xidmətinin rəhbəri, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvünün müsahibəsi



***Cənab Raşid Ahmine, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Bu, mənim Sizin ölkənizə ilk səfərim idi. Bakıda mənəvi və müasir üslubların uzlaşması məni valeh etdi. Zəngin mədəni irs, insanların qonaqpərvərliyi yaddaşımda ömürlük iz buraxdı. Şəhərdə mövcud olan canlı abu-hava, tarixi abidələr və müasir tikililər arasında mövcud təzadlar xüsusilə heyrətamiz idi.

***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Yüksək səviyyədə təşkil olunmuş konfransda iştirak etmək həqiqətən də qürurvericidi. Müzakirə olunan mövzular həm zamanın tələbi ilə uyğunlaşır, həm də beynəlxalq prokurorluq ictimaiyyəti üçün böyük əhəmiyyət kəsb edir. Bu tədbir dünyanın müxtəlif ölkələrini təmsil edən dəyərli həmkarları ilə ünsiyyət qurmaq, fikir mübadiləsi aparmaq və ədalətin bərqərar olması üçün ən yaxşı təcrübələri araşdırmaq üçün əvəzsiz fürsət idi. Konfrans xüsusilə transmilli və ekoloji cinayətlər, eləcə də ədalət mühakiməsinin həyata keçirilməsinin təməl daşı olan insan hüquqlarının qorunması sahəsində mühüm qlobal problemlərin həlli üçün əla platforma yaratdı. Konfrans zamanı apardığımız müzakirələr, şübhəsiz ki, müvafiq yurisdiksiyalarımızda qanunun aliliyinin möhkəmləndirilməsi və ədalətin təmin edilməsi istiqamətində davam edən səylərimizə öz töhfəsini verəcəkdir.

***Hüquq-mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***





Mavrikidə prokurorların insan alveri, kibercinayətkarlıq, ətraf mühitin qorunması sahələri üzrə ixtisaslaşması və peşə vərdişlərinin təkmilləşməsi istiqamətləri mühüm əhəmiyyət kəsb edir. İnsan hüquqlarının müdafiəsi hüquq sistemimizin prioritet istiqamətini təşkil etməkdə davam edir. Bundan əlavə, cinayət işlərinin istintaqı zamanı sübutların toplanması və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi əsnasında etik və qanunvericilik normalarına riayət olunmasında rəqəmsal vasitələrdən istifadənin öyrənilməsi prosesi intensiv şəkildə tədqiq olunur.

***Ölkələrimizin hüquq-mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Ölkələrimizin qanunun aliliyinə və qlobal təhlükəsizliyə verdikləri töhfələri nəzərə alaraq, hesab edirəm ki, beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli formatda Mavrikinin və Azərbaycanın hüquq-mühafizə orqanları arasında əməkdaşlığın genişlənməsi imkanları mövcuddur. Əməkdaşlığın potensial istiqamətləri hüquq və ədliyyə, o cümlədən kibercinayətkarlıq sahələrini, həmçinin BMT, İnterpol, BPA kimi beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyəti əhatə edir.



***Cənab Raşid Ahmine, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.***

Bir daha Sizə tədbirin qüsursuz təşkilatçılıq və unudulmaz qonaqpərvərliyi üçün səmimi təşəkkürümü bildirmək istəyirəm. Mənim üçün bu tarixi tədbirin iştirakçısı olmaq böyük şərəf idi və mən Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində gələcək əməkdaşlığı səbirsizliklə gözləyirəm.

# Efiopiya Federativ Demokratik Respublikası Ədliyyə Nazirliyinin Dövlət nazirinin müsahibəsi




***Cənab Tesfaye Daba Wakjira, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Dəvətinizə görə çox sağ olun. Demək istərdim ki, bu səfər çox maraqlıdır və biz Azərbaycanda çox yaxşı təcrübə əldə edib, bölüşürük. Xüsusilə istintaqın necə aparılması və müstəntiqlər öz işlərini necə qurması məsələləri, bu bizim üçün bu çox maraqlıdır. Bütün sübutların əldə edilməsinin və qorunmasının təşkili xoşuma gəlir. (Muzeyi nəzərdə tutur). Təkcə cinayət işlərin istintaqı üçün yox, həm də gələcək nəsil üçün faydalıdır. Bu həm də sizin necə güclü işlədiyinizi göstərir.

***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***





Təşəkkür edirəm. Azərbaycanın Baş prokuroru ilə çox maraqlı söhbətimiz olub. Biz ikitərəfli münasibətlərimizi gücləndirməsi üçün anlaşma memorandumu imzalamağa razılaşdıq. Xüsusilə rəqəmsallaşma sahəsi və prokurorların birlikdə işləməsi ilə əlaqədar. Azərbaycanla ikitərəfli münasibətlərimizi gücləndirməsi bizim üçün kifayət qədər böyük imkandır. Ona görə də bunu yaxşı fürsət kimi qiymətləndirdik.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Əlbəttə. Xüsusilə Azərbaycanla təcrübə mübadiləsini aparırıq. Azərbaycandan nümayəndələr Efiopiyadakı qurumumuza gəlmişlər və dövlət xidməti ilə bağlı təcrübələrini bizimlə bölüşdülər. Şadam ki, bu ikitərəfli əlaqələr vardır. Xüsusən də təcrübəmizi bölüşmək üçün Ədliyyə naziri ilə memorandumu imzalamağa hazırlaşırıq. İnanıram ki, bu, ədliyyə sistemində irəliləyişimizi inkişaf etməyə kömək edə bilər.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Efiopiyanın ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

2020-ci ildən bəri hökumətin bir günə elan etdiyi Yaşıl miras layihəsi üstündə işləyirik. Bir gün içində 617 milyondan çox toxum əkdik, təsəvvür edin. Məqsədimiz səhra sahələrini əhatə etmək və insanları ətraf mühitin mühafizəsinə cəlb etməkdir. Biz təkcə Efiopiyada ağac əkməyi planlaşdırmırıq. Qonşu ölkələrdə, Cənubi Sudanda, Cibutidə və digər ölkələrdə də ağac əkmək niyyətindəyik. Bu, ətraf mühitinin qorumasında bizim üçün çox yaxşı fürsətdir. Hökumətim üçün ətraf mühitin mühafizəsində prioritet vəzifələrdən biri də ağacların əkilməsidir və meşələrin mühafizəsidir, eyni zamanda ətraf mühit sahəsində fəaliyyət göstərən müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdir. Düşünürəm ki, biz ağac əkməkdə çox uğurluyuq.

***Cənab Dövlət naziri, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

## Braziliya Federativ Respublikası Baş prokurorunun müavininin müsahibəsi



***Cənab Paulo Buqarin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Son dərəcə yaxşı təşkil olunmuş və məhsuldar İAP BAKU 2024 konfransı çərçivəsində keçirilən müzakirələr və seminarlar beynəlxalq təcrübənin mübadiləsini təmin edən çox maraqlı və aktual mövzuları gündəmə gətirir və ikitərəfli əlaqələrin dərinləşməsinə şərait yaradır. Bundan əlavə, müxtəlif ölkələrdən olan həmkarlarla şəxsi münasibətlərin güclənməsi yeni və ümidverici çoxşaxəli və ikitərəfli əlaqə imkanlarını yaradır.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Braziliyada hakim və prokurorların hazırlanması və inkişafı üçün bir neçə qurum mövcuddur, bu qurumlar məhkəmələrin nəzəri təfəkkürün və hüquqi təcrübənin inkişafını davamlı olaraq izləyir, Braziliya cəmiyyətinin tələbləri və ehtiyaclarına daha da uyğunlaşmaq məqsədini daşıyır.





***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizdə ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Ətraf mühitin qorunması və iqlim dəyişiklikləri ilə bağlı tədbirlərin qəbulu Braziliya üçün, xüsusən də COP30-un noyabrın 25-də Belém do Pará, Braziliya Amazoniasında keçiriləcəyini nəzərə alaraq, əsas əhəmiyyət kəsb edən məsələdir. Bununla əlaqədar, Federal hökumət tərəfindən elan edilmiş yeni bir qurumun – Qlobal iqlim dəyişikliyi problemləri ilə məşğul olan Milli İqlim Təhlükəsizliyi Agentliyinin yaradılmasını qeyd etmək lazımdır. Bundan əlavə, Braziliyanın Ali Hesablama Palatası – ölkənin ən yüksək nəzarət orqanı – müxtəlif ölkələrin iqlim dəyişikliyinə qarşı mübarizə ilə bağlı tədbirlərini izləməyə imkan verən İqlim skaneri yaratmışdır.




***Ölkələrimizin hüquq mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Braziliya, müxtəlif beynəlxalq forumlarda fəal iştirak ənənəsi ilə tanınan bir ölkədir. Vurğulamaq lazımdır ki, Braziliya Prokurorluğu, Braziliya Prokurorluq orqanlarının ən yüksək orqanı, beynəlxalq hüquqi əməkdaşlıq səlahiyyətinə malikdir və həmişə beynəlxalq miqyasda çoxsahəli və ikitərəfli əlaqələrimizi inkişaf etməyə açıqdır.

***Cənab Paulo Buqarin, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Estoniya Respublikası Baş prokurorunun müsahibəsi



***Cənab Andres Parmas, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

İlk növbədə, bu möhtərəm jurnala müsahibə vermək imkanına görə sizə təşəkkür edirəm. Təəssüratlarım nələrdir? Təəssüratlarım odur ki, belə konfranslar ümumilikdə hüquqşünasların bir araya gəlməsi və ən yaxşı təcrübələrini mübadilə etməklə bir-birindən öyrənməsi üçün çox vacibdir. Və mütləq deyil ki, bu cür konfranslardan hazır məhsul əldə edəsiniz, amma yeni ideyalar, araşdırılmalı istiqamətlər qazanmaq mümkündür.




Bundan əlavə, belə tədbirlərdə bizim əlaqə dairəmizin genişləndirilməsinə imkan yaranır, bu da qlobal cinayətkarlığın artdığı bir dövrdə çox önəmlidir. Beləliklə, biz hüquq-mühafizə və prokurorluq orqanları əlaqələrimizə daha qlobal yanaşmalı və dünya miqyasında əməkdaşlıq etməyə hazır olmalıyıq.

***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Deyə bilərəm ki, bu cür tədbirlər həmişə vacibdir və həmkarlarımızla əlaqələrimizi genişləndirmək, dünyada və qonşu ölkələrdə istifadə olunan praktikaları anlamaq üçün yaxşı imkan yaradır. Bu dəfə mərkəzi məsələlərdən biri süni intellektin istifadəsi və cinayət işlərinin rəqəmsallaşdırılması oldu. Bizim nümayəndə heyəti bu sahədə araşdırılmalı olan bir neçə yaxşı məqam aşkar etdi. Şübhəsiz ki, bu konfransın nəticəsi olaraq, bir sıra ikitərəfli əlaqələr yaradacaq və bəzi digər ölkələrdə həmkarlarımızın hansı sahə ilə məşğul olduqlarını öyrənəcəyik.



***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Fikrimcə, bu mövzu demək olar ki, hər yerdə aktualdır və Estoniya da istisna deyil. Ölkəmizdə iqtisadiyyatımızın, enerji istehsalımızın karbon təsirini azaltmaq üçün çox ciddi təhlillər aparılır, həmçinin Estoniyanı fərqləndirən məqam, meşələrlə zəngin ölkə olmasıdır. Meşələrimizin həm ekoloji sabitliyi qorumaq, həm də iqtisadi cəhətdən sərfəli şəkildə idarə etmək məsələsi uzun illərdir ki, böyük müzakirələr mövzusudur. Əlbəttə, başqa sahələr də var, məsələn binalarda enerjinin daha qənaətcil istifadə edilməsi, köhnə binaların daha az enerji sərf etməsi üçün təmir edilməsi və sair.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Mən Avropa İttifaqına artıq 20 ildir üzv olan bir ölkənin nümayəndəsiyəm və Avropa İttifaqında bir-birindən yeni biliklərin öyrənilməsinin zəruriliyi çoxdan tanınıb. Bu sahədə peşə biliklərinin bir-birindən öyrənməsini təmin etmək üçün Avropa İttifaqı səviyyəsində bir sıra proqramlar keçirilib. Mən özüm artıq 25 ildən çoxdur ki, cinayət ədalət mühakiməsi sahəsində çalışıram və bu müddət ərzində bu imkanlardan dəfələrlə yararlanmışam.

Estoniya Avropa İttifaqına qoşulmamışdan əvvəl, mənim və bir çox digər ölkələrin nümayəndələrinin iştirak etdiyi TAIEX proqramı kimi imkanlar mövcud idi. İndi isə Avropa İttifaqında təhsil sahəsində əməkdaşlığın ən vacib sahələrindən biri Avropa Ədliyyə Təlim Şəbəkəsidir (EJTN), bu şəbəkə həm hakimlər, həm də prokurorlar üçün açıqdır. Estoniya prokurorluğu bu çərçivədə mübadilə proqramları təşkil edib, digər ölkələrə getmişik və həmçinin digər ölkələrdən mütəxəssisləri Estoniyaya öyrənməyə dəvət etmişik.

***Cənab Andres Parmas, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

Sonda qeyd etmək istərdim ki, bu tədbir ən yüksək səviyyədə təşkil olunub. Nümayəndə heyətimiz göstərdiyiniz qonaqpərvərliyə görə çox minnətdardır. Burada olmaq çox xoşdur. Mən şəhəri çox bəyəndim, xüsusən də gecə vaxtı bulvardan şəhərə açılan mənzərə möhtəşəmdir. Çox sağ olun, hər şey üçün.

## Şərqi Timor Respublikası Baş prokurorunun müsahibəsi



***Cənab Alfonso Lopez, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı Bakıda müxtəlif prokurorluq və hüquq-mühafizə orqanları, onların rəhbərlərini və nümayəndələrini bir araya gətirir. Bu, iştirakçılara müxtəlif ölkələrin cinayət ədalət sisteminin və təcrübəsinin, həmçinin əməkdaşlıq mexanizmləri barədə öyrənmə imkanını yaratmaqla kifayətlənmir, həm də prokurorluq və digər hüquq-mühafizə orqanları arasında mövcud əməkdaşlığını gücləndirir və yeni əlaqələrin qurulması üçün unikal bir fürsət yaradır. Cinayətkarlığa, xüsusilə transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə, ortaq maraqları və çətinlikləri olan ölkələrin ədliyyə orqanları ilə əlaqələrin inkişaf etdirilməsi vacibdir. Şərqi Timor Prokurorluğu üçün bu konfransda iştirakı mühümdür, çünki biz ancaq əməkdaşlıq etmək istədiyimiz ölkələrin ədalət modelləri ilə tanış olmuruq, həm də artıq mövcud olan əlaqələri gücləndiririk. Şərqi Timorda prokurorluq orqanları cinayət işlərinin istintaqından başqa, həm də Baş Prokurorluq vasitəsilə beynəlxalq hüquqi əməkdaşlıqda mərkəzi orqan kimi fəaliyyət göstərir.




***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Qanunları tətbiq edən şəxslərin nəzəri biliklərinin və peşə bacarıqlarının artırılması, bu şəxslərin şəxsi və peşəkar inkişafından başqa, eyni zamanda, cinayətlərə operativ reaksiya verilməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması üçün mühüm məqamdır. Bu istiqamətdə Şərqi Timor Prokurorluğun Ali Şurası (prokurorların və rəsmi şəxslərin davranışını nəzarət edən orqan) tərəfindən prokurorların, ədliyyə işçilərinin və texniki əməkdaşlarının davamlı təlimi və peşə hazırlığının təkmilləşdirilməsi üçün üçillik iddialı bir plan təsdiqlənib. Bu plan hakimlərin və prokurorluq işçilərinin səlahiyyətində olan bütün sahələri əhatə edir. Onun icrası yalnız ŞTPAŞ tərəfindən deyil, həm də əməkdaşlıq tərəfdaşlarının dəstəyi ilə həyata keçirilir. 2023-cü və 2024-cü illərdə Portuqaliyanın Məhkəmə Tədqiqatları Mərkəzinin (hakimlər üçün təlim mərkəzi) dəstəyi ilə prokurorlar üçün Portuqaliyada cinayət, mülki və inzibati sahələrə aid təlimlər təşkil olunub. Bundan başqa, Koimbra Universitetinin dəstəyi ilə Şərqi Timor prokurorları üçün iqtisadi və maliyyə cinayətlərinin istintaqı ilə bağlı təlim keçirilib. Həmçinin Şərqi Timor Prokurorluğunun əməkdaşları xaricdə təşkil olunan çoxsaylı təlimlərdə iştirak edirlər. Cənub-Şərqi Asiya regionunda təşkil olunan belə təlimlərin birində Şərqi Timor Baş Prokurorluğun nümayəndələri prokurorların namizədliyi irəli sürmək üçün dəvət olunublar.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Coğrafi mövqeyinə görə, Şərqi Timor iqlim dəyişikliyinə qarşı həssas bir ölkədir, yemək məhsulların və suyun təhlükəsizliyi ilə bağlı çətinliklərlə üzləşir. Xüsusilə iqlim hadisələrinə və dəniz səviyyəsinin yüksəlməsinə həssasdır. Bununla əlaqədar, 2011-2030-cu illəri əhatə edən Strateji İnkişaf Planı qəbul edilmiş, 2021-ci ilin mart ayında ölkə İqlim Dəyişikliyi ilə bağlı BMT Çərçivə Konvensiyasına qoşulmuşdur. Bundan başqa, 2020-2030-cu illəri əhatə edən Milli İqlim Dəyişikliklərinə Adaptasiya Planı (PNA) qəbul edilib və İqlim dəyişikliklə bağlı Milli Direktorat həmin plana qatılmışdır. Planda iqlim adaptasiyasına sistemli yanaşma, fəlakət risklərinin azalması və ekosistemini iqlim təsirindən qorunması zəruriliyi vurğulanıb. PNA 2021-ci ildən fəaliyyət göstərir. Cinayət hüququ siyasəti və cinayət ədliyyəsi çərçivəsində Şərqi Temorun Cinayət Məcəlləsinə əsasən, ətraf mühiti cəmiyyət üçün çox vacib bir hüquqi varlıqdır. Həmin Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş Demokratiyaya qarşı cinayətlər və Cəmiyyətə qarşı cinayətlər adlı bölmələrdə ətraf mühitə qarşı cinayətlərlə bağlı maddələr göstərilib. Cinayət Məcəlləsinin 215-ci maddəsinə əsasən, ətraf mühitə qarşı cinayətlər 2 ildən 8 ilə, daha ağır cinayətlər isə 5 ildən 15 ilə qədər həbs cəzası ilə cəzalandırılır.

***Ölkələrimizin hüquq mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

Şərqi Timor Baş Prokurorluğu Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə öz səlahiyyət çərçivəsində ikitərəfli əməkdaşlıq protokolu qurmaq imkanına açıqdır və bu istiqamətdə maraq göstərir. Ədliyyə məsələləri Şərqi Timor Baş Prokurorluğun səlahiyyətlərinə aid olmasa da, biz bu marağı ölkəmizin müvafiq orqanlarına çatdırmaqdan məmnun olacağıq.

***Cənab Alfonso Lopez, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# İrlandiya Respublikası Dövlət ittihamının müdafiəsi üzrə idarə rəhbərinin müsahibəsi



***Cənab Ceyms Hamilton, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Konfrans Azərbaycan Prokurorluğu tərəfindən çox yaxşı təşkil olunub və mehriban heyət tərəfindən səmərəli iş görülüb. Azərbaycan qonaqpərvərliyi, Bakının gözəl köhnə binaları, heyranedici müasir memarlığı, səmimi və mehriban insanları, habelə əla mətbəxi ilə çox yaxşı təəssürat yaratdı. Konfransın təşkilatçılarının işi barədə İrlandiyada deyilən kəlmələrlə ifadə etmək istərdim: "onlar əlindən gələndən artığını etməyə hazır idilər".






***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

BMT-nin konfransları ikitərəfli əlaqələrin qurulması üçün mükəmməl bir fürsət yaradır. Hüquqi əməkdaşlıq üçün müraciət edəcəyiniz şəxsi tanımaqdan daha yaxşı bir üsul yoxdur. Çünki həmin şəxslə telefon vasitəsilə əlaqə saxlamaq və yardımına ehtiyac duyduğunuz digər yurisdiksiyada fəaliyyət göstərən prokurorla birbaşa danışmaq çox önəmlidir.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Təbii ki, təlimlər və düzgün təlimatlar vacibdir. Lakin eyni zamanda prokurorların təcrübə nəticəsində qazanılan bacarıqlara sahib olmalarını təmin etmək də vacibdir. Bu, prokurorlara qərar qəbul etmək üçün kifayət qədər müstəqillik və inam verməyi tələb edir ki, onlar hər şeyin üzərində həddindən artıq nəzarət olmadan müstəqil hərəkət edə bilsinlər.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***



Ətraf mühitin səmərəli qorunmasının açarı – fəlakət baş verəndən sonra onun nəticələrini aradan qaldırmaq yox, təbiətə vurula biləcək ziyanın əvvəlcədən qarşısının alınmasındadır. Bu isə düzgün tənzimləyici mühitin yaradılmasını və qaydaların tətbiq edilməsini tələb edir. Prokurorlar bu işdə əsas rol oynamalıdırlar.

***Cənab Ceyms Hamilton, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# Çili Respublikası Milli Prokurorlar Assosiasiyasının Akademik işlər və beynəlxalq əlaqələr departament direktorunun müsahibəsi




***Xanım Greta Fuchslocher Hassenberg, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Azərbaycana bu səfərim çox gözəl keçdi. Bakı şəhərini ziyarət etmək, yerli insanlar və onların adət-ənənələri ilə tanış olmaq unikal və çox gözəl bir təcrübə oldu. Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları səfər boyu məni müşayiət etmələri ilə bağlı özümü çox şanslı hesab edirəm. Onlar mükəmməl ev sahibi kimi yüksək qonaqpərvərlik göstərdilər, özümüzü rahat və təhlükəsiz hiss etməyimiz üçün əllərindən gələni etdilər və bu diqqəti bütün səfərim boyu hiss etdim.

***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Çili nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Prokuroru cənab Kamran Əliyev və onun komandası ilə görüşmək üçün əla bir fürsət əldə etdi. Çili Milli Prokurorlar Assosiasiyası üçün Azərbaycanın Baş Prokurorluğu ilə bu ikitərəfli əlaqələrin qurulması transmilli, ekoloji və digər cinayətlər üzrə əlaqələndirməni təkmilləşdirmək baxımından çox önəmli hesab edirik.








***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Ötən il Çilidə həyata keçirilmiş hüquqi islahatlar nəticəsində qanunvericiliyə ekoloji cinayətlərə dair yeni hüquqi normalar daxil edilmişdir. Xüsusən də ekosid cinayətini misal kimi göstərmək olar. Geniş işlənmiş bu norma buzlaqları, təbii məkanları (Çilidə belə yerlər çoxdur), qoruqları, milli parkları və s. qorumaq məqsədi daşıyır. Belə cinayətlər 10 ilədək ağır cəza ilə nəticələnə bilər. Bu yeniliklər ilə Çili ətraf mühitimizə ciddi şəkildə təsir edən cinayətlər üzrə mühakimə imkanlarını və səmərəliliyi artırmağı hədəfləyir.

***Hüquq-mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***




Çilidə Polis İctimai Prokurorluğa tabedir və qanuna əsasən prokurorların əmrlərinə tabe olmalıdırlar. Bu mənada, polisin yaxşı fəaliyyəti istintaqın uğuruna birbaşa təsir edir. Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, mütəmadi təlim, peşə hazırlığı və prokurorluğun müxtəlif sahələri üzrə ixtisaslaşma vətəndaşlara daha çox təsir edən cinayətlər üzrə istintaqın uğuru üçün mütləq əhəmiyyət kəsb edir.

***Ölkələrimizin hüquq-mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.***

İkitərəfli görüş çərçivəsində, Baş Prokurorumuz Ángel Valencia Baş Prokurorunuz Kamran Əliyev və onun komandasını ölkəmizə səfərə dəvət etdi. Əgər bu ziyarət 2025-ci ildə baş tutarsa, hazırda Çili Polisinin fəaliyyəti və işinin təşkili ilə yaxından tanış olmaq üçün əla bir fürsət olacaqdır. Həmçinin, ölkələrimiz üçün əhəmiyyət kəsb edən cinayətlərin mühakiməsi üzrə beynəlxalq əməkdaşlığa töhfə olacaqdır.

***Xanım Greta Fuchslocher Hassenberg, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

# ABŞ Milli Baş Prokurorlar Assosiasiyasının sədri, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvünün müsahibəsi



***Xanım Jeanette Manning, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnal Azərbaycan Prokurorluğunun rəsmi mətbu orqanıdır. Səfərinizlə bağlı təəssüratlarınızı jurnalın oxucuları ilə bölüşməyinizi xahiş edərdik.***

Mən belə deyərdim, Azərbaycan həqiqətən çox gözəl ölkədir. İnsanlar son dərəcə mehribanlıq göstərərək bizi səmimiyyətlə qarşıladılar və burada keçirilən konfransda iştirak edən müxtəlif mədəniyyətlərə böyük ehtiramla yanaşdılar. Azərbaycan haqqında nə gözləyəcəyimi bilmirdim, çünki əvvəllər heç vaxt Azərbaycanda olmamışdım. Lakin Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndəsi kimi Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev və onun bütün heyəti bizi çox mehriban qarşılayıb, Azərbaycanın mədəniyyəti, tarixi, musiqisi, yeməkləri ilə tanış olmağımıza imkan yaratdılar.



***Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransının Bakı şəhərində keçirilməsi ikitərəfli əlaqələrin inkişafı baxımından hansı yeni imkanlar açır?***

Mən bu mövzuda deyə bilərəm ki, mən Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvüyəm və illər ərzində müxtəlif konfranslarda iştirak etmişəm. Mən inanıram ki, bu kimi konfranslarda həmişə bir çox imkanlar mövcuddur. Bu imkanlar əsasən əlaqələrin qurulması, potensialın artırılması və texniki yardım göstərilməsi istiqamətində olur, eyni zamanda hüququn aliliyinin qorunması və ona hörmət edilməsinin təmin edilməsinə kömək edəcək münasibətlərin qurulmasıdır.

Xüsusilə, bu konfransda təxminən 100-dən çox ölkədən iştirakçılar var idi və nəticədə dünya üzrə 450-dən çox insan qatılmışdı. Mənim dünyanın hər yerindən yeni insanlarla tanış olmaq, əlaqə məlumatları almaq imkanım oldu və həqiqətən bu illik konfransların məqsədini yerinə yetirmək niyyətindəyəm. Bu, münasibətləri inkişaf etdirmək, əlaqələr yaratmaq və ümumi transmilli cinayətkarlıq məsələləri ilə mübarizə üçün yeni məlumatlar və ən yaxşı təcrübələri geri gətirməkdir. Və mən inanıram ki, 29-cu illik konfrans bizə bunu etmək üçün çoxlu imkanlar yaratdı və iştirakın nəticəsində bir çox imkanların ortaya çıxacağına inanıram.

***Hüquq mühafizə orqanlarının əməkdaşlarının nəzəri bilik və peşə bacarıqlarının artırılması daim önəm kəsb edir. Bu sahədəki təcrübənizlə bölüşməyinizi xahiş edərdik.***

Hal-hazırda Baş Prokurorluqda və ya onun ekvivalentində işləmirəm, lakin Milli Baş Prokurorlar Assosiasiyasına gəlməzdən əvvəl səkkiz ildən çox müddət ərzində Baş Prokurorluqda işləmişəm. Amma mənim təşkilatımın yaxşı tərəfi odur ki, biz ABŞ-ın bütün ştatlarında seçilmiş və təyin olunmuş baş prokurorlar üçün peşəkar assosiasiya kimi xidmət edirik, həmçinin ərazilərimizdə və Kolumbiya dairəsində hüquq-mühafizə və hüquq zabitləri kimi fəaliyyət göstərən baş prokurorlar üçün də məsuliyyət daşıyırıq.

Mənim bu sahədəki təcrübəm iki əsas istiqamətdədir. Birincisi, Baş Prokurorluqda işlədiyim zaman, ictimai təhlükəsizlik və təhlükəsizliklə bağlı işləri idarə edirdim və bunu müxtəlif vəzifələrdə səkkiz ildən artıq müddət ərzində etmişəm. Bu müddət ərzində mən birbaşa hüquq-mühafizə orqanlarının təlim keçmiş əməkdaşları ilə işləyirdim və onların köməyi ilə şəhərin vətəndaşlarının müdafiəsini təmin edirdim.

Milli Baş Prokurorlar Assosiasiyasında işləməklə, prokurorların hüququn aliliyi ilə bağlı məlumat mübadiləsinə yardım və əməkdaşlıq etmək imkanım oldu. Konfransda Baş Prokurorluğun yüksək səviyyəli nümayəndələri iştirak etmişlər. Onlar bu tədbirin əməkdaşlığın və koordinasiyanın artırılması üçün əla bir imkan olduğunu düşünürlər.

Milli Baş Prokurorlar Assosiasiyasında və Beynəlxalq Prokurorlar Assosiasiyasında iştirakım mənə son 11 il ərzində üzvlərimizə faydalı məlumatlar gətirmək və onların qlobal səhnədə vacib işlərini paylaşmaq imkanını vermişdir.

***Ətraf mühitin mühafizəsi, ekologiyanın qorunub saxlanılması dövlətimizin prioritet fəaliyyət istiqamətidir. Ölkənizin ekosisteminin qorunması üzrə hansı işlər görülür?***

Bu sual bir az daha mürəkkəbdir, çünki mən birbaşa olaraq ekoloji işlər üzərində işləmirəm. Lakin deyə bilərəm ki, üzvlərimizin bir çoxu öz ofislərində bu işlərlə məşğul olan əməkdaşlara malikdir. Onlar hüquqi məsləhətlər verirlər, müvafiq işlər açırlar və ekoloji qanunlara riayət etməyən şəxslərə qarşı hüquqi tədbirlər görürlər. Ölkəmizdə bu sahədə federal, ştat və yerli səviyyədə çox işlər görülür. Mən və xidmət etdiyim təşkilatın üzvləri ekoloji mühafizə məsələsinə ciddi yanaşırlar. Biz həmçinin bu sahədə təlimlər təklif edirik və ekoloji məsələlərin diqqətdə saxlanılması üçün müzakirələr aparan bir komitəmiz var. Bu, həmçinin baş prokurorların ABŞ daxilində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməsi üçün imkanlar yaradır.

***Xanım Jeanette Manning, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk. Bir daha Azərbaycana xoş gəlmisiniz!***

Mən də Sizə bu gözəl müsahibəyə görə təşəkkür edirəm.


AZƏRBAYCAN RESPUBLİKASININ
PROKURORLUĞU

# Baş prokuror İraqın Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə görüşüb





İyulun 4-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İraq Respublikası Ali Məhkəmə Şurasının sədri cənab Faiq Zidan və Dövlət Prokurorluğunun sədri Nacmu Abdullah Əhməd ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror geniş tərkibli nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla İraq arasında hüquqi əməkdaşlığın uğurlu başlanğıcı kimi qiymətləndirib.

Kamran Əliyev hər iki dövlətin prezidentlərinin birgə səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində ölkələrimiz arasında münasibətlərin dinamik şəkildə inkişaf etdiyini bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Baş prokuror cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək iraqlı həmkarlarını tədbirdə iştiraka dəvət edib.

Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Faiq Zidan iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, hüquq-mühafizə orqanları arasında cinayətkarlığa, xüsusilə də terrorçuluqla mübarizə sahəsində qarşılıqlı səmərəli əməkdaşlığın aparılmasının vacibliyini ifadə edib.

Tərəflər əlaqələrin möhkəmləndirilməsi istiqamətində müqavilə hüquq bazasının genişləndirilməsini müzakirə ediblər.

Görüşdə İraq Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Maki Resan Abdulla Əl-Mamori də iştirak edib.



# Baş prokuror Kamran Əliyev Avstriyaya işgüzar səfər edib




İyulun 8-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriya Respublikasına işgüzar səfər edib.

İlk öncə nümayəndə heyəti ölkəmizin Vyanadakı səfirliyinə gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad olunub.

Daha sonra Baş prokuror Azərbaycanın Vyanadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli və diplomatik nümayəndəliyimizin əməkdaşları ilə görüşüb, fəaliyyətlərində uğurlar arzulayıb.

Səfər çərçivəsində Kamran Əliyev və Avstriyanın Baş prokuroru Margit Vaxberger arasında ikitərəfli görüş keçirilib.

Margit Vaxberger nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluğunu vurğulamaqla, bu əlaqələrin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Kamran Əliyev ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində prokurorluq orqanlarında aparılan islahatlar, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparılması barədə həmkarına məlumat verib.

Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr- 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək həmkarına dəvətini qəbul edərək tədbirdə nümayəndə heyəti ilə iştirakına görə təşəkkürünü ifadə edib.



Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, terrorçuluqla mübarizə, cinayət yolu

ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə ölkəmizin xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və səfir Rövşən Sadıqbəyli iştirak ediblər.

Vyanaya işgüzar səfəri çərçivəsində Baş prokuror Kamran Əliyev BMT-nin Cinayətkarlıq və Narkotiklər idarəsinin (BMTNCİ) direktoru vəzifəsini icra edən Con Brandolino ilə görüşüb.

Nümayəndə heyətini salamlayan C.Brandolino, ölkəmizdə aparılan uğurlu xarici siyasətin, müsbət tərəfdaşlıq mühitinin formalaşması və uzunmüddətli səmərəli əməkdaşlıq nəticəsində cari ilin 11-22 noyabr tarixlərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin önəmindən və Azərbaycanın qlobal ekoloji problemlərin həllinə töhfəsindən danışıb. Brandolino həmçinin Baş prokuroru Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakıda keçiriləcək 29-cu konfransı münasibətilə də təbrik edərək, BMTNCİ-nin tədbirə mütləq şəkildə qatılacağını bildirib.





Səmimi qəbula görə təşəkkürünü ifadə edən Baş prokuror Azərbaycan Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində BMT-nin müxtəlif institutları ilə əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu və BMTNCİ birgə təşkilatçılığı ilə ölkəmizin sədrliyinin təşəbbüsü ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksək səviyyəli tədbirin təşkilati məsələləri, biomüxtəlifliyin qorunması və ətraf mühitə təsir edən cinayətlərin aradan qaldırılması sahəsində əməkdaşlıq və digər qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev və Azərbaycanın Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli iştirak edib.

Avstriyaya işgüzar səfəri çərçivəsində Kamran Əliyev ölkəmizin prokurorluq orqanları ilə uzun illər ərzində səmərəli əməkdaşlıq edən Beynəlxalq Antikorrupsiya Akademiyasının yeni təyin edilmiş dekanı xanım Slaqyana Taseva ilə görüş keçirib.

Baş prokuror Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiya qarşı mübarizə sahəsində aparılan kompleks tədbirlər barədə və bu sahədə əldə olunmuş müsbət nailiyyətlər barədə danışıb.

Slaqyana Taseva ölkəmizin Akademiya üçün vacib və etibarlı tərəfdaş olduğunu, təhsil ocağının işinə verdiyi davamlı töhfələrə görə təşəkkürünü bildirərək bundan sonra əməkdaşlığın yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə Akademiyada təhsil alan azərbaycanlı müdavimlərin sayının artırılması, tədris modullarının ölkəmizdə təşkil edilməsi, Baş prokuror yanında Elmi-Məsləhət Şurası ilə tədqiqat sahəsində əməkdaşlığın qurulması və tərəfləri maraqlandıran digər məsələlər müzakirə edilib.





# Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2024-cü ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" Geniş Kollegiya iclası keçirilib



İyulun 22-də Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin rəhbərliyi ilə Mərkəzi aparatın, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə videoformat rejimində 2024-cü ilin birinci yarımilində prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.

Baş prokuror Kamran Əliyev Geniş Kollegiya iclasında giriş nitqi ilə çıxış edərkən 2024-cü ilin birinci yarımilində də Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının bir sıra nailiyyətlər əldə etdiyini, ölkəmizdə mühüm, əlamətdar hadisələrin yaşandığını, onların bir çoxunun isə xalqımız üçün tarixi və mənəvi əhəmiyyət kəsb etməsini bildirib.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və cari ilin noyabr ayında ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 barədə danışarkən Kamran Əliyev hər iki məsələnin ölkəmiz üçün əhəmiyyəti, Respublika üzrə, o cümlədən prokurorluq orqanları tərəfindən bu istiqamətdə həyata keçirilmiş tədbirlər barədə məlumat verərək COP-29-la bağlı tədbirlərin dövlətimizin nüfuzuna uyğun səviyyədə, təhlükəsiz şəraitdə keçirilməsi üçün prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birlikdə qüvvələrini səfərbər etməli olduğunu xüsusi vurğulayıb.

Qeyd edilib ki, hesabat dövründə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri intensiv formada davam etdirilib, cənab Prezident İlham Əliyev tərəfindən Ağdam, Cəbrayıl, Zəngilan və Şuşa rayonlarında kəndlərin və qəsəbələrin təməli qoyulub, həmçinin cənab Prezident və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən çoxsaylı ictimai iaşə, yaşayış, kommunikasiya obyektlərinin açılışlarında iştirak edilib.

Vurğulanmışdır ki, 2024-cü ilin birinci yarımilində də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən uğurlu işlər nəticəsində keçmiş məcburi köçkünlərin hissə-hissə öz yurd-yuvalarına qaytarılması təmin edilmişdir.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik




göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 18518 cinayət qeydə alınmaqla onların 87,6 faizinin açılması təmin edilmiş, 2023-cü ilin birinci yarımili ilə müqayisədə qeydə alınan cinayətlərin sayında 1015 fakt və ya 5,2 faiz azalma olmuş, ümumilikdə ölkə üzrə cəmi 8819 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 524-ü  prokurorluq orqanlarında isintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 359, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 7076 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmiş, ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə 696 milyon 983 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə 193 milyon 441 min manatın ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 75 milyon 906 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 49 milyon 368 min manat hissəsinin ödənilməsinə nail olunmuş, 8.361.026 manat məbləğində əmlak üzərinə isə həbs qoyulmuşdur.

Qeyd edilib ki, 2023-cü ildən istifadəyə verilmiş "Elektron Porkurorluq" informasiya sistemi artıq bütün prokurorluq orqanlarında uğurla tətbiq edilir, Baş Prokurorluğun Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə qoşulması nəticəsində 2024-cü ilin birinci yarımili ərzində inteqrasiya ilə prokurorluq orqanlarına 6825 sənəd daxil olmuş, 7582 sənəd isə digər qurumlara göndərilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hər il olduğu kimi korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə ciddi cəhdlə davam etdirilib, Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 25 şəxs bilavasitə cinayət başında yaxalanıb, axtarışda olan 4 nəfər isə saxlanılıb.

Kollegiya iclasında daxili işlər və digər aidiyyəti dövlət qurumları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 4 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 1-i üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə hesabat dövründə birinci instansiya məhkəmələrində 8307 şəxs barəsində 7530, apellyasiya instansiyası məhkəmələrində 2588 şəxs barəsində 2378, kassasiya instansiyası məhkəməsində 1542 şəxs barəsində 1350 (bütün instansiya məhkəmələri üzrə cəmi 12437 şəxs barəsində 11258 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 770 apellyasiya və 304 kassasiya protestləri verilmiş, *384 apellyasiya protesti və 71 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunmuşdur.

2024-cü ilin birinci yarımilində Respublika Hərbi və Naxçıvan Muxtar Respublikası prokurorluqlarının fəaliyyətləri qənaətbəxş hesab olunmuş, əldə edilmiş



müsbət tendensiyaların qorunması həmin prokurorluqlara tövsiyə edilməklə, onların daha da inkişaf etdirilməsi və xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində bir sıra göstərişlər verilmişdir.

Hesabat dövründə həmçinin Bakı şəhər prokurorluğunun fəaliyyəti Baş prokuror Kamran Əliyev tərəfindən ümumən müsbət qiymətləndirilmiş, bununla yanaşı qeyri-aşkar şəraitdə törədilməklə ötən illərdən bağlı qalmış cinayət işlərinin açılması məqsədilə zəruri istintaq və əməliyyat-axtarış tədbirlərinin digər qurumlarla birgə icrasının davam etdirilməsi, icraatda olan cinayət işləri və materiallar üzrə müəyyən edilmiş maddi ziyanın ödətdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi tapşırılmışdır.

Bildirilib ki, hesabat dövründə tabe rayon (şəhər) prokurorluqlarının fəaliyyətində də qənaətbəxş nəticələr əldə olunub, 2023-cü ilin birinci yarımili ilə müqayisədə adam öldürmə cinayətlərinin sayı sabit qalmış və törədilmiş 75 cinayətdən 74-ün açılması təmin olunub.

Aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən məqsədyönlü, o cümlədən maarifləndirici tədbirlər nəticəsində 2024-cü ilin birinci yarımilində ötən ilin müvafiq dövrü ilə müqayisədə intihar hadisələrin sayı 1,9%, intihara cəhd hadisələrin sayı isə 8,9% azalmışdır.

Cari ilin birinci yarımilində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 458 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2024-cü ilin birinci yarımili ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 643 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun “Çağrı Mərkəzi”nə hesabat dövründə daxil olmuş müraciətlərdən 14562 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 2213 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmaqla qanuna müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Kollegiya iclasında qeyd edilib ki, ötən yarımildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 8 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 4-nə töhmət və ya şiddətli töhmət elan edilib, 3 nəfər vəzifədən azad edilib, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

Kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlərin icra edildiyi, prokurorluq orqanlarının vakant vəzifələrinin obyektiv meyarlarla və şəffaf prosedurlar əsasında gənc hüquqşünaslarla komplektləşdirilməsinin təmin edilməsi məqsədilə işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 50 ştat vahidi üzrə 26-cı növbəti müsabiqə elan edildiyi diqqətə çatdırılıb.

Hesabat dövründə valideynlik vəzifələrini yerinə yetirməyən, tüfeyli həyat tərzi keçirən, həmçinin zərərli vərdişləri ilə əlaqədar himayələrində olan azyaşlı uşaqlarının həyatlarını təhlükəyə atan valideynlərə qarşı valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı 3 mülki iddia (ümumilikdə 6 uşağın 4 valideyni barəsində) qaldırılmışdır.

Hesabat dövründə Prokurorluq orqanları tərəfindən beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində görülmüş tədbirlər çərçivəsində Xəzəryanı dövlətlərin

Baş Prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşü, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə Türk Dövlətlərinin məhkəmə və hüquq mühafizə orqanlarının nümayəndələrinin iştirakı ilə beynəlxalq konfransın keçirilməsi təşkil edilib, eyni zamanda Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyətləri Çin Xalq Respublikasının Makau Xüsusi İnzibati Bölgəsində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında və Düşənbə şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Baş prokurorlarının 5-ci iclasında iştirak edib.

Beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 24 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib. Həmçinin, xarici ölkələrdə cinayət törədərək qaçıb ölkəmizdə gizlənmiş şəxslərlə bağlı daxil olmuş sorğular əsasında 18 nəfərin müvafiq ölkələrə ekstradisiyası həyata keçirilib. Eyni zamanda konkret cinayət işləri üzrə hüquqi yardım göstərilməsi sahəsində xarici ölkələrlə səmərəli əməkdaşlıq davam etdirilib.

Vurğulanıb ki, 2024-cü ilin birinci yarımilində də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Bu müddətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror tərəfindən Respublikanın 15 şəhər və rayonlarında 800-dən artıq vətəndaş qəbul edilib.

Hesabat dövründə Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq işçilərinin və digər hüquq mühafizə orqanlarının əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlərin keçirilməsi davam etdirilmişdir.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərin qeyd edilməsi ilə yanaşı xidmətin fəaliyyət zamanı yol verilmiş nöqsanlara toxunulmaqla Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə onların ətraflı təhlili aparılmış, bu cür halların aradan qaldırılması istiqamətində görülməli olan işlər, xidməti fəaliyyət zamanı qarşılaşılan problemlər, onların həlli yolları və qarşıda duran vəzifələr barədə müzakirələr aparılmaqla bir sıra göstərişlər verilmişdir.

Vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması, xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın qəbulu, müraciətlərinə baxılması, müraciətlərində göstərilmiş xüsusatların xüsusi həssaslıqla öyrənilməsi və onların həlli istiqamətində qanunla müəyyən edilmiş tədbirlərin təxirəsalınmadan icrasının vacibliyi vurğulanıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin birinci yarımilinin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov, Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru Elşən Abbasov, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Azərbaycan Respublikasının Hərbi prokurorunun müavini Şəfahət İmranov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Xankəndi şəhər prokuroru Rəşadət Orucov isə hesabat dövründə görülmüş işlərlə bağlı məruzələrlə çıxış edib, müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror yekun çıxışından öncə 22 iyul tarixinin Azərbaycanda Milli Mətbuat və Jurnalistika günü kimi qeyd edildiyini xatırladaraq media nümayəndələrini təbrik etmiş, onlara yaradıcılıq və fəaliyyətlərində uğur və müvəffəqiyyətlər arzu etmişdir.

Eyni zamanda cinayətkarlığa qarşı aparılmış mübarizə sahəsində media nümayəndələrinin göstərdiyi cəhdlər, sərf etdikləri əmək xüsusi qeyd olunmaqla onlara minnətdarlıq bildirilib, xüsusi vurğulanıb ki, mediada əks olunmuş məlumatlar əsasında 8 araşdırma aparılmış və onlardan 4-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanmış, 1-i üzrə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanmışdır.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının bundan sonrada Azərbaycan Respublikasına və onun maraqlarına dövlətçilik ənənəsinə sadiq qalmaqla sədaqətlə xidmət edəcəyini və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədəki mövcud ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror Kamran Əliyev Bişkek şəhərində baş tutmuş Şanxay Əməkdaşlıq Təşkilatının baş prokurorlarının konfransında iştirak edib

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatının (TDT) və Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş prokurorlarının növbəti iclaslarında iştirak etmək məqsədilə Bişkek şəhərinə işgüzar səfərdə olub.

Səfər çərçivəsində Baş prokuror ölkəmizin Qırğız Respublikasındakı Səfirliyinə gələrək diplomatik nümayəndəliyimizin əməkdaşları ilə görüşüb, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra nümayəndə heyəti Heydər Əliyev adına 20 nömrəli məktəb-gimnaziya təhsil-tərbiyə kompleksində türk dünyasının görkəmli xadimi Ümum-







milli Lider Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad olunub. Həmçinin, Bişkekdə fəaliyyət göstərən Nizami Gəncəvi adına 103 nömrəli Qırğızıstan-Azərbaycan orta məktəb və Dostluq Parkı ziyarət olunub.

İyulun 24-də bir sıra ikitərəfli görüşlər keçirilib.

Belə ki, Qırğızıstanın yeni təyin edilmiş Baş prokuroru Maksat Asanaliyevlə keçirilmiş görüşdə Kamran Əliyev eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin hər iki ölkə prezidentlərinin birgə səyləri nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Qırğızıstanın Baş prokuroru ölkəmizin hüquq-mühafizə, xüsusilə prokurorluq orqanları ilə əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirərək, cinayətkarlığa qarşı mübarizə sahəsində qabaqcıl təcrübə mübadiləsinin önəmindən bəhs edib.







Görüş zamanı əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qırğız Respublikasının Baş Prokurorluğu arasında Əməkdaşlıq haqqında Razılaşmanın və onun icrası istiqamətində 2025-2026-cı illər üçün Əməkdaşlıq Proqramının imzalanması mərasimi baş tutub.

Səfər çərçivəsində Baş prokuror Türkiyənin yeni təyin olunmuş Baş prokuroru Muhsin Şentürklə görüşüb. Azərbaycan və Türkiyənin liderləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın uzaqgörən siyasəti nəticəsində dövlətlərarası əlaqələrin bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etdiyi bildirilib. Bu əlaqələrin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “bir millət, iki dövlət” prinsipinə əsaslandığını və gələcəkdə davam edəcəyinə əminlik ifadə edilib.

Görüşdə həm ikitərəfli formatda, həm də TDT Baş Prokurorlar Şurası çərçivəsində transmilli cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə sahəsində əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Həmçinin, səfər zamanı Kamran Əliyev TDT-nin Baş katibi Kubanıçbek Omuraliyev ilə görüş keçirib. Baş katib ölkəmizin türk dövlətlərinin həmrəyliyində aktiv rolu barədə danışaraq, son dövrlər əməkdaşlığın daha da intensiv şəkildə inkişaf etdiyini vurğulayıb.

Baş prokuror Azərbaycanla TDT arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq qardaş və dost türkdilli ölkələrin müxtəlif qurumları, o cümlədən prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.

İyulun 24-də keçirdiyi görüşlərdə Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Kamran Əliyev, həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək, həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.

Görüşlərdə ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov iştirak edib.

***

İyulun 25-də Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv dövlətlərin baş prokurorlarının 22-ci iclası keçirilib. Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iclasın işində dialoq üzrə tərəfdaş qismində iştirak edib.





Qırğız Respublikasının Prezidenti cənab Sadır Japarov video müraciətində tədbir iştirakçılarını salamlayaraq, iclasın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Baş prokuror milli prokurorluq orqanlarının rəqəmsallaşması və bu sahədə aparılan islahatlara toxunaraq, müasir tələblərə cavab verən "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verib, müasir cinayətkarlıqla mübarizədə yüksək texnologiyalardan istifadənin vacibliyini vurğulayıb.

Baş prokuror işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun tamamilə dağıdıldığını, həmçinin bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğunu bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitseprezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Bu ilin iyun ayında Xankəndi şəhər prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyi barədə danışan Kamran Əliyev bu addımın işğaldan azad olunan ərazilərdə qanunçuluğun təminatına verilən önəmin göstəricisi olduğunu qeyd edib.

Kamran Əliyev, həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək, həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.

Baş prokuror rusiyalı həmkarı İqor Krasnov və Çinin Baş prokuroru Ying Yong ilə görüşlər keçirib, gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.




İclasda ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov iştirak edib.

# Baş prokuror Kamran Əliyevin iştirakı ilə Türk Dövlətləri Baş Prokurorlar Şurasının üçüncü iclası keçirilib






İyulun 25-də Bişkekdə 2021-ci ildə Bakıda təsis olunmuş TDT Baş Prokurorlar Şurasının 3-cü iclası keçirilib.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin baş prokurorlarının, TDT Baş Katibinin rəhbərlik etdiyi nümayəndə heyətlərinin, Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş müşavirinin iştirak etdiyi iclasında Qırğız Respublikasının Prezidenti cənab Sadır Japarovun video müraciəti nümayiş olunub. Prezident tədbir iştirakçılarını salamlayaraq, iclasın işinə uğurlar arzulayıb.

Tədbirdəki çıxışında ölkəmizin türk birliyinə xüsusi önəm verdiyini qeyd edən Baş prokuror, bunun Prezident cənab İlham Əliyevin tarixi "bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz Türk dünyasıdır" sözləri ilə təsdiq olunduğunu vurğulayıb.

Kamran Əliyev TDT-yə üzv dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Həmçinin, Kamran Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr-2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək, həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.




Yekunda Bişkek bəyanatı qəbul edilərək, növbəti iclasın 2025-ci ildə Özbəkistanda keçirilməsi qərara alınıb.

Tədbirdə ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov iştirak edib.

Səfər çərçivəsində Baş prokuror Qazaxıstan və Özbəkistanın baş prokurorları, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş müşaviri ilə görüşərək gələcək əməkdaşlıq məsələlərini müzakirə edib.

# Baş prokuror Türkiyənin Konstitusiya Məhkəməsinin sədri ilə görüşüb






İyulun 26-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror qardaş Türkiyə ilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və türk xalqının Ulu Öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın



sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fəlsəfəsi ilə tarixən milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdiyini bildirərək, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Baş prokuror Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda danışaraq, bu ilin iyun ayında Xankəndi şəhər prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyini bildirib.

Kamran Əliyev cari ilin noyabr ayında dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un və cari ilin 29 sentyabr – 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyi barədə qonaqları məlumatlandırıb.

Türk Dövlətləri Təşkilatı çərçivəsində prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. 2021-ci ildə Bakıda təsis edilmiş TDT Baş Prokurorlar Şurasının bu ilin 25 iyul tarixində Bişkekdə sayca üçüncü iclasının keçirilməsinin hüquq-mühafizə orqanlarımız arasında davamlı və səmərəli fəaliyyətin bariz nümunəsi olduğu vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Kadir Özkaya iki ölkə arasında bütün sahələri əhatə edən münasibətlərin yüksək səviyyədə olmasından bəhs edib. Sədr azərbaycanlı və türkiyəli hüquqşünaslar arasında işgüzar əlaqələrin inkişaf etdirilməsinin önəmindən danışaraq, qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin vacibliyini qeyd edib.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

# Naxçıvan şəhərində “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktiki konfrans keçirilib

Avqustun 16-da Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər şəxslər iştirak edib.






Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan Baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz beynəlxalq miqyasda nüfuzunu gücləndirir, eləcə də ölkəmizdə iri layihələrin sürətlə icrası davam etdirilir.

Qarabağ və digər ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə aparılan titanik layihələrə toxunan Baş prokuror işğaldan azad olunan şəhər və kəndlərimizin yenidən qurulduğunu diqqətə çatdırıb.

Vurğulanıb ki, bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycan Respublikasında keçirilməsi ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq.

Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçı siyasətin acı nəticələrindən birinin ölkəmizin su ehtiyatlarının yararsız vəziyyətə gətirilməsi olduğuna diqqət çəkən Baş prokuror bunun nəticəsində Azərbaycan əhalisinin illərdir Qarabağda olan zəngin su ehtiyatlarından məhrum qaldığını vurğulayıb.








Bundan başqa, "BMT-nin Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında 1991-ci il Konvensiyası (ESPO), "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" BMT-nin 1992-ci il tarixli Konvensiyası, eləcə də həmin Konvensiyanın "Su və sağlamlıq haqqında" 1999-cu il 17 iyun tarixli Protokollarından irəli gələn öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulması xüsusi qeyd olunub.

Elmi-praktiki konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ermənistan tərəfindən metalların zəhərli tullantılarının həm Araz çayına, həm də "Şir arxı"na axıdılmasının burada olan yüzlərlə köçəri quş və balığın məhvilə nəticələndiyini, Araz çayının Ermənistan tərəfin-










dən çirkləndirilməsinin bu gün də davam etdiyini və bunun Arazqırağı ərazilərdə fauna və floranın məhvinə səbəb olmasını qeyd edib.

Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin rəisi Zakir Quliyev, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi aparatının rəhbəri Mətin Kərimli, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Baş Prokurorluğun idarə prokuroru Elşad Ağayev tərəfindən çıxışlar edilmiş və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Daha sonra, konfrans iştirakçıları tərəfindən "Azərbaycan Respublikasında ekoloji siyasətə dair" və "Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə" mövzularında vidoçarxlar izlənilib.

Sonda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlıq barədə anlaşma memorandumuna uyğun olaraq təsis edilmiş "Maarifləndirmə və hüquqmühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" (ECOLEAD) layihəsinə Naxçıvan Dövlət Universitetinin tərəfdaş qismində qoşulmasına dair sənəd imzalanıb.

# Şəkidə “İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması” mövzusunda elmi-praktiki konfrans keçirilib






Avqustun 27-də Şəki şəhərində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması” mövzusunda Elmi-Praktiki Konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Beynəlxalq Prokurorlar Assosiasiyasının (İAP) Baş katibi Roel Dona, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, habelə müxtəlif dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri iştirak edib.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Konfrans iştirakçılarını salamlayan Baş prokuror Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda ekoloji problemlərin həlli, ekoloji mühitin sağlamlaşdırılması



istiqamətində görülən titanik fəaliyyətdən bəhs edib.



Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və güclü siyasi iradəsi sayəsində ölkəmizin beynəlxalq miqyasda qlobal iqlim dəyişikliyinə qarşı mübarizədə öndə yer aldığını qeyd edən Baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı və dəstəyi ilə ekosistemin, eləcə də nadir flora və fauna növlərinin yaşaması və inkişaf etməsi üçün həyata keçirilən layihələrdən danışıb.



Elmi-praktiki konfransda çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov mötəbər tədbirin Şəki şəhərində təşkilindən məmnunluğunu ifadə edib, ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, aparılan kompleks tədbirlərin Şəki şəhəri ərazisində də davam etdirildiyini qeyd edib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (İAP) Baş katibi Roel Dona Azərbaycan Prokurorluğunun ekoloji hüquqpozmalara qarşı mübarizə təcrübəsinin beynəlxalq və regional təşkilatlar, həmçinin digər ölkələrin prokurorluq qurumları tərəfindən təqdir olunduğunu qeyd edərək qlobal iqlim dəyişikliyinə qarşı birgə mübarizənin əhəmiyyətindən bəhs edib.

Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, elm və təhsil nazirinin müavini İdris İsayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Milli Elmlər Akademiyasının vitse-prezidenti İradə Hüseynova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev və idarənin böyük prokuroru Şəbnəm Məmmədova tərəfindən çıxışlar edilib, mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

Daha sonra, konfrans iştirakçıları tərəfindən "Azərbaycan Respublikasında ekoloji siyasətə dair" və "Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə" mövzularında vidoçarxlar izlənilib.

# Baş prokuror Rusiya Federasiyasında keçirilmiş Şərq İqtisadi Forumunda çıxış edib





Sentyabrın 4-də Rusiyanın Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vladivostok şəhərinə işgüzar səfər edib.

Primorsk diyarının prokuroluğunda hər iki dövlətin baş prokurorları arasında ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini salamlayan İqor Krasnov ölkələrimiz arasında yüksək xətlə inkişaf edən tərəfdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edərək, sahibkarlıq üçün münbit şəraitin formalaşmasında prokurorluq orqanlarının önəmini qeyd edib.

Kamran Əliyev rusiyalı həmkarına Şərq İqtisadi Forumunda iştirak üçün dəvətə görə təşəkkürünü bildirib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan mütərəqqi islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın sürətli inkişafı barədə məlumat verərək, Rusiya Prezidenti cənab Vladimir Putinin avqust ayında ölkəmizə dövlət səfərinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsində önəmindən bəhs edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Baş prokurorlar mövcud sahəvi əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi









məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyasının Baş Prokurorluğu arasında hərbi prokurorluq orqanlarının əməkdaşlığına dair Anlaşma Memorandumunu imzalayıblar.

Sentyabrın 5-də nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Forum iştirakçılarını salamlayaraq tədbirin qlobal iqtisadi problemlərin






həllinə öz töhfəsini verəcəyini və konstruktiv səmərəli dialoqa nümunə olacağını bildirib.

Daha sonra Kamran Əliyev «Россия 24» televiziya kanalına müsahibə verib.

Rusiya Baş Prokurorluğunun təşkilatçılığı ilə keçirilən biznes subyektlərinin hüquqlarının qorunmasına həsr olunmuş sessiyada çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursuna uyğun olaraq sahibkarlığın inkişafının dövlət siyasətinin əsas prioritetlərindən olduğu, aparılan islahatlar nəticəsində sahibkarlıq fəaliyyətinin qanunvericilik bazası və lazımi infrastrukturunun yaxşılaşdırıldığını qeyd edib.

30 illik erməni işğalından azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını qeyd edən Baş prokuror, ölkəmizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyaların yatırılması üçün əlverişli biznes mühitinin yaradılmasından bəhs edib.

Həmçinin, Kamran Əliyev ölkəmizdə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, eyni zamanda prokurorluğun müvafiq struktur qurumları tərəfindən sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərin maraqlarının qorunması sahəsində fəaliyyətindən danışıb.

Baş prokuror cari ilin noyabrında dünyanın ən mötəbər beynəlxalq tədbiri olan COP29-un ölkəmizdə keçiriləcəyi barədə görüş iştirakçılarına məlumat verib.

Sessiya zamanı digər natiqlər çıxışlar edib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Baş prokuror Taylandlı və Laoslu həmkarları ilə ikitərəfli görüşlər keçirib, əməkdaşlıq perspektivləri müzakirə edilib.



# Baş prokuror Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşüb

Sentyabrın 11-də Baş prokuror Kamran Əliyev ölkəmizə işgüzar səfərə gələn Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror, Ömər Kərkəzi qardaş ölkənin Ali Məhkəməsinin sədri vəzifəsinə seçilməyi münasibətilə təbrik edib.













Tarixən milli köklərə söykənən münasibətlərimizin bütün sahələrdə dinamik inkişaf etdiyi bildirilərək, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri və apardıqları uzaqgörən xarici siyasət nəticəsində əlaqələrimizin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyi qeyd edilib.

Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş bərpa quruculuq işlərinin aparıldığını, o cümlədən bu ilin iyun ayında Xankəndi şəhər prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyini bildirərək, bu addımın işğaldan azad olunan ərazilərdə qanunçuluğun təminatına verilən önəmin göstəricisi olduğunu qeyd edib.

Baş prokuror bu ilin payızında ölkəmizin mötəbər beynəlxalq tədbirlərə, o cümlədən COP29 və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransına ev sahibliyi edəcəyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Ömər Kərkəz ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığının yüksək səviyyədə olduğunu bildirilərək, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da yüksələn xətlə davam edəcəyinə əminliyini ifadə edib.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

# Baş Prokurorluğun rəhbər heyəti Zəfər Parkında olub













Sentyabrın 27-də "Anım Günü" münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbər heyəti paytaxtda yerləşən Zəfər parkında olub.

Prokurorluq əməkdaşları Parkdakı xatirə daşının önünə gül dəstələri düzərək Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini ehtiramla anıblar.

# Baş prokurorun yerlərdə qəbulları

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

## LERİK RAYONU
















İyulun 3-də Baş prokuror Kamran Əliyev Lerik rayon prokurorluğunun inzibati binasında Lerik, Lənkəran, Astara rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 32 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## DAŞKƏSƏN RAYONU











İyulun 12-də Baş prokuror Kamran Əliyev Daşkəsən rayon prokurorluğunun inzibati binasında Daşkəsən, Göygöl, Samux, Kəlbəcər rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 18 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## QUSAR RAYONU



İyulun 19-da Baş prokuror Kamran Əliyev Qusar rayon prokurorluğunun inzibati binasında Qusar, Quba, Xaçmaz rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.










Qəbulda iştirak edən 16 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## NƏRİMANOV RAYONU





İyulun 30-da Baş prokuror Kamran Əliyev Nərimanov rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nərimanov rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 63 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş

cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## BALAKƏN RAYONU





Avqustun 6-da Baş prokuror Kamran Əliyev Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Qax rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 28 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## NƏSİMİ RAYONU







Avqustun 9-da Baş prokuror Kamran Əliyev Nəsimi rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nəsimi rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 55 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı

yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## YASAMAL RAYONU






Avqustun 13-də Baş prokuror Kamran Əliyev Yasamal rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Yasamal rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 49 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## NAXÇIVAN





Avqustun 16-da Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## XƏTAİ RAYONU

Avqustun 20-də Baş prokuror Kamran Əliyev Xətai rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Xətai rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 40 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan





cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## SƏBAİL RAYONU





Avqustun 23-də Baş prokuror Kamran Əliyev Səbail rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Səbail rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 49 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## ŞƏKİ RAYONU





Avqustun 27-də Baş prokuror Kamran Əliyev Şəki rayon prokurorluğunun inzibati binasında Şəki, Oğuz rayon, Mingəçevir şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 39 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan

cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## ABŞERON RAYONU





Sentyabrın 10-da Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Abşeron rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 31 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## XIZI RAYONU





Sentyabrın 17-də Baş prokuror Kamran Əliyev Xızı rayon prokurorluğunun inzibati binasında Xızı, Siyəzən, Şabran rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 15 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***

**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**

# Azərbaycan Respublikasının Baş Prokurorluğu, Mədəniyyət Nazirliyi və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin birgə təşkilatçılığı ilə tədbir keçirilib

Cari ilin 1 iyul tarixində Azərbaycan Respublikasının Baş Prokurorluğu, Mədəniyyət Nazirliyi və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin birgə təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində mədəniyyət sahəsində çalışan şəxslər üçün “Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə” adlı tədbir keçirilib.



“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın müvafiq bəndlərinin icrası zəminində təşkil edilməklə Mədəniyyət Nazirliyinin strukturuna daxil olan müəssisələrin rəhbər işçiləri və







əməkdaşlarının dinləyici qismində qatıldığı tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Pirayə Səmədzadə-Əliyeva, habelə, həmin idarənin prokurorları Kamil Kamilli və İlkin Babazadə mühaziraçi qismində iştirak ediblər.

Tədbir zamanı çıxış edən əməkdaşlarımız tərəfindən görüş iştirakçılarına korrupsiyanın anlayışı və tarixi, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş effektiv islahatlar, korrupsiyaya qarşı mübarizəni həyata keçirən ixtisaslaşmış qurumların strukturu və fəaliyyəti, korrupsiyaya qarşı mübarizə üzrə qanunvericiliyin təkmilləşdirilməsi sahəsində görülmüş işlər, qeyd edilən sahədə ölkəmizin qoşulduğu beynəlxalq təşəbbüslər və beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq kimi mövzular üzrə görüş iştirakçılarına geniş məlumat verilib.



Tədbirin sonunda dinləyicilər tərəfindən verilmiş müxtəlif məzmunlu suallar nümayəndələrimiz tərəfindən ətraflı şəkildə cavablandırılıb.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Fövqəladə Hallar Nazirliyinin Akademiyası arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ölkəmizin aparıcı ali təhsil müəssisələri, ixtisaslaşdırılmış xüsusi təyinatlı akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir.



Cari il iyulun 10-da Mərkəzin əməkdaşları Fövqəladə Hallar Nazirliyinin Akademiyasını ziyarət edərək, oranın fəaliyyəti, tədris prosesi, maddi-texniki bazası ilə yaxından tanış olub.







Tədbir çərçivəsində keçirilən görüşdə Akademiyanın rəisi, general-mayor Baba Salayev təhsil müəssisənin tarixi, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri, burada tətbiq edilən müasir təhsil metodları barədə qonaqlara ətraflı məlumat verib.

Daha sonra, Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov gələcək əməkdaşlıq imkanları barədə həmkarlarına təkliflərini təqdim edib, səmərəli təkliflər irəli sürülüb.

Tədbir çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Fövqəladə Hallar Nazirliyinin Akademiyası arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

# Naxçıvan Dövlət Universiteti ECOLEAD layihəsinə qoşulub







Avqustun 16-da Naxçıvan Dövlət Universitetinin "Maarifləndirmə və hüquq mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" (ECOLEAD) layihəsinə qoşulmasına dair tərəfdaşlar adından Baş prokurorunun müavini Heydər Məmmədovla həmin təhsil müəssisəsinin rektoru Elbrus İsayev arasında memorandum imzalanıb.

Qeyd edək ki, ilk olaraq 24 may 2024-cü il tarixdə Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında imzalanmış memorandumun məqsədi ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən ibarətdir.

# Baş Prokurorluqda uşaq hüquqlarına dair təlim keçirilib









Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin sentyabr ayının 17-dən 19-dək prokurorluq və daxili işlər orqanlarının ümumilikdə 272 əməkdaşı üçün “Cinayət təqibi zamanı uşaq hüquqlarının üstün mühafizəsi prinsipi” mövzusunda qarışıq formada (əyani və distant) təlim keçirilib.

Tədbirdə təlimçi qismində Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin peşəkar işçiləri, Bakı Dövlət Universitetinin psixologiya sahəsində təcrübəli alimləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları, habelə qadınlara yardım ictimai birliyinin nümayəndəsi iştirak ediblər.

Mühazirə, təqdimat və dəyirmi masa formatında keçirilmiş məşğələlər çərçivəsində yetkinlik yaşına çatmayan şəxslərin cinayət törətməsinə təsir edən bioloji və sosial amillər, cinayət təqibi zamanı bu cür şəxslərlə davranış qaydaları, onlar tərəfindən törədilən cinayətlərin istintaq metodikası və məhkəmə təcrübəsi, yetkinlik yaşına çatmayanların inzibati məsuliyyətə cəlb edilməsinin xüsusiyyətləri və digər aktual məsələlər tədris obyekti olub.

Təlim zamanı dinləyicilərlə tədris edilmiş mövzulara dair müzakirlər aparılıb, onları maraqlandırılan suallar təlimçilər tərəfindən ətraflı cavablandırılıb.

# ECOLEAD layihəsi uğurla icra olunur



"Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universitetinin birgə həyata keçirdiyi ECOLEAD (Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq mahfizə tədbirləri) layihəsi çərçivəsində sentyabrın 26-da ağacəkmə aksiyası keçirilib.

Sözügedən qurumların rəsmilərinin və əməkdaşlarının, o cümlədən Bakı Dövlət Universitetinin tələbələrinin iştirakı ilə keçirilən tədbir zamanı Bakı şəhəri, Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi boyunca Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun ağaclar əkilib.












Qeyd edək ki, ECOLEAD platforması prokurorluq əməkdaşları, ekoloqlar, ali təhsil ocaqları və ictimaiyyət nümayəndələrinin səyləri nəticəsində ətraf mühitin mühafizəsi sahəsində pozuntuların qarşısının alınması, təcrübənin paylaşılması və cəmiyyətin maariflənməsinə yönəlib.

ECOLEAD layihəsi Respublika ərazisində ekoloji cinayətlər nəticəsində zədələnmiş yaşıllıqların bərpası məqsədi daşıyır. Layihənin əsası Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında Xankəndi şəhərində keçirilmiş tədbirdə imzalanmış Anlaşma Memorandumu ilə qoyulub, daha sonra Naxçıvan Dövlət Universiteti sözügedən memoranduma qoşulub.

# Prokurorluq və polis işçiləri üçün birgə seminar məşğələlər keçirilib









İnsanların həyatı və sağlamlığı üçün ən ciddi təhdidlərdən olan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı daxili işlər və prokurorluq orqanları tərəfindən qarşılıqlı əlaqədə həyata keçirilən kompleks tədbirlər nəticəsində müvafiq sahədə əməliyyat şəraitinin nəzarətdə saxlanılması, əvvəlki illərlə müqayisədə qeyri-leqal dövriyyədən dəfələrlə çox narkotik vasitə və psixotrop maddənin çıxarılması təmin olunub.

Daxili işlər və prokurorluq orqanlarının əməkdaşlarının qeyd edilən sahədə nəzəri biliklərinin və peşə bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun və Daxili işlər nazi-



rinin birgə əmrinə əsasən, cari ilin sentyabr ayının 12-dən 27-dək Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə həmin qurumların 114 əməkdaşı üçün "Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin tətbiqinin xüsusiyyətləri" mövzusunda seminar məşğələlər keçirilib.

Seminarlar çərçivəsində həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" münasibəti ilə ətraf mühitin mühafizəsinin hüquqi əsasları dinləyicilərin diqqətinə çatdırılıb.

Məşğələlər zamanı dinləyicilər təlimçilərlə ünsiyyətdə aktiv olub, tədris olunan materiallara maraq göstərib və təcrübədə rast edilən problemlərin hüquqi cəhətdən həlli qaydası izah edilib.









# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib




İyulun 16-da Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü ilin birinci yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə giriş nitqi ilə çıxış edən Baş İdarə rəisi cari ildə mövcud zaman şərtlərinin mürəkkəbliyinin Azərbaycan Respublikasını tutduğu sürətli inkişaf yolundan yayındıra bilməməsi, ölkəmiz öz strateji hədəflərinə doğru qətiyyətlə irəliləməyə davam edərək növbəti uğurlara imza atması, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu bu uğurlu inkişaf modelinin tətbiqinin ardıcıl tarixi sınaqlardan çıxmaqla əvvəlki illərdə olduğu kimi 2024-cü ilin ötən dövründə də milli maraq və mənafelərimizin qarantı rolunu oynaması, habelə bu nəhəng inkişafın davamlılığının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müdrik idarəetmə fəlsəfəsi əsasında təmin edildiyini qeyd edib.

Müşavirə zamanı hesabat dövrü ərzində baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Bildirilib ki, qeyd olunan dövrdə Baş İdarəyə 5112 müraciət daxil olub, eləcə də, 715 vətəndaşın qəbul edilməsi təmin edilib.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilib, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülüb.

Qurum tərəfindən korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması, yol verilən qanun pozuntularının səbəblərinin müəyyən edilməsi



və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 110 təqdimat göndərilib. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilib və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunub.

Baş İdarənin əməliyyat qurumları tərəfindən 93 cinayət işi başlanıb, keçirilmiş 28 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 25 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 4 nəfər saxlanılıb.

Hesabat dövrü ərzində idarədə 150 şəxs barəsində 111 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 122 şəxs barəsində 93 cinayət işi* baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır.

Hesabat dövrü ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 61 milyon 909 min 129 manat məbləğində maddi ziyandan 40 milyon 386 min 399 manatının ödənilməsi təmin olunub.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 8 milyon 32 min 611 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub.

Qeyd olunan dövrdə Baş İdarənin fəaliyyətinin və antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər müsbət dəyərləndirilib.

Dövlət Başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və digər dövlətlərin müvafiq orqanları ilə əlaqələrin qurulmasına, habelə daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin göstərişləri müşavirə iştirakçılarının diqqətinə çatdırılmaqla vətəndaşların müraciətlərinə baxılması, “161-Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələrlə bağlı davamlı təhlillərin aparılması, digər hüquq mühafizə orqanları və Baş Prokurorluğun aidiyyəti struktur qurumları ilə birgə fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində müvafiq işlərin davam etdirilməsinin zəruriliyi ifadə edilib.

Əməliyyat müşavirəsinin sonunda qurumun əməkdaşlarına zəruri əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin diqqətdə saxlanılması, cinayət işlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsinin təmin edilməsi, əmlakın bərpası, qətimkan tədbirlərinin səmərəli tətbiqinə nail olunması məsələlərinə xüsusi önəm verilməsi, müvafiq sahələr üzrə bilik və bacarıqların inkişaf etdirilməsi istiqamətində bir sıra tapşırıq və tövsiyələr verilib.

# Hərbi Prokurorluq Daxili Qoşunlarla birlikdə Lənkəran şəhərində tədbir keçirib

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ili və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar iyul ayının 1-də Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının yüksəkrütbəli hərbi qulluqçuları Lənkəran şəhərində şəhər rəhbərliyinin iştirakı ilə birgə tədbir keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə şəfa arzulanıb.





Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Sonra Firad Əliyev, Hərbi prokurorun böyük köməkçisi Fərəc Sayılov, Lənkəran hərbi prokuroru Elşən Əliməmmədov, polkovnik Telman Həsənov, Lənkəran şəhər icra hakimiyyətinin nümayəndəsi və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran dünyaşöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, vətənpərvər dahinin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasəti yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətdə ölkəmizdə görülən misilsiz işlərdən, həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılan nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar. Bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar. Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən DİN-in Daxili Qoşunları ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs edilib.



Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Daha sonra hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb. Sonda birgə ağaclar əkilib.

# Hərbi Prokurorluqla Hərbi İnstitutun birgə keçirdiyi tədbirdə ekoloji qanun pozuntularından danışılıb

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunun yüksəkrütbəli hərbi qulluqçuları iyul ayının 5-də birgə tədbir keçiriblər.

DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunda təşkil edilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.











Tədbirdə general-mayor Elçin Məmmədov, Hərbi Prokurorluğun Kadrlar şöbəsinin rəisi Elmir Süleymanlı, Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev və başqaları çıxış ediblər. Onlar çıxışlarında Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən bəhs ediblər. Çıxışçılar, eyni zamanda, Ulu Öndərin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətdə ölkəmizdə həyata keçirilən köklü islahatlardan, bütün sahələrdə qazanılan nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.



Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Bundan əlavə, hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

# Xankəndidə Hərbi Prokurorluğun əməkdaşları Ulu Öndərin xatirəsini anıblar









Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə respublika rəhbərliyinə seçilməsinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində cari ilin iyul ayının 12-də Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.

Xankəndidə yerləşən hərbi hissələrdən birində təşkil edilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə general-mayor Bilal Çompuzov, Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Hərbi prokurorun böyük köməkçisi İsmayıl Əliyev, Tərtər hərbi prokuroru Emin Vəliyev və başqaları çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətləri barədə danışıblar. Onlar Ümummilli Liderin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə həyata keçirilən köklü islahatlar, bütün sahələrdə qazanılan uğurlar, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılması, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılması və etibarlı şəkildə qorunmasından bəhs ediblər.

Tədbirdə ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələbləri, hüquq və vəzifələr, həmçinin ekoloji qanun pozuntuları, ekoloji cinayətlər və məsuliyyət barədə müzakirələr aparılıb. Bundan başqa hüquqi-maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

Sonra prokurorluğun əməkdaşları və nazirliyin hərbi qulluqçuları birgə ağaclar əkiblər.

# “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Hərbi Prokurorluq hərbçilərlə birlikdə Yevlaxda tədbir keçirib

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə və ölkəmizdə cari ilin “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində 14 iyul 2024-cü il tarixdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.








Yevlaxda yerləşən hərbi hissələrdən birində təşkil edilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbirdə general-mayor Bilal Çompuzov, Hərbi prokurorun böyük köməkçiləri Firad Əliyev və İsmayıl Əliyev, Tərtər hərbi prokuroru Emin Vəliyev və başqaları çıxış ediblər.



Onlar çıxışlarında Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən bəhs ediblər. Çıxışçılar, eyni zamanda, Ulu Öndərin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə həyata keçirilən köklü islahatlardan, bütün sahələrdə qazanılan nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.



Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Bundan əlavə, hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb. Sonda birgə ağaclar əkilib.

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib



İyulun 17-də Hərbi Prokurorluqda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2024-cü ilin birinci yarısında görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Kollegiya iclasından əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

İclasda hesabat məruzəsi ilə çıxış edən hərbi prokurorun müavini ədliyyə general-mayoru





Şəfahət İmranov Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini zamanın tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildən artıq müddət ərzində ölkəmizdə əldə olunmuş böyük uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Məruzədə qeyd edilib ki, ötən dövrlərdə olduğu kimi, bu ilin birinci yarısında da Hərbi Prokurorluq orqanlarının fəaliyyəti uğurlu olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 98,6 faizi, o cümlədən bəzi

qəbildən olan cinayətlərin 100 faizinin üstünün açılması təmin edilib.

İnsan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə sahəsində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış əlaqələrin çox böyük əhəmiyyəti olduğu bildirilib.







Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 28,2, hərbi xidmət əleyhinə olan cinayətlər 25,2, qeyri-hərbi cinayətlər isə 31,2 faiz azalıb.

İclasda qeyd olunub ki, ötən ilin birinci yarısı ilə müqayisədə bu ilin birinci yarısında qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 75, özünü öldürmə həddinə çatdırma cinayətləri 80, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 3,2, tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkət cinayətləri 23,2, hərbi xidmətdən yayınma cinayətləri 31,4, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 90,9, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 33,3 və rüşvət alma (passiv rüşvətxorluq) və rüşvət vermə (aktiv rüşvətxorluq) cinayətləri 58,6 faiz azalıb.

Məruzə ətrafında çıxış edənlər hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi və işin səmərəliliyinin daim artırılması tələb edilib.

İclasın yekununda ədliyyə general-mayoru Şəfahət İmranov bildirib ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi sahəsindəki fəaliyyətin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Şəkidə birgə tədbir keçirib





Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar cari ilin iyul ayının 17-də Şəki rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şəxsi heyətlə birgə tədbir keçirib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz, unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb.

Sonra Firad Əliyev, Zaqatala hərbi prokuroru Emin Quliyev, polkovnik Nail Mehtiyev, eləcə də digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq istiqbalına hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən DSX ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs edilib.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən bu sahədə cinayətlərdən və məsuliyyətlərdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.



# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Zaqatalada birgə tədbir keçiriblər

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar iyulun 18-də Zaqatala rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şəxsi heyətlə birgə tədbir keçiriblər.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin, şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa dilənib. Hərbi Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tədbirdə çıxış ediblər.

Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq istiqbalına hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan söz açıblar. Çıxışçılar, həmçinin ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.

Tədbirdə, eyni zamanda, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.












# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Zəngilanda birgə tədbir keçirib









Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şəxsi heyətlə birgə avqust ayının 8-də Zəngilan rayonunda tədbir keçiriblər.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz, unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

General-mayor Azad Abdullayev, Hərbi prokurorunun böyük köməkçiləri Firad Əliyev və Fərəc Sayılov, Qubadlı hərbi prokuroru Elşən Mürsəlov, eləcə də digər şəxslər çıxış edərək istiqlal yolumuzu və firavan istiqbalımızı nurlandıran nəhəng tarixi şəxsiyyətin – Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə, dövrün tələblərinə uyğun şəkildə, uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan söz açıblar.

Sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən söz açan tədbir iştirakçıları ətraf mühitin daha da sağlamlaşdırılmasının və etibarlı qorunmasının əhəmiyyətini vurğulayıblar.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb. Tədbir çərçivəsində, həmçinin hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti ətraf mühitin mühafizəsi ilə bağlı birgə tədbir keçiriblər







Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar cari ilin avqust ayının 18-də Qubadlı rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şəxsi heyətlə birgə tədbir keçirib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz, unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

General-mayor Azad Abdullayev, Hərbi Prokurorluğun əməkdaşları, eləcə də digər şəxslər tədbirdə çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq istiqbalına hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.

Həmçinin ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən söz açılıb. Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb, bundan əlavə, hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# Hərbi Prokurorluq və Daxili Qoşunlar Ağstafa rayonunda birgə tədbir keçiriblər







Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar 28.08.2024-cü il tarixdə Ağstafa rayonunda rayonun və Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəxsi heyətlə birgə tədbir keçirib.

Ağstafa rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, hərbi hissə komandiri Emil Rüstəmov, Şəmkir hərbi prokuroru İlham Babayev, Ağstafa rayonunun prokuroru Anar Cəfərov, eləcə də digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq istiqbalına hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.

Bundan sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Onları maraqlandıran suallar cavablandırılıb.



# Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin birgə maarifləndirmə tədbiri keçirilib







Sentyabrın 12-də Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin hərbi qulluqçuları hərbi hissənin şəxsi heyətinin hüquqi maarifləndirilməsi istiqamətində birgə tədbir keçirib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçiləri Firad Əliyev, İsmayıl Əliyev, Tərtər hərbi prokuroru Emin Vəliyev, eləcə də digər şəxslər hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar ediblər. Ardınca şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.



# Hərbi Prokurorluq Dövlət Sərhəd Xidməti ilə birlikdə Qazax rayonunda tədbir keçirib



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar cari ilin sentyabr ayının 19-da Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin yüksəkrütbəli hərbi qulluqçuları Qazax rayonunda rayon rəhbərliyinin iştirakı ilə birgə tədbir keçirib.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Qazax rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, general-mayor Misir Əliyev, Hərbi Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin digər qulluqçuları çıxış ediblər. Onlar çıxışlarında dünyaşöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat yolundan, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə ölkəmizdə görülən misilsiz işlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar. Bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın müdrikliyi də xüsusi vurğulanıb. Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs olunub.

Bundan başqa, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən söhbət açılıb. Daha sonra hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.









# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən yerli icra hakimiyyəti orqanlarında hərbi vətənpərvərliyə həsr olunmuş tədbirlər keçirilib







Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsi ilə birlikdə Muxtar Respublika Prokurorluğunda Muxtar Respublikanın rayon icra hakimiyyətlərində inzibati ərazi dairələri üzrə nümayəndələrin və bələdiyyələrin iştirakı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin komplektləşdirilməsi zamanı müddətli həqiqi xidmət və səfərbərlik üzrə çağırışla bağlı “Hərbi vətənpərvərlik: Vətəndaşlıq borcumuz, konstitusion vəzifələrimiz və məsuliyyətimiz” mövzusunda 02.07.2024-cü ildə Şərur rayon, 03.07.2024-cü ildə Ordubad rayon, 04.07.2024-cü ildə Babək rayon, 05.07.2024-cü ildə Şahbuz rayon, 09.07.2024-cü ildə Culfa rayon, 10.07.2024-cü ildə Kəngəri rayon, 11.07.2024-cü ildə Sədərək rayon, 16.07.2024-cü ildə isə Naxçıvan Şəhər İcra Hakimiyyətlərində tədbirlər keçirilib.

Tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri, Azərbaycan Respublikasının Müharibə veteranı Faiq Səfərov qeyd etdi ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin komplektləşdirilməsi sahəsində fəaliyyət insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və Silahlı Qüvvələr quruculuğunun təşkili prinsipləri əsasında həyata keçirilməklə daim təkmilləşdirilir. Bütün sahələrin paralel inkişafı fonunda ordu quruculuğu sahəsində də aparılan sistemli və kompleks işlər öz bəhrəsini vermiş, ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olan, ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxil olan ölkəyə çevrilmişdir. Aparılmış məqsədyönlü siyasət, Silahlı Qüvvələrdə həyata keçirilmiş islahatlar, şəxsi heyətin maddi və başqa təminatlarının yüksəldilməsi, eləcə də digər kompleks tədbirlər nəticəsində çağırış və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan yayınan şəxslərin sayı kəskin surətdə azalmışdır. 44 gün davam etmiş və Ordumuzun parlaq qələbəsi ilə başa çatmış Vətən müharibəsində könüllü olaraq hərbi xidmətə getmək üçün müraciət edən vətəndaşların sayı da bu tendensiyanı təsdiqləyir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş







İdarəsinin şöbər rəisi, polkovnik-leytenant Vüsal Əliyev qeyd etdi ki, ilkin hərbi qeydiyyata alma komissiyasının tərkibinə psixoloqun və digər aidiyyəti mütəxəssislərin daxil edilib, ilkin hərbi qeydiyyata alınan vətəndaşların tibbi müayinəsi ilə yanaşı hökmən psixoloji müayinədən də keçirilməsi təmin edilir, onlara ilkin hərbi qeydiyyata alma üzrə qərar elan olunaraq hüquq və vəzifələri, ilkin hərbi qeydiyyatın və hərbi xidmətə hazırlığın keçirilməsi qaydaları izah edilir. Xidmətin strukturuna daxil olan qurumlar tərəfindən hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xəta aşkar edildikdə inzibati xəta haqqında protokolun tərtib edilməsi, qanunvericiliklə müəyyən edilmiş müddətlərdə inzibati tənbeh vermə haqqında qərarın qəbul edilməsi və ya inzibati xəta haqqında iş üzrə materialların baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilməsi, eləcə də inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərar qəbul edildiyi hallarda, həmin qərarın surətinin prokurora göndərilməsi ilə bağlı zəruri tədbirlər görülür.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun tabe prokurorluqlarında insan hüquqlarının müdafiəsi mövzusunda seminarlar keçirilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi tərəfindən 03.07.2024-cü ildə Sədərək rayon, 05.07.2024-cü ildə Kəngərli rayon, 08.07.2024-cü ildə Ordubad rayon, 10.07.2024-cü ildə Babək rayon, 11.07.2024-cü ildə Culfa rayon, 12.07.2024-cü ildə Şərur rayon, 15.07.2024-cü ildə Şahbuz rayon, 16.07.2024-cü ildə isə Naxçıvan şəhər prokurorluqlarında "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinin-ədalətli məhkəmə araşdırılması hüququnun (cinayət hüququ aspekti)" mövzusunda seminarlar keçirilib.

Keçirilən seminarlarda Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov qeyd etdi ki, "Avropa İnsan Hüquqları Konvensiyası" 10.12.1948-ci ildə BMT Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"ni nəzərə alaraq 04 noyabr 1950-ci ildə Romada hazırlanaraq 03 sentyabr 1953-cü ildə qüvvəyə minib və Konvensiya 59 maddə və 6 protokoldan ibarətdir. Konvensiyanın maddələrində qeyd olunmuş hüquqlar və azadlıqlardan biri də ədalətli məhkəmə araşdırması hüququdur. Ədalətli



məhkəmə araşdırması hüququ Konvensiyanın 6-cı maddəsində öz əksini tapıb. Həmin maddədə qeyd olunur ki, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Respublikamız "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya qoşulub. 18 iyun ölkəmizdə "Azərbaycanda Respublikasında İnsan Hüquqları Günü" kimi qeyd olunur. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində Azərbaycan Respublikasının tərəfdar cıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olduğu təsbit olunub. Azərbaycan Respublikası Konvensiyanın 6-cı "Ədalətli məhkəmə araşdırılması hüququ" maddəsinə də qoşulub. Azərbaycan Respublikası Avropa İnsan Hüquqları Konvensiyasına qoşulduqdan sonra qəbul olunmuş bütün qanunlarda Konvensiyanın müddəaları nəzərə alınıb. Azərbaycan Respublikası Konstitusiyasında hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ, hüquqi yardım almaq hüququ, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi hüququ, təqsirsizlik prezumpsiyası hüququ, bir cinayətə görə təkrar məhkum etməyə yol verilməməsi hüququ, məhkəməyə təkrar müraciət hüququ, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi hüququ öz əksini tapıb.

Qeyd olundu ki, ədalətli məhkəmə araşdırılması hüququnun cinayət hüququ aspektlərinə gəldikdə isə Azərbaycan Respublikasının CPM-də bu barədə bir cox müddəalar nəzərdə tutulub. Belə ki, Azərbaycan Respublikası CPM-də hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi, Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, azadlıq hüququnun təmin edilməsi, Şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, mülkiyyət hüququnun təmin edilməsi, hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi, özünü və qohumlarını ifşa etməkdə sərbəstlik, təqsirsizlik prezumpsiyası, məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi, cinayət mühakimə icraatının aşkarlığı, cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi, eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi, məhkəməyə təkrar müraciət etmək hüququnun təmin olunması hüquqları təsbit olunub.

Sonra seminarda qarşıya çıxan suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında 2024-cü ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat iclası keçirilib



12 iyul 2024-cü il tarixli müşavirədə qeyd olunumuşdur ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş və həmin prosess Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin etməkdədir.

Həmçinin vurğulanıb ki, 2024-cü ilin fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi tamam oldu. Naxçıvanın muxtariyyətinin Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 30 dekabr 2023-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" müvafiq Sərəncam imzalanmışdır. 100 yaşlı Naxçıvanın dövlətçiliyimizin bütün mərhələlərində xüsusi yeri olub. Müasir tariximizdə isə Naxçıvan xalqımızın müstəqillik uğrunda mübarizəsinə böyük töhfələr verib.



Qeyd olundu ki, 2024-cü ilin I yarımili ərzində Naxçıvan Muxtar Respublikası üzrə cəmi 301 cinayət hadisəsi qeydiyyata alınmışdır ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 hadisə (309-301) azdır. Cinayətkarlığın dinamikasının təhlilindən yalnız az ağır cinayətlərin sayının azalması müşahidə olunur. Ötən hesabat dövrünə nisbətən bəzi cinayət hadisələrinin artması bu qəbildən olan cinayət hadisələrinə qarşı mübarizənin daha da gücləndirilməsini, törədilmiş cinayət hadisələrinin üstünün isti izlərlə açılması üçün digər hüquq-mühafizə orqanları ilə birgə gücləndirilmiş kompleks profilaktiki tədbirlərin görülməsini zəruri edir.

Naxçıvan Muxtar Respublikasının aidiyyəti orqanlarında istintaq olunmuş cinayət işləri üzrə tərtib edilmiş ittiham aktları təsdiq edilməyərək qaytarılanı, habelə məhkəmələr tərəfindən Azərbaycan Respublikası CPM-in 303 və 318.2-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılan cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialı



olmamışdır. İşin mürəkkəbliyi ilə əlaqədar 4 cinayət işininin ibtidai istintaq müddəti uzadılmışdır.

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli «Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında» Fərmanında prokurorluğa ünvanlanmış tövsiyələrdən irəli gələn vəzifələrin icrasına xüsusi diqqət yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarına müxtəlif xarakterli korrupsiya hüquq pozmaları ilə əlaqədar məlumatlar daxil olmuşdur ki, həmin məlumatlar eyni xüsusatlarla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunda istintaq olunan cinayət işlərinə əlavə edilməsi üçün göndərilmişdir.

Müşavirədə qeyd olundu ki, Cinayət təqibindən kənar icraatlar şöbəsinin əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraatlar üzrə 21 şəxs barəsində 21 işə baxılmışdır. Azərbaycan Respublikası İXM-nin 54.2-ci maddəsinə uyğun olaraq 15 inzibati araşdırma aparılmış, onlardan 12-i üzrə inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar, 3-ü üzrə isə inizbati icraatın başlanmasının rədd edilməsi haqqında qərardad qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşkilatçılığı ilə Muxtar respublikasının şəhər və rayonlarında sakinlərin fərdi qaydada qəbul edilməsi, problemlərinin dinlənilməsi və müvafiq icraatların aparılması məqsədilə “18 iyun - Milli İnsan Hüquqları Günü”nə həsr olunmuş “Açıq qapı” aksiyası keçirilib. Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərovun da iştirak etdiyi “Açıq qapı” aksiyaları keçirilmiş və sakinləri fərdi qaydada qəbul edilərək problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Azərbaycanın Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən ölkədə elan olunmuş “18 may - 18 iyun “İnsan Hüquqları Aylığı”na qoşulma ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən həmçinin bir sıra tədbirlər həyata keçirilmişdir.

Qeyd olundu ki, prokurorluq orqanlarında İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarları mütəmadi öyrənilmiş, bu zaman Məhkəmənin Azərbaycan Respublikası vətəndaşlarının müraciətləri ilə əlaqədar qəbul etdiyi qərarların öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Hesabat dövründə prokurorluq orqanlarına müxtəlif xarakterli 310 (3-ü elektron poçt vasitəsilə) müraciət daxil olmuşdur. Həmin müraciətlərdən 71-i həll edilmiş, 75-i aidiyyəti üzrə göndərilmiş, 147-i cinayət işlərinə və materiala əlavə olunmuş, 6-ı “Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların qeydiyyatı kitab”na keçirilmiş, 7-i baxılmamış saxlanılmış, 4-ü isə qalıq qalmışdır. Həll edilmiş 71 müraciətdən 10-u təmin edilmiş, 12-i isə təkrar müraciət hesab olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğuna “961 Çağrı Mərkəzi”nə daxil olmuş 2 müraciət göndərilmişdir ki, müraciətlərdən biri üzrə vətəndaşa müvafiq izah verilmiş, digər müraciət isə istintaq olunan cinayət işinə əlavə edilmişdir.

Hesabat dövründə ekstradisiya, hüquqi yardım və hüquqi əməkdaşlıq haqqında beynəlxalq müqavilələrdən irəli gələn 12 hüquqi yardım haqqında sorğunun



icrası ilə əlaqədar toplanmış sənədlər Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinə göndərilmişdir. 2023-cü ilin birinci yarımilində isə 6 hüquqi yardım haqqında sorğunun icrası ilə əlaqədar toplanmış sənədlər Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinə göndərilmişdir.

2024-cü ilin birinci yarımili ərzində Prokurorluğun depozit hesabına 16376,62 AZN məbləğində vəsait daxil olmuş və bu vəsaitin də müəyyən hissəsinin xüsusi hesaba köçürülməsi təmin edilmişdir.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, hüquqi maarifləndirmə və həyata keçirilən profilaktiki tədbirlərin kəsərliliyinin artırılmasına yönəltməklə müxtəlif hüquqi mövzularda 232 dəfə təbliğat işi aparılmış, mediada 590 dəfə, o cümlədən mətbuatda 20 dəfə, Naxçıvan Dövlət Televiziyasında 16 dəfə (o cümlədən "Qanunçuluq" proqramında 13 dəfə), Naxçıvan Radiosunda 7 dəfə çıxışlar edilmiş, sosial mediada isə 547 dəfə maarifləndirici və informasiya xarakterli material yerləşdirilmişdir.

Növbədənkənar Prezident seçkiləri ilə əlaqədar yerli mediada maarifləndirici çıxışlar edilmişdir. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin komplektləşdirilməsi zamanı müddətli həqiqi hərbi xidmət və səfərbərlik üzrə çağırışla bağlı bəzi məsələlərə dair" 05.09.2023-cü il tarixli 130-09/31 nömrəli birgə əmrin icrası haqqında mövzusunda Muxtar Respublika Prokurorluğunda, "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi"nin tələblərindən irəli gələn vəzifələrin və Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartları, prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsipləri və "Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında" Avropa Şurası Nazirlər Komitəsinin 06.10.2000-ci il tarixli 19 saylı Tövsiyələrinin nəzərə alınması, "Şəxsin tutulması, həbs edilməsi zamanı insan hüquqlarının pozulması, işgəncə, qeyri insani, yaxud insan ləyaqətini alçaldan rəftar, vəzifədən sui istifadə və digər bu kimi hallarla bağlı beynəlxalq hüquqi aktların və milli qanunvericiliyin öyrənilməsi və tətbiqi", "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti", "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı madəsinin - ədalətli məhkəmə araşdırması hüququnun (cinayət hüququ aspekti) tətbiqi" mövzularında tabe prokuroluqlarda, "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda ali, orta ixtisas və orta təhsil məktəblərində, "Sudan səmərəli və qanuni istifadə" mövzusunda rayon (şəhər) icra hakimiyyətlərində, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üzrə Milli Fəaliyyət Planının mahiyyəti mövzusunda ali və otra ixtisas məktəblərində, "Soyqırım cinayəti: hüquq müstəvisində" mövzusunda isə Naxçıvan Dövlət Universitetində təbdirlər keçirilmişdir.

Yekunda Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev qarşıda duran vəzifələr barədə çıxış etdi. Prokurolruğun şöbə rəisləri Faiq Səfərov, Mübariz Bağırov, Nihad Abbasov və İsfəndiyar Qasımov isə qeyd olunan tapşırıqları diqqətdə saxlamaqla icrasını təmin etmək məqsədilə bütün səy və bacarıqlarından səmərəli istifadə edəcəklərini bildirdilər.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən məişət zorakılığının qarşısının alınması mövzusunda tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) icra hakimiyyətlərində inzibati ərazi dairələri üzrə nümayəndələrin, bələdiyyələrin, polis və təhsil müəssisələri əməkdaşlarının iştirakı ilə “Münaqişəli ailələr: Məişət zorakılığı, cinayətə aparan yol və onların qarşısının alınması” mövzusunda 06.08.2024-cü il tarixdə Şərur və Sədərək rayon, 07.08.2024-cü il tarixdə Ordubad rayon, 08.08.2024-cü il tarixdə Babək rayon, 09.08.2024-cü il tarixdə Şahbuz





rayon, 20.08.2024-cü il tarixdə Culfa rayon, 21.08.2024-cü il tarixdə Kəngəri rayon, 22.08.2024-cü il tarixdə isə Naxçıvan şəhər icra hakimiyyətlərində tədbirlər keçirilib.

Tədbirdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Daxili İşlər Nazirliyinin əməkdaşı İman Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Firuzə Hüseynova və Naxçıvan Dövlət Universitetinin əməkdaşı, psi-







xologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev qeyd etdilər ki, bu gün cəmiyyətimizi ən çox narahat edən və aktual məsələ olan münaqişəli ailələrdir: “Münaqişəli ailələrdə baş verən məişət zorakılığı cinayətə aparan yolun başlanğıcıdır. Belə ailələrlə lazımi maarifləndirmə tədbirlərinin aparılmaması şəxsiyyət əleyhinə cinayətlərin törədilməsinə və intihar hallarına gətirib çıxarır. Buna görə də bu istiqamətdə kəsərli tədbirlər həyata keçirilməli, ictimai təhlükəli əməllərin qarşısı vaxtında alınmalıdır. Həmin fərdlərin cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşdırılmasında və cəmiyyətə təqdim edilməsində hər bir şəxsin üzərinə böyük məsuliyyət düşür”.



Həmçinin gənclər arasında baş verən bu kimi hadisələrin qarşısını almaq üçün məktəblilərlə bu istiqamətdə işlər səmərəli şəkildə qurulmalı olduğu qeyd edilmişdir.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları tərəfindən Etik Davranış Kodeksinin tələbləri öyrənilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin təşkilatçılığı ilə avqust ayının 7-də Ordubad, 20-də isə Culfa rayon rayon prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"nin tələbləri" mövzusunda seminar keçirilib.

Seminarda Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi", Kodeksin əhatə dairəsi, Kodeksin məqsədləri və prokurorluq işçilərinin etik davraniş prinsipləri barədə məlumat verərək qeyd etdi ki, Kodeks bütün prokurorluq işçilərinə şamil edilir. Hər bir prokurorluq işçisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarını, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı, Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartlarını, Prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsiplərini və Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrini rəhbər tutaraq, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla, habelə Kodekslə müəyyənləşdirilən davranış qaydalarına riayət etməlidir.

Qeyd olunub ki, prokurorluq işçisinin xidməti davranışı prokurorluğun fəaliyyət istiqamətləri üzrə qanunvericiliklə ona həvalə edilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir. Prokurorluq işçisi xidməti fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıqla yerinə yetirməyə borcludur. Prokurorluq işçisinin öz ixtisasını artırması onun qulluq borcu, işçilərin nəzəri biliklərinin və peşə hazırlığının artırılması üçün tədbirlər görülməsi rəhbər prokuror işçilərinin qulluq vəzifəsidir. Prokurorluq işçisinin xidməti fəaliyyətindən kənar davranışı onun peşə nüfuzuna kölgə salmamalı, xüsusi geyim formasını, xidməti silahını və xidməti vəsiqəsini nümayiş etdirməklə vətəndaşlara, idarə, müəssisə və təşkilatlara qanunsuz təsir göstərməməli, onlardan sui-istifadə hallarına yol verməməli, iş vaxtından kənar müddətdə ictimai yerlərdə xüsusi geyim formasından istifadəyə məhdudiyyətlər qoymalıdır. Vurğulamışdır ki, prokurorluq işçisi ailə, məişət, maliyyə və digər sahələr üzrə münasibətlərdə yaranan çətinlik və ya anlaşılmazlıqların həlli zamanı yalnız qanuni üsullardan istifadə etməli, dövlət orqanları ilə yaradılmış əməkdaşlıqdan qanunvericiliklə nəzərdə tutulmayan qaydada şəxsi maraqları üçün istifadə etməməlidir.

Sonda suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizə mövzusunda tədbir keçirilib




Cari ilin 5 sentyabr tarixində Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional bölməsinin birgə təşkilatçılığı ilə M.S.Ordubadi adına kitabxananın akt zalında mədəniyyət sahəsində çalışan şəxslər üçün "Korrupsiya hüquqpozmaları və onlara qarşı mübarizə. Etik davranış qaydaları" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov tədbirin mahiyyəti barədə məlumat verib. Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov və Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional bölməsinin aparıcı məsləhətçisi Mahir Abbasov mövzu ilə bağlı çıxış ediblər.

Tədbirdə qeyd edilib ki, istənilən sahədə inkişafa mane olan əsas faktorlardan hesab olunan korrupsiya müasir dövrümüzdə dünyanı narahat edən problemlərdən biridir. Korrupsiyanın mövcudluğu, ilk növbədə ümumbəşəri və milli dəyərləri sarsıdır, hüquqi dövlət quruculuğuna mane olur, iqtisadi və sosial inkişafın qarşısını alır, cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır.

Korrupsiya, vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır. Ölkəmizdə korrupsiyaya qarşı sərt mübarizə aparılır. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun, dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, qurumlara əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında, qurumlarda qulluğa girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır.



Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 – 2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Qeyd olunub ki, cinayət qanunvericiliyinə əsasən rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma, rüşvət vermə, yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi, vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə və ya təkrar rüşvət vermə, həmçinin şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi və şəxsə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi ictimai təhlükəli əməl kimi cinayət məsuliyyətinə səbəb olur.

Həmçinin vurğulanıb ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

# Bakı şəhər prokurorluğunun 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib



İyul ayının 16-da Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2024-cü ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Əvvəlcə müşavirə iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov 2024-cü ilin birinci yarımili ərzində ölkə Prezidenti İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində cəmiyyətin bütün sahələrində tərəqqi və inkişafa nail olunduğunu vurğulamışdır.

Həmçinin, şəhid ailələrinin, müharibə iştirakçılarının qayğılarının Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən daim nəzarətdə saxlanılmaqla, onların müraciətlərinin vaxtında həlli istiqamətində zəruri tədbirlərin görülməsi diqqətə çatdırılmışdır.

Daha sonra əməliyyat müşavirəsində Azərbaycan Respublikasının Baş prokurorunun müəyyənləşdirdiyi vəzifələrin icrası üzrə Bakı şəhərinin prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilmişdir.

Qeyd olunmuşdur ki, 2024-cü ilin birinci yarımili ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 8011 cinayət hadisəsi qeydiyyata alınmışdır ki, onların 88,6 %-nin açılması təmin olunmuşdur.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə törədilən 24 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilmişdir.

Qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, mənimsəmə və israf etmə, qaçaqmalçılıq, ekoloji cinayətlərin, ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı azalmış, dələduzluq, hədə-qorxu ilə tələb etmə, xuliqanlıq,





narkotik vasitələrin qanunsuz dövriyyəsi, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma hadisələrinin sayında isə artım müşahidə olunmuşdur.

Bildirilmişdir ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 124 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 89 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir. Paytaxtın daxili işlər orqanlarının istintaq qurumları tərəfindən isə hesabat dövründə cəmi 3256 cinayət işinin istintaqı tamamlanaraq, 2570 iş məhkəmələrə göndərilmişdir.

Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 6 milyon 492 min 425 manat məbləğində maddi ziyanın 3 milyon 527 min 109 manatı və ya 54,3%-nin ödənilməsi təmin edilmişdir.

Müşavirədə həmçinin axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılması ilə bağlı konkret tapşırıqlar verilmişdir.

Vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunmuş, xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kate-





qoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanmışdır.

“Elektron Prokurorluq” informasiya sisteminin tətbiqinin prokurorluq orqanlarında işin səmərəliliyinin artırılmasına müsbət təsiri xüsusi qeyd olunmaqla, bütün prokurorluq işçilərinin gündəlik fəaliyyətlərində sistemin imkanlarından istifadə olunmasının vacibliyi vurğulanmışdır.

Bakı şəhər prokurorluğunun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin birinci yarımilinin nəticələrinə görə artım dinamikası müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış qəsdən adam öldürmə cinayətlərinin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları hesabat məruzə ilə çıxış edərək, görülən işlərin vəziyyəti barədə məlumat vermiş, yol verilmiş nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildirilmişlər.

Əməliyyat müşavirəsinə yekun vuran Bakı şəhər prokuroru Elşən Abbasov şəhər prokurorluğunun kollektivinin bundan sonra da cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsini, insan və vətəndaş hüquq və azadlıqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcəklərinə əminliyini ifadə etmişdir.

# Şəkidə “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı seminar keçirilib

Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, sentyabrın 14-də Şəki rayon prokurorluğunun inzibati binasında “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı seminar keçirilib.

Tədbirdə prokurorluq əməkdaşları ilə yanaşı, media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.













Ətraf mühitin mühafizəsi, habelə prokurorluq orqanlarının ekoloji hüquqpozmalara qarşı mübarizəsi ilə bağlı məlumatlılığın artırılması məqsədilə təşkil olunmuş tədbir zamanı açılış nitqi ilə çıxış edən Şəki rayon prokuroru Mehman Xankişiyev qonaqları salamlayaraq, rayon prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi naminə görülən işlər barədə danışıb.

Mehman Xankişiyev çıxışında prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib, yaşıl dünya naminə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı yaşıl dünya üçün hüquqi tənzimləmələrdən bəhs edərək təbii resurslar və bioloji çeşidliliyin qorunması, tullantıların idarə olunması, enerji effektliliyi və alternativ enerji istehsalı, zərərli kimyəvi maddələrin idarə edilməsi kimi sahələrdə formalaşmış hüquqi strukturlar, normativ əsaslar və hüquqi məsuliyyət tədbirləri barədə məlumat verib.

Şəki rayon prokurorunun köməkçisi Amil Yaqubov çıxışı zamanı ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində Şəki rayonu ərazisində görülən tədbirlər barədə məlumat verərək bəzi statistik göstəricilərə toxunub.

Seminar zamanı iştirakçılarla faydalı fikir mübadiləsi aparılıb, ekoloji hüquqpozmalara qarşı prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

# Tacikistan prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfər edib









2022-ci il dekabrın 15-də Azərbaycan və Tacikistan Respublikasının Baş Prokurorluqları arasında imzalanmış "2023-2024-cü illər üçün Əməkdaşlıq Proqramı"nın icrası məqsədilə Tacikistan prokurorluğunun nümayəndə heyəti ölkəmizə səfər edib.

İyulun 16-da Baş prokurorun birinci müavini Elçin Məmmədov nümayəndə heyəti ilə görüşərək bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirməklə, tarixən xalqlarımız arasında münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, ölkə başçılarının siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini vurğulayıb.

Tacikistan Baş Prokurorluğunun nümayəndə heyəti üzvləri yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlıqlarını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd ediblər.



Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində "Prokurorluqda cinayət təqibindən kənar icraatların xüsusiyyətləri" mövzusunda seminar keçirilərək hər iki prokurorluğun əməkdaşları təqdimatlarla çıxış ediblər. Seminar zamanı cinayət təqibindən kənar icraatlar sahəsində Azərbaycan Prokurorluğunun fəaliyyəti barədə geniş məlumat verilərək faydalı təcrübə mübadiləsi aparılıb.

Tacikistanlı prokurorlar Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Zəfər muzeyi ilə tanış olublar.

Heyət üzvləri Heydər Əliyev Mərkəzini ziyarət edərək görkəmli dövlət xadiminin həyat və fəaliyyəti ilə tanış olub, orada yerləşən muzey və eksponatlar barədə ziyarətçilərə ətraflı məlumat verilib.

Səfər çərçivəsində qonaqlar, o cümlədən "İçərişəhər" Muzey Mərkəzinin tərkibində fəaliyyət göstərən orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi və qeyri-adi memarlıq özəllikləri ilə seçilən Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar. Paytaxtımız tarixi abidələri qonaqlarda zəngin təəssürat yaradıb.

Nümayəndə heyəti, həmçinin Şamaxı şəhərinə səfər edərək rayon prokurorluğunun fəaliyyəti və Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı bərpa edilən və yenidən qurulan tarixi Cümə məscidi, eləcə də zəngin tarixə malik şəhərin digər abidələri ilə tanış olub.



# Baş prokurorun birinci müavini Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyasını qəbul edib








Avqustun 15-də Baş prokurorun birinci müavini Elçin Məmmədov Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyasının üzvü, MDB-nin Baş katibinin müavini Nurlan Seytimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Elçin Məmmədov cari ilin sentyabrın 1-də təyin olunmuş növbədənkənar parlament seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, seçiciləri azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlərdən danışaraq, seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr və qəbul edilən qərarlar barədə ətraflı məlumat verib.

Seçki qanunvericiliyinin pozulması ilə bağlı müxtəlif mənbələrdən Baş Prokurorluğa daxil olan, habelə internet məkanı və media resurslarında aparılmış monitorinqlər nəticəsində əldə olunmuş məlumatların qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada araşdırılması, operativliyin təmin edilməsi və aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili məqsədilə Azərbaycan Respublikasının Baş prokurorunun sərəncamı əsasında İşçi qrupun yaradılması barədə qonaqlara məlumat verən Baş prokurorun birinci müavini İşçi qrupun səmərəli fəaliyyətindən bəhs edib.

Nurlan Seytimov Müşahidə Missiyasının ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını, seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olduğunu və seçkiqabağı hazırlıq prosesinin müsbət qiymətləndirdiklərini qeyd edərək bu işdə Mərkəzi Seçki Komissiyası ilə yanaşı prokurorluq orqanlarının əməyini yüksək qiymətləndirib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir





Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

Qurumun Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsi (CASC) gender strategiyasının inkişafı və həyata keçirilməsi, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin prokurorluq, mərkəzi orqanlarının nümayəndələrinin, eləcə də mütəxəssislərin CASC Şəbəkəsi üçün Gender Strategiyasının hazırlığına cəlbi məqsədilə cari ilin 19-20 avqust tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində regional görüş keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Nigar Yahyazadə təmsil edib.

İdarə prokuroru gender bərabərliyi ilə bağlı müddəaların milli qanunvericilikdə olan yeri və prokurorluq orqanlarında gender bərabərliyinin təmin edilməsi sahəsində görülmüş işlər barədə çıxış edib.



# Baş prokurorun birinci müavini ATƏT-in Müşahidə Missiyası ilə görüşüb



Avqustun 24-də Baş prokurorun birinci müavini Elçin Məmmədov ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşatinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.







Cari ilin sentyabrın 1-nə təyin olunmuş növbədənkənar parlament seçkilərində qanunvericiliyin pozulması ilə bağlı müxtəlif mənbələrdən Baş Prokurorluğa daxil olan, habelə internet məkanı və media resurslarında aparılmış monitorinqlər nəticəsində əldə olunmuş məlumatların qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada araşdırılması, operativliyin təmin edilməsi və aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili məqsədilə Azərbaycan Respublikasının Baş prokurorunun sərəncamı əsasında İşçi qrupun yaradılması barədə qonaqlara məlumat verən Elçin Məmmədov İşçi qrupun səmərəli fəaliyyəti və prokurorluq orqanlarının qarşısında duran vəzifələrdən bəhs edib.

Ditmir Buşati ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq azad seçki mühitinin və seçki ilə əlaqədar şikayətlərə vaxtında hüquqi qiymət verilməsinin önəmini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olub





Sentyabrın 2-də Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Anar Nəsibovdan ibarət





nümayəndə heyəti qardaş Türkiyə Respublikasının Ankara şəhərində "2024-2025 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak ediblər.

Mərasimdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ali Məhkəmənin sədri Ömer Kerkez, Baş prokuroru Muhsin Şentürk, digər hakim və prokurorlar iştirak ediblər.

Tədbir çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan prokurorluğun nümayəndə heyətinin rəhbəri Heydər Məmmədovu və eyni zamanda tədbirdə iştirak edən Ali Məhkəmənin nümayəndə heyətinin rəhbəri, həmin məhkəmənin sədr müavini Çingiz Əsgərovu qəbul edib.

Daha sonra prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürk və Ali Məhkəmənin sədri Ömer Kerkezlə rəsmi görüşlər keçirib, ölkələrimiz arasında hüquqi əməkdaşlığın daha da inkişaf etdirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı 29 sentyabr – 2 oktyabr tarixlərində Bakı şəhərində keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağı barədə həmkarlara məlumat verilib, tədbirə qatılacaq Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şentürklə konfrans barədə müzakirələr aparılıb. Həmçinin noyabr ayında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 tədbirinin müstəsna tarixi əhəmiyyəti və həmin mötəbər tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi mövzusunda yüksək səviyyəli plenar sessiyanın keçiriləcəyi barədə həmkarlara ətraflı məlumat verilib.



# Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib







Cari ilin 2-4 sentyabr tarixlərində Türkiyənin Ankara şəhərində MASAK, Avropa Birliyi ƏL/TMM üzrə Qlobal Təsisat və Türkiyə Respublikasının Maliyyə Monitorinqi Xidmətinin birgə təşkilatçılığı ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə kəşfiyyat məlumatlarının sübuta çevrilməsi" mövzusunda tədbir keçirilib.

Digər dövlət qurumlarının nümayəndələrinin də qatıldığı tədbirdə Baş Prokurorluğu Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru Tərlan Kərimov təmsil edib.

Tədbirdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə kəşfiyyat məlumatlarının sübuta çevrilməsi, maliyyə istintaqının həyata keçirilməsi sahəsində beynəlxalq təcrübə, maliyyə istintaqının praktiki aspektləri, maliyyə istintaqı sahəsində beynəlxalq təcrübədə geniş istifadə edilən metodologiyalar haqqında fikir mübadiləsi aparılıb.

Tədbir zamanı Tərlan Kərimov tərəfindən Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə kəşfiyyat məlumatlarının sübuta çevrilməsi təcrübəsi barədə təqdimat nümayiş etdirilib, tədbirin gündəliyində yer alan məsələlər barəsində çıxışlar edilib.

# Baş Prokurorluğun əməkdaşları Moskva şəhərində təlimdə iştirak edib



Prokurorluq orqanlarında peşə hazırlığının təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə digər ölkələrin hüquq sahəsində ali və ixtisaslaşmış təhsil müəssisələri, eləcə də hüquq mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq uğurla davam etdirilir.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Ramin Camalov və Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Zaur Əfəndiyev cari ilin sentyabr ayının 9-dan 20-dək Moskva şəhərində Rusiya Federasiyasının Prokurorluq Universitetində ixtisasartırma təlimində iştirak edib.

Rusiya, Azərbaycan, Tacikistan və Qırğızıstan prokurorluq orqanlarının 81 əməkdaşının cəlb edildiyi təlimin yekununda iştirakçılara müvafiq sertifikatlar verilib, kreativ yanaşma və peşəkarlığa görə Ramin Camalov Universitetin rəhbərliyi tərəfindən fərmanla təltif edilib.





# BMT-nin GlobE şəbəkəsinin növbəti illik tədbirinə ev sahibliyi Azərbaycana həvalə olundu












Pzərbaycan Respublikası prokurorluq orqanları tərəfindən cinayətkarlığa, o cümlədən onun ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət beynəlxalq əməkdaşlıq müstəvisində də davam etdirilməkdədir.

Bu çərçivədə cari ilin 24-27 sentyabr tarixlərində Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində Birləşmiş Millətlər Təşkilatının Antikorrupsiya Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) 5-ci Plenar Görüşü keçirilib.

Dünyanın 100-dən artıq ölkəsinin, 10-dan çox beynəlxalq təşkilatın 400-dən artıq nümayəndəsinin iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov və böyük prokuroru Əflatun Hüseynov təmsil edib.

Plenar Görüşün işi Yüksək Səviyyəli Forum, ölkə təqdimatları, yan iclaslarla davam etdirilib, təşkilatın idarəetmə orqanına seçkilər keçirilib, habelə GlobE Şəbəkəsinin 2023-cü il üzrə hesabatı, 2025-2027-ci ilər üzrə Strateji Planı və Pekin Razılaşması sənədləri müzakirə olunaraq qəbul edilib.

Tədbirin mövzusuna uyğun olaraq təqdimatla çıxış edən nümayəndələrimiz milli təcrübəyə istinad etməklə beynəlxalq təşkilatla qeyri-formal şəkildə baş tutmuş qarşılıqlı hüquqi yardımın konkret cinayət işinin ibtidai istintaqına töhfəsindən bəhs ediblər.

Daha sonra, BMT-nin "Təmiz İpək Yolu Pekin Təşəbbüsü" yanında Antikorrupsiya şəbəkəsi tərəfindən "Təşəbbüsə qoşulmuş ölkələrdə xarici investisiyanın cəlb edilməsinə təşviq edən korrupsiyasız mühitin formalaşması" mövzusunda keçirilən yan tədbirdə çıxış edən nümayəndələrimiz Azərbaycanda investisiya yönümlü biznes mühitinin daha da gücləndirilməsi istiqamətində ölkəmizdə iqtisadi islahatların antikorrupsiya tədbirləri ilə dəstəklənməsinə dair görülmüş işlər barədə iştirakçıları məlumatlandırılıb, bu məzmunda Ələt azad iqtisadi zonası haqqında Qanundan qəbul edilməsi, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə və Dövlət satınalmaları haqqında qanunların isə beynəlxalq standartlara tam cavab verən məzmunda yenilənməsi kimi nailiyyətlərdən nümunələr gətiriblər.

Həmçinin, GlobE-şəbəkəsinin Plenar görüşündə bu təşkilatın 15 üzvdən ibarət icraiyyə komitəsinə keçirilmiş seçkilər nəticəsində Natiq Eyvazov idarəçilik orqanına üzv təyin edilib.

Tədbirin sonunda BMT-nin Antikorrupsiya Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) növbəti - 6-cı Plenar Görüşünün 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə yekdilliklə qərar qəbul edilib.

# Mətbuat xidmətinin MƏLUMATLARI

**Tanışını qəsdən öldürməkdə təqsirləndirilən şəxs barəsində cinayət işi məhkəməyə göndərilib**

**02.07.2024**




Cari il martın 14-də paytaxtın Yasamal rayonu ərazisində 1992-ci il təvəllüdlü Pünhan Fərzalılının qəsdən öldürülməsi faktı ilə bağlı rayon prokurorluğunda başlanmış cinayət işinin istintaqı tamamlanıb.

İstintaqla 1999-cu il təvəllüdlü Şahlar Ağayevin rayonun Tbilisi prospekti ərazisində şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Pünhan Fərzalılıya bıçaqla xəsarət yetirməsi və sonuncunun xəstəxanaya aparılarkən yolda ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Şahlar Ağayevə Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham elan edilərək barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorunun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**# hüquqimaarifləndirmə #əməkhüquqları – Tərəflərin iradəsindən asılı olmayan hallarda əmək müqaviləsinə xitam verilməsinin əsasları (1)**

**04.07.2024**




Əmək Məcəlləsinə əsasən bu hallarda tərəflərin iradəsindən və ya istəyindən asılı olmayaraq əmək müqaviləsinə xitam verilir:

1) işçi hərbi və ya alternativ xidmətə çağırıldıqda;

2) əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda;

3) qanunvericiliklə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar işçi əmək funksiyasını yerinə yetirə bilmədikdə;

4) işçinin nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edildiyi barədə məhkəmənin hökmü qanuni qüvvəyə mindikdə;

5) məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə işçinin fəaliyyət qabiliyyətsizliyi təsdiq edildikdə;

6) işçi vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;

7) əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdə;

8) qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilmiş şəxslə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlandığı aşkar edildikdə.

**Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında təqsirli bilinən şəxslər barəsində cinayət işinin istintaqı tamamlanıb**

**15.07.2024**

Bir qrup şəxsin cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitini leqallaşdırması ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.

İstintaqla Mehraliyev İlahim Ərəstun oğlu, Alməmmədov Mehman Allahverdi oğlu və şəxsiyyətləri istintaqla araşdırılan qeyrilərinin cinayət əlaqəsinə girərək 2017-2019-cu illər ərzində rəhbərlik etdikləri fəaliyyətsiz şirkətlərə dövlət müəssisələri tərəfindən satınalma təyinatı ilə köçürülmüş 1 milyon manatdan artıq pul vəsaitini qanuni görüntü yaratmaq üçün formal əqdlər bağlamaq yolu ilə mənimsəmələrinə, bununla da cinayət yolu ilə əldə etdikləri həmin pul vəsaitini leqallaşdırmalarına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında hazırda azadlıqdan məhrumetmə növündə cəzaçəkən İlahim Mehralıyev və Mehman Alməmmədova Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə xüsusilə külli miqdarda törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma xeyli miqdarda törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib.




Şəxsiyyətləri istintaqla araşdırılan digərləri barəsində isə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İş üzrə vurulmuş maddi ziyanın istintaq dövründə tam ödənilməsi təmin edilib və cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışla bağlı istintaq tamamlanıb.**

**22.07.2024**




Cari il yanvarın 15-də paytaxtın Binəqədi rayonunda "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğınla müşayiət olunan partlayış baş verməsi faktı əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.

(https://genprosecutor.gov.az/az/post/7255)

İbtidai istintaqla ASC-nin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxslər kimi bu qaydaları ehtiyatsızlıqdan pozaraq 10 nəfərin ölümünə, 23 nəfərin isə xəsarət almasına, habelə ASC-nin ərazisində olan əmlaklara və təbiətə maddi ziyan vurmaqla digər ağır nəticələrə səbəb olmaları, həmçinin Tağı İbrahimovun xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib, onların hər ikisi barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**Baş Prokurorluq media qurumuna xəbərdarlıq edib.**

**24.07.2024**




Qanunvericiliyə əsasən vətəndaşların ailə və şəxsi həyatına aid sirr olan məlumatların, istintaq sirrinin, zorakılıq və qəddarlığı təbliğ edən və ya cinayət əməllərinə haqq qazandıran məlumatların yayılması yolverilməzdir.

Təəssüflə bildiririk ki, iyulun 24-də "oxu.az" xəbər saytı tərəfindən qanunvericiliyin tələbləri pozularaq Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə istintaq olunan cinayət işi üzrə istintaq sirrini təşkil edən, zərərçəkmiş şəxs Ayşən Kazımovaya aid şəxsi və ailə sirrini açıqlayan, habelə iş üzrə digər halları əks etdirən, qanunvericiliklə yayılması qadağan edilən məlumatların yer aldığı videogörüntü ictimailəşdirilmişdir.

Nəzərə alınmalıdır ki, Cinayət Prosessual Məcəlləsinin 222.2-ci maddəsinə əsasən, ibtidai araşdırma məlumatları jurnalistlər tərəfindən yalnız müvafiq olaraq müstəntiqin, təhqiqatçının, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi ilə ibtidai araşdırmanın maraqlarına zidd olmayan və cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həddə yayıla bilər.

Baş Prokurorluq tərəfindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun 22-ci maddəsinə əsasən "oxu.az" xəbər portalına paylaşılan həmin videogörüntülərlə bağlı rəsmi xəbərdarlıq edilmişdir.

Odur ki, media subyektlərindən cinayət işləri üzrə məlumatlar ictimailəşdirilən zaman həssaslıq nümayiş etdirməklə qanunvericiliyin tələblərinə riayət etməyi, rəsmi qurumla dəqiqləşdirmə aparmadan məlumatların yayılmasından çəkinməyi xahiş edirik.

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə Məlumatı:Daha bir ağır cinayətin üstü açılıb.**

**29.07.2024**




Prokurorluq və polis əməkdaşlarının birgə fəaliyyəti nəticəsində 2 il əvvəl ağır cinayət törətmiş şəxs ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilib.

Belə ki, Qəbələ rayonunun Böyük Əmilli kənd sakini, 1975-ci il təvəllüdlü Bəxtiyar Salahovun 25 dekabr 2021-ci il tarixdə qeyri-aşkar şəraitdə aldığı xəsarətlərdən ölməsi faktına görə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılsa da, əməli törətmiş şəxs və ya şəxsləri müəyyən etmək mümkün olmadığından iş üzrə icraat dayandırılmışdır.

Oğuz rayon prokurorluğunda cinayət işi yenidən öyrənildikdən sonra iş üzrə icraat təzələnmiş və rayon polis şöbəsinin əməkdaşları ilə birgə həyata keçirilmiş kompleks istintaq və əməliyyat tədbirləri nəticəsində Bakı şəhərində yaşayan 1973-ci il təvəllüdlü Mübariz Sultanovun arvadına qarşı xoşagəlməz ifadələr işlətməsini eşidərək Bəxtiyar Salahovu cəzalandırmaq məqsədilə sonuncunu yaşadığı evə kimi izləməsi, həyətə daxil olduqdan sonra onun sərxoş vəziyyətdə olmasından istifadə edərək dəhrə ilə xəsarətlər yetirməsi, nəticədə Bəxtiyar Salahovun növbəti gün həmin xəsarətlərdən müalicə aldığı xəstəxanada ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Mübariz Sultanov polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib, toplanmış sübutlar əsasında ona Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə ittiham elan olunaraq barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. İş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Əvvəlki illərdən bağlı qalmış bağlı qalmış cinayət işləri daim diqqət mərkəzində saxlanılmaqla cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir.

**Vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edilib**

**31.07.2024**




Astara rayonunun Kakalos Ailə Sağlamlıq Mərkəzi və Lənkəran rayon Mamusta ASM-in vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı həmin Mərkəzlərin vəzifəli şəxsləri tərəfindən vətəndaş Könül Ağayevanın guya 2016-cı ildə uşaq dünyaya gətirməsinə dair rəsmi tibbi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi, bunun əsasında sonuncunun mövcud olmayan həmin uşağa dair qanunsuz olaraq şəhadətnamə və şəxsiyyət vəsiqəsi əldə etməsi və qeyd olunan saxta sənədlərdən istifadə etməklə məhkəmə qətnaməsi əsasında xeyrinə aliment tutulmasına nail olmasına əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Astara rayon prokurorluğunda Cinayət Məcəlləsinin 313 (vəzifə saxtakarlığı) və 320.2-ci (rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda ibtidai istintaq davam etdirilir.

**Laçın rayonunda mina hadisəsi baş verib.**

**03.08.2024**




Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətləri məlumat verir ki, işğaldan azad edilmiş Laçın rayonunun Kalafalıq kəndi ərazisində avqust ayının 3-də mina hadisəsi baş verib.

Laçın rayonunun Vağazin kənd sakini 1960-cı il təvəllüdlü Süleymanov Əli Zeynalabdin oğlu həmin rayonun Kalafalıq kəndi ərazisində Sarıbaba adlı yüksəkliyin otlaq sahəsində heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb.

Hadisə nəticəsində Süleymanov Əli sol ayağından xəsarət alıb.

Faktla bağlı Laçın rayon prokurorluğunda araşdırma aparılır.

Baş Prokurorluq, DİN və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

**# hüquqibilikləriniartır – “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Qanunda dəyişikliklər edilib.**




**06.08.2024**

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib. Dəyişikliyə əsasən, qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən komissiyalar tərəfindən “Müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların məhv edilməsi Qaydası”na və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

Bundan əlavə, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” 5 avqust 2024-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsini həyata keçirən komissiyaların tərkibinə nümayəndələri daxil edilmiş Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən orqanların (qurumların) siyahısı verilmişdir.

https://president.az/az/articles/view/66618

https://president.az/az/articles/view/66619

**#hüquqimaarifləndirmə #ekologiyahüququ – Yaşıllıqların bərpa dəyəri**




**06.08.2024**

Yaşıllıqların mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən şəhərlərin, digər yaşayış məntəqələrinin və infrastruktur obyektlərinin hüdudları daxilində lazımi ekoloji, mədəni-sağlamlaşdırma, landşaft və məkan görünüşü baxımından əhəmiyyət daşıyan, təbii halda mövcud olan və ya süni yaradılan ağac, kol, gül-çiçək və ot bitkilərinin toplumu yaşıllıqlar hesab olunur.

Yaşıllıqların bərpa dəyəri dedikdə yaşıllıqların salınmasına, becərilməsinə və mühafizəsinə çəkilən xərclər də daxil olmaqla, yaşıllıqların zədələnməsi, məhv edilməsi və götürülməsi (kəsilməsi) zamanı onların dəyərinin müəyyən edilməsi üçün aparılan qiymətləndirmə başa düşülür.

Yaşıllıqların götürülməsi (kəsilməsi), zədələnməsi və ya məhv edilməsi zamanı onların bərpa dəyərinin hesablanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq bu bitkilərin cinsi, növü, yaşı və digər keyfiyyət göstəriciləri nəzərə alınmaqla, həmin tarixə olan bazar qiymətləri əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilir.

Aşağıdakı hallarda yaşıllıqların götürülməsinə görə bərpa dəyəri ödənilmir:

1. şəhərsalma və tikinti qaydalarına zidd olaraq əkilmiş ağaclar yaşayış və qeyri-yaşayış binalarında işıqlanma (inşaat fizikası) rejimini pozduqda;
2. ağac və kol bitkiləri olan sahədə sanitar qırma işləri (qurumuş, müalicəsi mümkün olmayan xəstə ağac və kol bitkilərinin kəsilməsi və sair) aparıldıqda;
3. texnogen və ya təbii xarakterli fövqəladə hallar (ekoloji fəlakət) baş verdikdə və onların nəticələri aradan qaldırıldıqda.

Dövlət və bələdiyyə mülkiyyətində olan yaşıllıqların bərpa dəyərini təşkil edən vəsait müvafiq olaraq ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna və bələdiyyə büdcəsinə ödənilir.

Yaşıllığın götürülməsi ilə əlaqədar torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin götürülən yaşıllığa çəkdiyi xərc yaşıllıqların bərpa dəyəri hesablanarkən nəzərə alınır və həmin vəsait onlara ödənilir.

### Xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir

**28.08.2024**




«Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Bolayev Fərid Rəşidoviç, Xəlilov Səməndər Sarif oğlu, Babayev Pənah Əhliman oğlu və Məşədiyev İlham Qabil oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Həmin şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlar qəbul edilib və istintaqdan qaçıb gizləndiklərinə görə onlar beynəlxalq axtarışa veriliblər.

Qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq 23.08.2024-cü il tarixdə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

### “Respublika Perinatal Mərkəzi” PHŞ-də baş vermiş yanğınla bağlı başlanan cinayət işinin istintaqı tamamlanıb

**10.09.2024**



Yanvarın 9-da “Respublika Perinatal Mərkəzi” PHŞ-nin inzibati binasında baş vermiş yanğınla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb. (https://genprosecutor.gov.az/az/post/7192)

İstintaqla müəyyən olunub ki, Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin Yenidoğulmuşların intensiv terapiya bölməsinin yerləşdiyi dördüncü mərtəbədəki palatasında baş vermiş yanğın nəticəsində 7 yenidoğulmuş ölüb, 4 nəfər xəsarət alıb, müəssisəyə isə ümumilikdə 361 min manat məbləğində maddi ziyan vurulub.

Bundan başqa, Mehriban Abasquliyevanın 27 dekabr 2022-ci il tarixdə Mərkəzin direktoru təyin edilməsindən sonra müəssisənin tibbi təminat resursları və potensialını nəzərə almadan xəstə qəbulu sayını iki dəfəyədək artırması nəticəsində müəssisənin elektrik təsərrüfatının artıq yüklənərək sonda yanğına səbəb olmasına əsaslı şübhələr müəyyən edilib. Eyni zamanda istintaqla, Fövqəladə Hallar Nazirliyi tərəfindən Mərkəzdə yoxlamalar aparılaraq yanğın təhlükəsizliyi qaydaları, xüsusən də, mövcud avtomatik yanğın xəbərverici siqnalizasiya qurğusunun nasazlığı, daxili yanğın su kranlarının işlək olmaması və elektrik təsərrüfatında nöqsanların olması Mərkəzin rəhbərliyinə bildirilsə də, direktor və Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapeya şöbəsinin müdiri Hamlet Mustafayev və Dəstək Xidmətləri şöbəsinin müdiri Elnur Əhmədlinin nöqsanları aradan qaldırmamalarına əsaslı şübhələr müəyyən edilib.

Mərkəzin direktoru vəzifəsində işləmiş Mehriban Abasquliyeva Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri, həmin mərkəzin şöbə rəisləri vəzifəsində işləmiş Hamlet Mustafayev və Elnur Əhmədli isə Cinayət Məcəlləsinin 225.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrlə nəzərdə tutulan ittiham elan edilib.

Sentyabrın 9-da iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

### 'Xarici ölkələrdə işlə təmin etmək adı altında vətəndaşların külli miqdarda pulunun ələ keçirilməsi faktı üzrə cinayət işi başlanıb.

**16.09.2024**

“Tempo Trips” və “365 Tourism" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş çoxsaylı vətəndaş müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Araşdırma zamanı həmin şirkətlərin vəzifəli şəxslərinin qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək xarici ölkələrdə işlə təmin edilmək məqsədilə onlara müraciət etmiş çoxsaylı vətəndaşlara yalan vədlərin verilməsi yolu ilə sonuncuların külli miqdarda  pul vəsaitini qanunsuz olaraq ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.




Fakta görə Baş İdarədə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmaqla ibtidai istintaq aparılır.

Qeyd edilən şəxslərin qanunazidd əməllərinə məruz qalmış vətəndaşlardan Baş Prokurorluğun "961" Çağrı mərkəzinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə, eləcə də sosial şəbəkələrdəki səhifələrinə müraciət etmələri xahiş olunur.

**Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən vətəndaş Damət Ağayevin şikayəti ilə bağlı açıqlama**

**19.09.2024**




Sentyabrın 19-da bəzi sosial media səhifələrində Ağayev Damət Ağakişi oğlunun prokurorluq orqanlarına ünvanladığı şikayətinə baxılmamasına dair məlumatlar yayılmışdır.

Bildirilir ki, vətəndaş Damət Ağayevin "Aslan" Mənzil Tikinti Koperativinin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinə dair 2018-ci ildən etibarən etdiyi müraciətləri əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmışdır.

Belə ki, vətəndaş Lalə Dünyamalıyeva 10 iyun 2006-cı il tarixli müqavilə əsasında "Aslan" MTK-dan mənzil almış, 2018-ci ildə nikaha daxil olduqdan sonra əri Damət Ağayev həmin MTK-nın vəzifəli şəxsləri barədə prokurorluq orqanlarına müraciət ünvanlamış və ərizədə göstərilən hallar yoxlanılarkən şikayətin mülki xarakterli olması müəyyən edilmişdir.

Eyni zamanda müəyyən edilmişdir ki, Damət Ağayevin həmin xüsusatlarla bağlı mülki iddiasına Bakı şəhəri Yasamal Rayon Məhkəməsində baxılmış və Məhkəmənin 29 mart 2018-ci il tarixli qətnaməsi ilə iddiası təmin olunmamışdır.

Bundan başqa, ötən müddət ərzində Damət Ağayev Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 6 dəfə, Baş Prokurorluq və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəhbərliyi və digər əməkdaşları tərəfindən isə dəfələrlə qəbul edilərək dinlənilmiş, şikayətində göstərdiyi hallar yoxlanılaraq ona aidiyyəti üzrə məhkəməyə müraciət etmək hüququnun olması izah olunmuş, buna baxmayaraq o, prokurorluq orqanlarının fəaliyyətinə aid olmayan məsələlərlə müraciətlərini davam etdirmiş və qəbullar zamanı qurumun iş fəaliyyətini pozmağa cəhd etmişdir.

Odur ki, vətəndaş müraciətləri ilə bağlı məsələlər dərc olunarkən həssaslıq nümayiş etdirilməklə rəsmi dövlət qurumları ilə dəqiqləşdirmə aparılması xahiş olunur.

**Prokurorluq orqanlarında gender bərabərliyi nəzərə alınmaqla gənc, peşəkar və savadlı kadrların komplektləşdirilməsi həyata keçirilir**




Baş prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən, Bakı şəhəri Nizami rayon prokurorunun müavini Günay Məmmədli Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Günay Məmmədli 2011-ci ildə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa qəbul olunub. O, əvvəllər Füzuli və Nizami rayon prokurorunun köməkçisi, Bakı şəhər prokurorluğunda idarə prokuroru, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə prokuroru vəzifələrində işləyib.

Baş prokurorun digər əmri ilə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə prokuroru Gülüstan Abdullayeva Bakı şəhəri Nizami rayon prokurorunun müavini vəzifəsinə təyin olunub.

2002-ci ildə prokurorluq orqanlarında müsabiqə yolu ilə qulluğa qəbul olunan Gülüstan Abdullayeva əvvəllər Sumqayıt şəhər və Yasamal rayon prokurorluqlarında müstəntiq və prokuror köməkçisi, Bakı şəhər prokurorluğunda idarə və şöbə prokuroru, Baş Prokurorluqda idarə prokuroru vəzifələrində işləyib.

Bununla da, prokurorluq orqanlarında rəhbər vəzifədə çalışan qadın əməkdaşların sayı 11-ə çatıb.

Prokurorluq orqanlarında gender bərabərliyi nəzərə alınmaqla gənc, peşəkar və savadlı kadrların komplektləşdirilməsi bundan sonra da həyata keçiriləcək.

# Prokurorluq orqanları dövlətçilik maraqlarında

**Əminəm ki, Azərbaycan Prokurorluğunun əməkdaşları bundan sonra da qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edəcək, cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq nümayiş etdirəcək və onların üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı*

Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir. Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən bir qurum kimi formalaşması ölkəmizdə həyata keçirilən köklü islahatların, o cümlədən, məhkəmə-hüquq islahatlarının memarı olan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur. Azərbaycan prokurorluq orqanlarının əsasının formalaşması, inkişafı, onun dövlətçiliyin maraqlarına, qanunun aliliyinin, insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.



Məhz Ümummilli Liderin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilmiş və dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Dahi rəhbərin prokurorluğa olan diqqət və qayğısının davamı hesab edilən 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i Respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Həmin təntənəli yığıncaqda Ulu Öndərin "mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" sözləri bu gün də hər bir prokurorluq işçisi tərəfindən iftixar hissi ilə yad edilir və bu etimadın doğrulması üçün əzmlə çalışılır.

Prokurorluğun hüquq sistemindəki yerinin və rolunun daha da gücləndirilməsində "Prokurorluq haqqında" Qanunun qəbulu, yeni Cinayət, Cinayət-Prosessual Məcəllələrinin, o cümlədən digər yeni məcəllələrin qüvvəyə minməsi, 2002-ci ildə keçirilmiş referendumla prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi də müstəsna əhəmiyyətə malik olmuşdur.

İnsan hüquq və azadlıqlarının qorunmasını ali vəzifə kimi qarşıya qoyan Ulu Öndər tərəfindən atılan humanist addımlar Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu gün də davam etdirilir. Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçiliyin əsas sütunlarından biri kimi qəbul edilən Azərbaycan Prokurorluğuna olan böyük etimad və inam cənab Prezident İlham Əliyev tərəfindən daha da artırıldı. Cənab İlham Əliyevin fəaliyyətinin əsas prioritetlərindən biri məhz hüquqi dövlətçiliyin qorunması, insan hüquqlarına müdafiəsidir. Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ənənəni bu gün də layiqincə davam etdirir və prokurorluq orqanları əməkdaşlarından diqqətini, qayğısını və dəstəyini əsirgəmir, dövlətimiz tərəfindən bu orqanın normal fəaliyyəti üçün zəruri təminatlar yaradılması istiqamətində məqsədyönlü işlər görülür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müasir dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları baxımından 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsində xüsusi önəm daşımışdır.

Ölkə başçısının 1 may 2020-ci il tarixli sərəncamı ilə cənab Kamran Əliyevin Azərbaycan Respublikasının Baş Prokuroru təyin edilməsi Azərbaycan Prokurorluğunun inkişafında məhz yeni mərhələnin başlanğıcı olmuş, cənab Prezident tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsini zərurəti vurğulanmaqla prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuş, həmin vəzifələrin və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə geniş Fəaliyyət Planı təsdiq olunaraq görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmiş, çoxsaylı tədbirlər həyata keçirilmişdir. Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında "İşin Təşkili Qaydaları" təsdiq olunmuş və 01 avqust 2020-ci il tarixdən etibarən bütün prokurorluq orqanlarında qüvvəyə

minməsi ilə qurum üzrə 100 dən artıq əmr və normativ xarakterli digər sənədlər tam və ya qismən ləğv olunmuşdur.

Qısa müddət ərzində beynəlxalq təşkilatlarla əməkdaşlıq gücləndirilmiş, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 2021-ci ildə keçirilmiş iclası zamanı 2024-cü ilin sentyabr ayında təşkilatın 29-cu illik konfransı və ümumi yığıncağının Bakı şəhərində keçirilməsi nəzərdə tutulmuşdur. Bundan başqa Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış beynəlxalq qurumlarla əməkdaşlıq yüksək səviyyədə həyata keçirilmişdir.

Bu ilin noyabr ayında ölkəmizin dünyanın ən böyük və mühüm beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi cənab Prezident İlham Əliyevin növbəti təntənəli




qələbəsidir. Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi ilə bağlı qəbul edilmiş qərar məhz Azərbaycan dövlətinə və dövlət başçısına göstərilən böyük hörmət və etimadın nəticəsidir. Konfransın yüksək səviyyədə keçirilməsi ölkəmizin və xalqımızın növbəti uğuru olacaqdır. Şübhəsiz bu istiqamətdə prokurorluq orqanları da öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəkdir. Sentyabr ayında Bakıda keçiriləcək cənab baş prokuror Kamran Əliyevin vitse-prezidenti olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu konfransında müzakirə olunacaq əsas mövzulardan biri məhz dünya prokurorları arasında hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə tədbirləri barədə olacaqdır.

2024-cü ilin ölkəmizdə “Yaşıl Dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar keçirilən kompleks tədbirlərin tərkib hissəsi kimi Baş Prokurorluğun təşkilatçılığı ilə ölkənin müxtəlif regionlarında təmizlik və ağacəkmə aksiyaları keçirilmiş, prokurorluq orqanlarının struktur qurumlarının əməkdaşları həmin tədbirlərdə fəallıqla iştirak etmişdir.

Xüsusilə qeyd etməliyik ki, Ulu Öndərin arzu və istəkləri, dövlət quruculuğu ilə bağlı ideyaları və əsasını qoyduğu islahatlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44




günlük İkinci Qarabağ müharibəsində düşmən üzərində qazanılan şanlı Zəfərlə nəticələndi. İşğaldan azad edilmiş əzəli torpaqlarımız cənab Prezidentin müasir inkişaf konsepsiyası əsasında yenidən qurulur. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 1 aprel 2021-ci il tarixli “İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında” Sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması, o cümlədən qısa zaman kəsiyində müasir tələblərə cavab verən Qubadlı və Kəlbəcər Hərbi Prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsi də mühüm əhəmiyyət kəsb etmişdir.

O cümlədən, qürurverici faktlardan biri də odur ki, 2023-cü ilin 19 sentyabrında başlayaraq 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın Qarabağ bölgəsindəki suveren hüququ tam bərpa olunmuşdur. Cənab Prezident İlham Əliyev tərəfindən 04 may 2024-cü il tarixdə Xankəndi Şəhər Prokurorluğunun yaradılması barədə sərəncam verilmiş və qısa müddət ərzində 24 iyun 2024-cü il tarixdə cənab baş prokuror Kamran Əliyevin iştirakı ilə yeni inzibati binanın açılışı olmuş və istifadəyə verilmişdir.

Həmçinin, ölkə başçısının 7 may 2021-ci il tarixli fərmanı ilə "Elektron Prokurorluq" İnformasiya Sisteminin yaradılması, həmin sistemin 1 avqust 2024-cü il tarixdə yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə inteqrasiyası prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində mühüm addım olmuş, prokurorluq orqanlarının öz arasında, eyni zamanda digər dövlət orqanları ilə sənəd dövriyyəsinin aparılmasında vaxt itki-



sinin minimuma endirilməsinə səbəb olmuşdur. Bütün prokurorluq orqanlarında olduğu kimi Nəsimi rayon prokurorluğunda da əməkdaşlar tərəfindən "Elektron Prokurorluq" İnformasiya Sistemindən istifadə tam şəkildə mənimsənilmiş, cinayət işlərinin, cinayət xarakterli və inzibati materiallarının, ərizələrin sistemə yerləşdirilməsi, müvafiq sənəd mübadiləsinin həmin sistemdə həyata keçirilməsi təmin edilmişdir.

Aparılmış kadr islahatları prokurorluq orqanları sahəsində yeniliyin əsası olmuş, islahatlar nəticəsində Baş Prokurorluğun kadr tərkibinin əksər hissəsi, o cümlədən bütün struktur qurumların rəhbərliyi dəyişdirilmiş, rəhbər vəzifələrə təşkilatçılıq və yüksək peşə hazırlığına malik olan, təşəbbüskar, dövlətçilik ənənələrinə sadiq işçilərin, əsasən də müasir dünyagörüşlü gənclərin irəli çəkilməsinə xüsusi diqqət yetirilmişdir.

Məhz Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli kadr islahatları prosesində qulluğa qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi kadr korpusunun formalaşmasının ən demokratik və mütərəqqi vasitəsi kimi müstəsna əhəmiyyət kəsb edir.

Gənclərin cəmiyyətdə layiqli yer tutmasını, onlara hərtərəfli diqqət və qayğının göstərilməsinin nəticəsidir ki, Ulu Öndərin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında 2002-ci ildən başlayaraq prokurorluq orqanlarına qulluğa qəbul ilə bağlı 25 müsabiqə keçirilmişdir. Həmin müsabiqələrin nəticəsində uğur qazananların sayı hazırda prokurorluq işçilərinin 89.1 faizini təşkil edir. Prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan vermişdir. Məhz Nəsimi rayon prokurorluğunun əməkdaşları da yüksək nəticə əldə edərək həmin müsabiqələrdən müvəffəqiyyətlə keçib qulluğa qəbul olan şəxslər sırasındandır.

Prokurorluq orqanlarının qarşısında duran əsas vəzifələrdən biri də məhz vətəndaş məmnunluğunun təmin edilməsi, pozulmuş hüquq və azadlıqların bərpası və müdafiə olunmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılır, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür. Məhz bunun əsas nümunəsidir ki, Baş prokuror cənab Kamran Əliyev mütəmadi olaraq rayon, şəhər prokurorluğunda vətəndaşları qəbul edərək onların problemlərinin həll olunması istiqamətində müvafiq göstərişlərini verir.

09 avqust 2024-cü il tarixdə Nəsimi rayon prokurorluğunun inzibati binasında Nəsimi rayonu və digər bölgələrdən olan vətəndaşların qəbulu keçirilmiş, qəbulda iştirak edən 55 nəfər vətəndaşın müraciətində cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntularına dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilmişdir.

Rayon prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək, rayon ərazisində vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin təmin etməyə çalışır, prokurorluqda qəbul günləri keçirməklə, eyni zamanda rayon icra hakimiyyətində, yerlərdə, təhsil müəssisələrində əhali ilə görüş keçirməklə onların hüquqi sahədə maarifləndirilməsi və bu sahədə yaranmış suallarının cavablandırılması, problemlərinin yerində həll edilməsi ilə cinayətkarlığa qarşı mübarizə aparır.

Bu gün prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirilməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.



Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir".

Odur ki, bu gün hər bir prokurorluq, o cümlədən Nəsimi rayon prokurorluğunun əməkdaşları xidməti vəzifələrini layiqincə icra etməsi üçün əzmlə çalışır. Prokurorluq əməkdaşları Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı müdrik rəhbər İlham Əliyevin dövlətçilik, qanunçuluq, vətənpərvərlik, humanistlik və milli maraqlara xidmət edən digər ənənələrinə daim sadiq qalacaqlar.

**Xanım Əşrəfova,**
**Nəsimi rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas**

# Prokurorluğun fəaliyyət sahələrində nailiyyətlər

**Ədalət şəxsiyyət, cəmiyyət və dövlətin, həmçinin hüquqi münasibətlərdə iştirak edənlərin maraqları arasındakı tarazlığı müəyyənləşdirir, bərabərlik və azadlıq ideyalarını əks etdirir. Qədim yunan filosofu və ensiklopediyaçı alimi Aristotel ədalətin iki növünü bölüşdürücü və bərabərləşdirici kimi fərqləndirmişdir. Aristotel bərabərləşdirici ədalətə cəzalarda ədalətli qiymətləndirmə cinayət nəticəsində vurulmuş zərərə adekvat olan ölçünü tapmaqla, cəzanın qaçılmazlığı – cinayətin kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq cəzanın verilməsi kimi anlayış vermişdir. Ədalətli cəmiyyətin yaranması üçün insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi başlıca rol oynayır.**



Cinayətkarlıqla mübarizə sahəsində görülən əsas tədbirlər kimi cinayətkarlığın, yəni müəyyən növ cinayətlərin və konkret cinayətin səbəb və şəraiti öyrənilərək həmin istiqamətlər üzrə profilaktik tədbirlərin görülməsi və cinayət törətmiş şəxslərin əməllərinə uyğun ədalətli cəzaların təyin edilməsi hesab olunur. Prokurorluğun geniş səlahiyyətləri cinayətkarlığın profilaktikasının subyekti kimi, həm də bu orqanın fəaliyyətinin spesifikliyini müəyyən edir. Prokurorluq cinayətkarlığın qarşısının alınmasında təkcə özünün bilavasitə funksiyalarının yerinə yetirməklə kifayətlənmir, həm də prokurorluq təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətlərində qanunlara riayət edilməsi üzərində nəzarəti həyata keçirməklə profilaktik funksiyasını həyata keçirir.

Müasir Azərbaycan Respublikası Prokurorluğunun əsas fəaliyyət istiqamətlərindən olan qanunların icrasına və tətbiq olunmasına nəzarət, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində tabe rayon (şəhər) prokurorluqlarının mühüm rolu olmuşdur. 2020-2024-cü illər ərzində Mingəçevir şəhər prokurorluğu tərəfindən şəhər ərazisində cinayətkarlığın dinamikasına müsbət təsir göstərən, cəmiyyətdə ədalətin bərqərar olmasına şərait yaradan və insanların təhlükəsiz mühitdə yaşamasının təmin edilməsinə dair əsaslı tədbirlər həyata keçirilmiş və şəhər sakinlərinin maariflənməsində, onlara hüquqi yardımın göstərilməsində, cinayət prosesini həyata keçirən orqanlar tərəfindən proses iştirakçılarının hüquqlarının qorunmasında, həmçinin, törədilmiş və ya törədiləcək cinayətlər barəsində məlumat daxil olarkən dərhal zəruri tədbirlər görülməsi istiqamətində fəaliyyət göstərmişdir.

Mingəçevir şəhər prokurorluğunda istintaqı aparılan cinayət işləri üzrə istintaq zamanı cinayətləri doğuran səbəb və şəraitin aşkar edilərək ümumiləşdirmələr aparılmış və həmin səbəb və şəraitlərin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, cinayətin törədilməsinə şərait yaradan hallar aşkar edildikdə həmin halların təkrarlanmaması və gələcəkdə analoji cinayətlərin törədilməməsi üçün aidiyyəti üzrə müvafiq dövlət qurumlarına Mingəçevir şəhər prokurorluğu tərəfindən təqdimatlar verilmişdir. Bunun nəticəsində, 2021-ci ilə nisbətdə 2022-ci il ərzində vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə və ya israf etmə ilə bağlı cinayətlər 2023-cü ilin I yarimilinə nisbətdə 2024-cü ilin I yarimili ərzində korrupsiya cinayətlərində azalma müşahidə edilmişdir. 2023-cü il ərzində Mingəçevir şəhəri ərazisində baş vermiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin səbəb və şəraiti prokurorluq əməkdaşları tərəfindən öyrənilərək aidiyyəti üzrə Mingəçevir ŞPŞ-nin DYPB-nə təqdimat verilmiş və həmin bölmənin əməkdaşları ilə əməliyyat iclasları keçirilmişdir. Görülmüş işlər nəticəsində Mingəçevir ŞPŞ-nin DYPB-nin əməkdaşları tərəfindən şəhər sakinləri arasında profilaktik və digər tədbirlər həyata keçirilmişdir. Bunun nəticəsi kimi, 2023-cü ilin I yarimilinə nisbətdə 2024-cü ilin I yarimili ərzində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verməmişdir.

2020-ci il sentyabr ayının 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törədikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə

qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası Ordusunun həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımız azad olunmuşdur. İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən Dördüncü Cenevrə Konvensiyasının müddəaları pozularaq mülki əhali hədəfə alınmış, cəbhə ərazisindən kənarda yerləşən bir sıra şəhər və rayonlara raket hücumları edilmişdir. Mingəçevir şəhərində yerləşən strateji obyektləri nəzərə alaraq, Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən müharibə dövründə şəhər ərazisinə dəfələrlə raketlər atılmışdır. Raket hücumları baş verdikdən dərhal sonra Mingəçevir şəhər prokurorluğunun əməkdaşları tərəfindən həmin ərazilərə baxış keçirilmiş, gələcəkdə dəymiş maddi ziyanın Ermənistan Respublikasından tələb edilməsi məqsədi ilə maddi ziyan siyahıya alınmış, zərbə endirilən raketlərin növünü müəyyən etmək üçün məhkəmə-ballistik ekspertizaları təyin olunmuş və digər təxirəsalınmaz istintaq hərəkətləri keçirilməklə material toplanılaraq Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən törədilən cinayət faktlarına görə başlanılmış cinayət işinə əlavə edilərək baxılması üçün aidiyyəti üzrə göndərilmişdir. Bununla da, Mingəçevir şəhər prokurorluğu tərəfindən Ermənistan Respublikası silahlı qüvvələrinin törətdiyi xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında və həmin cinayətləri törədən subyektlərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün əhəmiyyətli işlər görülmüşdür.



Mingəçevir şəhəri ərazisində 2020-2024-cü illər ərzində törədilən və cəmiyyətdə ictimai rezonans doğuran cinayət hadisələri baş vermişdir. Bu qəbildən olan cinayət işlərinin bəziləri digər istintaq orqanlarında aparılsa da, prokurorluğun əsas funksiyalarından olan ibtidai araşdırma zamanı prosessual nəzarət funksiyası Mingəçevir şəhər prokurorluğu tərəfindən yüksək səviyyədə həyata keçirilmiş və bunun nəticəsində cinayət törətmiş şəxslərə layiqli cəzanın təyin edilməsi istiqamətində lazımi tədbirlər görülmüşdür. Belə cinayət hadisələrindən biri olan 2020-2023-cü illər ərzində Anar İsmayılovun (ad şərti olaraq qeyd olunmuşdur) öz ovladı Günel İsmayılovaya (ad şərti olaraq qeyd olunmuşdur) qarşı dəfələrlə seksual xarakterli zorakı hərəkətlər etməsi olmuşdur. Belə ki, Anar İsmayılov (ad şərti olaraq qeyd olunmuşdur) qızının həm 14 yaşına çatmadığı dövr ərzində, həm də 14 yaşına çatdıqdan sonra köməksiz vəziyyətindən istifadə etməklə və ona qarşı zor tətbiq etmə hədəsi ilə müşayiət olunan hərəkətlərlə təkrarən seksual xarakterli digər zorakılıq hərəkətləri etmişdir. Cinayət əməli barəsində məlumat daxil olduqdan dərhal sonra keçirilmiş zəruri əməliyyat-istintaq tədbirləri nəticəsində cinayətin üstü isti izlərlə açılmışdır. Cinayət işinin istintaqı zamanı təyin edilmiş məhkəmə psixiatrik və psixoloji ekspertiza nəticəsində müvafiq rəy alınmış, həmin rəydə ekspert tərəfindən Günel İsmayılovanın (ad şərti olaraq qeyd olunmuşdur) baş verən hadisə zamanı öz hərəkətlərini ölçüb-biçmək və ona rəhbərlik etmək iqtidarında olması nəticəsinə gəlinmişdir. Lakin, Mingəçevir şəhər prokurorluğu öz sərt mövqeyini göstərərək zərərçəkmiş şəxsin köməksiz vəziyyətdə olduğunu sübut etmək məqsədi ilə cinayət işi öyrənilmiş, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən şəhər prokurorluğu tərəfindən cinayət işi üzrə istintaq aparan aidiyyəti istintaq orqanının müstəntiqinə verilmiş əsaslı göstərişlər əsasında işin halları tam araşdırılmış, iş üzrə keçirilmiş istintaq hərəkətləri ilə Günel İsmayılovanın (ad şərti olaraq qeyd olunmuşdur) köməksiz vəziyyətdə olduğu sübut olunmuşdur. Cinayət əməli törətmiş şəxsə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.3.3-cü maddəsi ilə ittiham elan edilərək iş baxılması üçün ittiham aktı ilə birlikdə aidiyyəti üzrə məhkəməyə göndərilmişdir. Beləliklə, ibtidai araşdırmaya



üsulla verilmiş "Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamələr" əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən çıxarış və torpaq sahəsinin plan və ölçüsü sənədi verilmişdir. Belə ki, aparılmış istintaq zamanı müəyyən edilmişdir ki, Mingəçevir şəhər sakini Mustafayev Elgiz Abdüləli oğlu 3 nəfər vətəndaşın adına "Torpağın mülkiyyətə verilməsinə dair" saxta şəhadətnamələr hazırlamış, həmin şəhadətnamələr çıxarış verilməsi üçün Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsinə təqdim edilmiş, qeyd olunan şəhadətnamələrin baza məlumatları və arxiv sənədləri olmadığına görə həmin şəhadətnamələr əsasında çıxarış və torpaq sahəsinin plan və ölçü sənədlərinin verilməsindən imtina edilmişdir. Lakin, bunu qabaqcadan bilən Mustafayev Elgiz Abdüləli oğlu əvvəlcədən planlaşdırdığı şəkildə verilmiş imtina məktubundan Şəki İnzibati-iqtisad (hazırda Şəki İnzibati) Məhkəməsinə şikayət ərizəsi ilə müraciət edilməsini təşkil etmiş, və nəticədə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsinin üzərinə həmin şəhadətnamələr əsasında çıxarış və torpaq sahəsinin plan və ölçüsü sənədinin verilməsi öhdəliyinin qoyulması barədə məhkəmə qərarının alınmasına nail olunmuşdur. Həmin qərar Apellyasiya məhkəməsinin və Ali Məhkəmənin müvafiq qərarları ilə qüvvədə saxlanıldıqdan sonra Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsi məhkəmə qərarını icra edərək hər 3 şəxsə xüsusi mülkiyyət hüququnu təsdiq edən çıxarış və torpaq sahəsinin plan və ölçüsü sənədini vermişdir. Mingəçevir şəhər prokurorluğunda aparılan istintaqın gedişatında həmin şəhadətnamələrin saxta imza və möhürlə təsdiq olunması müəyyən edilmiş, həmin şəhadətnamələrin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin elektron məlumat bazasında olmaması müəyyən edilmiş, o cümlədən, qeyd olunan şəhadətnamələrin hazırlanmasında istifadə olunan möhür klişeləri aşkar edilərək götürülmüşdür. İstintaqın nəticəsinə dair qeyd olunan saxta şəhadətnamələri hazırlayan Mustafayev Elgiz Abdüləli oğlu CM-in 178.2.1 178.2.4 188.1 32.4 312.1 320.1 və 320.2-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək barəsində istintaqı aparılan cinayət işi ittiham aktı ilə birlikdə məhkəməyə göndərilmiş, habelə qeyd ol-

prosessual rəhbərliyi həyata keçirən Mingəçevir şəhər prokuroru tərəfindən verilən göstərişlərin nəticəsində müstəntiq ekspert rəyini əsas götürməmiş, əlavə istintaq hərəkətləri aparmış, Günel İsmayilovanın (ad şərti olaraq qeyd olunmuşdur) cinayət törədilən zaman atası tərəfindən ona qarşı edilən hərəkətlərin dərk etmədiyini sübut etmiş və bununla da, Anar İsmayılova (ad şərti olaraq qeyd olunmuşdur) ədalətli cəza təyin edilməsi üçün ona törətdiyi əmələ uyğun ittiham elan edilmiş və aidiyyəti məhkəmə tərəfindən ona 16 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir.

Mingəçevir şəhər prokurorluğunun cəmiyyətin və dövlətin mənafelərinin qorunmasında mühüm rolu olmuş və həmin sahədə cinayətkarlıqla mübarizə kəskin şəkildə aparılmışdır. Bu qəbildən olan cinayət işlərindən biri olan Mingəçevir ŞPŞ-də istintaqı aparılan cinayət işi üzrə 2018-2019-cu illər ərzində bir qrup vətəndaşa verilmiş "Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamələr" əsasında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Mingəçevir şəhəri ərazisində bir qrup şəxsə xüsusi mülkiyyət hüququnu təsdiq edən çıxarış, habelə torpaq sahəsinin plan və ölçüsü sənədinin verilməsi hallarının baş verməsinə əsaslı şübhələr edildiyindən həmin cinayət işi üzrə istintaqın şəhər prokurorluğunda davam etdirilməsi üçün iş Mingəçevir ŞPŞ-dən alınaraq icraata götürülən iş olmuşdur. Mingəçevir şəhər prokurorluğunda aparılan istintaqın gedişatında yaranmış şübhələr təsdiqini tapmış və müəyyən edilmişdir ki, Mingəçevir şəhər sakini olan 3 nəfər vətəndaşa saxta

unan şəhadətnamələr əsasında verilmiş çıxarış və torpaq sahəsinin plan və ölçü sənədlərinin etibarsız sayılması ilə bağlı yeni açılmış hallar ilə əlaqədar Şəki İnzibati Məhkəməsinə iddia qaldırılması üçün Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə göstəriş xarakterli məlumat verilmişdir. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsinin tərəfindən qeyd olunan saxta şəhadətnamələr əsasında verilmiş çıxarışların və torpaq sahəsinin plan və ölçüsü sənədlərinin etibarsız hesab edilməsi ilə bağlı Şəki İnzibati Məhkəməsində 3 iddia qaldırılmış və hər bir iddia təmin olunaraq verilmiş 3 çıxarış və torpaq sahəsinin plan və ölçü sənədlərinin etibarsız hesab edilməsi barədə məhkəmə tərəfindən Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin üzərinə vəzifə qoyulmuşdur. Nəticədə, məhkəmənin qərarları icra olunaraq göstərilən çıxarış və sənədlər Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən etibarsız hesab edilmişdir. Qeyd olunmalıdır ki, həmin 3 çıxarışın etibarsız hesab edilməsi ilə bağlı Mingəçevir şəhər İcra Hakimiyyətinin və Mingəçevir Bələdiyyəsinin vəzifəli şəxsləri tərəfindən müxtəlif aidiyyəti orqanlara, o cümlədən, məhkəmə instansiyalarına əvvəllər müraciət olunsa da, Mingəçevir şəhər prokurorluğu tərəfindən qeyd olunan saxtakarlıq faktı aşkar olunanadək həmin çıxarışların ləğv edilməsi məsələsinə baxılmamışdır. Mingəçevir şəhər prokurorluğu həmin sənədlərin saxta üsul ilə hazırlanmasını istintaqın gedişatında əldə olunmuş mötəbər sübutlara əsasən müəyyən etdiyinə görə, qeyd olunan çıxarışların və sənədlərin yeni açılmış hallar ilə bağlı etibarsız hesab edilməsinə nail olmuşdur. Beləliklə, dövlət və bələdiyyə mülkiyyətində olan və vətəndaşın xüsusi mülkiyyətinə verilməsi mümkün olmayan torpaq sahələrinə dair sənədlər etibarsız olmuşdur. Bununla da, Mingəçevir şəhər prokurorluğu tərəfindən cəmiyyətin və dövlətin mənafelərinə qarşı törədilən cinayət əməlinin nəticəsi aradan qaldırılmışdır.

Mingəçevir şəhər prokurorluğu tərəfindən daima Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli «Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında» Fərmanında prokurorluğa ünvanlanmış tövsiyələrdən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılmış, 2020-2024-cü illərdə ümumilikdə Mingəçevir şəhər Bələdiyyəsinin fəaliyyəti daxil olmaqla, 8 dövlət büdcəsindən maliyyələşən təşkilat barədə şəhər prokurorunun qərarı əsasında maliyyə yoxlaması təyin olunmuş, nəticədə 300.000 manata yaxın dövlət büdcəsinə vurulmuş ziyanın ödənilməsi təmin edilmişdir.

Mingəçevir şəhər prokurorluğu insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiə olunması, cəmiyyətin və dövlətin mənafelərinin qorunması, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilməsi, qanunlara riayət edilməsinin təmin edilməsi,  təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edilməsi və cinayətkarlıqla mübarizə istiqamətində öz səlahiyyətləri çərçivəsində qanuna müvafiq tədbirlər həyata keçirməyə davam edir.

**Cahid Qurbanlı,**
**Mingəçevir şəhər prokurorunun köməkçisi**

## Yaşa, Azərbaycan Prokurorluğu

Uzun, çətin, şərəfli yol keçmisən,
Hər bir zaman düzgün mövqe seçmisən,
Bu minvalla yaddaşlara köçmüsən,
Yaşa Azərbaycan Prokurorluğu.

İnsanların imdadına yetmisən,
Pozulan hüququ bərpa etmisən,
Sən həmişə haqq yolunu getmisən,
Yaşa Azərbaycan Prokurorluğu.

Qanunların keşiyində durursan,
Haqsızlığın "kökünə od vurursan",
Öz işini çox mükəmməl qurursan,
Yaşa Azərbaycan Prokurorluğu.

İşçilərin peşəsindən zövq alır,
Bu səbəbdən ədalət zəfər çalır,
Uğurların hər tərəfə səs salır,
Yaşa Azərbaycan Prokurorluğu.

Cəmiyyətin bir sütunu da sənsən,
Həm etibarlı, həm möhkəmsən, əhsən,
Bu millətə, bu dövlətə gərəksən,
Yaşa Azərbaycan Prokurorluğu.

**Firad Əliyev,**
**Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri – Hərbi prokurorun böyük köməkçisi, baş ədliyyə müşaviri**

# Araz çayının çirkləndirilməsinin qarşısının alınmasında beynəlxalq hüququn rolu

Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə ECOLEAD layihəsi çərçivəsində 16 avqust 2024-cü il tarixdə Naxçıvan şəhərində "Ekoloji hüquqpozmaların iqlim dəyişikliyinə təkan verməsi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında belə bir tədbirin keçirilməsi təqdir olunası haldır. Çünki, muxtar respublika qonşu Ermənistan tərəfindən bu gün də ekoloji təsirlərə məruz qalır. Bu ekoloji təhdidlərin əsasında isə Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi xüsusilə diqqət çəkir. Təsadüfi deyil ki, artıq illərdir ki, Araz çayı Ermənistan ərazisində həm kimyəvi sənaye qalıqlarının tullantılarına məruz qalır, eyni zamanda "Metsamor" AES-n soyudulmasında da bu çayın suyundan istifadə edilərək çirklənmiş su sonra yenidən çaya axıdılır. Çayın bu cür çirkləndirilməsi Ermənistanın özü ilə bərabər, Araz çayının axdığı digər ölkələrin də ekologiyasını ciddi təhdid edir.



Məlumdur ki, Araz çayı öz başlanğıcını qardaş Türkiyə Respublikasının Bingöl dağlarından götürür və Naxçıvan Muxtar Respublikasının İranla, Naxçıvandan sonra isə Ermənistanla sərhədinə çevrilir, sonra Azərbaycan Respublikasının ərazisinə daxil olana qədər İranın Azərbaycan Respublikası ilə sərhədi boyunca axır və nəhayət, Xəzər dənizinə tökülmək üçün Suqovuşanda Kür çayına qoşulur. Suyu zəhərlənmiş Araz çayı eyni zamanda töküldüyü Xəzər dənizinə də mənfi təsir edir. Beləliklə, Xəzər sahilində yerləşən ölkələrə də öz mənfi təsirini göstərir. Digər tərəfdən, Türkiyə, Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, Ermənistan və İran respublikaları bu çaydan bəhrələnirlər və bu çayın ekoloji təmizliyinin mühafizəsində bu ölkələrin hər biri məsuliyyət daşıyır. Lakin təəssüflər olsun ki, bu ölkələr arasında Araz çayının mühafizəsi ilə bağlı əməkdaşlıq müqaviləsi hələ də yoxdur.



Hazırda Araz çayının suyundan 4 ölkə istifadə edir və dünyadakı su problemini nəzərə alsaq, Araz çayının çirklənməsi və bu sərhəd çayının istifadəyə yararsızlığı gələcəkdə daha kəskin vəziyyətə gətirib çıxara bilər. Bu gün mütəxəssislər də həyəcan təbili çalırlar ki, ermənilər Araz çayını ekoloji fəlakətin qurbanına çeviriblər. Çay Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin kollektoruna çevrilib. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən 350 milyon kubmetr su kimyəvi, radioaktiv maddələrlə və ağır metallarla çirkləndirilir. Gümrüdən Sədərəyə qədər götürülmüş nümunələrə əsasən, Araz çayındakı ekoloji göstəricilər dünyada təyin olunmuş normalardan dəfələrlə artıqdır. Bu çaya atılan ağır metalların, fenolların, ağır fosfor duzlarının və radioaktiv tullantıların miqdarı normalardan dəfələrlə çoxdur.

2022-ci ildə "Research Journal of Border Studies" jurnalı özünün dördüncü sayında bu məsələyə toxunaraq "içməli suyun çirklənməsi nəticəsində sərhədyanı ərazilərdəki sakinlərinin əksəriyyətində xəstəliklərin sayı artmaqdadır" yazmışdır. Və yaxud, "Xalq qəzeti"nin 17 iyul 2024-cü il tarixli sayında dərc olunmuş "Ermənistanın ekoloji terroru davam edir" adlı yazıda türkiyəli jurnalistlər həyəcan təbili çalaraq bildirirlər ki, İğdıra 16 km, Naxçıvan Muxtar Respublikasına isə 50 km məsafədə yerləşən "Metsamor" AES-in fəsadları sərhəd bölgələrinə yaxın ərazilərə öz mənfi təsirlərini göstərməkdə davam edir. Yazıda qeyd olunur ki, son illərdə İgdır vilayətində hamilə qadınlarda rast gəlinən bir çox xəstəliklər, eləcə də heyvanlar arasında geniş yayılmış anormal doğuş hallarının (iki və üçayaqlı doğulan

heyvanlar) sayı xeyli artıb. Eyni zamanda tərəvəz və bostançılıq məhsullarında da müxtəlif xəstəliklərin geniş yayılması "Metsamor" AES tərəfindən havanın və su mənbələrinin çirklənməsinin nəticəsi kimi qəbul edilir. Atom Elektrik Stansiyasının soyutma sistemində Araz çayının suyundan istifadə olunaraq sonra yenidən həmin suyun Araza axıdılması təbii ki öz mənfi təsirlərini göstərməkdədir. Bütün bunlar isə nəinki yaxın bölgələrdə məhsuldarlığı dəfələrlə aşağı salır, qeyd etdiyimiz kimi əhali arasında onkoloji xəstəliklərin artmasına da səbəb olur.



Qeyd edək ki, Ermənistandakı "Metsamor" AES 1970-ci illərdə sovetlər birliyi tərəfindən İrəvanın 36 kilometrliyindəki Metsamor məntəqəsində tikilib və vaxtilə partlamış Çernobıl Elektrik Stansiyasının modelindədir. 7 dekabr 1988-ci ildə Ermənistanda 6,8 bal gücündə güclü zəlzələ baş verəndə "Metsamor" da zədələndi və o vaxtdan radioaktiv maddələr sızmağa başladı, lakin elektrik stansiyası cəmi 6 həftə təmirə bağlandı. Ermənistan "Metsamor" AES-in yenilədiyini iddia etsə də, Avropa Birliyi bu elektrik stansiyasını çox təhlükəli adlandırıb və onu bağlamaq istəyir, xüsusən də bu elektrik stansiyası dünyanın ən böyük zəlzələ qırağı olan "Alpa" qırağı üzərində tikilib. Atom elektrik stansiyalarının sənaye müddəti 30 il hesab edilir, lakin "Metsamor" elektrik stansiyası 50 ildən artıqdır ki, işləyir və etibarlı nəşrlərə görə, 2036-cı ilə qədər fəaliyyətini davam etdirməsi nəzərdə tutulur.

"Border Studies Research Paper" jurnalı ("Sərhəd Araşdırmaları") yazır ki, Ermənistanın sərhədyanı Əkərək şəhərinin şimalında və şərqində, Araz çayının yatağından 5,2 kilometr aralıda 5 mis və molibden mədəni yerləşir. Bu mədənlərdən hər il milyonlarla kubmetr zəhərli tullantılar çaya axıdılır. Nəticədə çay suyunda kimyəvi çirkləndiricilərin və ağır metalların konsentrasiyası artır. Köhnəlmiş və qeyri-standart "Metsamor" AES-in hissələrinin istismar müddətinin bitməsi səbəbindən radioaktiv materialların Araz çayına sızması regional və beynəlxalq ekspertlər və Avropa İttifaqı tərəfindən təsdiqlənib. Bütün beynəlxalq araşdırmalar göstərir ki, Araz çayında iki növ güclü çirklənmə var. Biri köhnəlmiş "Metsamor" AES-dən sızan radioaktiv materiallardan, digəri isə ağır metallardan qaynaqlanır. Onlar əsasən Ermənistanın mis, qızıl və alüminium mədənlərindən və Ermənistanın sərhəd sənaye şəhərinin, yəni Əkərək (Aqarak) şəhərinin sənaye müəssisələrindən Araz çayına axır.

Ermənistanın Araz çayının çirkləndirməsi məsələsi daim bölgə dövlətləri tərəfindən gündəliyə çıxarılır. Bu məsələ Azərbaycan tərəfindən dəfələrlə beynəlxalq təşkilatların diqqətinə çatdırılsa da, indiyədək buna qarşı heç bir tədbir görülməyib. Hətta bu ilin mart ayında bizim vətəndaş cəmiyyətinin üzvləri Brüsseldə keçirilən Nüvə Enerjisi Sammitinin həmsədrlərinə də bununla bağlı məktub yazaraq stansiyanın fəaliyyətinin dayandırılması üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırmağa çağırmışdı.

Bunu da əlavə edək ki, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Monitorinq Departamentinin məlumatına əsasən Mehri, Qacaran, Qafan və Dəstəkert dağ-mədən kombinatlarının yüz min tonlarla qatı turş suları, ağır metal duzları və başqa tullantıları da Arazın qolu olan Oxçuçaya axıdılır. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə mütəmadi olaraq normadan 6-15 dəfə artıq olmuşdur. Mütəxəssislər qeyd edirlər ki, Metsomor AES-in fəaliyyəti nəticəsində hər sutka ərzində Araz çayına 12-16 min kubmetr radioaktiv tullantı axıdılır. Bu isə çayın suyunun Azərbaycan ərazisində həm içməli, həm də suvarma mənbəyi kimi istifadəsini təhlükə altına salır.

2021-ci ilin əvvəlində Avropa Komissiyası Ermənistanla tərəfdaşlıq sazişinin 2020-ci ildə icra olunmasına dair hesabatında qeyd edib ki, Metsamor AES quruluşuna görə nüvə təhlükəsizliyinə dair beynəlxalq standartlara uyğun yenidən qurula bilmədiyinə görə ən tez bir vaxtda bağlanılmalıdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev bu barədə Münhen Təhlükəsizlik Konfransı




çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirə zamanı demişdir: *"Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir".*

AMEA-nın Radiasiya Problemləri İnstitutunun əməkdaşları tərəfindən 2015-ci ildə beynəlxalq layihə çərçivəsində (UETM) təbii fəlakət nəticəsində daşqınlara məruz qalmış və əkin üçün istifadə olunan İmişli və Saatlı rayonunun ərazilərində yetişdirilən və əhali tərəfindən istifadə olunan kənd təsərrüfatı bitkiləri ekogenetik tədqiq olunmuşdur. Tədqiqatların nəticəsində Araz boyu yerləşən bəzi kəndlərdə torpağın və suyun fiziki-kimyəvi analizləri aparılmışdır. Bu analizlərin nəticəsində torpaq və bəzi kənd təsərrüfatı bitkilərində çirklənmə dərəcəsi müəyyən olunmuşdur. Tədqiqatların aparıldığı bəzi kəndlərdə yerli əhali ilə söhbətlərdən məlum olmuşdur ki, bu kəndlərdə son illər bir çox xəstəliklərin, o cümlədən mədə-bağırsaq, ürək-damar, xərçəng və s. xəstəliklərin artması müşahidə olunur. Bu baxımdan Araz çayının suyunun həm suvarma, həm də içməli su kimi istifadə olunmasının əhalinin sağlamlığına təsirinin araşdırılması, statistik məlumatların toplanılıb analiz olunması və müvafiq mübarizə tədbirlərinin aparılması bu günün aktual problemi hesab oluna bilər.

Araz çayının Ermənistan tərəfindən çirklənməyə məruz qalması barədə İran İslam Respublikasında da ekoloqlar tərəfindən informasiyalar yayılmaqdadır. İran parlamentində Araz çayının Ermənistan tərəfindən çirklənməsi ilə bağlı çıxışlar olub. Həmin çıxışlarda Ərdəbil vilayətinin Muğan bölgəsində əhali arasında xərçəng xəstəliyinin artmasının səbəbinin Ermənistan ərazisində Araz çayının çirklənməyə məruz qalması göstərilir, Ermənistanın çaya radioaktiv tullantılar ataraq ekologiyaya böyük ziyan vurduğu da məruzədə qeyd edilir. Məlumdur ki, Araz çayı boyu İran əraziləri münbit torpaqlardır və burada kənd təsərrüfatı inkişaf etmişdir. Yerli fermerlər suvarma suyu kimi Araz çayından istifadə edirlər. Ermənistan tərəfindən çay suyunun toksiki maddələrlə çirklənməsi məhsuldarlığın azalması ilə yanaşı, əhali arasında müxtəlif xəstəliklərin də artmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, eyni durum Azərbaycan ərazisində də mövcuddur. Bizim də İranla bütün sərhədboyu ərazilərdə əkin sahələrimiz Araz çayının suyu ilə suvarılır.

Azərbaycan Respublikasının da 14 mart 2000-ci il tarixdə qoşulduğu "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi üzrə Konvensiya"da (Helsinkidə 17 mart 1992-ci ildə icra edilmişdir) qeyd olunur ki, bu Konvensiyanın tərəfləri sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsini təxirəsalınmaz və vacib vəzifə hesab edir.

Konvensiyanın digər müddəalarında da tərəflərin bununla bağlı məsuliyyəti, ortaya çıxan fəsadların aradan qaldırılması üçün birgə fəaliyyətin göstərilməsi yollarından bəhs edilir. Bütün bunları nəzərə alaraq bu gün regionumuz üçün böyük təhlükə ocağının istismar müddətinin uzadılmasına etiraz edərək region dövlətlərini, xalqlarını, beynəlxalq təşkilatları, dünya dövlətlərini gələcəkdə baş verə biləcək ağır faciənin qarşısını almaq üçün indidən vahid və rasional mövqe və qətiyyət nümayiş etdirməyə çağırırıq.

Sonda bunu da qeyd edək ki, Azərbaycan Respublikası 2006-cı il tarixdə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına qoşulub. Arazın çirklənməsindən ən böyük zərəri Azərbaycan Respublikası, qonşu İran İslam Respublikası və Xəzər dənizi hövzəsi dövlətləri görür. Düşünürük ki, Araz çayını xilas etmək üçün çayın keçdiyi ölkələr və Xəzər dənizi hövzəsi dövlətləri Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Departamenti və Ümumdünya Səhiyyə Təşkilatının nəzarəti altında "Beynəlxalq Araz Konvensiyası" hazırlamaları daha məqsədəuyğun olardı. Bu, həm də zamanın tələbidir!

Görkəmli təbiətşünas alim akademik Həsən Əliyevin dediyi kimi: *"Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır".*

**Faiq Səfərov,**
**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun şöbə rəisi,**
**baş ədliyyə müşaviri**

# Cinayət tətbiqi üzrə qiyabi icraatın tətbiqi məsələləri

*(birinci hissə)*

Ədalət mühakiməsinin məqsədlərindən biri də cinayətlərin açılması və cinayət törətmiş şəxslərin təqib edilməsi və törədilmiş cinayətə uyğun olaraq cəzalandırılmasıdır. Bu prosesin uzadılması ədalət mühakiməsinin səmərəliliyinə təsir edir, həm də ədalət mühakiməsinə olan inamın azalmasına gətirir. Belə ki, cinayət törətmiş şəxsin ədalət mühakiməsi qarşısında dayanması, onun cəzalandırılmasının yeganə yoludur və cinayətin törədilməsi və cinayətkarın cəzalandırılması arasında uzun müddət keçirsə, bu həm də ədalət mühakiməsinin həyata keçirilməsini çətinləşdirir. Belə ki, iş üzrə şahidlər zaman keçdikcə, keçmişdə olan hadisələrin detallarını unudurlar, sübutlar bəzi hallarda təbii dəyişikliyə məruz qalır, son nəticədə sübutları toplamaq çətinləşir. Bundan başqa şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq cinayət mühakimə icraatının vəzifəsi və bunun tələb olunması şəxsiyyətin və cəmiyyətin hüququdur, cinayətkarın cəzalandırılmasının gecikdirilməsi bu hüququ pozmuş olur, ədalət mühakiməsinin səmərəliliyi və cinayət təqibi orqanlarının fəaliyyəti ilə bağlı inamsızlıq yaranmasına gətirir. Təqsirləndirilən şəxsin iştirakı mümkün olmadıqda bu neqativ nəticələrdən qaçmanın bir yolu da işlərə qiyabi baxılmasıdır. Bu gün də ictimai maraqlar həmişə olduğu kimi cinayət təqibinin, o cümlədən ədalət mühakiməsinin daha səmərəli və operativ həyata keçirilməsini tələb edir.

Həm daxili qanunvericilik, həm də beynəlxalq müqavilələr təcrübəsi ondan çıxış edir ki, cinayət təqibi imkan daxilində təqsirləndirilən şəxsin iştirakı ilə keçirilməlidir. Mülki və siyasi hüquqlar haqında Beynəlxalq Pakt ondan çıxış edir ki, "3. Hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında" müəyyən hüquqlara malikdir. Belə ki, cinayət təqibinin təqsirləndirilən şəxsin iştirakı ilə keçirilməsi onun müdafiə, əleyhinə çıxış edən şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə çıxış edən şahidlər üçün mövcud olan şərtlərdə öz şahidlərini çağırtdırmaq və dindirmək hüququna malik olmaq kimi digər hüquqlarının da təmin olunmasına kömək edir (14-cü maddənin 3-cü hissəsinin d bəndi). Eyni hüquqlar AİHK-nın 6-cı maddəsinin 3-cü bəndində də nəzərdə tutulmuşdur. AİHK təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirak etmək hüququnu birbaşa nəzərdə tutmasa da, AİHM-nin təcrübəsi təqsirləndirilən şəxsin məhkəmə baxışında iştirak etmək hüququnu nəzərdə tutur. Məhkəmə hesab edir ki, "...6-cı maddə bütövlükdə təqsirləndirilən şəxsin onun işi üzrə məhkəmə baxışında real iştirak etmək hüququnu tanıyır" [14, 26-cı bənd], "59. Məhkəmənin fikrincə,....Cinayət məhkəməsi ədalətlilik mülahizələrindən çıxış edərək, ərizəçinin Konvensiyanın 6-cı maddəsi ilə təminat verilən hüquqlarından səmərəli istifadə etməsinə təmin etmək üçün işə baxılmasından əvvəl əlavə addımlar atmalıdır. Bununla bağlı olaraq, Məhkəmə birinci instansiya məhkəməsində təqsirləndirilən şəxsin şəxsi iştirakının vacibliyini bir daha qeyd edir" [15, 59-cu bənd] əgər şəxs məhkəmədə iştirak etmirsə, *"...onun iştirak etmədən hüquqlardan necə istifadə edə biləcəyini təsəvvür etmək çətindir"* [9, 28-ci bənd].

AİHM-nin presedent təcrübəsi təqsirləndirilən şəxsin birinci instansiya məhkəməsində iştirakını müdafiə edir və onun iştirakı olmadan işə baxılmasına istisna hal kimi yol verir, *"14-cü maddədə təsbit edilmiş müddəa təqsirləndirilən şəxsin gəlməməsinin səbəblərindən asılı olmayaraq, qiyabi icraatın yolverilməz olması kimi şərh edilə bilməz"* [12,14.1-ci bənd].

Ekstradisiya haqqında Avropa Konvensiyasına II Əlavə protokolun 3-cü maddəsində qeyd olunur ki, *"...müqəssirin özü olmadan barəsində qərar qəbul edilmiş hökmün çıxarılması.. ilə ekstradisiya tələb etdikdə, əgər sorğu edilən Tərəf belə hesab edirsə ki, məhkəmənin rəyi ilə nəticələnmiş proses cinayətə görə məhkum edilən hər bir şəxs üçün məcburi sayılan minimum müdafiə hüquqlarını təmin etmir, bu halda həmin məqsədlərlə ekstradisiyadan imtina edə bilər".* İşinə yenidən baxılması hüququnu tələb edən şəxs üçün kifayət qədər təminatlar verərsə, ekstradisiya həyata keçirilməlidir. Azərbaycan Respublikasının qarşılıqlı hüquqi yardım haqqında müqavilələrində də eyni məzmunlu müddəalar nəzərdə tutulmuşdur, Məsələn, Azərbaycan Respublikası ilə Hindistan arasında Təslimetmə haqqında Müqavilənin 3-cü maddəsinə əsasən, sorğu edən Tərəfin təslim edilməsi tələb olunan şəxsin işinə Məhkəmədə yenidən baxılmasına təminat verməsi istisna olmaqla, Sorğu edən Tərəfin təslimetmə tələbi qiyabi çıxarılmış qərara aid olduqda təslimetmədən imtina olunur.

Beynəlxalq Cinayət Məhkəməsi təqsirləndirilən şəxsin iştirakı olmadan qiyabi proseslərə yol vermir, belə ki, Məhkəmənin Statutunun 67-ci maddəsinin

1-ci hissəsi, təqsirləndirilən şəxsin şəxsən iştirakı ilə onun mühakimə olunması hüququnu nəzərdə tutur. Statutunun 63-cü maddəsinin 2-ci hissəsində təqsirləndirilən şəxsin məhkəmə prosesinin gedişini pozarsa, məhkəmə zalından çıxarılmasının mümkünlüyünü nəzərdə tutmasını qiyabi icraata yol verilməsi kimi qiymətləndirmək olmaz. Çünki, Statutun özü Məhkəmənin bu səlahiyyətini qiyabi icraat adlandırmır, həm də qiyabi icraatın tələblərinə uyğun gəlmir. Həmçinin, bu halda həmin şəxsə məhkəmənin gedişini izləmək imkanı verilməlidir. Ancaq bundan əvvəl yaradılmış beynəlxalq cinayət tribunallarında belə bir prosedur nəzərdə tutulmuşdur. Məsələn, Nürnberq Hərbi Tribunalının Nizamnaməsində məhkəmə təqsirləndirilən şəxs tapılmadıqda və ya Tribunal hər hansı səbəbdən ədalət mühakiməsinin həyata keçirilməsi naminə bunu zəruri hesab edərsə, təqsirləndirilən şəxsin iştirakı olmadan baxmaq hüququna malikdir [11]. Məhz Matrin Bormanın işinə qiyabi baxılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 127-ci maddəsinin VI hissəsinə əsasən qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

Azərbaycan Respublikasının CPM-də "cinayət təqibi üzrə qiyabi icraat" dedikdə *"məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraat başa düşülür* (CPM-in 7.0.8-1-ci maddəsi).

Cinayət təqibi üzrə qiyabi icraat CM-in hansı maddələri ilə ittiham olunan təqsirləndirilən şəxslər barəsində cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasının mümkünlüyünü, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən hansı halların nəzərə alınmalı olmasını, məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi, qiyabi hökm və ya digər yekun qərarın çıxarılması qaydalarını, qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi prosedurunu və s. halları müəyyən edir.

Azərbaycanın cinayət-prosessual qanunvericiliyində bir sıra hallarda təqsirləndirilən şəxs məhkəmə prosesində iştirak etmir, yəni onun iştirakı olmadan işə baxılır, məsələn, CPM-in 447.6-ci maddəsinə əsasən, müraciətlərin baxılma yeri və müddəti haqqında vaxtında məlumatlandırılmış bu Məcəllənin 447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri üzrə məhkəmə iclasına gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur.

CPM-in təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmənin hazırlıq iclasının keçirilməsindən bəhs edən 299.9-cu maddəsində göstərir ki, məhkəmənin hazırlıq iclası təqsirləndirilən şəxsin iştirakı olmadan aşağıdakı hallarda aparıla bilər:

– *təqsirləndirilən şəxs məhkəməyə gəlməkdən təkrarən imtina etdiyi və ya boyun qaçırdığı halda (CPM-in 299.9.1-ci maddəsi);*

– *cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmamaq şərtilə böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdıqda (CPM-in 299.9.2-ci maddəsi);*

– *Məcəllənin 467-13.1-ci maddəsində nəzərdə tutulmuş halda (CPM-in 299.9.3-cü maddəsi).*

Qeyd etmək lazımdır ki, təqsirləndirilən şəxsin iştirak etmədiyi bütün halları qiyabi icraat adlandırmaq düzgün olmazdı. Belə ki, CPM-in 310-6.3-cü maddəsində dövlət ittihamçısı və müdafiəçi istisna olmaqla, məhkəmə iclasında qaydanı kobud surətdə pozan şəxslər barəsində əvvəlcə edilmiş xəbərdarlıqdan sonra məhkəmənin qərarı əsasında məhkəmə baxışının bütün müddətinə və ya bu müddətin bir hissəsinə məhkəmənin iclas zalından xaric etmə tətbiq oluna bilər və məhkəmənin qərarı ilə məhkəmə iclasına yenidən buraxılmış cinayət prosesinin iştirakçısı onun olmadığı dövrdə aparılmış prosessual hərəkətlərlə tanış olmaq hüququna malikdir.

Azərbaycan Respublikasının CPM-də qiyabi icraatla bağlı tənzim olunan məsələləri altı qrupa bölmək olar:

### 1. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri

Cinayət təqibi üzrə qiyabi icraatın özünəməxsus xüsusiyyətləri vardır. Cinayət prosessual qanunvericiliyinin (CPM-in 467-12-ci maddəsinin) tələblərinə əsasən cinayət təqibi üzrə qiyabi icraat aparılarkən həm CPM-in LIV-II fəslində müəyyən edilmiş xüsusiyyətlər, həm də CPM-də nəzərdə tutulmuş ümumi qaydalar nəzərə alınmalıdır.

Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri aşağıdakılardır:

– cinayət təqibi üzrə icraat qiyabi aparıldıqda CPM-in 91-ci (təqsirləndirilən şəxs) maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqanlar tərəfindən təmin edilməlidir (CPM-in 467-12.2-ci maddəsi). Təhlil göstərir ki, cinayət təqibi üzrə icraat qiyabi aparıldıqda, nəinki CPM-in 91-ci (təqsirləndirilən şəxs) maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqanlar tərəfindən təmin edilir.

– məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılmalıdır(CPM-in 467-12.3-cü maddəsi);

– cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılmalıdır(CPM-in 467-12.4-cü maddəsi);

– yetkinlik yaşına çatmayan şəxslər barəsində isə cinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir (CPM-in 467-12.5-ci maddəsi).

## 2. Cinayət təqibi üzrə qiyabi icraatın açılması

CPM-in 467-13.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər daxilində təqsirləndirilən şəxs barəsində cinayət təqibi üzrə qiyabi icraat açıla bilər. Belə ki, təqsirləndirilən şəxs:

– Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizləndikdə;

– Azərbaycan Respublikasının ərazisindən kənarda məhkəmədən gizləndikdə;

– Azərbaycan Respublikasının ərazisindən kənarda çağırışa gəlməkdən qəsdən boyun qaçırdıqda;

– bu səbəblərdən təqsirləndirilən şəxsin prosesdə iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

AİHM "ədalət mühakiməsindən açıq-aydın imtina etmə" ("flagrant denial of justice") ifadəsindən istifadə olunur və belə imtina olmadıqda bu Konvensiyanın 6-cı maddəsinin pozulması ilə həyata keçirilən məhkəmə baxışı kimi qiymətləndirilir [Sejdovic v. Italy, 84-cü bənd]), burada söhbət birmənalı imtina etmədən söhbət gedir, yəni dövlətin onu necə qiymətləndirməsi deyil, bu qiymətləndirmənin əsasında duran faktların açıq-aşkar olması nəzərdə tutulur.

Təhlil göstərir ki, cinayət təqibinin qiyabi icraat qaydasında aparılması Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizlənmiş və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırmış bütün təqsirləndirilən şəxslərə aid deyildir.

Məsələn, CM-in *"həyat və sağlamlıq əleyhinə olan cinayətlər"* fəslində (120-136-cı maddələrində) nəzərdə tutulmuş: qəsdən adam öldürmə, ananın yeni doğduğu uşağı qəsdən öldürməsi, qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə, zəruri müdafiə həddini və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla adam öldürmə, ehtiyatsızlıqdan adam öldürmə, özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, qəsdən sağlamlığa yüngül zərər vurma, qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma, zəruri müdafiə həddini aşmaqla və ya cinayət törətmiş şəxsin tutulması üçün zəruri həddi aşmaqla sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma, əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, evtanaziya, qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya cinayət əməllərinə görə ittiham olunan təqsirləndirilən şəxslərə cinayət təqibinin qiyabi icraat qaydasında aparılması şamil olunmur.

CPM-in 467-13.1-ci maddəsinin izah və tələblərinə əsasən, ümumiyyətlə CM-in 120-136-cı, 138-143-1-ci, 146-177-ci, 180-181-ci, 183-193-cü, 194-204.3-1-ci, 207 209-213-3-cü, 220-227-ci, 229-273-cü, 284-307-ci, 315-317-2-ci, 320-323-cü, 325-352-ci və digər maddələr ilə ittiham olunan təqsirləndirilən şəxslərə cinayət təqibinin qiyabi icraat qaydasında aparılması şamil olunmur.

CM-in çoxsaylı digər maddələrlə ittiham olunan təqsirləndirilən şəxslərə cinayət təqibinin qiyabi icraat qaydasında aparılması şamil olunur. Məsələn, CM-in "Sülh və insanlıq əleyhinə cinayətlər"dən bəhs VII bölməsində nəzərdə tutulmuş maddələr ilə ittiham olunan təqsirləndirilən şəxslərin hamısı barəsində cinayət təqibinin qiyabi icraat qaydasında aparılması şamil olunur.

Azərbaycan Respublikasının CM-in vəzifələrindən biri də sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən ibarətdir (CM-in 2.1-ci maddəsi). CM-in "Sülh və insanlıq əleyhinə cinayətlər"dən bəhs VII bölməsinə daxil olan 100-119-cu maddələrin sanksiyalarının təhlil göstərir ki, ən çox "*iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzaları"* nəzərdə tutulmuşdur

CM-in Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri

törətmiş şəxslərə müddətin keçməsi tətbiq olunmur (CM-in 75.5-ci maddəsi). Ona görə də, Azərbaycan Respublikası CM-in 100–119-cu maddələndə nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə görə cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasının tətbiqi çox əhəmiyyətlidir. Belə ki, nəticədə sülh və insanlıq əleyhinə və ya müharibə cinayətləri törətmiş şəxslərin cinayət məsuliyyətindən yayınması mümkünsüz olur.

Cinayət təqibinin qiyabi icraat qaydasında aparılması Azərbaycan Respublikasının CM-in *"İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər"dən* bəhs edən 25-ci fəslində nəzərdə tutulmuş bir çox cinayətlərə, o cümlədən: terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, terrorçuluğa açıq çağırışlar, terrorçuluq məqsədi ilə təlim keçmə, adamları girov götürmə, terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə, banditizm, cinayətkar birlik (təşkilat) yaratma, hava və ya su nəqliyyatı gəmisini, yaxud dəmir yolu qatarını qaçırma və dəniz quldurluğu əməllərinə  görə ittiham olunan təqsirləndirilən şəxslərə də şamil olunur.

Cinayət təqibinin qiyabi icraat qaydasında aparılması CM-in *"Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər"dən* bəhs edən 31-ci fəslində nəzərdə tutulmuş bir çox cinayətlərə, o cümlədən: 274–283-1-ci maddələrə görə ittiham olunan təqsirləndirilən şəxslərə də şamil olunur.

Cinayət təqibinin qiyabi icraat qaydasında aparılması Azərbaycan Respublikasının CM-in *"Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər"dən* bəhs edən 33-cü fəslində nəzərdə tutulmuş cinayətlərə (308–314-3-cü maddələrə) görə ittiham olunan təqsirləndirilən şəxslərin təxminən hamısına şamil olunur *(yalnız, CM-in 314-4-cü maddəsi ilə nəzərdə tutulan "qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla mühəndis-kommunikasiya təminatı sistemlərinə qoşulma" cinayəti istisna təşkil edir).*

Başqa sözlə, cinayət təqibinin qiyabi icraat qaydasında aparılması vəzifə səlahiyyətlərindən sui-istifadə, dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə; satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə, vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, rüşvət alma (passiv rüşvətxorluq),  rüşvət vermə (aktiv rüşvətxorluq), vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri), vəzifə saxtakarlığı, səhlənkarlıq, dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə, qanunla müəyyən olunmuş qaydaları pozmaqla torpaq sahələri ayırma, yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə, qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla aparılan tikinti işlərinin qarşısının alınmaması cinayətlərinə görə ittiham olunan təqsirləndirilən şəxslərə şamil olunur.

Bununla yanaşı, eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda da onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər (CPM-in 467-13.1-ci maddəsi).

Təqsirləndirilən şəxsin çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan tərəfindən gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxslər barəsində müəyyən tədbirlər görülür.

CPM-in izah və tələblərinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin qanunda nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanı vasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna göndərilir. Və yaxud prosessual sənədlər cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir. Bu kimi hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.

Belə ki, "CPM-in *"prosessual sənədlərin çatdırılması"ndan* bəhs edən 54-1-ci maddəsi prosessual sənədlərin hansı hallarda *rəsmi qaydada verilmiş hesab edilməsi hallarını müəyyən edir* (CPM-in 54-1.8-ci maddəsi).

CPM-in izah və tələblərinə əsasən, təqsirləndirilən şəxsin CPM-in 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də CPM və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür (CPM-in 54-13.2-ci maddəsi).

Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin CPM-in 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasın həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir (CPM-in 54-13.3-cü maddəsi).

CPM-in 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, CPM-in 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları *(çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla)* ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir (CPM-in 54-13.4-cü maddəsi).

Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun CPM-in 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur (CPM-in 54-13.5-ci maddəsi).

Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Vəsatətə CPM-in 442-454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır (CPM-in 54-13.6-cı maddəsi).

Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumatı olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir (CPM-in 54-13.2-ci maddəsi).

Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir (CPM-in 54-13.8-ci maddəsi).

Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər (CPM-in 54-13.9-cu maddəsi).

Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə bir sıra halları nəzərə alır.

CPM-in 467-13.10-cu maddəsinə əsasən cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:

*– təqsirləndirilən şəxsin CPM-də nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;*

*– təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;*

*– təqsirləndirilən şəxsin CPM-də və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.*

Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir (CPM-in 54-13.11-ci maddəsi).

Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi CPM-in 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir (CPM-in 448.6-2-ci maddəsi). Həmin maddəyə əsasən *"cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir* (CPM-in 467-13.11-ci maddəsi).

**Mayıl Bayramov,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının**
**Məhkəmə hüququ, prokuror və vəkillik**
**fəaliyyəti kafedrasının müəllimi**

**Mətanət Əsgərova,**
**Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının**
**Cinayət prosesi, krtiminalistika və məhkəmə**
**ekspertizası kafedrasının baş müəllimi,**
**hüquq elmləri doktoru, dosent**

# Baş Prokurorluğun təqaüdə çıxmış əməkdaşlarına Baş prokuror tərəfindən verilmiş Fəxri fərman və hədiyyə təqdim edilib



Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun 2 əməkdaşı - Rəfael Süleymanov və Məmməd Əliyevin qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar iyulun 1-də Baş Prokurorluğun inzibati binasında qəbul edilərək, ona Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş Fəxri fərman və hədiyyə təqdim edilib.

Baş Prokurorluqda görüş zamanı Rəfael Süleymanov və Məmməd Əliyevin prokurorluq orqanlarında keçdikləri uzunmüddətli xidmət illərinə nəzər salınaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyəti, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlər qeyd edilib.

Rəfael Süleymanov və Məmməd Əliyev göstərilən diqqətə görə minnətdarlığını bildirib tədbir iştirakçıları ilə xatirələrini bölüşüb.

Sonda xatirə fotoşəkli çəkilib.









# Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun əməkdaşları ilə görüş keçirilib





Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun 2 əməkdaşı - Azər Əsgərov və İlqar Ağamirovun qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar iyulun 10-da Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilib.

Onlara Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş Fəxri fərmanlar təqdim edilib.

Baş Prokurorluqda görüş zamanı Azər Əsgərov və İlqar Ağamirovun prokurorluq orqanlarında keçdikləri uzunmüddətli xidmət illərinə nəzər salınaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyəti, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlər qeyd edilib.

Azər Əsgərov və İlqar Ağamirov göstərilən diqqətə görə minnətdarlığını bildirib, tədbir iştirakçıları ilə xatirələrini bölüşüb.

Sonda xatirə fotoşəkli çəkilib.





# Baş Prokurorluğun təqaüdə çıxmış əməkdaşlarına Baş prokuror tərəfindən verilmiş "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri fərmanlar və hədiyyələr təqdim edilib





Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Azərbaycan Respublikası Baş Prokurorluğunun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Maqsudov Rövşən Abid oğlu, Baş Prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin Məxfiçilik üzrə xidmətinin rəhbəri – böyük prokuror Əliyev Akif Nazim oğlu və Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin prokuror-kriminalisti Kişiyev Elman Fərman oğlu qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar iyulun 29-da qəbul edilərək, onlara Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

Görüş zamanı veteran prokurorluq işçilərinin prokurorluq orqanlarında keçdikləri uzunmüddətli xidmət illərinə nəzər salınaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyətləri, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, habelə insan və vətəndaş hüquq və azadlıqlarının







müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlər qeyd edilib, eyni zamanda veteran prokurorluq işçiləri isə onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq bildirib.

Rövşən Maqsudov, Akif Əliyev və Elman Kişiyev tədbir iştirakçıları ilə xatirələrini bölüşüb və sonda xatirə şəkli çəkilib.









# Yaş həddi ilə bağlı qulluq keçməsinə xitam verilmiş prokurorluq əməkdaşı döş nişanı ilə təltif olunub





Prokurorluq orqanlarında qulluqda olmanın son yaş həddinə çatmış Bakı şəhəri Nəsimi rayon prokurorluğunun böyük müstəntiqi İlyaz Seyidov qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar avqustun 14-də Bakı şəhər prokurorluğunun rəhbərliyi tərəfindən qəbul edilib.

Bakı şəhər prokurorluğunda keçirilən görüş zamanı İlyaz Seyidovun prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salınaraq, onun qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı əldə etdiyi nailiyyətlər, eləcə də uzun illər cinayətkarlığa qarşı mübarizə sahəsində peşəkar müstəntiq kimi müxtəlif kateqoriyadan olan, o cümlədən ağır və xüsusilə ağır, bağlı qalmış cinayətlərin istintaqı və bu sahədə gənc mütəxəssislərin formalaşmasındakı səmərəli fəaliyyəti qeyd edilib.

Görüş zamanı ona Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş "Prokurorluğun fəxri işçisi" döş nişanı təqdim olunub.

İlyaz Seyidov göstərilən diqqətə görə minnətdarlığını bildirərək, tədbir iştirakçıları ilə xatirələrini bölüşüb.

Sonda xatirə fotoşəkli çəkilib.



# Prokurorluğun veteranlarının gənc hüquqşünaslarla görüşü keçirilib











Sentyabrın 20 və 23-də Baş Prokurorluğun inzibati binasında 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü və milli prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü ilə əlaqədar prokurorluğun veteranları və gənc prokurorluq işçiləri arasında görüş keçirilib.

Görüşdə müasir Azərbaycanın qurucusu dünya şöhrətli dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin göstərdiyi misilsiz fədakarlıq vurğulanaraq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə ordumuzun əldə etdiyi möhtəşəm qələbə sayəsində ərazi bütövlüyümüzün və 2023-cü ildə isə 23 saatlıq lokal antiterror tədbirləri ilə suverenliyimizin bərpa edilməsindən bəhs edilib.

Ölkə başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Şərqi Zəngəzur və Qarabağ bölgəsində aparılan kompleks quruculuq işləri barədə gənc hüquqşünaslara danışılıb və "Böyük Qayıdış"ın reallaşmasının əhəmiyyəti xüsusi qeyd edilib.

Veteranlar görüşdə prokurorluq orqanlarındakı xatirələrini danışıb, gənc prokurorluq işçiləri ilə öz bilik və təcrübələrini bölüşüb, hazırda prokurorluq orqanlarında aparılan dinamik islahatlar, eləcə də maddi və texniki bazanın möhkəmləndirilməsi istiqamətində göstərilən dövlət qayğısı yüksək qiymətləndirilib.

Görüşdə veteranlar prokurorluq orqanlarında çalışmağın şərəfli, eyni zamanda bir o qədər çətin və məsuliyyətli olmasını vurğulayıb.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695 (Cild I); 2024, № 4, maddə 365) 32.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**“32.2.** Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsini yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən komissiyalar bu Qanunun 7.1.4-cü maddəsində göstərilən və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirir. Komissiyalar məhkəmə və prokurorluq orqanlarının, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrindən ibarət tərkibdə təşkil edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 iyun 2024-cü il
№ 1197-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

**1.3.** həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsinə əsasən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi aşağıdakı komissiyalar tərəfindən həyata keçirilir:

**1.3.1.** Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən formalaşdırılan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya;

**1.3.2.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən formalaşdırılan Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası;

**1.3.3.** yerli icra hakimiyyəti orqanları tərəfindən formalaşdırılan az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları;

**1.4.** həmin Qanunun 32.2-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

**1.4.1.** külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiyaya münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan

Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

**1.4.2.** Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyasına münasibətdə bu Fərmanın 1.4.1-ci yarımbəndində göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanlar (qurumlar) və struktur qurumlar;

**1.4.3.** az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsi.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 27 yanvar tarixli 546 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 3.1-ci bəndin altıncı – səkkizinci abzasları müvafiq olaraq yeddinci – doqquzuncu abzaslar hesab olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"- barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi məqsədilə külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların, habelə az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarının fəaliyyətinə nəzarət edir;".

**3.2.** 5.1-ci bəndin beşinci abzasına "qərarlarını" sözündən sonra ", həmçinin Komissiyanın fəaliyyəti ilə bağlı icrası məcburi olan daxili əmr və sərəncamları" sözləri əlavə edilsin.

**4.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 578 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 460 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 1.1-ci bənd 1.1-2-ci bənd hesab olunsun və həmin bənddə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

**4.2.** aşağıdakı məzmunda 1.1-ci, 1.1-1-ci və 1.6-cı bəndlər əlavə edilsin:

**"1.1.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.1-1.** həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

**"1.6.** həmin Qanunun 32.2-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

**1.6.1.** külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiyaya münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

**1.6.2.** Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyasına münasibətdə bu Fərmanın 1.6.1-ci yarımbəndində göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanlar (qurumlar) və struktur qurumlar;

**1.6.3.** az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan

Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsi.";

**4.3.** 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"1.5.** həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsinə əsasən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsi aşağıdakı komissiyalar tərəfindən həyata keçirilir:

**1.5.1.** Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən formalaşdırılan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya;

**1.5.2.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən formalaşdırılan Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası;

**1.5.3.** yerli icra hakimiyyəti orqanları tərəfindən formalaşdırılan az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2024-cü il
№ 173

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 14-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli və 21 may tarixli 1154-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 10.2-ci və 27.2-ci maddələr ləğv edilsin;

**1.2.** aşağıdakı məzmunda 12.0.2-1-ci və 12.0.2-2-ci maddələr əlavə edilsin:

**"12.0.2-1.** qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları;

**12.0.2-2.** bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu;";

**1.3.** 26.1.1-ci maddədən "və nikah yaşına çatana qədər nikaha daxil olmaq üçün bu Məcəllənin 10.2-ci maddəsində nəzərdə tutulmuş icazə olmadıqda" sözləri çıxarılsın;

**1.4.** 56.2-ci maddədən "yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda," sözləri çıxarılsın;

**1.5.** 57.2-ci maddənin birinci cümləsində "valideynlər nikaha daxil olmamışlarsa, onların" sözləri "valideynlərin" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 176-1-ci maddə üzrə:

**2.1.1.** adında "Qadını nikaha" sözləri "Nikaha və ya erkən evliliyə" sözləri ilə əvəz edilsin;

**2.1.2.** 176-1.1-ci maddənin dispozisiyasında "Qadını nikaha" sözləri "Nikaha" sözü ilə əvəz edilsin;

**2.1.3.** 176-1.2-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"176-1.2.** Nikah yaşına çatmayan şəxsi erkən evliliyə daxil olmağa məcbur etmə –";

**2.1.4.** aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 176-1 və 176-2-ci maddələrində "erkən evlilik" dedikdə yetkinlik yaşına çatmayan şəxslə nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq başa düşülür.";

**2.2.** aşağıdakı məzmunda 176-2-ci maddə əlavə edilsin:

**"Maddə 176-2. On altı yaşına çatmayan şəxsin erkən evliliyinin təşkili**

On altı yaşına çatmayan şəxsin erkən evliliyinin həmin şəxsin və ya erkən evliliyə daxil olan digər şəxsin valideynləri və ya onları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxs tərəfindən təşkil edilməsi –

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə nəzərdə tutulmuş cinayətə görə məsuliyyət erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə həmin şəxslə zərərçəkmiş şəxsin yaş fərqi beş ildən çox olduqda yaranır.".

**Maddə 3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik

Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362; Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli, 5 aprel tarixli 1127-VIQD nömrəli, 19 aprel tarixli 1134-VIQD nömrəli və 7 may tarixli 1148-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 43.1-ci maddəyə "157–188," rəqəmlərindən sonra "189-1, 189-3.2," rəqəmləri əlavə edilsin;

**3.2.** 21-ci fəslin adında "Siyasi, sosial və əmək hüquqları" sözləri "İnsan və vətəndaşın hüquq və azadlıqları" sözləri ilə əvəz edilsin;

**3.3.** aşağıdakı məzmunda 189-1 – 189-3-cü maddələr əlavə edilsin:

**"Maddə 189-1. On altı yaşına çatmayan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olma**

On altı yaşına çatmayan şəxs barəsində onun və ya evliliyə daxil olmaq niyyətində olan digər şəxsin valideynləri və ya onları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxs tərəfindən nişanlanmaya və ya evliliyə dair digər sövdələşməyə daxil olmağa görə –

min manatdan iki min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:** Bu maddədə nəzərdə tutulmuş əmələ görə inzibati məsuliyyət həmin əməli törətmiş evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə bu şəxslə zərərçəkmiş şəxsin yaş fərqi beş ildən çox olduqda yaranır.

**Maddə 189-2. Yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin keçirilməsi**

**189-2.1.** İctimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin (nişan, toy və digər mərasimlər) keçirilməsinə görə –

fiziki şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

**189-2.2.** Bu Məcəllənin 189-2.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş min manatdan altı min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on üç min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu maddədə "erkən evlilik" dedikdə yetkinlik yaşına çatmayan şəxslə nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq başa düşülür.

**Maddə 189-3. Yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsmə**

**189-3.1.** Yetkinlik yaşına çatmayan şəxs barəsində dini kəbinkəsməyə görə –

fiziki şəxslər min manat məbləğində cərimə edilir.

**189-3.2.** Bu Məcəllənin 189-3.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər iki min manat məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.".

**Maddə 4. Bu Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 iyun 2024-cü il
№ 1198-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ailə Məcəlləsində,

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12.0.2-1-ci və 12.0.2-2-ci maddələrində nəzərdə tutulmuş qohumluq əlaqələri barədə məlumatların nikahın qeydə alınması barədə müraciət edildikdə nikahın bağlanmasının dövlət qeydiyyatını aparan orqanlar tərəfindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsini təmin etmək üçün zəruri tədbirlər görsünlər.

**3.** "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 89 nömrəli Fərmanı) 2.8-ci bəndi ləğv edilsin.

**4.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157) aşağıdakı məzmunda 5.1-1-ci və 5.1-2-ci bəndlər əlavə edilsin:

**"5.1-1.** həmin Məcəllənin 189-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi baxır;

**5.1-2.** həmin Məcəllənin 189-3.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi baxır;".

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci və 2.5-ci bəndlərinə "212.5" rəqəmlərindən əvvəl "189-2, 189-3.1," rəqəmləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**6.1.** 7-ci hissədə "181.0.3-cü maddəsində" sözləri "181.0.3 və 189-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**6.2.** 54-1-ci hissəyə "Məcəllənin" sözündən sonra "189-3.2 və" sözləri əlavə edilsin.

**7.** Bu Fərmanın 3 – 6-cı hissələri 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 iyul 2024-cü il
№ 153

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387) 2-ci hissəsinin iyirmi birinci–iyirmi dördüncü abzasları müvafiq olaraq iyirmi ikinci–iyirmi beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda iyirmi birinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 15 avqust 2024-cü il
№ 178

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Məhkəmə Ekspertizası Şurasının yaradılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Məhkəmə ekspertizası sahəsində (bundan sonra – müvafiq sahə) dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə müvafiq sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə aşağıdakı tərkibdə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurası (bundan sonra – Şura) yaradılsın:

**Şuranın sədri**

Azərbaycan Respublikasının ədliyyə naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini

Azərbaycan Respublikası Baş prokurorunun müavini

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini.

**2.** Şura:

**2.1.** aşağıdakı məsələlərlə bağlı təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

**2.1.1.** müvafiq sahənin inkişaf konsepsiyasının layihəsinə dair təkliflərini;

**2.1.2.** müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin elektronlaşdırılmasının, ümumi məlumat və bilik bazasının formalaşdırılması və həmin bazadan istifadənin əlçatanlığının təmin edilməsi və bu kimi digər məqsədlərə nail olunması üçün vahid informasiya sisteminin yaradılmasına dair təkliflərini;

**2.1.3.** müvafiq sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyət dairəsinin genişləndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

**2.1.4.** ayrı-ayrı ekspertiza növləri üzrə vahid standartların müəyyən olunmasına dair təkliflərini;

**2.1.5.** müvafiq sahədə xüsusi təhsil proqramlarının (ixtisasların) açılması, habelə ali təhsil müəssisələrinin fəaliyyətinin məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqələndirilməsi imkanlarının təhlili əsasında təkliflərini;

**2.1.6.** özəl ekspertiza fəaliyyətinin təşviqi istiqamətində təkliflərini;

**2.1.7.** normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini;

**2.2.** fəaliyyətinə dair iş qaydasını bir ay müddətində təsdiq etsin;

**2.3.** müstəqil ekspertləri və mütəxəssisləri, habelə elmi müəssisələri (təşkilatları) öz fəaliyyətinə cəlb etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** Şuranın təklifləri əsasında müvafiq sahənin inkişafı və müvafiq sahədə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin müasir standartlara uyğun həyata keçirilməsinin təmini üçün zəruri maliyyə vəsaitinin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulması üçün tədbirlər görsün;

**3.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 avqust 2024-cü il
№ 243

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

**1.** Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 sentyabr 2024-cü il
№ 294

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Ələskərov Aydın Abdulla oğlu
Həmzə Eldar Əkbər oğlu
Rəşidov Nazim Xudaşirin oğlu

**“Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə” medalı ilə**

Acalov Ağakişi Zakir oğlu
Bağırov Camal Firudin oğlu
Əhmədov Toğrul Rahab oğlu
Əliyev Ramiz Kamal oğlu
Hacıyev İsfəndiyar Ruslan oğlu
Hümmət-zadə Tural Ramazan oğlu
İbrahimli Rahim Adif oğlu
Məmmədli Sahil Rəfail oğlu
Məmmədova Təranə Yavər qızı
Mirkişiyev Anar Nurəddin oğlu
Tağıyev Emil Zülfüqar oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2024-cü il

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin şərh edilməsinə dair**

**28 iyun 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Bakı Apellyasiya Məhkəməsinin, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminoligiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 99-6.4-cü maddəsinin həmin Məcəllənin 96-6.2 və 96-6.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, məhkəmənin icraatında olan "Əkbər 2022" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – "Əkbər 2022" MMC) Cinayət Məcəlləsinin 308.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsinə dair cinayət işi üzrə həmin hüquqi şəxsin hər hansı daşınar və ya daşınmaz əmlakının, o cümlədən bank hesabında vəsaitinin olmadığı müəyyən edilmişdir.

Cinayət Məcəlləsinin 99-6.2-ci maddəsinə görə isə cinayət-hüquqi tədbir kimi nəzərdə tutulan cərimə həmin Məcəllənin 99-6.3, 99-6.4 və 99-8.3-cü maddələrində göstərilən hallar və hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmaqla müəyyən olunur.

Məcəllənin 99-6.3-cü maddəsində cinayətin təsnifatından asılı olaraq hüquqi şəxslərə cərimə növündə təyin edilən cinayət-hüquqi tədbirin hədləri göstərilmiş, 99-6.4-cü maddəsi ilə isə hüquqi şəxsə tətbiq edilən cərimənin onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməməsi təsbit edilmişdir.

Müraciətdə qeyd olunur ki, əmlakı olmayan hüquqi şəxsə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi ilə bağlı məhkəmə təcrübəsində qeyri-müəyyənlik yaranmışdır.

Belə ki, cinayət qanunvericiliyinin tələblərinə görə, hüquqi şəxsə əsas cinayət-hüquqi tədbir kimi cərimə və hüquqi şəxsi ləğv etmə tətbiq edilir. Lakin hüquqi şəxsi ləğv etmə Cinayət Məcəlləsinin 99-8.2-ci maddəsinə əsasən, həmin hüquqi şəxs mütəmadi olaraq cinayətlərin törədilməsində və ya cinayətin izlərinin, cinayət yolu ilə əldə edilmiş əmlakın gizlədilməsində istifadə edildikdə və ya onun əmlakının yarıdan çox hissəsi bu Məcəllənin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli əmlakdan ibarət olduqda tətbiq olunur.

Beləliklə, müraciətdən göründüyü kimi, məhkəmənin icraatında olan iş üzrə hüquqi şəxs barəsində yeganə tətbiq edilməli olan cinayət-hüquqi tədbir cərimədir. Məhkəmənin qənaətinə görə, məsuliyyətə cəlb edilən hüquqi şəxsin əmlakı olmadığı halda ona münasibətdə cərimənin tətbiq edilməsi Cinayət Məcəlləsinin 99-6.4-cü maddəsinin tələblərinin pozulması ilə nəticələnə bilər.

Müraciətlə bağlı Konstitusiya Məhkəməsinin Plenumu hüquqi şəxslərin cinayət məsuliyyətinin yeni institut olmasını nəzərə alaraq, ilk növbədə, qeyd edir ki, hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi hüquqi şəxslərin maraqları üçün fiziki şəxslər tərəfindən törədilən cinayətlərin sayının və miqyasının artması ilə əlaqədar olub, cəmiyyətdə korrupsiya, mütəşəkkil cinayətkarlıq, pul vəsaitlərinin yuyulması hallarının qarşısının alınmasına xidmət edir.

Buna görə Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasında, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında", "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Konvensiyalarında, habelə digər beynəlxalq-hüquqi aktlarda Tərəf Dövlətlərin hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinin milli qanunvericiliyə daxil edilməli olduğu müəyyən olunmuşdur.

Belə ki, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının 19-cu maddəsinin 2-ci bəndi hüquqi şəxslərə qarşı maliyyə sanksiyalarının tətbiq edilməsinin məcburi olduğunu göstərir. Həmin bəndə əsasən, hər bir Tərəf təmin edir ki, məsuliyyətə cəlb edilmiş hüquqi şəxslər barəsində səmərəli, mütənasib və çəkindirici cinayət və ya qeyri-cinayət xarakterli sanksiyalar, o cümlədən maliyyə sanksiyaları tətbiq edilsin.

Konvensiyanın izahlı hesabatında da göstərilmişdir ki, 2-ci bənd Razılığa gələn Tərəfləri korrupsiya cinayətinə görə məsuliyyətə cəlb olunan hüquqi şəxslərə müəyyən səviyyədə pul sanksiyalarının tətbiq edilməsinin mümkünlüyünü təmin etməyə məcbur edir.

Azərbaycan Respublikası həmin beynəlxalq aktlara qoşularaq, cinayət qanunvericiliyində hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqini nəzərdə tutmuş və belə tədbirlər Cinayət Məcəlləsinin 15-2-ci fəslinə daxil edilmişdir.

Qeyd olunmalıdır ki, cinayət qanunvericiliyi cinayətin yeganə subyekti kimi fiziki şəxsləri tanıdığından, yalnız bu şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə cinayət törədildikdə hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunması mümkündür. Bu səbəbdəndir ki, Cinayət Məcəlləsində hüquqi şəxs cinayətin subyekti kimi deyil, cinayət məsuliyyətinin subyekti kimi nəzərdə tutulmuşdur.

Qanunverici hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiq edilə bilməsini istisnasız olaraq Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsində göstərilən fiziki şəxslərin törətdiyi cinayətlərlə əlaqələndirmişdir. Həmin maddənin tələblərinə əsasən, hüquqi şəxsə cinayət-hüquqi tədbirlər onun xeyrinə və ya maraqlarının qorunması üçün aşağıdakı fiziki şəxslər tərəfindən törədilən cinayətlərə görə tətbiq edilir:

- hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
- yuxarıda göstərilən vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.

Maddədə göstərilən səlahiyyətlərin üçü hüquqi şəxsin yalnız vəzifəli şəxsinə məxsus ola bilər və hüquq nəzəriyyəsində, məhkəmə təcrübəsində belə vəzifəli şəxslər sırasına hüquqi şəxsin təkbaşına rəhbəri (direktor, müdir, sədr və s.), kollegial rəhbər orqanının üzvləri (direktorlar şurasının üzvləri, nəzarət-təftiş komisiyalarının üzvləri və s.), hüquqi şəxsin digər rəhbər işçiləri (direktor müavini, baş mühəndis və s.) aid edilmişdir. Hüquqi şəxsin vəzifəli şəxsi yuxarıda göstərilən səlahiyyətlərin birini və ya bir neçəsini eyni zamanda həyata keçirə bilər.

Cinayət Məcəlləsinin 99-4.1.4-cü maddəsinə əsasən, hüquqi şəxsin xeyrinə və onun maraqlarının qorunması üçün cinayət əməlini törədən fiziki şəxslər vəzifəli şəxs olmaya da bilər. Belə ki, bu maddəyə görə hüquqi şəxsin hər hansı işçisi Cinayət Məcəlləsinin 99-4.1.1 – 99-4.1.3-cü maddələrində göstərilən vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsindən istifadə edərək hüquqi şəxsin xeyrinə cinayət qanunvericiliyində göstərilmiş cinayəti törətdikdə hüquqi şəxsə cinayət-hüquqi tədbirlər tətbiq edilə bilər.

Hüquqi şəxslərin cinayət məsuliyyətinin mühüm əlaməti cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqları naminə törədilməsidir. Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsinin mahiyyətinə uyğun olaraq, hüquqi şəxsin rəhbərinin qərarı hüquqi şəxsin qərarı kimi dəyərləndirilməli, çünki bu qərar sadəcə hüquqi şəxsin adından deyil, həm də onun xeyrinə və ya maraqları naminə qəbul edilmişdir. Əgər cinayət hüquqi şəxsin maraqları üçün törədilməyibsə, bu, hüquqi şəxsin deyil, məhz fiziki şəxsin törətdiyi cinayət kimi qəbul olunmalı və buna görə yalnız o, cinayət məsuliyyətinə cəlb oluna bilər.

Hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqi siyahısı Cinayət Məcəlləsinin Ümumi hissəsində verilmiş cinayətlərin törədilməsi halında mümkündür (Cinayət Məcəlləsinin 99-4.5-ci maddəsi).

Beləliklə, yalnız aşağıdakı şərtlərin mövcud olduğu halda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirin tətbiq edilməsi mümkün hesab edilə bilər:

- cinayət əməli Cinayət Məcəlləsinin 99-4.5-ci maddəsində nəzərdə tutulmuş cinayətlər üzrə törədildikdə;

- cinayət əməli Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən törədildikdə;

- cinayət əməli hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədildikdə.

Cinayət Məcəlləsinin 99-4.2-ci maddəsinə görə, hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqi həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı bir şəkildə iştirak etmiş fiziki şəxsin cinayət məsuliyyətini istisna etmir. Maddənin tələblərinə uyğun olaraq, hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqi fiziki şəxsin cinayət əməlinin törədilməsindəki rolundan – təşkilatçı, təhrikçi, icraçı və s. (hər hansı bir şəkildə iştirakından) asılı olmayaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb olunmasına təsir etmir.

Belə ki, fiziki və hüquqi şəxslərin məsuliyyətinin muxtariyyəti prinsipinə (prinsiple of autonomus liability) əsasən, fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsi hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını istisna etmir. Bu prinsip əyani olaraq öz əksini Cinayət Məcəlləsinin 99-4.3-cü maddəsində göstərmişdir. Həmin maddəyə görə, cinayətin bilavasitə icraçısı olan fiziki şəxs barəsində qanunla müəyyən olunmuş hallarda cinayət təqibinə xitam verilməsi hüquqi şəxsə qarşı cinayət-hüquqi tədbirinin tətbiqinə mane olmur.

Fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsinin əsasları və nəticələri isə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) 487-6.6-cı maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.5-ci maddəsində (şəxs əməli törətdikdən sonra öldükdə); 39.1.10-cu maddəsində (şəxs əməli anlaqsız vəziyyətdə törətdikdə); 39.1.11-ci maddəsində (şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda); 39.1.12-ci maddəsində (amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda) nəzərdə tutulmuş hallarda xitam verildikdə, müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir.

Bununla belə, qanunvericilik müəyyən edir ki, hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş fiziki şəxs Cinayət Məcəlləsinin 75-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad edildikdə, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilə bilməz (Cinayət Məcəlləsinin 99-9-cu maddəsi).

Burada həmçinin nəzərə almaq lazımdır ki, Cinayət Məcəlləsinin 99-9-cu maddəsində göstərilməsə də, Cinayət-Prosessual Məcəlləsinin 487-6.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, fiziki şəxs barəsində cinayət işinə bəraətverici və həmin maddədə göstərilən digər əsaslarla xitam verildikdə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilir.

Göstərilməlidir ki, bir sıra ölkələrdə hüquqi şəxslərə tətbiq olunan sanksiyaların heç də hamısı cinayət cəzası kimi nəzərdə tutulmur, onların bir qismi qanunverici tərəfindən hüquqi şəxslərə münasibətdə tətbiq olunan digər cinayət-hüquqi xarakterli tədbirlər - təhlükəsizlik tədbirləri, müdafiə tədbirləri, hüquqi şəxsin məhkum edilməsinin nəticələri, təmin tədbirləri və s. olaraq qəbul edilir.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyində də hüquqi şəxslərə qarşı tətbiq edilə bilən cinayət-hüquqi tədbirlər (sanksiyalar) məhkəmə qərarı ilə tətbiq olunmaqla cinayət-hüquqi təsir tədbirləri sisteminə daxil olsa da cəza hesab olunmurlar.

Həmçinin fiziki şəxslərdən fərqli olaraq, hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulmamışdır. Həmin Məcəllənin Ümumi hissəsinin 99-5-ci maddəsi ilə hüquqi şəxslərə tətbiq edilə bilən cinayət-hüquqi tədbirlərə aşağıdakılar aid edilmişdir:

- cərimə;
- xüsusi müsadirə;
- hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;
- hüquqi şəxsi ləğv etmə.

Cinayət qanunvericiliyi hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirləri əsas və əlavə tədbirlərə bölərək, onlardan hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbirini yalnız əsas, cəriməni əsas və əlavə, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və xüsusi müsadirəni isə yalnız əlavə cinayət-hüquqi tədbirlərə aid etmişdir (Cinayət Məcələsinin 99-5.3-cü maddəsi). Müvafiq olaraq, hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbir yalnız müstəqil, digər tədbirlərə əlavə edilmədən, cərimə əsas tədbir kimi müstəqil və ya hüquqi şəxsi ləğv etmə tədbirinə əlavə edilməklə, xüsusi müsadirə və hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cinayət-hüquqi tədbirlər isə əsas tədbirlərə - hüquqi şəxsi ləğv etmə və cəriməyə əlavə edilməklə tətbiq olunur.

Müraciətdə göstərilən iş üzrə hüquqi şəxs barəsində yalnız cərimənin tətbiq edilməli olunduğunu nəzərə alaraq qeyd edilməlidir ki, cinayət-hüquqi tədbir qismində cərimə cinayət qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən və dövlət nəfinə keçirilən məcburi pul tutulmasından ibarətdir (Cinayət Məcəlləsinin 99-6.1-ci maddəsi).

Cərimə əsas cinayət-hüquqi tədbir qismində Cinayət Məcəlləsinin 99-4.5-ci maddəsində sadalanan cina-

yətlərin hər hansı birinə və ya bir neçəsinə görə təyin edilə bilər.

Əlavə cinayət-hüquqi tədbir qismində isə cərimə yalnız hüquqi şəxsə ləğv etmə cinayət-hüquqi tədbir tətbiq edildikdə mütləq təyin edilməlidir (Cinayət Məcəlləsinin 99-8-ci maddəsi). Bu, qanunun imperativ tələbidir və belə cərimə iki yüz min manat miqdarında müəyyən edilmişdir.

Cinayət Məcəlləsinin 99-6.2-ci maddəsində cərimənin təyin edildiyi zaman nəzərə alınmalı olan hallar göstərilmiş və bu hallara cinayətin ağırlıq dərəcəsinə görə növü və hüquqi şəxsin əmlakının dəyəri aid edilmişdir.

Cinayət Məcəlləsinin 99-6.3-cü maddəsində təyin oluna biləcək cərimənin cinayətin ağırlıq dərəcəsinə görə (böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər) yuxarı və aşağı həddi müəyyən olunmuş, həmin Məcəllənin 99-6.4-cü maddəsində isə nəzərdə tutulmuşdur ki, hüquqi şəxsə tətbiq edilən cərimə onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz.

Həmin hallar və hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmaqla cərimə əlli min manatdan iki yüz min manatadək miqdarında və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən beş mislinədək miqdarında müəyyən olunur (Cinayət Məcəlləsinin 99-6.2-ci maddəsi).

Göründüyü kimi, cərimə məbləğinin iki qaydada – konkret pul məbləği və ya vurulmuş ziyanın (əldə edilmiş gəlirin) konkret misli miqdarında müəyyən edilməsi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 99-6.2-ci maddəsinin məzmunu və mahiyyətinə uyğun olaraq hesab edir ki, cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) miqdarı müəyyən edilə bildiyi halda cərimə ziyanın (gəlirin) konkret misli miqdarında, ziyan vurulmadıqda və ya gəlir əldə edilmədikdə, həmçinin belə ziyanın və ya gəlirin miqdarı dəqiq müəyyən edilə bilmədikdə hüquqi şəxs barəsində konkret pul məbləğində təyin edilə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu əmlakı olmayan hüquqi şəxsə münasibətdə cərimə cinayət-hüquqi tədbirinin hansı qaydada tətbiq edilməsinə dair müraciətdə qaldırılan məsələ ilə bağlı, ilk növbədə, Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya), Cinayət və Cinayət-Prosessual qanunvericiliyinin bəzi müddəalarının, habelə Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarındakı hüquqi mövqelərinin nəzərdən keçirilməsini vacib hesab edir.

Konstitusiyanın 127-ci maddəsinin II hissəsinə görə, hakim işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə əsasən və qanuna müvafiq baxır.

Konstitusiyanın bu normasına əsaslanan Cinayət Məcəlləsinin 4-cü maddəsində nəzərdə tutulmuşdur ki, bu Məcəllə qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipinə əsaslanır.

Cinayət Məcəlləsinin qanunçuluq prinsipini nəzərdə tutan 5-ci maddəsinə müvafiq olaraq, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir.

Qanunçuluq prinsipinin ayrılmaz tərkib hissəsi olan cəzanın qaçılmazlığı prinsipinə görə, cinayət törətmiş şəxs qanunla müəyyən edilmiş sanksiyalara müvafiq olaraq mütləq cəzalandırılmalıdır. Bu, hüquqpozanlara qarşı sanksiyaların tətbiq ediləcəyinə, onların məsuliyyətə cəlb olunacağına zəmanət verir.

Bununla belə nəzərə almaq lazımdır ki, qanunçuluq və cəzanın qaçılmazlığı prinsipi ədalət prinsipinə əsaslanır və bu prinsipə uyğun olaraq cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır (Cinayət Məcəlləsinin 8.1-ci maddəsi).

Qeyd edilməlidir ki, əvvəlki cinayət qanunundan fərqli olaraq qüvvədə olan cinayət qanunu ilə cəza anlayışına bir sıra yeni elementlər daxil edilərək cəzanın cinayətə görə sitəm olması deyil, sosial ədalətin bərpası məqsədinə xidmət etdiyi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsi baxımından həmin Məcəllənin 18-ci maddəsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27.1-ci maddəsinə münasibətdə həmin Məcəllənin 234.1-ci maddəsinin şərh edilməsinə dair" 2020-ci il 18 sentyabr tarixli Qərarında göstərmişdir ki, ədalətli cəzanın təyin edilməsi, ilk növbədə, cəzanın məqsədinə, yəni sosial ədalətin bərpası, məhkumun islah edilməsi, həm məhkum, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına nail olmaq sahəsində mühüm vasitədir.

Ədalət prinsipi cinayət məsuliyyətinə cəlb olunmuş hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlər üçün də keçərlidir.

Əvvəldə də göstərildiyi kimi, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının 19-cu maddəsinin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq, tətbiq edilən cinayət və qeyri-cinayət xarakterli sanksiyalar, o cümlədən maliyyə sanksiyaları səmərəli, mütənasib və çəkindirici olmalıdır.

Nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsində hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlər hüquqi şəxsin fəaliyyətini sonlandırmaq deyil, onların fəaliyyətinin qanuna uyğun həyata keçirilməsini təmin

etmək, həmin və digər hüquqi şəxsləri hüquq pozuntularından çəkindirmək və yeni pozuntuların qarşısını almaq məqsədini daşıyır.

Məhz məsuliyyətə cəlb olunan hüquqi şəxsin iqtisadi stabilliyi baxımından Cinayət Məcəlləsinin 99-6.4-cü maddəsində müəyyən edilmişdir ki, cərimə hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz və bu hal hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti və s. ilə birlikdə cərimə təyin olunarkən nəzərə alınmalıdır.

Qanunun göstərilən tələblərindən irəli gələrək, məhkəmələr cərimə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi qənaətinə gələrkən bir sıra halları, o cümlədən məhkəmə aktının icrasına təsir edəcək halları (məsələn, hüquqi şəxsin maliyyə vəziyyətini və s.) mütləq müəyyən etməlidir.

Bu qaydalara riayət edilməməsi cərimə cinayət-hüquqi tədbirini onu ödəyə bilmək qabiliyyətində olmayan hüquqi şəxsin iqtisadi fəaliyyətini sarsıdan mexanizmə çevrilə bilər.

Konstitusiyanın 129-cu maddəsinin I hissəsinə əsasən, məhkəmənin qəbul etdiyi qərarlar dövlət adından çıxarılır və onların icrası məcburidir.

Cinayət məsuliyyətinə cəlb olunmuş hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti ilə uyğunlaşmayan və realizəsi mümkün olmayan cinayət-hüquqi tədbirin tətbiqi barədə məhkəmə aktı isə sonda Konstitusiyanın 129-cu maddəsinin I hissəsinin pozulmasına səbəb olmaqla yanaşı Cinayət Məcəlləsinin 41-ci maddəsində nəzərdə tutulmuş cəzanın məqsədlərinə nail olunmasını da mümkünsüz edir.

O da nəzərə alınmalıdır ki, hazırkı müraciətə səbəb olan işdə olduğu kimi bəzi hallarda hüquqi şəxs barəsində tətbiq oluna biləcək yeganə cinayət-hüquqi tədbir olaraq cərimə çıxış edir. Lakin cinayət-hüquqi məsuliyyətə cəlb edilmiş hüquqi şəxsin hər hansı əmlakı olmadığından, cərimənin tətbiqi barədə məhkəmə qərarının icrası aşkar şəkildə mümkünsüz olur.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hüquqi şəxslərə münasibətdə tətbiq edilə biləcək sanksiyalarla bağlı qanunvericilik normalarının təkmilləşdirilməsi hüquqi şəxslərin məsuliyyətə cəlb olunması məqsədinə nail olunmasına, ədalət prinsipinin təmin edilməsinə imkan verərdi.

Qanunvericiliyin belə təkmilləşdirilməsi həyata keçirilərkən xarici ölkələrin təcrübəsi də nəzərə alına bilər. Belə ki, hüquqi şəxslərə tətbiq olunan sanksiyaların müxtəlifliyi onların məqsədinə daha səmərəli çatmağa imkan verir.

Xarici ölkələrin qanunvericiliyinə nəzər yetirdikdə hüquqi şəxslər barəsində tətbiq edilə bilən sanksiyalar sırasında hökmün dərc edilməsi, sahibkarlıq və ya sair fəaliyyətin həyata keçirilməsinin qadağan edilməsi, dövlət tenderlərində iştirakın qadağan edilməsi, hüquqi şəxsin fəaliyyətinin məhdudlaşdırılması, o cümlədən şöbə (nümayəndəlik) və ya filialın bağlanması, hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması kimi sanksiyalara rast gəlinir (Serbiya, Çexiya, Belçika, Albaniya, İspaniya, Litva və s.).

Qeyd edilməlidir ki, cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 7-ci maddəsindən irəli gəlməklə göstərilən normalarda əks olunmuş qanunçuluq prinsipi cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən, hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirləri nəzərdə tutan Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin və bununla bağlı müvafiq normaların təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən, hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirləri nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin və bununla bağlı müvafiq normaların təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

Redaksiyanın ünvanı:
Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül
yaşayış sahəsi, 21 -ci Dağlıq küçəsi,
3105-ci məhəllə.